# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

# SCIENTIFIC WORK

International Scientific Journal

aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# ELMİ İŞ

**Beynəlxalq Elmi Jurnal**

**Cild: 18 Sayı: 5**

# SCIENTIFIC WORK

**International Scientific Journal**

**Volume: 18 Issue: 5**

**Bakı – Baku**
**2024**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration № 2212

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 99 809 67 68
+ 994 12 510 63 99

**e-mail**
elmmerkezi@aem.az

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
huseynova.mahira@yandex.ru

## Redaktor köməkçiləri

**Magistrant Nəzakət QƏHRƏMANZADƏ**, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi / Azərbaycan
qehremanzade77@mail.ru

**Tədqiqatçı Ayşən SƏTTAROVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
settarliaysen@gmail.com

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Əlövsət QULİYEV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elsevər ƏSƏDOV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA,** Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Akif AĞBABALI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan

## REDAKSİYA HEYƏTİ

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Aktolkın KULSARIYEVA**, Abay adına Qazax Milli Pedaqoji Universiteti / Qazaxıstan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan
**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Universiteti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Kairbek ARISTANBEKOV**, İqtisadi Siyasət İnstitutu / Qazaxıstan
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Boris KAYQORODOV**, Həştərxan Dövlət Universiteti / Rusiya

**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Məhəbbət DƏMİRÇİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Şikar QASIMOV**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Bisserka VELEVA**, Müqəddəs Kliment Oxridskiy adına Sofiya Universiteti / Bolqarıstan
**Assoc. Prof. Dr. Sevda AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Ziyadxan ƏLİYEV**, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Valentin PETRUŞENKO**, Paisiy Xilendarskiy adına Plovdiv Universiteti / Bolqarıstan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əbülfət PƏLƏNGOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Dr. Aqşin ƏLİYEV**, Pekin Xarici Dillər Universiteti / Çin
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə

## TƏBİƏT ELMLƏRİ

**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Məsud AŞİNA**, Kopenhagen Universiteti / Danimarka
**Prof. Dr. Əlöddin ABBASOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mətanət ƏFƏNDİYEVA**, Milli İdman Tibbi və Reabilitasiya İnstitutu / Rusiya
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Afət MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Şahanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. İbrahim MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Bilal BÜŞRA**, Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Məhiyəddin MEHDİYEV**, Mingəçevir Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Erdəyliem TÖLEQENOV**, Qızlar Universiteti / Qazaxıstan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## RİYAZİYYAT VƏ MEXANİKA

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Məsud ƏFƏNDİYEV**, "Helmholtz" Elmi-Tədqiqat Mərkəzi / Almaniya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ

**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sarvan HÜSEYNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Yusif ŞÜKÜRLÜ**, AMEA Şəki Regional Elmi Mərkəzi / Azərbaycan
**Dr. Billurə HACIYEVA** / Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## TEXNİKA ELMLƏRİ

**Prof. Dr. Əminağa SADIQOV**, AMEA İdarəçilik Sistemləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universiteti / Yaponiya
**Prof. Dr. Bülent ÇAKMAK**, Erzurum Teknik Universiteti / Türkiyə
**Prof. Dr. Qərib CƏLALOV**, AMEA Geologiya və Geofizika İnstitutu / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Yasin RÜSTƏMOV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Fazil KAZIMOV**, "Neftqazelmitədqiqatlayihə" İnstitutu / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Editor

**Prof. Dr. Mahira HÜSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
huseynova.mahira@yandex.ru

## Assistant editors

**Master student Nazakat GAHRAMANZADEH**, Ministry of Science and Education of the Republic of Azerbaijan / Azerbaijan
qehremanzade77@mail.ru

**Researcher Ayshan SATTAROVA**, Azerbaijan Science Center / Azerbaijan
settarliaysen@gmail.com

## Language editors

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics / Azerbaijan

## Editors in scientific fields

**Prof. Dr. Alovsat GULIYEV**, ANAS Institute of Soil Science and Agrochemistry / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elsever ASADOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan VALIYEV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Akif AGHBABALI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan

## EDITORIAL BOARD

## HUMANITIES AND SOCIAL SCIENCES

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Aktolkyn KULSARIYEVA**, Kazakh National Pedagogical University / Kazakhstan
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, «Silk Road» International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Karim SHUKUROV**, ANAS Institute of History / Azerbaijan
**Prof. Dr. Kairbek ARISTANBEKOV**, Institute of Economic Policy / Kazakhstan
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine

**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Boris KAYGORODOV**, Astrakhan State University / Russia
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Mahabbat DAMIRCHIYEVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering **/** Russia
**Prof. Dr. Shikar GASIMOV**, Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr**. **Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr**. **Bisserka VELEVA**, Sofia University "St.Kliment Orhidski" / Bulgaria
**Assoc. Prof. Dr**. **Sevda AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Ziyadkhan ALIYEV**, Azerbaijan State Art Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Valentin PETROUSSENKO**, Plovdiv University "Paisii Hilendarski" / Bulgaria
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin BAYRAMOV**, Baku State University / Azerbaijan
**Assos. Prof. Dr. Abulfat PALANGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Dr. Agshin ALIYEV**, Beijing Foreign Studies University / The Republic of Chine
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

## NATURAL SCIENCES

**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Georgi DUKA**, Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Masud ASHINA**, University of Copenhagen / Denmark
**Prof. Dr. Aladdin ABBASOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Ibrahim JAFAROV**, ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Matanat AFANDIYEVA**, National Institute of Sports Medicine and Rehabilitation / Russia
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Afat MAMMADOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Ibrahim MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Ali AZGANI**, University of Texas at Tayler / USA
**Assoc. Prof. Dr. Bilal BUSRA,** Ali Jinnah University / The Islamic Republic of Pakistan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahiyaddin MEHDIYEV**, Mingachevir State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Erdeyliem TOLEGENOV**, Girls' University / Kazakhstan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## MATHEMATICS AND MECHANICS

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Masud AFANDIYEV**, «Helmholtz» Scientific Research Center / Germany
**Prof. Dr. Arzu SARDARLI**, First Nations University of Canada / Canada
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Kanada
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sarvan HUSEYNOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Yusif SHUKURLU**, Shaki Regional Scientific Center of ANAS / Azerbaijan
**Dr. Billura HAJIYEVA** / Nakhchivan State University / Azerbaijan

## TECHNICAL SCIENCES

**Prof. Dr. Aminagha SADIGOV**, Institute of Management Systems of ANAS / Azerbaijan
**Prof. Dr**. **Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Bulent CHAKMAK**, Erzurum Technical University / Turkey
**Prof. Dr. Garib JALALOV**, Institute of Geology and Geophysics of ANAS / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valeriy LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yasin RUSTAMOV**, Institute of Soil Science and Agrochemistry of ANAS **/** Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Fazil KAZIMOV**, Oil Gas Scientific Research Project Institute / Azerbaijan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/102/9-14

**Könül Səmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
samedovakonul74@mail.ru
Orcid ID: 0000-0003-4061-9775

# QIPÇAQLAR HAQQINDA ŞƏRQ TƏDQİQATÇILARININ FİKİRLƏRİ

**Xülasə**

Qıpçaqların tarixinə nəzər saldıqda bu türk toplumunun həm şərq, həm də qərb tarixində mühüm rolu olduğunun şahidi oluruq. Əsasən ərəb, türk və çin tədqiqatçıların əsərlərində rast gəldiyimiz bu köçəri türk xalqı artıq tarix səhnəsindən yoxa çıxmışdır. İlk dəfə rus-slavyan mənbələrində rast gəlinən bu xalqın adı ilə islam mənbələrində “qıbçaq”, “qıpşaq”, “qıfşaq” formasında qarşılaşırıq. Orta əsrlərdə olduqca güclü və döyüşkən orduya malik olan qıpçaqlar (kumanlar) bir çox ölkələrə hərbi yürüşlər etmiş və bir çox xalqları əsarətdə saxlamağı bacarmışlar. Hətta bir çox xalqlarla qaynayıb-qarışmış, həm onlara din və adət-ənənə baxmınından təsir etmiş, həm də özləri bəzi təsirlərə məruz qalmışlar. Lakin bu qəbilələr geniş arealda pərakəndə şəkildə yayıldıqları üçün siyasi birlik kimi ortaya çıxb dövlət yarada bilməmişlər.

Çin qaynaqlarında qıpçaqların adları “kebisi” olaraq keçir. Hətta Çin qaynaqlarında bu xalqın adı və tarixi ilə bağlı türk mənbələrindən fərqli bir çox əfsanə və rəvayətlər də yer alır. Məqalədə qeyd etdiyimiz bu müxtəlif mənbələrdə yer alan məlumatlar ümumiləşdirilir.

***Açar sözlər:*** *qıpçaqların etnogenezi, tarixi salnamə, icma, şərq mənbələri, tədqiqat*

**Konul Samadova**
Azerbaijan State Pedagogical University
doctor of philological sciences
samedovakonul74@mail.ru
Orcid ID: 0000-0003-4061-9775

# The opinions of eastern researchers about the Kipchaks

**Abstract**

When we look at the history of the Kipchaks, we witness the important role of this Turkic community in the history of both the East and the West. This nomadic Turkic people, which we meet mainly in the works of Arab, Turkish and Chinese researchers, has already disappeared from the scene of history. The name of this people, which was found for the first time in Russian-Slavic sources, is found in Islamic sources in the form “qıbçaq”, “qıpşaq”, “qıfşaq”. In the Middle Ages, the Kipchaks (Cumans), who had a very strong and fighting army, made military campaigns to many countries and managed to keep many peoples in slavery. They even mingled with many peoples, influenced them both from the point of view of religion and customs, and were themselves affected by some influences. However, since these tribes are scattered over a wide area, they could not emerge as a political union and create a state.

In Chinese sources, the names of Kipchaks are "kebisi". Even in Chinese sources, there are many legends and stories related to the name and history of this people, which are different from Turkish sources. The article summarizes the information contained in these various sources.

***Keywords:*** *ethnogenesis of Kipchaks, historical chronicle, community, eastern sources, research*

## Giriş

Köçəri türk tayfası olan qıpçaqlar tarix boyu müxtəlif ərazilərdə məskunlaşmış və bir çox xalqlarla qaynayıb-qarışmışdılar. Buna görə də qıpçaqların bir çox xalqın tarixində müəyyən qədər izləri vardır. Ümumiyyətlə götürəndə qıpçaqlar ən az araşdırılmış, araşdırmalar da pərakəndə və dağınıq, qarışıq formada verilmişdir. Lakin son zamanlar tarixi və dil baxımından istər qardaş Türkiyə istərsə də, Qazaxıstan, həmçinin Azərbaycan tədqiqatçıları qıpçaqların dili və etnogenezini araşdırmağa başlamışlar.

Qıpçaqların Azərbaycan tarixinin mühüm bir dönəmində izləri vardır. Bu izlər qıpçaqların Azərbaycana köçündən sonra formalaşmağa başlamışdır. Son zamanlar etnogenezimizin araşdırılması ilə bağlı qıpçaq etnogenezi tarixinin araşdırılmasına xüsusi ehtiyac duyulmuşdur. Qıpçaqların etnogenezini tədqiq edən Lalə Əliyeva qıpçaqlar haqqında olan tarixi qaynaqları 4 qrupda təsnif edir:

1. Türkdilli qaynaqlar;
2. Qədim Çin qaynaqları;
3. Orta əsr Şərq dillərində olan qaynaqlar;
4. Rus və Qərbi Avropa dilində olan qaynaqlar;

Birinci qrup ilk növbədə bilvasitə qıpçaq dilinin yadigarı olan abidələri, qədim türk Orxon-Yenisey abidələri, Mahmud Kaşğarinin "Divanı lüğati-üt-türk" əsəri, "Kitabi Dədə Qorqud", ikinci qrup qaynaqlara qədim Çin xronikası, üçüncüyə ərəbdilli və farsdilli qaynaqlar, eləcə də orta əsr erməni və gürcü qaynaqları daxildir. Dördüncü qrup qaynaqlara rus salnamələri, bizans, latın, yunan, macar, alman və s. millətlərin əsərlərini daxil etmişdir (Əliyeva, 1999: 4-5).

Ümumiyyətlə götürəndə isə qıpçaqlar və kımaklar haqqında ən əsas məlumatlar İbn Xordadbehin və Tamim ibn Baharın əsərlərinə əsaslanır.

Türkoloq Ahat Üstünər Kıpçak sözünün əsl şəkli "Kibçak"tır – deyə qeyd etmiş və səs dəyişmələrinə görə "kıvçak, kıfçak, hifçak" formalarına düşdüyü qərarına da gəlmişdir. O, həm də Qıpçaq türkcəsində yazılan 16 əsərin adını çəkib və onlar haqqında qısa məlumatlar da verir. (Üstünər, 2015: 151-159).

Türk türkoloqlarının araşdırmalarına görə Qıpçaq türkcəsinə aid ən çox əsərlər Məmlük Qıpçaqcasında qələmə alınmışdır (Muxtarova, 2011: 15).

Əsl Məmlük qıpçaqcasının dilinin Xarəzm – Qızıl Orda yazı dilinə olduqca yaxın olduğunu bildirən Eckmann bu zamanlarda yazıya alınan *"İrşadü'l-mülük ve' s-selatin"(1387), "Gülistan tərcümələri" (1391), "Baytaratü'l - vazih" (1395), "Münyetü'l – güzat" (1446-47*) adlı əsərlərin əsl Qıpçaq türkcəsini təmsil etdiyini bildirir.

XII-XIII əsrlərdəki hadisələrə aydınlıq gətirsək görərik ki, İbn-ül Esir, Mühemmed en-Nesevi, El-Cüzcani, Cüzeyni və Rəşidəddinin əsərləri bu dövrdə önəmli bir yer tutur (Fazlallax, 1987). Ərəb və fars tədqiqatçılarının əsərlərini də ayrıca geniş şəkildə Kumlikov tədqiq etmişdir. Əslində ərəb və farsca qaynaqların böyük bir hissəsini kitablar təşkil edir. Bartholdun dediyi kimi "Günümüzə qədər səyyahların öz gözləriylə gördükləri, danışdıqları hekayələr qədər, yazılı qaynaqlara əsaslanan əsərlər də gəlib çıxmışdır (Bartold, 1968: 49).

Qədimliyinə baxmayaraq, ərəb və farsca tarix- coğrafiya əsərləri Qazaxıstanın Kımak - Qıpçaq qəbilələri haqqında ən önəmli məlumat qaynağıdır. Şahidlərin verdikləri məlumatlar da olduqca vacibdir.

Bunlardan biri də ərəb səyyahı Tamin ibni Bahr el - Mutavvaydı. Tamin müsəlman dünyasının sərhədlərindən başlayaraq ərəb mədəniyyətinin hakim olduğu bölgələrin ötəsinə, şərqə doğu Orta Asiyaya Monqolustan çöllərinin içlərinə, Orhan sahillərində yaşayan Toğuz - ğuz (yəni uyğurlar) xaqanının paytaxtına səyahət etmiş geniş məlumatlar toplamışdır. Səyahətə IX əsrin əvvəllərindən başlayaraq Toğuz - ğuzların paytaxtına gəlmiş və uzun bir müddət orada qalmışdır, ta ki 840 - cı ildə qırğızlar onları məğlub edib dağıdana qədər. Tamimin əsəri Kumanların yaşadıqları yer, xaqanların və xalqın yaşadığı yerlərdən ayırıcı xətlərlə ayrılan başqa bir bölgədə yerləşən otağı haqqında yeganə məlumat qaynağıdır. Bartold Tamimin əsərinin orjinalını görmədiyi halda, heç bir əsas göstərmədən Tamim səyahətlərinin 780-800-cü illər arasında baş verdiyini qeyd etmişdir.

Digər tədqiqatçılardan biri olan V.Minorsky 1948-ci ildə Tamimin səyahətlərinin 821-ci ildə olduğunu qeyd etmiş və bunu ingilis dilinə tərcümə edərək öz fikirləri və münasibətləri ilə birlikdə dərc etdirmişdir. ("Tamim ibn Bhr"s journey to the Uyqhurs // BSOAS.1948. fas 12.s.2).

Daha sonrakı bəzi yazılarda Kımaklar haqqındakı məlumatları Tamimin açıqlamalarına əsasən yazmışdılar. Bunlardan İdrisi (XII), İbn Xordadbeh (820-912) və Kudama ibn Cafer (X) onun əsərlərindən geniş şəkildə istifadə etmişdilər. Hətta İbn el – Fakih – in Meşhed nüsxəsində demək olar ki, Tamim ibn Bahrın səyahət qeydləri yer almışdır. Bu tədqiqatçıların çoxu daha çox coğrafi əsər olan "Mesalik vel memalik" – adlı əsərə əsaslanmışdılar.

Beləliklə, Kumak və Qıpçaqlarla bağlı ilk məlumatlara ərəb dövlətinə xidmət etmiş bir tədqiqatçının əsərində rast gəlirik. Bu İbni Xordadabeh idi. O xəlifəlikdə məktub və məlumat müdiri olaraq çalışmışdır. Xordadbeh bütün arxiv qeydlərini də ortaya qoyaraq Qazaxıstanın cənub bölgələriylə Yeddisu arasında yerləşən məntəqələrini, strateji nöqtələrini, yolları və düzəngahları aydın şəkildə göstərən coğrafi - idari el kitabını hazırlamışdır. "Kitab el –mesalik və memalik". (Dövlətlər və yollar üzərinə) adlı əsərində orta və Mərkəzi Asiyada yaşayan bir qismiylə şəxsən tanış olan VIII əsrdə köçəri həyat keçirən qəbilələr haqqında qısa məlumat vardır. Aralarında Qıpçaq və Kumaklarında olduğu, bir-birləri ilə etnik bütövlüyü olmayan xalqlarla bağlı məlumat məhz VII əsrə aiddir. Zatən ərəb və fars qaynaqlarında "Qıpçaq etnik adı ilk dəfə bu əsrdə meydana çıxmışdır."

*Kudama ibn Cəfər.* X əsrin birinci yarısında yaşamış bu tədqiqatçı da göstərdiyi mənbələr və qeydləri ibn Hordadbehlə eynidir. İ.Y.Kraskovsky də Cəfərin verdiyi məlumatların Hordadbehlə eyni paralel olduğunu qeyd etmişdir. Çünki Kudama ibn Cəfər də ibn Hordadbeh kimi poçt müdiri idi. Onun bir çox bölgələrə gedib gəlmə imkanı vardı. Onun kımaklar haqqında verdiyi məlumatlar da Tamim ibn Bahrın qeydlərinə əsaslanmaqdadır. Şərqi Türküstandakı bir şəhərlə Toğuz – ğuzların Orxon çayı sahilindəki paytaxtın eyniləşdirilməsinə yol açan qarışıqlıq burdan başlayıb və ona aiddir (İbn Hordadbeh .Kniqa putey i staran. Bakı. 1986. MİTT.1s.144). Tamim ibn Bahrın əsərinin orjinalında olduğu kimi o dövrlər "Toğuz-ğuzların" (uyğurların) Orxon sahilindəki paytaxtından bəhs edərkən "*sahilə yaxın bir bölgədə kımıklarin torpaqları vardı"* deməsi – Kudamanın bu yanlış cümləsi, Tamim ibn Bahrın da uyğur paytaxtını Turfan vadisindəki yeni vətənlərinə yerləşdirdiyi fikrinə çox zidd olmuş və sonralar da bir çox tədqiqatçıların yanılmasına səbəb olmuşdur. Bunlardan İ.Yu.Kaçkovsky, V.V.Bartold hətta B.V.Kumekov da əsərində eyni səhvə yol vermişdilər.

V.S.Minorski də - *Tamim ibn Bahrın əsərinə əsaslanaraq Toğuz - ğuzları Tamimin yerləşdirdiyi ərazi Beşbalıqa (Turfanın şimalına) yerləşdirdim. Lakin son zamanlarda A.Z.Velidinin tədqiq etdiyi "İbni Fakihın Meşhed" əlyazmasının fotoşəkilləri əlimə keçincə, Toğuz-xanın Çin sarayı ilə yaxın əlaqələrinin olduğunu və qonşuluğunda ən vacib olan yerə malik olduğunun fərqinə vardım –* deyə səhvini düzətmişdir. Minorsky daha sonra "Toğuz – ğuz xanının paytaxtının şərqdə uzaq bir nöqtədə Orxon çayı sahillərində yerləşdiyini qeyd etmişdir. Minorskynin bəhs etdiyi nüsxə 1923 – cü ildə A.Z.Velidi tərəfindən Məşəddə ortaya çıxarılmışdır. (Validov.A.Z.Müşhedskaya rukopis İbn al-Fariha II İran. 1924.t.18.ser.6. Compendium Libri Kitab al – Boldan austore ibn Fakih al – hamadhani Ed.M.J.De.Goeje.1885). - Bu nüsxə, ibn el – Fakihin "Kitab ahbar el-buldan" adlı coğrafiya əsərinin daha mükəmməl bir nüsxəsidir. Bu kitabda kaluklar, oğuzlar və digər xalqlarla bərabər kımaklar haqqında da verilən məlumatlar İbni Hordadbehin və təbii ki Tamim ibn Bahrın əsərlərinə əsaslanaraq yazılmışdır.

Kımakların yerləşdikləri torpaqlarla IX yüzillikdə və xüsusən də X əsrdə Qıpçaqların yaşadıqları yerlər haqqında dəqiq danışa bilmək üçün Ebu - Zeyd el - Belhi, istahri və İbni Hvkal kimi qədim tədqiqatçıların əsərlərinə də müraciət etmək lazımdır. Müəllifin coğrafiya əsəri gəlib bizə çatmamışdır. 951-ci ildə İstəxrin "Kitab meslik el –memalik" (Dövlətlər və yollar) adlı əsərini yazdığı məlum idi. Sonralar X əsrdə Ebül Qasım ibn Havkal İstəxrin öz xahişi ilə bu əsəri bir daha təkrar gözdən keçirmiş. Hər ikisinin tədqiqatlarında diqqəti çəkən kitab surat el-arz-dakı xəritə olmuşdur. Əslində elə X əsr ərəb coğrafiyaçıları dünyanın xəritəsi haqqında məlumatları və xəritəçiliyi zirvəyə qaldırmaqları ilə məşhurdular.

Qıpçaqlara verilən digər adlardan biri də "seyanto"- adıdır. Bu ad Tele qəbiləsi adında qeyd edilmişdir. Türk və Tele dövlətinin ulusu Tele – Seyanto qəbilə qrupu, Çin qaynaqlarına görə isə Se -Yanto adlandırılmışdır. Moğol istilasına qədər yemek və qıpçaq tayfaları birgə yaşamışlar. Telelərlə Seyantoların da yaxın yaşadıqları üçün Telelərin həyat tərzini Seyantolara da aid etmək olar. Seyantoların məşğuliyyəti heyvandarlıqla bərabər atçılıq da olub. Təsadüfü deyil ki, seyantolar öz dillərini quranda onların 200 minlik çox güclü bir ordusu vardı. Bu orduda hər bir süvarinin ən azı 4 atı vardı.

Həmin vaxtlarda sir etnoniminin də 735-ci ildən sonra heç bir qaynaqlarda adı çəkilmir. Lakin VIII əsrin 2-ci yarısına aid runik mətnlərində və ərəblərin hazırladığı türk qəbilələri siyahısında Kıpçaq / hifçak etnonimi vardır.

Qıpçaq – quberaq sözcüyünü eski türk kitablarında - "talesiz", "bədbəxt", "bəxti qara" adlandırmışdılar (Drevnetyurskoy slovar, 1969: 499).

Rəşidəddinin də "Oğuznaməsi"- ndə qıpçaqlar 24 oğuz boyundan birinin adıdır – kimi bu günə qədər izah olunmuşdur. Əslində isə Rəşidəddin "Oğuznamə"-sində belə qeyd olunmuşdur. – "Qıpçaq, Kalaç və Ağac – eri qəbilələri oğuzlarla qaynayıb qarışan xalqdan törəmişdir. (Rəşidəddin. Sbornik litopisey.T.İ.kn.1.s.38). Göründüyü kimi, qıpçaqlar oğuz tayfalarıyla eyni yox, yaxınlıqda yaşayan kökdən törəyən bir qəbilədir. Oğuz xaqanın qıpçaq adı verdiyi və Qıpçaq qəbiləsinin özündən yəni oğuzlardan törədiyini qəbul edilən əfsanəyə görə, qıpçaq oğuzların it-Barak qəbiləsinə qarşı hazırladığı uğursuz bir səfərdə dünyaya gəlir. Uşağı bir ağac koğuşunda tapırlar və ona bu vəziyyətə uyğun olaraq ad - "Kabuk, qabuq, kovuk" sözündən törəyən bir kəlməyə türkcədə "içi çürümüş ağac" adını verirlər. Əbu Qazi; *"Qədim türk dilində içi çürümüş, ovulmuş ağaca Qıbçaq"* deyilirdi deyə qeyd etmişdir (Kononov, 1958: 43).

Göründüyü kimi qubcaq ~ qyvcaq sözü, içi boş çürümüş ağac mənasındadır. Oğuz xaqan dastanındakı bir başqa əfsanəyə görə, Qıpçaq adı verilən uşağın dünyaya gəlməsindən öncə yer üzünü də bir ağacın həddindən artıq böyüdüyü söylənilir. Oğuz xaqan da çayı keçmək üçün bu ağacın kəsilməsini əmr edir. Ağac kəsilir və sal hazırlanır. Oğuz xaqan çayı keçərkən taxtadan hazırlanmış salda dünyaya gələn uşağa guya " - Sən də mənim kimi xaqan ol və adın Qıpçaq olsun"- demişdir - deyilir (Radlov.V.V. K vaprosu ob uyqurax. Sbb. 1893. s.25) Əfsanələrdən göründüyü kimi Qıpçağın ağacda doğulması onların kökəninin ağac və meşəylə bağlı olduğunu vurğulanmaqdadır. Görünür bu xalqın tövsiyəsiylə bağlı qədim etnoqrafik əfsanələrdə *süjetlə* bağlı gizli genetik bir iz vardır. Qaranlıq qalan bu izin açılmasında mütləq bir şifrənin olmasına da işarə də vardır. Qıpçaqların yaranmasının daha erkən dövrlərinə nəzər salanda ağac meşədən söz salınması da meşəlik bir əraziyə də işarə etmiş ola bilər.

Rəşidəddinin Qıpçaqlarla bərabər meşəlik ərazidə yaşayan başqa bir xalqdan da söz açmışdır. O, bu xalqı "AĞAC" - eri adlandırmışdır [Reşidəddin.Sbornik letopisey..s.123].

Rəşidəddinə görə Urasut, Telenqut, Kuştemi, Ormançı, Urankat da orman qəbilələrinə mənsubdurlar. Ona görə "Çadırları ormanlıq ərazidə yerləşən hər qəbiləyə orman qəbiləsi deyilir." Göründüyü kimi Qıpçaq isimli uşaq Oğuzxanın it-Baraklar üzərinə hazırladığı uğursuz döyüşdən sonra doğulmuşdur. Bu uşağa da Qıpçaq adının verilməsini aydınlaşdırmaqdan ötrü ilk növbədə it - Barakın olduğu yer müəyyənləşməlidir. Qeydlərə görə it-Barak – Çin tərəflərdə ətrafı hündür dağlarla əhatə olunmuş yerdədir.

İ.Marquart – bu qəbiləni İdil Bulqariyanın olduğu əraziyə aid edir. Minorsky – isə Mervezinin fikirlərinə əsaslanaraq bu tayfaları buğa böyüklüyündə itləri olan Qırğız torpaqlarına aid edir. Minorskiyə görə it - Barak Qırğızların yaşadığı Yenisey boylarında axtarılmalıdır.

Sercan M.Ahincanova görə isə hündür totemik itlər Sayan Altay dağlarının quzeylərində mövcud olmuşdur. Bir çox tədqiqatçılar cənubi Sibirdə itlərin xalqların həyatında xüsusi əhəmiyyəti olduğunu nəzərə alaraq Qırğızların kızıl iti (qızıl tayqan) totem olaraq erkən ataları kimi təsəvvür etməsi diqqət çəkir (Ahincanov, 2009: 128).

S.M.Ahincanovun qənaətinə görə it-Barak ölkəsi Qıpçaq adlı oğlanın doğulduğu yer Sayan – Altay dağlarının günüyi və ona bitişik yerlərdi. Qədim Çin salnamələrinə görə torpaqlar Tanrı Dağları ilə Altay dağlarının güneybatı (cənub qərb) ətəkləri arasında mövcud olan Seyanto (Qıpçaq)

qəbilələrinin köç etdikləri yerlər olduğu qənaətinə gəlinir. D.Y.Sarinov da qıpçaqların Monqolustan da deyil, Qərbi Sibir sərhədlərində yaşadığını qeyd etmiş, bu da IX-X əsrlərdə ərəb qaynaqlarında da öz əksini tapır. Lakin Klyastory-nin verdiyi məlumatlara istinad edəndə yəni qıpçaqlar türk qəbilələrindən biridir. Sovinovun fikri görüşləri öz gerçəkliyini itirir.

Əslində isə qıpçaqların etnik tarix səhnəsinə gəlişini Monqolustanın şimal qərb hissəsində Altayların Cənubi Qazağıstanın sərhədləri və onlara bitişik yerlərdə axtarmaq lazımdır. 744-cü illərdə Türklər və qıpçaqlar tərəfindən idarə edilən Şərqi Türk xaqanlığının Uyğurlar tərəfindən süquta uğradıldıqdan sonra keçmişdə müttəfiq olan bu xalqlar kütlələr halında bügünki Monqolustan çöllərini tərk etmək məcburiyyətində qalmışdılar. Qıpçaqlar Qərbə, oradan da Qazağıstan sərhədlərinə doğru köç etməyə başlamışdılar.

Dəşti-Qıpçaq farscada Qıpçaq bozkırı (çölü) mənasındadır. XI əsrdə yaşayan iranlı yazıçı Nasiri Hüsrev "Divan" – da Xarəzmin Şimal-Şərq sərhədinə hücum edən bozkıra "Dəşti-Qıpçaq" adını vermişdir. Daha sonralar Balxaş gölü və Sır – Dəryanın şimalından başlayıb, İrtış və İdilə qədər uzanan bozkır ərazisini belə adlandırmağa başladılar.

Məşhur çinli türkoloq Shen Shunmiyen "Pei-shi" - nin 99-cu hissəsində VIII əsrdə çin coğrafiyaçılarına görə Hunların nəvələri sayılan Tele qrupuna girən Altay dağlarının qərbində yaşayan qəbilələrin siyahısını vermişdir. O, bu qəbilələrin arasında Kıbısı adlı qəbilənin adını çəkir. Shen Shunmienə görə Kıbısı Qıpçaq kəlməsinin çincə variantıdır və sonundakı "sı" heroqlifi Kanton ləhcəsində "sık" olaraq oxunur ki, buna görə də qəbilənin adına Kebesık - kıpçaq şəklində ifadəsi mümkündür (Chen, 1958: 671).

Çin qaynaqlarına görə qıpçaqlar çincə variantı Kebisi adıyla tanınmışdır. Əvvəldə qeyd etdiyimiz kimi ərəb - fars rəvayətlərində qıpçaqlarla bağlı ilk məlumatı İbn Xordadbeh vermişdir. Onun əsərində adları çəkilən tayfalardan biri də qıpçaqlardı (kumanlar, oğuzlar, cigirlər, peçeneklər, turgeşlər, agişlilər, kıpçaqlar və qırqızlar).

Rəvayətə görə "Oğuz xaqan Qıpçağın böyüməsini gözləyir. O böyüdükdən sonra onu başqırd və acar üsyanlarını yatızdırmaq üçün göndərir. Qıpçaq onları məğlub edir və sonralar qıpçaqlar daha da təkmilləşir, döyüş sıralarını daha da bərkidir.

Beləliklə, Seyanto qəbilələrinin bir qismi Qazaxıstana çıxıb getmiş, geridə qalanlar isə VII əsrdə türk üsyanına dəstək verərək onlarla birlikdə II doğu – şərq türk xaqanlığının qurulmasında rol oynamışdır və bu 50 il boyunca hakimiyyət altında saxladıqları uyğur qəbilələri onların kökləriydi.

Qıpçaqların Qafqaza Azərbaycan ərazilərindəki varlıqlarına gəldikdə isə ilk olaraq qeyd etmək istərdik ki, onların Qafqazla əlaqəsi gürcü kralının Səlcuqlara qarşı əsgəri güc kimi istifadəsindən sonra qıpçaqların axınıyla başlamışdır. Gürcüstan və Bizans arasında bir sərhəd zolağı yaratmaq istəyi ilə gərçəkləşmişdi (Sumuşiya, 2014: 49). Şimali Qara dəniz Dəşti - Kıpçaq diyarından qıpçaqlardan 50.000-ə yaxın Kuman ailəsi ( 300.000 adam) Krımlı Böyük Qıpçaq Başbuğ Şarağa Xanın (Sarıcık) nəvəsi Artarağa xanın (Atrak) başçılığı ilə Qafqazlara – Gürcüstan və Azərbaycana qədər gəldi (1118). Gürcü kralına qızını verən Atrağa xan yaxınlıqdakı kumanlarla qərbi Gürcüstanda Batum, Artvin, Goruh vadisinə yerləşir. Gürcü kralının istəyi ilə Kumanlar qurduqları 40.000 nəfərlik ordu ilə Tiflisə ağır bir zərbədən sonra Səlcuqlu dövlətindən geri aldılar (1123). Kumanların döyüş qabiliyyətini görən gürcülər təkrar Şimali Qara dənizdəki kumanlara xəbər yollayıb ölkələrinə dəvət etdilər. Bunun üzərinə 45.000 civarında Kuman ailəsi (toplam 250.000 nəfər) Sevinc xanın liderliyi ilə Gürcüstana yerləşdirildi (1195). Bu ikinci və son köç Şimali Qara dəniz, Dəşti –Kıpçaq diyarından gələn son köçdür. Gürcüstanda uzun müddət qalan kumanlar xristianlıqdan təsirlənməyə başladılar (Quliyev, 2023: 54). Gürcüstana ikinci qıpçaq köçünün arxasından sayları 800.000-ə yaxın olan Kumanların yurd salma problemləri də baş qaldırdı. Gürcü - Qıpçaq karma ordusunun baş komandiri Başbuğ Kubasar (Ters saldıran) Baş komandanlıq mövzusunda gürcülərlə anlaşılmazlığa düşməsinə görə bəzi Kuman bəyləri Kubasar Bəyin oymağı və kəndlərinə bağlı oymaqları alaraq bugünki Türkiyə sərhədlərini keçərək Rizə və Trabzona yerləşdilər (1212). Trabzon imperatorluğuna vergi verməyən kumanlar, kralın Artvinə kömək məqsədi ilə göndərdiyi ordunu məğlub etməklə yanaşı Trabzonu belə yağmaladılar. Ortadoks olan Qıpçaklar Osmanlı imperatorluğunun əraziyə hakim olmasıyla müsəlmanlığa keçirlər.

Gürcüstandakı kuman bəyləri isə müxtəlif zamanlarda siyasət işlədərək varlıqlarını davam etdirməyə çalışdılar.

Azərbaycana qədim türk axınları Böyük Qafqazın digər dağ aşırımları vasitəsilə də baş vermişdir. Belə ki, Qax rayonunun şimalındakı aşırımlardan birini yerli camaat indi də "Hun beli" adlandırır. Qax rayonu ərazisində yerləşən Qıpçaq kəndinin əhalisi bu gün də özlərini qıpçaqların varisləri kimi yerli əhali deyə qeyd edirlər (QDM, 2016).

## Nəticə

Qıpçaq adının mənası türk və şərq mənbələrində "ağac koğuşu" kimi izah edilir. Bu məna isə adın etimologiyası ilə bağlı yaranmış bütün rəvayətlərdən çıxan nəticə ilə izah edilir. Onlar müsəlman qaynaqlarında Qıpçak, Qərb qaynaqlarında Koman, rus qaynaqlarında Polovets (poloves) adıyla adlanmışlar. Bundan başqa Kinça, Sarı, Hardeş, Poloç, Plavets, Kun və b. adları da işlənmişdir. Qıpçaqlar yazılı məlumatlara və arxeoloji qazıntılara görə, Şərqi və Mərkəzi Qazaxıstanın sərhədləri içindəki öz ana kütlələrinə qarışmışdılar. Bügün Türkiyənin Şərqi Qara dəniz bölgəsində, Gürcüstanda Batum və Havalisi ilə Macarıstanda hələ də kuman türkləri yaşamaqdadır.

## Ədəbiyyat


1. Əliyeva, L.A. (1999). Qıpçaqlar və Azərbaycan. Bakı: BDU, 354 s.
2. Üstünər, A. (2015). Türk dilinin tarixi inkişafı. Cağaloğlu. İstanbul: Sentyabr, 256 s.
3. Muxtarova, Ə. (2011). Türk xalqlarının tarixi. Bakı: Adiloğlu, 446 s.
4. Raşid ad-Din Fazlallah. (1987). Oguz-name. Baku: Elm, 128 p.
5. Bartold, V.V. (1968). "Dvenadsat lektsii po istorii trutskix plemen Sredney Azii. Soç.M..(5.49)
6. Drevnetyurskoy slovar. (1969). Leninqrad: "Nauka", 678 s.
7. Kononov, A.N. (1958). Rodoslavnaya türmen.Soçineniya Abu`l Qazi hana Hirinskoqo. M-L.
8. Ahincanov, S.M. (2009). Türk xalqlarının katalizator tayfası. qıpçaqlar. İstanbul: Selenqe Yayınları, 307 s.
9. Ch`en C.Tu-tsue tsişi. (Genel türk tarixi.). (1958). Pekin: T.1., 678 s.
10. Sumuşiya, C. Qıpçaqlar hara getdilər? [Elektron resurs]. Qaraqalpaq jurnalı. 20.11.2014. Borçalı.net. URL:www.qaraqalapaqlar.
11. Quliyev, İ. (2023). "Codex Cumanicus" və kuman dilinin leksikası. Bakı: "Elm və təhsil", 208 s.
12. Səmədova, K.İ. (2016). Qıpçaqların dəfn mərasimləri. Bakı: AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun tədqiqləri, №2, 161 s.


Göndərilib: 14.03.2024 Qəbul edilib: 01.05.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/15-19

**Sevinc Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
sevincasger@gmail.com

# LİNQVOKULTUROLOGİYA KONSEPTİN SEMİOTİK NÖVLƏRİ

**Xülasə**

Məqalədə konseptin semiotik növləri haqqında müəyyən məlumatlar verilir. Bu növlərin xarakterik linqvistik xüsusiyyətləri araşdırılır. Belə çıxır ki, konseptin semiotik tipləri dünya dilinin dərk edilməsində mühüm rol oynayır.

Bu tiplər linqvokulturologiyada da reallaşır və real praqmatik vəziyyəti əks etdirir. Linqokulturologiyada elə problemlər var ki, insan şüurunda yaranan məfhumun dil vahidləri və onun çoxalma yolları vasitəsilə insan şüurunda mücərrəd sözlərin yenidən həyatdan uzaqlaşmasına səbəb olur. Bu cür araşdırmanın çətinliyi insan, onun intellektinə əsaslanan mədəniyyət və eyni mədəniyyətin şüurda və dildə əks olunmasıdır.

***Açar sözlər:*** *konsept, semiotik, linquvistika, koqnitiv, abstrakt*

**Sevinj Ahmadova**
Azerbaijan State Pedagogical University
PhD in Philology
sevincasger@gmail.com

## Semiotic types of concept in linguoculturology

**Abstract**

The article gives some information on the semiotic types of the concept. Characteristic linguistic peculiarities of these types are investigated. It turns out that the semiotic types of the concept play an important role in understanding the language of the world. These types are also realized in linguoculturology and reflect the real pragmatic situation. There are some problems in lingouculturology in which abstract words in the human consciousness are retransformed into a way of life through the linguistic units of the concept created in human awareness and the ways of its reproduction. A hard of this kind of inquiry is a human being, culture, based on his intellect, and the reflection of the same culture in consciousness and language.

***Keywords:*** *concept, semiotic, linguistic, cognitive, abstract*

## Giriş

Linqvokulturologiya bir elm kimi dilçilikdə tətbiq edilir. Linqvokonseptual çərçivədə linqokoqnitiv və linqvokulturoloji istiqamətlər geniş şəkildə tətbiq edilir və bunun nəticəsində antropoloji linqvistika formalaşır. Konsept tiplərinin universal və spesifik olmaqla iki qrup üzrə tədqiqi geniş yayılmışdır. Bu konseptin ümumi tipologiyasına aiddir, bu tipologiyanı isə koqnitiv semantika öyrənir.Konseptə aid xüsusiyyətlərdən biridə onun semiotik cəhətləridir. Bir sıra araşdırmalar göstərir ki, hansisa bir konseptin semiotik cəhətlərini tədqiq etmək dil fəlsəfəsi və dilçilik fəlsəfəsinin qarşılıqlı əlaqəsi ilə mümkündür. Semiotika yunanca semeiotice işarələr haqqinda elm, təlim – ümumulikdə işarələrdən əhs edən elm sahəsi, işarə nəzəriyyəsi haqqında elmdir. Semiotika fərqli elm sahələrini öyrənir. Nümunə olaraq Morze əlifbası, yol hərəkəti qaydalarını nizamlayan işarələr, təbii və suni dillər və s. göstərmək olar (Karasik, 2012: 5).

Linqvokulturologiya ayrica bir elm sahəsidir, bu elm dildən mədəniyyətə və mədəniyyətdən dilə doğru atılan addımdır. Konsept məfhumu insanın mental dünyasına, yəni mədəniyyətə və tarixə yaxındır və bu səbəbdən spesifik xarakter daşıyır. Konseptlər xalqın düşüncəsində yaşayan

kollektiv irsdir, onun mənəvi mədəniyyətidir. Məhz bu səbəbdən kollektiv şüur konstantların, yəni daimi, yaxud uzun müddət mövcud olan konseptlərinqoruyucusu kimi çıxış edir. Linqvokulturologiyada konsept anlayışı kifayət qədər geniş sahəni əhatə edir. Konseptin tərkib hissələrinə dil vahidlərinin bütün leksik və qrammatik mənaları daxildir. Konseptin başlıca əlaməti onun mentallığı ilə əsaslandırılır. Hər bir mental xüsusiyyətə malik olan dəyərlər kimi, konseptlər də təxəyyül məhsuludur. Son illərdə aparılan tədqiqatlarda konsept məfhumunun şüuru strukturlaşdıran təfəkkür vahidi kimi öyrənilməsinə böyük yer ayrılır. Bu cür anlam çox perspektivləri olan koqnitiv dilçilik üçün səciyyəvidir. "Koqnitiv dilçilik sahəsində" struktur, funksional, törəmə (generativ) dilçilik, kibernetika və linqvistik semantika sanki bir-birilə çulğalanmışdır" (Abdullayev, 2006: 228).

XX əsrin 80-90-cı illərində linqvokulturoloji tədqiqatlar elmə subkultura, mədəni universalilər, mədəni konsept və s. anlayışları gətirdi ki, bu da konsept termininə yeni çalar verdi. Eyni zamanda, konseptin və konsept dairəsinin (konseptosfera) daha geniş mənada dərk olunması da mövcuddur. Koqnitiv dilçiliyin əsas vahidi kimi "konseptlər müşahidə edilən və təsəvvür edilən hadisələr müxtəlifliyini nə isə bir şeylə əlaqələndirirlər" (Abdullayev, 2006: 48). M.B.Pimenovanın verdiyi tərifə görə, "konsept obyektivləşdirilmənin mürəkkəb sisteminə malik olan milli, mental obraz kimi anlaşıla bilər" (Pimenova, 2003: 31). S.Q.Vorqaçovun fikrincə, "konseptlər hər bir millətin mənəvi zənginliyini özündə cəmləşdirir və xalqın ruhunu əks etdirir. Bu da konseptlərin antroposentrikliyini, yəni etnik şüur daşıyıcılarının mənəviyyata yönəldilməsini, subyektivliyini, sosiallığnı və "şəxsi sahəni" müəyyən edir" (Vorkachev, 2005: 12). Ailə sözünün konseptləşməsi prosesi konseptual strukturu və konsept mühitini (konseptosfera) formalaşdırır. Konsept dil vasitələrinin cəmində reallaşır. Həmin cəmə konseptin adı və məzmununu dəqiq, yaxud vasitəli yolla izah edən (eksplisit), dəqiqləşdirən və inkişaf etdirən dil vasitələri aid edilir. "Fəlsəfi qrammatistlər səciyyəvi olaraq belə bir fikri əsas tuturdular ki,dillər öz strukturlarında az fərqlənir, halbuki üst qat təzahürlərində böyük müxtəliflik mümkündür" (Xomski, 2006: 152). Şübhəsiz, N.Xomskinin bu fikri dilə aid olsa da, konseptə də şamil edilə bilər. Üst qat təzahürləri dedikdə, konseptin dil vasitələri ilə ifadəsi kimi başa düşülür. Bu səbəbdən tədqiqatlarda konseptual təhlil metodu tətbiq edilir. Həmin metodun əsas məqsədi: 1) mədəniyyətşünaslıq baxımından əhəmiyyət kəsb edən paradiqmanın və onların konsept, yəni mental sahəsini quran komponentlərin üzə çıxarılmasından; 2) konseptin məzmununun: sözün, adın sinonimini və tərifini vermək, frazeologizmlərin, zərbi-məsəllərin,aforizmlərin, deyimlərin, cümlələrin, mülahizələrin struktur və semantik modellərinin, nəhayət, konseptin təqdim olunduğu mətnlərin məzmununun müəyyən edilməsindən ibarətdir. Sadalanan reprezentasiyalar bu və ya digər konseptlərin məzmunu haqqında biliklərin mənbəyidir. Y.S.Stepanov öz tədqiqatlarında ayrı-ayrı konseptlərin tarixinin öyrənilməsinin vacibliyini qeyd edirdi. "Konseptin məzmunu çoxəsrlik inkişaf tarixinə baxmayaraq, kifayət qədər sabitdir. Bununla bağlı dilçilikdə konseptlərin sinxronik və diaxronik təsvir metodu tətbiq edilir. Konseptin "laylı" strukturu da məhz tarixi dəyişikliklərlə şərtlənir. Bu, tam məntiqidir, çünki hər bir tarixi mərhələdə çoxsaylı mənaların biri aktual olur" (Stepanov, 2005: 309). Qeyd etmək lazımdır ki, dilçilik elmində konseptlərin öyrənilməsinin başqa metodları da mövcuddur. Məsələn, S.Y.Nikitina və Y.Bartminski"mədəniyyət" mətnlərində "ayrılmış tərif" (Nikitinin terminologiyası) və "koqnitiv tərif" (Bartminskinin terminologiyası) metodundan istifadə edirdilər. Həmin metodlara uyğun olaraq, konsept "müntəzəm semantik əlaqələr siyahısının tərtib edilməsi" kimi təqdim olunur və qeyd edilir ki, həmin semantik əlaqələr konsept-sözün dərk edilməsi üçün çox böyük əhəmiyyət kəsb edir (Bartminskiy, 2005: 527). Bu da konseptin valentlikləri haqqında fikir söyləməyə imkan verir. Daxili formanın üzə çıxarılması konsept təhlilinin başqa istiqaməti hesab olunur. Məsələn, Y.Stepanov konseptin təhlilində onun bilavasitə hərfi mənasını axtarmağı vacib hesab edir. O, qeyd edir ki, daxili forma, adətən, dərk edilmir və termin sözünün daxili və zahiri formasında əks olunur (Stepanov, 2005: 240).

L.O.Çerneyko başqa bir metod təklif edir. Onun fikrincə, konsept strukturu arxetipləri, dərin mənanı reallaşdıran abstraksiya səviyyəsini özündə əks etdirir. Bu metod abstrakt (mücərrəd) adın geştalt strukturunun təhlilindən ibarətdir. "Həmin metodun tətbiqi üçün zəmini, ilkin şəraiti

konseptin sublogik (subməntiqi) əsası yaradır, çünki onun məzmununa sadə (fikir, inam və b. əsaslanan) məfhumlar daxil edilir və həmin məzmun birləşmələrdə özünü nümayiş etdirən adın (sözün) konnotativ elementlərinin hamısını əhatə edir" (Cherneyko, 2017: 208).

Həmçinin qeyd etmək lazımdır ki, "konsept" termini Azərbaycan mədəniyyətşünaslığında və dilçilikdə müəyyən qədər işlənib, təhlil olunub. Lakin müxtəlif elm sahələrində bu termin ən müxtəlif məna və məzmun qazanır. "Konsept" termini bir neçə elmi istiqaməti – ilk növbədə, koqnitiv psixologiyanı və koqnitiv dilçiliyi əhatə edir. Adları çəkilən elm sahələri təfəkkür və şüur problemləri, informasiyanın qorunması və işlənməsi ilə, linqvomədəniyyətşünaslıqla məşğul olur və onların təməl kateqoriyaları və postulatları ilə əmələ gələn nəzəriyyə çərçivəsində müəyyən edilir və dəqiqləşir. Müasir humanitar elmdə "konsept" sözünü ilk dəfə rus mütəfəkkiri S.A.Askoldov (1870-1945) tətbiq etmişdir. Orta əsrlər dövrünün nominalistləri kimi, S.A.Askoldov da "fərdi təsəvvürü bütün soy həcminin əvəzi" hesab edir. Lakin qədim alimlərdən fərqli olaraq, S.A.Askoldov konsepti fərdi təssəvvürlə eyniləşdirmir və onda "ümumilik, oxşarlıq" görür. Onun fikrincə,"konsept - düşüncənin törəməsidir, o da düşüncə prosesində eyni cərgədən olan çoxsaylı əşyaları əvəz edir" (Askoldov, 1928: 28).

Koqnitiv dilçilik çərçivəsində "konsept" dedikdə, insan psixikasında əks edilmiş yaddaş vahidlərini, mental leksikonu nəzərdə tuturuq. Z.D.Popova, İ.A.Sternin konsepti "qlobal düşüncə vahidi kimi" (müəyyən) tərif edir. Bu mahiyyət insan şüurunda insanın konkret fəaliyyəti, insanın şüurunda artıq mövcud olan başqa konseptlərlə düşüncə "əməliyyatları" (operasiyaları) əsasında formalaşır. Bu cür əməliyyatlar yeni konseptlərin yaranmasına səbəb ola bilər. Beləliklə, dil insan şüurunda konseptlərin formalaşma yollarından biridir (Popova, 1999: 30).

Son illər aparılan yeni tədqiqatlarda konseptin ən fərqli təsnifatları təqdim olunur. Həmin təsnifatların birinin müəllifi V.İ.Karasikdir. O yazır ki, məzmun baxımından konseptlərin hamısını parametrik və qeyri-parametrik mental törəmə (forma) kimi bir-birinə qarşı qoymaq mümkündür. Parametrik konseptlər təsnifat kateqoriyalar kimi çıxış edir və "məkan", "zaman", "kəmiyyət", "keyfiyyət"kimi kateqoriyaların müqayisəsi üçün tətbiq edilir. İkinci, qeyri-parametrik mental formalara konkret məzmun daşıyan konseptlər aid edilir (Karasik, 2001: 78).

Konseptlərin kateqoriya statuslarının ən mühüm əlamətlərindən biri onların müstəqil xarakteri və binar əksliyə malik olmasıdır, həmin binar əkslik də konseptin konstitutiv əlaməti kimi fəaliyyət göstərir. Qeyri-parametrik konseptləri tənzimləyici və qeyri-tənzimləyici qruplara bölmək mümkündür. Birinci qrupa məzmununda əsas yeri dəyər konsepti tutan mental formalar daxildir. Qeyri-tənzimləyici konseptlər qrupu (sinfi) özünün qeyri-adiliyi ilə seçilir. Linqvistik ədəbiyyatda təklif edilən mental vahidlər təsnifatı linqvistik və koqnitiv-psixoloji meyarlar əsasında qurulur. "Yəni şəkillərlə, sxemlərlə, hiperonimlərlə və konseptlərin digər növləri ilə yanaşı, linqvo-mədəni tipajı ayırmaq mümkündür" M.V.Pimenova konseptlərin üçhissəli təsnifatını təklif edir. Onun fikrincə, konseptlər müəyyən konseptual sistem qurur, dil isə həmin sistemin aktuallaşması üsuludur. "Dildə bu və ya digər formada obyektivləşdirilən bütün konseptlər üç məfhum (kateqoriya) qrupuna bölünə bilər: I. Əsas, təməl xarakterli konseptlər. Bu konseptlər dilin və dünya mənzərəsinin (panoramasının) əsasını təşkil edir. Onların arasında: a) kosmik konseptlər; b) sosial konseptlər; c) psixi (mənəvi) konseptlər seçilir. II. Deskriptiv (təsviri xarakterli) konseptlər. Bu konseptlər əsas, təməl xarakterli konseptləri müəyyən edir və öz növbəsində, üç qrupa bölünür: 1. fərqli dəyişiklikləri nəzərdə tutan konseptlər (həcm, ölçü, dərinlik, hündürlük, çəki və b.); 2. keyfiyyəti göstərən kvalitativ konseptlər (isti-soyuq, bütöv-bölünən; yumşaq-bərk və b.); 3. kəmiyyəti göstərən kvantitativ konseptlər (bir, çox, az, kifayət qədər və b.). III. Münasibətlər tiplərini müəyyən edən relativ konseptlər. Onların arasında: 1)qiymətləndirici konseptlər (yaxşı-pis, düz-yanlış, zərərli-xeyirli, dadlı-dadsız); 2) mövqe konseptləri (əleyhinə, birgə, arada, qabaqda-arxada, yanında, yuxarıda-aşağıda, yaxın-uzaq, müasir-geridə qalmış); 3)privativ konseptlər (özünün-özgənin, malik olmaq-itirmək, daxil etmək- kənarlaşdırmaq) Dil mədəniyyətin mühüm hissəsi, onun qavranılmasının əsas vasitəsi, milli mentalitetin spesifik xüsusiyyətlərinin daşıyıcısıdır. Belə bir fikir də mövcuddur ki, linqvomədəniyyətşünaslıq dil vahidlərində əks olunan, onları saxlayan və mədəniyyəti çatdıran üsulları tədqiq edir. Həmin vahidlərdə dil konseptləri və mədəni

"göstərişləri" möhkəmləndirir. Dil vasitəsilə həmin konseptlər və "göstərişlər" xalqın, yaxud onun ayrı-ayrı sosial qruplarının mentalitetində nəsildən-nəslə ötürülür. Translyasiya funksiyasının vasitəsilə dil bu və ya digər linqvomədəni birlik üçün səciyyəvi olan dünyagörüşünə, dünyanın dərk edilməsinə də təsir göstərə bilər. V.İ.Karasikdən sonra biz də konseptləri ilkin mədəni törəmələr, söz mənalarının obyektiv əksi, müəyyən mənaya malik olan və buna görə də insan həyatının müxtəlif sferalarına translyasiya edilən, məsələn, ən çox rast gəlinən, dünyanı öyrənmə vasitələrindən biri olan anlayışın üstünlük təşkil etdiyi sfera (elm), obrazlılığın üstünlük təşkil etdiyi sfera (incəsənət) və fəaliyyətin üstünlük təşkil etdiyi sfera (məişət həyatı) hesab etməyi təklif edirik. Dünya dilçiliyində, o cümlədən də Avropa və rus dilçiliyində "sahə" nəzəriyyəsinin, bu aspektdə konsept anlayışının işlənməsi tarixi çox da qədimə getmir. Konsept müəyyən bir güclü (yəni diqqəti dəyər üzərində cəmləşmiş), kənarlara doğru assosiasiya vektorları ayrılan, şüur nöqtəsi ətrafında qruplaşır. Dil daşıyıcıları üçün daha çox aktual olan assosiasiyalar konseptin nüvəsini, daha az məna kəsb edənlər isə periferiyanı təşkil edir. Konseptin dəqiq sərhədi yoxdur. Nüvədən kənara çıxdıqca assosiasiyanın getdikcə zəifləməsi müşahidə olunur. Konseptin mərkəzi nöqtəsinin aktual olduğu dil və ya nitq vahidi konseptin adı kimi qəbul edilir. Bir-birinə bağlı olan konsept sistemləri konseptosferanı əmələ gətirir. Biz mədəniyyətin qlobal konseptosferasını və onun lokal konseptosfera adlandırılan bölmələrini ayırd edirik. Tədqiqatçılar tərəfindən konseptin modelləşdirilməsi üçün konseptə nisbətən daha dəqiq struktura malik olan koqnitivistikanın ənənəvi vahidlərindən (freym, ssenari, skript və s.) istifadə oluna bilər.

Müasir Avropa dilçiliyində saysız-hesabsız konseptlər koqnitiv dilçilik aspektindən işlənilmişdir. Hazırkı tədqiqatda linqvomədəni konseptin məhz bu cür tərifi əsas götürülür. Konseptin anlayış, məfhum tərəfinin tədqiq edilməsi dilçi alimlərin də qeyd etdiyi kimi, onun seçilməsini, strukturlaşdırılmasını, tərifini və başqa konseptlər sırasında yerinin müəyyən edilməsini nəzərdə tutur. Konseptlər idealdır və şüur əsasında insanın şəxsi, hissi təcrübəsinin bazası üzərində formalaşan, fərdi hissi obrazlar olan universal predmet kodu kimi kodlaşırlar. Obrazlar isə konkretdir, lakin onlar mücərrədləşərək hissi obrazdan təfəkkür obrazına çevrilə bilirlər. Konseptin obrazlı tərkib hissəsinə müraciət etdikdə həmin konseptlə bağlı təcrübənin, onun assosiativ əlamətlərinin təsviri nəzərdə tutulur. Ayrı-ayrı milli dillərin materialları əsasında da müxtəlif konseptlər işlənmiş və etnomədəni,psixolinqvistik,linqvokukturoloji məsələlər koqnitiv aspektdə təhlilə cəlb edilmiş,maraqlı nəticələr əldə edilmişdir.

XX əsrin ikinci yarısında yeni bir elm – linqvokulturologiya yarandı. Linqvokulturologiyanın vəzifəsi dilin mədəniyyəti necə kodlaşdırdığı, bu və ya digər dil hadisələrinin hansı mədəni informasiya daşıdığı barədə suallara cavab vermək idi. Yeni linqvistik sahə əsrlərin qovşağındakı elmi araşdırmaların paradiqmasından törəmişdir. Bu paradiqma yeni sahəyə antroposentrizm və inteqrasiya edilmiş biliklər kultivasiya edirdi. Həmin elmin metodoloji aparatını təsvir edən bir sıra fundamental işlər meydana gəldi, dil materialının orijinal təsvir metodları təklif edildi,faktların təhlilinin gedişatında önəmli nəzəri ümumiləşdirmələr aparıldı.Lakin yenə də konsept termini öz mürəkkəbliyi və polifunksionallığı baxımından dilçilikdə müxtəlif şəkildə şərh olunur. Koqnitiv linqvistikada "konsept" baza anlayışıdır. Y.S.Kubryakovanın təklif etdiyi konsept tərifi daha geniş yayılmışdır. Onun nəzəriyyəsində terminin və onun arxasında duran məzmunun universallığına işarə edilir: "şüurumuzun mental və ya psixi resurslarının izah edilməsinə xidmət edən termin" (Kubryakova, 2004: 11). Ona görə, konseptin əsas əlamətləri: a) operativlik ("yaddaşın operativ məzmun vahidi"), b )insan fəaliyyətinin əksi, c) invariant (sabitləşdirici) daxili qüvvənin olması ("... konseptlər müşahidə və təsəvvür edilən hadisələr çoxluğunu vahid bir sıraya salır və onları bir başlıq altında toplayır"); ç) elastiklik və hərəkətlilikdir. Fərqləndirilən əlamətlər konseptin təbiətinin mürəkkəbliyi və ziddiyyətini bir daha təsdiq edir: o, operativdir və bütün bəşər təcrübəsinin nəticələrini əks etdirir, invariant quruluşa malikdir, amma, eyni zamanda, daima dəyişir. Bundan əlavə, unutmayaq ki, konsept bu və ya digər ideyaya aid olan müxtəlif mənaların (d) yalnız bir qismini təşkil edir. Başqa sözlə desək, insan realilər haqqında düşünərkən, onun bütün əlamətlərini deyil, müəyyən düşüncə situasiyasında aktual olanları nəzərdə tutur, yəni elmi və ya gündəlik qavrayışın hansısa növünün, təqdimatının konseptindən istifadə edir.

## Nəticə

Beləliklə, konseptin semiotic tiplərinin müəyyən olunmasında müxtəlif növ işarələrdən istifadə edilmişdir. Linqvokulturologiya həmişə adət olmuş konseptləri öyrənir. Lingvokulturologiyada bir sıra konsept tiplərində mücərrəd sözlərin insanın şüurunda hansı həyatı obraza çevrilməsi, yəni insan şüurunda yaranmış konseptin hansı dil vasitəsi vahidləri ilə və necə reprezentasiya olunması məsələləri nəzərdən keçirilmişdir. Bu araşdırmanın mərkəzində insan, onun intellektinin əsasında dayanan mədəniyyət və həmin mədəniyyətin şüurunda və dildə inikası yaranır. Beləliklə də, konsept tiplərindı müəyyən mədəni informasiyalar mövcuddur və bu mədəni informasiyalar müəyyən həyat hadisələrinin nəticəsi kimi insanın beynində toplanaraq konseptlər biçiminə düşür və dilin ifadə vasitələri ilə reprezentasiya olunur.

## Ədəbiyyat


1. Karasik, V.I. (2012). Semioticheskiye tipy kontseptov. Voprosy kognitivnoy lingvistiki, s.5-6.
2. Abdullayev, Ə.Ə. (2006). Koqnitiv dilçiliyin əsasları. Bakı: Sabah, 228 s.
3. Pimenova, M.V. (2003). O tipovykh strukturnykh elementakh kontseptov vnutrennego mira. Kemerovo: YAzyk. Etnos. Kartina mira: Sbornik nauchnykh trudov, s.28-39.
4. Vorkachev, S.G. (2005). Postulaty lingvokontseptologii. Antologiya kontseptov (Pod red. V.I.Karasika, I.A.Sternina). Volgograd: Paradigma, t.1, s.10-13.
5. Xomski, N. (2006). Dil və təfəkkür. Bakı: Kitab aləmi, 152 s.
6. Stepanov, YU.S. (2005). Metody i printsipy sovremennoy lingvistiki. 5-ye izd. Moskva: Yeditorial URSS, 309 s.
7. Bartmin'skiy, Ye. (2005). YAzykovoy obraz mira: ocherki po etnolingvistike: [per. s pol.] [sost. i otv. red. S. M. Tolstaya]. Moskva: Indrik, 527 s.
8. Cherneyko, L.O. (2017). Kak rozhdayetsya smysl: Smyslovaya struktura khudozhestvennogo teksta i lingvisticheskiye printsipy yeye modelirovaniya. Moskva: Gnozis, 208 s.
9. Karasik, V.I. (2001). Lingvokul'turnyy kontsept kak yedinitsa issledovaniya. G.G.Slyshkin. Metodologicheskiye problemy kognitivnoy lingvistiki (pod redaktsiyey I.A.Sternina). Voronezh, s.75-81.
10. Askol'dov, S.A. (1928). Kontsept i slovo. Leningrad: Russkaya rech. Sborniki pod redaktsiyey L.V.Shcherby. Novaya seriya. II, 28 s.
11. Popova, Z.D. (1999). Ponyatiye «kontsept» v lingvisticheskikh issledovaniyakh. Voronezh: VGU, 30 s.
12. Kubryakova, Ye.S. (2004). Ob ustanovkakh kognitivnoy nauki i aktual'nykh problemakh kognitivnoy lingvistiki. Tambov: Voprosy kognitivnoy lingvistiki. №1, s.6-17.
13. Kubryakova, Ye.S. (2004). YAzyk i znaniye: na puti polucheniya znaniy o yazyke: Chasti rechi s kognitivnoy tochki zreniya. Rol' yazyka v poznanii mira. Moskva: YAzyki slavyanskoy kul'tury, 560 s.


Göndərilib: 02.03.2024 Qəbul edilib: 30.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/20-26

**Asaf Aliyev**
Nakhchivan State University
PhD in mathematics
aliyevasef@ndu.edu.az
**Yadulla Haziyev**
Nakhchivan State University
yadullaheziyev@ndu.edu.az
**Sayyad Valiyev**
Nakhchivan State University
seyyadeliyev@ndu.edu.az
**Shahin Aliyev**
Nakhchivan State University
sahinaliyev@ndu.edu.az

# TRANSPORT AND ENVIRONMENTAL PROBLEMS

## Abstract

The article pays special attention to environmental protection and notes that in the modern world, issues of ecology and energy saving are finding new solutions, this is facilitated by large corporations and their financing of projects. Technological modernization of old systems takes transport enterprises to another level and allows them to be competitive in the international market. The transport and road complex is a powerful source of environmental pollution. Transport is one of the main sources of noise in the city, the traffic intensity of which is constantly growing. The article also notes that transport has caused many other negative phenomena: every year hundreds of millions of tons of harmful substances enter the atmosphere with exhaust gases; The road network, especially near urban agglomerations, "eats up" valuable agricultural land. Under the influence of the harmful effects of transport, people's health deteriorates, soils and water bodies are poisoned, and flora and fauna suffer.

***Keywords:*** *ecological problems, road transport, energy efficiency, environment, environmental and economic problems, toxic substances, dangerous goods*

**Asəf Əliyev**
Naxçıvan Dövlət Universiteti
riyaziyyat üzrə fəlsəfə doktoru
aliyevasef@ndu.edu.az
**Yadulla Həziyev**
Naxçıvan Dövlət Universiteti
yadullaheziyev@ndu.edu.az
**Səyyad Vəliyev**
Naxçıvan Dövlət Universiteti
seyyadeliyev@ndu.edu.az
**Şahin Əliyev**
Naxçıvan Dövlət Universiteti
sahinaliyev@ndu.edu.az

# Nəqliyyat və ekoloji problemlər

## Xülasə

Məqalədə ətraf mühitin mühafizəsinə xüsusi diqqət yetirilir və qeyd olunur ki, müasir dünyada ekologiya və enerjiyə qənaət məsələləri yeni həll yolları tapır, buna iri korporasiyalar və onların

layihələri maliyyələşdirməsi kömək edir. Köhnə sistemlərin texnoloji modernləşdirilməsi nəqliyyat müəssisələrini daha yüksək səviyyəyə qaldırır və beynəlxalq bazarda rəqabətə davamlı olmağa imkan verir. Nəqliyyat-yol kompleksi ətraf mühitin güclü çirklənməsi mənbəyidir. Hərəkət intensivliyi daim artan nəqliyyat şəhərin əsas səs-küy mənbələrindən biridir. Məqalədə həmçinin qeyd olunur ki, nəqliyyat bir çox başqa neqativ hallara da səbəb olur. Belə ki, hər il yüz milyonlarla ton zərərli maddələr işlənmiş qazlarla atmosferə daxil olur. Yol şəbəkəsi, xüsusən də şəhər aqlomerasiyalarının yaxınlığında qiymətli kənd təsərrüfatı torpaqlarını "yeyir". Nəqliyyatın zərərli təsirlərinin təsiri altında insanların sağlamlığı pisləşir, torpaq və su hövzələri zəhərlənir, flora və faunaya güclü ziyan dəyir.

***Açar sözlər:*** *ekoloji problemlər, yol nəqliyyatı, enerji səmərəliliyi, ətraf mühit, ekoloji və iqtisadi problemlər, zəhərli maddələr*

## Introduction

Transport powered by fossil fuels causes enormous harm to both the environment and human health. Harmful emissions produced by transport aggravate the problem of global warming, and lead to various diseases in people, including the respiratory system and nervous system. The impact of transport on the environment is significant. It leads to an increase in the greenhouse effect, air and water pollution, noise pollution, soil erosion, etc.

Transport is one of the largest sources of greenhouse gas emissions on the planet - about 16%. Most of them come from cars (11.9%), planes and ships generate 1,9% and 1,7% respectively, trains – 0,4%. Reducing transport emissions is critical to combating climate change (1).

**Research methods.**

A large share of air pollution comes from emissions of harmful substances from cars. There are currently about 1 billion cars in use on Earth. Currently, road transport accounts for more than half of all harmful emissions into the environment, which are the main source of air pollution, especially in large cities. On average, with a mileage of 15 thousand km per year, each car burns 2 tons of fuel and about 26 - 30 tons of air, including 4,5 tons of oxygen, which is 50 times more than human needs. At the same time, the car emits into the atmosphere (kg/year): carbon monoxide - 700, nitrogen dioxide - 40, unburned hydrocarbons - 230 and solids - 2-5. In addition, many lead compounds are emitted due to the use of mostly leaded gasoline .

Observations have shown that in houses located next to a major road (up to 10 m), residents suffer from cancer 3-4 times more often than in houses located 50 m away from the road. Transport also poisons water bodies, soil and plants (2).

Toxic emissions from internal combustion engines are exhaust and crankcase gases, fuel vapors from the carburetor and fuel tank. The main share of toxic impurities enters the atmosphere with exhaust gases from internal combustion engines. Approximately 45% of the total hydrocarbon emissions enter the atmosphere with crankcase gases and fuel vapors.

The amount of harmful substances entering the atmosphere as part of exhaust gases depends on the general technical condition of the vehicles and, especially, on the engine- the source of the greatest pollution. Thus, if the carburetor adjustment is violated, carbon monoxide emissions increase 4...5 times. The use of leaded gasoline, which contains lead compounds, causes atmospheric air pollution with highly toxic lead compounds. About 70% of lead added to gasoline with ethyl liquid enters the atmosphere in the form of compounds with exhaust gases, of which 30% settles on the ground immediately after the cut of the vehicle's exhaust pipe, 40% remains in the atmosphere. One medium-duty truck emits 2,5...3 kg of lead per year. The concentration of lead in the air depends on the lead content in gasoline (Aziyev, Mamedova, 2023: 390).

Railroad trains, due to the combustion of coal or fuel oil, are also sources of greenhouse gas emissions and toxic substances: carbon dioxide, methane, carbon monoxide, nitrous oxide and oxide, sulfur dioxide and particulate matter. Freight and high-speed trains, city electric trains are the main sources of noise and vibration that negatively affect human health - they increase anxiety and

stress levels, and reduce the number of insects and birds living near railways. For many years, railroads used wooden ties soaked in toxic creosote oil.

About 90% of all goods traded in the world are transported by water. Ships pollute the world's oceans - in the event of oil and chemical spills, waste during cargo transshipment or ship dismantling also ends up in the water. Accidents on a ship carrying hazardous substances or crude oil can result in emissions of carbon dioxide, nitrogen oxide, and sulfur dioxide. The latter easily dissolves in water, causing ocean acidification, which kills coral reefs. Ships transport non-native species of flora and fauna around the world, threatening local biodiversity (Aziyev, Nadzhafov, Veliyev, 2024: 400).

Sea transport plays a significant role in modern logistics, but the environment still remains a problem for this form of transportation. Container ships or passenger ferries can still have a negative impact on the underwater and surface environments and on the quality of life of people living near ports. Waterborne vehicles can disrupt ecosystem functioning in the following ways:

increased noise level (underwater and above water);

oil and wastewater spills;

exhaust emissions ($CO_2$, carbon monoxide, sulfur oxides, nitrogen oxides, particulate matter).

The issue of the impact of marine vehicles on the environment or threats associated with increased water traffic remains relevant.

Half of the world's aviation carbon emissions come from just 1% of passengers. Americans have the largest carbon footprint-more than the UK, Japan, Germany, and Australia combined. One of the negative impacts of airplanes is noise. It affects not only passengers but also people living near airports. The hum of aircraft engines impairs hearing, and concentration, and increases stress. In addition, aviation fuel and de-icing agents often end up in streams, which carry the chemicals into water bodies, polluting them (Vəliyev, Əliyev, 2011: 93).

The consequences of air pollution are:

- melting glaciers and a rapid rise in water levels in the seas and oceans (which is the direct cause of floods, inundations, and even the disappearance of entire cities or ocean islands!);
- climate change and frequent weather anomalies: fires, avalanches, hail;
- reduction of fresh water reservoirs (which is associated with the melting of glaciers, a natural reservoir of drinking water).

Expanding road infrastructure also negatively impacts animals and plants. The natural habitats of various species of mammals, birds, amphibians, etc. are shrinking. Animals die under the wheels or migrate to other places where the chances of survival are usually low. Due to various road works, trees and bushes are constantly being cut down. These plants produce oxygen and provide shelter for birds, insects, etc. The more we destroy roadside greenery through cutting down and salinization, the higher the risk of extinction of subsequent species of fauna and flora. Excessive deforestation and chemicals contribute to soil erosion and groundwater contamination (Əliyev, 2017: 63).

Logisticians and scientists around the world are joining forces to make transport less invasive and protect the planet from the effects of the greenhouse effect. One of the most promising areas in the logistics industry is the ecology of transport. What is its essence? This is a continuous search for an answer to the question: what can be done to reduce the amount of pollution and other negative consequences of transport? Key issues for transport ecology are issues related to:

- energy saving solutions;
- the possibility of using alternative fuels;
- reducing the noise level generated by vehicles, ships, railways, etc.;
- methods of processing waste generated during transportation.

A good example is, in which goods are transported in the same container at all stages. This reduces the need for additional transportation of goods, which increases $CO_2$ emissions (Vəliyev, Axundov, 2020: 52).

Noise above 80 dBA is harmful to the human body, and at levels above 90 dBA, partial hearing loss is possible. The pain threshold lies in the range of 120-130 dBA. The noise impact on the acoustic environment in cities is almost always local in nature and is predominantly caused by vehicles (up to 80% of noise), with road transport having the most adverse impact, since cars are the predominant sources of intense and long-lasting noise and, moreover, are common throughout the city. Transport noise has the greatest negative consequences for the population than industrial or household noise, since its scope is much wider, and the physical parameters characterizing the impact of noise on the human body are incomparably higher.

One of the main sources of noise in the city is road transport, the traffic intensity of which is constantly growing. The highest noise levels of 90...95 dB are observed on the main streets of cities with an average traffic intensity of 2-3 thousand or more transport units per hour. The level of street noise is determined by the intensity, speed and nature of the traffic flow. In addition, it depends on planning decisions (longitudinal and transverse profile of streets, height, and density of buildings) and such landscaping elements as roadway coverage and the presence of green spaces. Each of these factors can change the level of transport noise by up to 10 dB (Jacyna, 2017: 5639).

In an industrial city there is usually a high percentage of freight transport on highways. An increase in the overall traffic flow of trucks, especially heavy-duty ones with diesel engines, leads to an increase in noise levels. In general, trucks and cars create a heavy noise environment in cities.

The noise generated on the roadway of the highway extends not only to the area adjacent to the highway, but also deep into residential areas. Thus, in the zone of greatest noise impact there are parts of blocks and microdistricts located along city-wide highways (equivalent noise levels from 67,4 to 76,8 dB). Noise levels measured in living rooms with open windows facing the indicated highways are only 10…15 dB lower.

The acoustic characteristics of traffic flow are determined by vehicle noise indicators. The noise produced by individual transport crews depends on many factors: engine power and operating mode, technical condition of the crew, quality of the road surface, and speed. In addition, the noise level, as well as the efficiency of vehicle operation, depends on the driver's qualifications. The noise from the engine increases sharply when it starts and warms up (up to 10 dB). Moving a car at first speed (up to 40 km/h) causes excessive fuel consumption, while the engine noise is 2 times higher than the noise it creates at second speed. Significant noise is caused by sudden braking of the car when driving at high speed. The noise is noticeably reduced if the driving speed is reduced by engine braking until the foot brake is applied. For the last (Sladkowski, 2020).

## Conclusion

The main measures to combat vehicle emissions include the following:

- assessment of cars based on exhaust toxicity. Day-to-day control of vehicles is of great importance. All vehicle fleets are required to monitor the serviceability of the vehicles produced on the line. When the engine is running well, the exhaust gases of carbon monoxide should contain no more than the permissible limit;
- According to the Regulations on the State Automobile Inspectorate, it is entrusted with control over the implementation of measures to protect the environment from the harmful effects of motor vehicles;
- the adopted toxicity standard provides for further tightening of the norm: for carbon monoxide – by 35%, for hydrocarbons-by 12%, for nitrogen oxides-by 21%;
- factories have introduced control and regulation of vehicles for toxicity and smokiness of exhaust gases;
- urban transport management systems. New traffic control systems have been developed that minimize the possibility of traffic jams because when stopping and then picking up speed, the car emits several times more harmful substances than when moving uniformly;

- highways were built to bypass cities, which absorbed the entire flow of transit transport, which previously stretched like an endless ribbon along city streets. The intensity of traffic has sharply decreased, the noise has decreased, the air has become cleaner;

- an automated traffic control system has been created. Thanks to advanced technical means, mathematical methods, and computer technology, it allows optimal control of traffic throughout the city and completely frees people from the responsibilities of directly regulating traffic flows. This system will reduce transport delays at intersections by 20-25%, reduce the number of road accidents by 8-10%, improve the sanitary condition of urban air, increase the speed of public transport, and reduce noise levels;

- conversion of vehicles to diesel engines. According to experts, switching vehicles to diesel engines will reduce the emission of harmful substances into the atmosphere. Diesel exhaust contains almost no toxic carbon monoxide since diesel fuel is burned almost completely. In addition, diesel fuel is free of lead tetraethyl, an additive used to increase the octane number of gasoline burned in modern high-burning carbureted engines;

- diesel is 20-30% more economical than a carburetor engine. Moreover, producing 1 liter of diesel fuel requires 2,5 times less energy than producing the same amount of gasoline. Thus, it turns out to be a double saving of energy resources. This explains the rapid growth in the number of diesel vehicles;

- improvement of internal combustion engines. Creating cars taking into account environmental requirements is one of the serious challenges that designers face today;

- the entry of highly toxic lead compounds into the atmosphere can be eliminated by replacing leaded gasoline with unleaded gasoline;

- improvement of the fuel combustion process in an internal combustion engine, the use of an electronic ignition system leads to a reduction in harmful substances in the exhaust;

- neutralizers. Much attention is paid to the development of toxicity reduction devices - neutralizers, which can be equipped with modern cars;

- the method of catalytic transformation of combustion products is that the exhaust gases are purified by coming into contact with the catalyst. At the same time, afterburning of incomplete combustion products contained in vehicle exhaust occurs;

- the neutralizer is attached to the exhaust pipe, and the gases passing through it are released into the atmosphere purified. At the same time, the device can serve as a noise suppressor. The effect of using neutralizers is impressive: under optimal conditions, the emission of carbon monoxide into the atmosphere is reduced by 70-80%, and hydrocarbons by 50-70%;

- the composition of exhaust gases can be significantly improved using various fuel additives. Scientists have developed an additive that reduces the soot content in exhaust gases by 60-90% and carcinogenic substances by 40%;

- Recently, the process of catalytic reforming of low-octane gasoline has been widely introduced at oil refineries. As a result, it is possible to produce unleaded, low-toxic gasoline. Their use reduces air pollution, increases the service life of automobile engines, and reduces fuel consumption;

- gas instead of gasoline. High-octane, composition-stable gas fuel mixes well with air and is evenly distributed throughout the engine cylinders, promoting more complete combustion of the working mixture. The total emission of toxic substances from cars running on liquefied gas is significantly less than from cars with gasoline engines. Thus, the ZIL-130 truck, converted to gas, has a toxicity indicator almost 4 times less than its gasoline counterpart. When the engine runs on gas, the mixture is burned more completely. This leads to a decrease in the toxicity of exhaust gases, a reduction in carbon formation and oil consumption, and an increase in engine life. In addition, liquefied gas is cheaper than gasoline;

- electric car. Nowadays, when a gasoline-powered car has become one of the significant factors leading to environmental pollution, experts are increasingly turning to the idea of creating a “clean” car. As a rule, we are talking about an electric car (Sladkovskiy, 2020).

The fight against traffic noise, aimed at creating a normal environmental situation and comfortable conditions for people's lives and recreation in populated areas, provides for:

- zoning of territories and targeted routing of street and road networks;
- creation of more advanced vehicles and engines;
- improvement of traffic organization and separation of freight traffic;
- use of more advanced road pavement designs;
- use of special noise protection measures.

The most drastic measure to combat traffic noise and create a normal environmental situation in cities (at least the largest ones) is considered to be the construction of underground, well-ventilated transport routes, which require large investments (Fridrikh, 2001).

Urban planning measures to protect the population from noise include: increasing the distance between the noise source and the protected object; the use of acoustically opaque screens (slopes, walls and screen buildings), special noise protection strips for landscaping; the use of various planning techniques, rational placement of microdistricts. In addition, urban planning measures include rational development of main streets, maximum landscaping of microdistricts and dividing strips, use of terrain, etc.

A significant protective effect is achieved if residential buildings are located at a distance of at least 25...30 m from highways and the rupture zones are landscaped. With a closed type of development, only the spaces within the block are protected, and the external facades of houses are subject to unfavorable conditions, therefore such development of highways is undesirable. The most appropriate is free development, protected from the street side by green spaces and screening buildings for temporary residence of people (shops, canteens, restaurants, studios, etc.). The location of the main in the excavation also reduces noise in the surrounding area.

To reduce vehicle noise, first of all, they strive to design less noisy mechanical components; reduce the number of processes accompanied by shocks; reduce the magnitude of unbalanced forces, the speed of gas jets flowing around parts, and the tolerances of mating parts; improve lubrication; use plain bearings and silent materials. In addition, reducing vehicle noise is achieved by using noise-absorbing and sound-insulating devices (Banister, 2015: 1).

## References

1. https://obserwator.imgw.pl/emter2021-pierwszy-europejski-raport-o-wplywie-transportu-morskiego-na-srodowisko/
2. https://obserwator.imgw.pl/emter2021-pierwszy-europejski-raport-o-wplywie-transportu-morskiego-na-srodowisko/
3. Aziyev, YA.G., Mamedova, U.Dzh. (2023). Vliyaniye zheleznodorozhnogo transporta na okruzhayushchuyu sredu i puti ikh resheniya. Scientific Collection "InterConf", (181), s.390-395.
4. Aziyev, YA.G., Nadzhafov, E.T., Veliyev, S.M. (2024). Shum ot avtomobil'nogo transporta i metody yego umen'sheniya. Scientific Collection "InterConf", (186), s.400-406.
5. Vəliyev, S.M., Əliyev, A.A. (2011). Avtomobil nəqliyyatının ətraf mühitə təsiri. Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Fizika-riyaziyyat və texniki elmlər seriyası. Naxçıvan: №1(35), s.93-95.
6. Əliyev, A.A. (2017). Avtomobillərin ixrac qazlarının ətraf mühitə təsiri. Gəncə: AMEA Gəncə Bölməsi "Xəbərlər məcmuəsi". №3(69), s.63-66.
7. Vəliyev, S.M., Axundova, G.Ə. (2020). Avtomobillər və onların ətraf mühitə təsiri Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri. Fizika-riyaziyyat və texniki elmlər seriyası. Naxçıvan: №7(108), s.52-56.
8. Jacyna, M. (2017). "Noise and environmental pollution from transport: decisive problems in developing ecologically efficient transport systems". Journal of Vibroengineering 19.7, s.5639-5655.
9. Sladkowski, A. (2020). Ecology in transport: problems and solutions. Cham, Switzerland: Springer.

10. Sladkovskiy A. (2020). Ekologiya na transporte: problemy i resheniya. Cham, Shveytsariya: Springer.
11. Fridrikh, R. (2001). Ekologicheskiye vneshniye izderzhki transporta. Springer Science & Business Media.
12. Banister, D., Button, K. (2015). Environmental policy and transport: An overview. Transport, the Environment and Sustainable Development, pp.1-15.

Received: 08.04.2024 Accepted: 03.05.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/27-32

**Səadət Bayramova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
filologiya üzrə fəlsəfə doktoru
seadet19710214@gmail.com

# SEVİNC NURUQIZININ UŞAQ NƏSRİ XEYİRXAHLIĞIN TƏCƏSSÜMÜ KİMİ

**Xülasə**

Təşəkkül və inkişafı müxtəlif faktorlarla şərtlənən Azərbaycan uşaq ədəbiyyatı yeni ideya-estetik axtarışlardan və bədii üslub rəngarəngliyindən keçərək formalaşıb müstəqil sahə kimi təsdiqini tapmışdır. Çağdaş milli uşaq ədəbiyyatı bugünkü vəziyyətinə ənənələrin daxili davamlılığı və "böyük ədəbiyyatı" ilə üzvi əlaqəni saxlamaqla nail ola bilmişdir. Nəticə etibarilə, Azərbaycan uşaq ədəbiyyatı xalqın estetik nailiyyətlərindən biri olaraq bütövlükdə mənəvi mədəniyyət və bədii fikrin inkişafının ifadəsi kimi meydana çıxmışdır. Məqalədə çağdaş dövrdə uşaqlar üçün bir-birindən maraqlı əsərlər yaradan Sevinc Nuruqızının nəsr əsəsrləri təhlilə cəlb edilir, onların xarakterik cəhətləri araşdırılır.

***Açar sözlər:*** *nəsr, uşaq, xeyirxahlıq, çağdaş, ədəbiyyat*

**Saadat Bayramova**
ANAS Institute of Literature named after Nizami Ganjavi
PhD in Philology
seadet19710214@gmail.com

## Children's prose by Sevinj Nurugizi as the embodiment of kindness

**Abstract**

The formation and development of Azerbaijani children's literature, which is determined by various factors, has been established as an independent field by passing through new idea-aesthetic searches and the diversity of artistic styles. Contemporary national children's literature has achieved its current state by maintaining the internal continuity of traditions and organic connection with "great literature". As a result, Azerbaijani children's literature emerged as one of the aesthetic achievements of the nation as an expression of the development of spiritual culture and artistic thought as a whole. In the article, the prose works of Sevinj Nurugyzi, who created interesting works for children in the modern era, are analyzed and their characteristics are investigated.

***Keywords:*** *prose, child, kindness, contemporary, literature*

## Giriş

Çağdaş uşaq ədəbiyyatının tanınmış imzalarından olan Sevinc Nuruqızının yaradıcılığında əsas yer tutan nəsr əsərləri mövzu müxtəlifliyi, janr rəngarəngliyi və ayrı-ayrı yaş qruplarını nəzərə alması ilə diqqəti cəlb edir. Onun çoxsaylı nəsr əsərləri arasında ən çox diqqətçəkən son bir neçə ilin ən məşhur uşaq mətnlərindən olan "Melisa" povestidir.

Sevinc Nuruqızının 9. İlesam-Akçağ uşaq ədəbiyyatı roman, hekayə və nağıl - 2018 (KİTAB DOSYASI) müsabiqəsinin roman nominasiyasında birinci yerə layiq görülən "Melisa" nağıl-povestinin baş qəhrəmanı parçadan hazırlanmış gəlincikdir, lakin insanlar kimi, o da sevməyi bacarır. Əsərdə kuklaçı qadın bu gəlinciyi düzəldərkən sevgi haqqında nəğmə oxuyur deyə, bəlkə də Melisanın digər kuklalardan fərqli olaraq, insan kimi sevməyi bacarması onun hazırlandığı zaman oxunan nəğmə idi fikri əksini tapır. "Melisa"nın hekayətini nəql edən müəllif uşaqlara müraciətlə bu əhvalatı danışmasının səbəbini belə izah edir: *"Dostum, yəqin ki, bu əsəri, yəni "Melisa"nı yazdığım üçün özümü uzun illər qınayacağam. Bilirsən niyə? Buradakı bir gəlinciyin həyatını təsvir etməklə səni kədərləndirdiyim üçün. Amma bu əsəri yazmaqla sənə həyatın*

*görmədiyin tərəflərini göstərmək istədim. Müxtəlif şəraitlərdə yaşayan yaşıdlarının – sənin kimi oğlan və qızların həyatından bəzi epizodlar danışdım. Göstərmək istədim ki, bu Yer kürəsi adlanan planetdə heç də hamı xoşbəxt deyil*" (Nuruqızı, 2021: 15)...

Melisa ailənin bir üzvü kimi "insan həyatı" yaşayan gəlincikdir. Elə onun bir cansız oyuncağa xas olmayan hiss və duyğuları, yaşantıları da insancadır. Dünya ədəbiyyatında əsas qəhrəmanı oyuncaqlar, gəlinciklər olan onlarla əsər yazılıb. Bədii mətndə oyuncaqlar, o cümlədən gəlincik öz nominativ və funksional mənalarını genişləndirərək gerçək bir varlıq olduğu haqda alqı yarada bilmək kimi semiotik təbiəti ilə müəyyənləşir. Bu baxımdan "Melisa" povestində də məhz gəlincik obrazı antropomorfdur, insanın animistik bənzəridir.

Qeyd edək ki, oyuncaqlara ədəbiyyat və bütövlükdə sənətdə uşaq əyləncəsi kimi yanaşmanın dəyişilib böyüklərə xas məna və mahiyyət qazanması əsasən romantizmin adı ilə bağlıdır. Uşaq üçün gəlinciyi "canlandıran", "insanlaşdıran" onun inamı, xəyal gücüdür. İnsana aid xüsusiyyətləri oyuncağına aid və tətbiq etməklə (geyimlərini dəyişmək, oyunların iştirakçısına çevirmək, yedirdib-içirtmək, yatırtmaq, çimizdirmək və s.) uşaq onu özünə bənzədir – oyuncaq insanlaşıb dost, sirdaş olur.

Povestin leytmotivini sevgi, mərhəmət hissləri, sədaqət, qayğıkeşlik kimi dəyərlər təşkil edir. *"Əsərin əsas məqsədi Melisanın - qəhrəmanın çətin, mürəkkəb situasiyadakı reaksiyasını, davranışını göstərməkdir. Və bu durumda məkan və zaman amili artıq arxa plana keçir, qəhrəmanın əhvalatı fonunda əhəmiyyətsizləşir. Modernist təhkiyə modelinə uyğun olaraq əsərdə qəhrəmanların daxili dünyası ön plana çıxır. Bəlkə də, qəhrəmanın kukla - cansız personaj olaraq seçilməsi nahaq deyil. Yazıçı tiplər sərgisi yaradır və bu sərgidə Melisa susqun tamaşaçıdır*" (Akimova, 2021: 10).

Oyuncaqların, gəlinciklərin ictimai-mədəni əhəmiyyəti danılmazdır. Uşaqların emosional-psixoloji inkişafında, xarakterinin formalaşmasında da onların rolu azaldıla bilməz. Balacaların diqqətini cəlb edən oyunlar kimi, sevimli oyuncaqlar da onların həyatına, nəzərə çarpmasa da, həlledici təsir göstərmək gücündədir. Oyun zamanı uşaq özünə aid xəyali dünya yarada bilir. Bu fantastik aləmdə oyuncaqlar yaradıcı, psixoloji, sosial funksiyaları yerinə yetirməklə, uşağın iç səsini, potensialını, subyektiv mənini ifadə edir. Oyuncaqların "missiyası"nın virtual obyektlərin multimedia koleydoskopunda arxa plana keçdiyi bu çağda mətnə gəlinciyin əsas obraz kimi seçilməsi məhz bu baxımdan da aktualdır.

"Melisa" povestindəki insan-kukla, canlı-cansız dixotomiyası yalnız cəmiyyətdəki "mexanikiləşmə", "avtomatlaşma"dan xəbər vermir, həmçinin insanın mənəvi deqradasiyasını da nümayiş etdirir. Cansız gəlincik obrazının başına gələnlər əsərdə obyektiv reallığa nüfuz edərək nağılvari süjeti fəlsəfi, ictimai, psixoloji səviyyələrə yönləndirir, problematika universallaşır.

Sevimli oyuncaq hər bir uşağın bir az da öz içinə dönüşüdür. Uşağın oyunları, hər şeydən öncə, əşyalarla emosional kontakt deməkdir. Əziz oyuncağı Melisaya münasibətdə Zöhrənin simasında dostluq, sədaqət, etibar idealı, insanın sevmək qabiliyyəti, humanizm duyğusu əksini tapır. İllər ötüb keçsə də, qız böyüsə də, sevimli gəlinciyini unutmur, sevgisini qəlbində əzizləyib böyüdür. Maraqlıdır ki, elə Melisa da eyni hissləri keçirir, o da öz ilk rəfiqəsi, dostu Zöhrəni unutmur, onun üçün darıxır. Çünki əsərdə oyuncağın da insan kimi, duyğuları diridir, canlıdır (Bəşirova, 2002).

"Melisa" povestində poetik subyektivliyə meyil lirik başlanğıcda, əsərin monosentrik qurulmasında ifadəsini tapır. Əsər bir çevrə üzrə poetik qurğusu ilə diqqəti cəlb edir: başlanğıcda kimsənin diqqətini çəkməyən Melisa Zöhrə ilə dostlaşıb məmnun olur, bu dostluq hər ikisini xoşbəxt edir. Əsərin sonunda yenə gözləmədikləri halda, qovuşur və xoşbəxt olurlar.

Mifoloji təsəvvürdə, adət-ənənələrə görə, leylək müqəddəs quşdur və şər qüvvələri uzaqlaşdıran talisman hesab olunur. Bundan əlavə, o, ailə xoşbəxtliyi, sədaqət və valideyn sevgisinin simvoludur. Melisanın Leyləyin dimdiyində yenidən Zöhrənin həyatına gətirilməsi onun həyata yenidən doğuluşu ilə assosiasiya yaradır. Ümumiyyətlə, uşaq hekayələrində adətən, sadəlikdən daha çox bəsitliyə yol verilən əsərlər bolluğunda "Melisa" povesti oxucusunu həyat-ölüm, yaxşılıq-pislik, xeyirxahlıq-qəddarlıq kimi duallıqlar haqqında düşünməyə sövq edir (Bağırlı, 2023: 22).

Əvvəllər, xüsusən sovet dövründə uşaq ədəbiyyatının dilinin mütləq yaş kateqoriyasına uyğunlaşdırılması, bəzən isə lap bəsitləşdirilməsi tendensiyası yayğın idisə, indi əksər uşaq əsərlərinin dili böyüklərin dilinə daha yaxındır. Bunun səbəbi son illər uşaq yazarlarının azyaşlılarla uydurma "uşaq dili"ndə danışmağı yanlış hesab etmələri, ədəbiyyat vasitəsilə onlara doğru danışmağı öyrətmək istəyi ilə bağlıdır. Sevinc Nuruqızının əsərləri də məzmun etibarilə uşaqlara aiddir, dil etibarilə isə xüsusi sərhəd qoyulduğu sezilmir.

"Melisa" povestində böyüməkdə olan uşağın əxz etməli olduğu ümuminsani dəyərlər ön plandadır. Sadə, rahat evdəki mehriban, xoşbəxt ailə dəyərləri, harmoniya üzərində qurulmuş münasibətlər sistemi və s. uşaqlara deklamasiya vasitəsilə deyil, təsvir yolu ilə aşılanır. Yaxşı və pisin, xeyir və şərin nümunəsində kiçik oxucu ona daha yaxın, daha xoş olanı seçmək imkanı əldə edir. Çünki müasir dövrdə ədəbiyyatın didaktik əhəmiyyəti tamamilə öz qüvvəsini itirib, uşaqlara da qətiyyən maraqlı deyil, təsir gücü isə yox dərəcəsindədir. Odur ki, çağdaş uşaq ədəbiyyatının əksər nümunələrində olduğu kimi, Sevinc Nuruqızının nəsr əsərlərində də mətnin öyrədici, didaktik elementləri təhkiyənin strukturunda əriyərək dərin fəlsəfi mahiyyət qazanır. Bu xüsusiyyətlər povestin məzmununa təsir edərək auditoriyasının sərhədlərini də genişləndirir; o yalnız azyaşlı uşaqlar üçün deyil, bütün yaş kateqoriyaları üçün maraq kəsb edən əsərə çevrilir (Namazov, 2007: 444).

Ümumiyyətlə, Sevinc Nuruqızının uşaqlar üçün yazdığı nəsr əsərləri oyuncaqlara çox vurğu edilməsi ilə xarakterikdir. Gəncə terrorunun günahsız qurbanları olan uşaqlara ithaf edilmiş "Pıçıltı" (2022) canlı və cansız hər kəsin, hər şeyin məhvinə səbəb olan terrora yüksək səslə "yox" deyən əsərdir. İkinci Qarabağ müharibəsi dönəmində Gəncədəki faciəyə həsr olunmuş bu ilk əsər heyvanların və oyuncaqların pıçıltısı əsasında qələmə alınıb. Bununla da müəllif həm də belə bir mesajı ötürmüş olur ki, biz insanlar onların nə hiss etdiyinin fərqinə vara bilməsək də, səslərini duymasaq da, eşitdiklərimizdən heç nə anlamasaq da, digər canlıların (hətta cansızların) da insan əli ilə törədilmiş hər cür pisliyə, vəhşiliyə özünəməxsus etirazı var. Sevinc Nuruqızı əsərdə heyvanların və oyuncaqların etirazını pıçıltı olaraq duya bilir və bu səsi azyaşlı oxucularına da elə bu cür, pıçıltı ilə çatdırır.

Bədii mətnlərdə yaradıcı dünyaduyumun təzahürü olaraq, animalistika böyüklər üçün ədəbiyyatda da istifadə olunsa da, əsasən uşaq ədəbiyyatında daha geniş yayılıb. Elə buna görə də ədəbiyyatın bu sahəsi uşaq ədəbiyyatının bir qolu olaraq dəyərləndirilir. Animalistikanın maarifləndirici, öyrədici funksiyası, həmçinin mənəvi-əxlaqi potensialı uşaq yazarlarının ondan geniş bəhrələnməsinə imkan yaradır (Xəlil, Əsgərli, 2007: 56).

Müasir dövrdə, demək olar, bütün uşaq yazarları əsərlərində obraz olaraq mütləq heyvanlara, quşlara, həşəratlara müraciət edirlər. Ədəbiyyatda animalizm (və ya animalistika) heyvanlar, quşlar və bitkilərə insana xas cizgilər və xüsusiyyətləri aid edərək, insanın dünyaduyum prizmasından bədii təsviridir. Mütəxəssislərin fikrincə, uşaq ədəbiyyatında animalistika, heyvanların obrazlaşdırılması, danışması başlanğıcını folklordan götürür. Animalistik mətnlər daha çox ictimai, mənəvi-əxlaqi, fəlsəfi, psixoloji mahiyyət daşıyır. Xüsusən insanın heyvanla dostluğu təbiət, varlıq və kainatdakı harmoniyanı anlamaq baxımdan daha çox əhəmiyyət daşıyır (Həbibbəyli, 2020: 4).

"Pıçıltı" əsərində əsas qəhrəmanların heyvanlar və oyuncaqlar olaraq seçilməsi müqayisəli antropologiyaya əsaslanır. Belə ki, əsərdə onların da insan kimi mənəvi ağrıları, yaşantıları əks olunur. Hətta bəlkə, mətndə insanın həssaslıq baxımından təbiətdə qonşu olduğu digər canlılardan öyrənəcəyi çox şey var düşüncəsi də yer alır. Çünki yer üzündə fəlakətlər törətmək heç vaxt heç bir digər canlının şüurlu seçimi olmadığı halda, insan bilərək müharibələri başlayır, faciələr törədir, nüvə silahları istehsal edərək bəşəriyyətə yüzilliklər boyunca izi silinməyəcək zərərlər vurur. Qeyd edək ki, "Pıçıltı" əsərinin fabulasındakı kədər, üzüntü onun dilinə, ahənginə də təsir edərək forma və məzmun etibarilə bütövlük yaratmış olur.

Sevinc Nuruqızının müharibə mövzusunda yazılmış "Ağca və Cubbulu" hekayəsinin qəhrəmanları balaca Süräyya, Cubbulu adı verdiyi gəlincik və Ağca adlı göyərçindir. Bu hekayədə yenə animalistikadan istifadə olunub. Yeri gəlmişkən, qeyd edək ki, ümumiyyətlə, yazarlar bədii mətnlərə animalistikanı 3 üsulda tətbiq edirlər:

1) Müəlliflər bu üsula təbiətin realiyasını əks etdirmək məqsədilə müraciət edirlər.

2) Bədii mətndə heyvanlar, quşlar, həşəratlar insanlaşdırılır – onlara insani keyfiyyətlər aid edilir.

3) Bədii yaradıcılıqda animalistikanın gerçəküstü, fantastik gücün heyvanlara aid edilməsi tipi də var ki, adətən, müəlliflər bu üsula nadir hallarda müraciət edirlər. Sevinc Nuruqızının uşaq nəsrində isə əsasən ikinci tipə yer verilir (Mirzəyev, 1999: 54).

Maraqlıdır ki, S.Nuruqızı uzun illər evlərində “məskunlaşmış” gəlinciyi əvvəlcə hekayələrinin, sonra povestinin qəhrəmanı edir. Müəllifin bu barədə yazdıqlarından bəlli olur ki, əsərdə Cubbulu adı ilə təqdim edilən gəlincik elə Melisadır. Beləliklə, Sevinc xanım qızının gəlinciyinə müxtəlif adlar, obrazlar altında fərqli ədəbi ömürlər yaşadır. “Ağca və Cubbulu” hekayəsində Qarabağın sərhədyanı kəndlərində yaşayan qızcığazın müharibədən keçmiş taleyi təsvir olunur. Hekayədə göstərilir ki, müharibənin dəhşətlərinə rəğmən dostluq, sevgi, sədaqət həmişə qalibdir.

Günlərin bir günü düşmən tərəfindən mərmilər atılanda başqa kəndə köçərkən ailə tələsiklik və təlaşda, əlbəttə, gəlinciyi unudur. Hər gün cürbəcür oyunlar oynayan Sürəyyasız qalan Ağca ilə Cubbulu darıxır, özlərini kimsəsiz hiss edir, nigaran qalır. Birdən ağıllarına gəlir ki, Ağca gəlinciyi də dimdiyinə götürüb Sürəyyagilin sığındığı kəndə üz tutsunlar. Beləcə, üç vəfalı dost qovuşur. İllər sonra “Ağca və Cubbulu” hekayəsinin davamı yazılır – bu dəfə artıq qələbə əhvalında. Əsərin ikinci hissəsində göstərilir ki, 28 illik həsrətə son qoyulub, çünki işğal altında olan torpaqlarımız geri alınıb. Sürəyya öz doğma vətəninə gedə bilmək imkanı əldə edəndə özü ilə uşaqlarını deyil, uşaqlıq dostu Cubbulunu götürür. Hekayədə Sürəyyanın Ağdama uzun illər sonrakı gedişi, təəssüratları həssaslıqla ifadə olunur: bölgədəki tikililərdən, üzağardan gözəlliklərindən əsər-əlamət qalmasa da, mənfur düşmənin tapdağı altında dağıntılara məruz qalsa da, torpaq öz doğmalığı ilə onu ovudur. İllər sonra işğaldan azad olmuş torpaqlara geri dönən vətəndaşların sevinc və həyəcanı bir-birinə qarışır (Nuruqızı, 2021).

Hekayənin birinci hissəsində əsasən Sürəyyanın dağıntılar altında qalmış gəlinciyindən ötrü yaşadığı psixoloji sarsıntılar ifadəsini tapsa da, ikinci hissədə vətən sevgisi, həsrəti əks olunur. “Ağca və Cuppulu” əsəri İsveçdə İBBY-nin “Andersen” qızıl medalına təqdim edilmiş və ilk onluğa düşmüşdür. Bir müddət sonra isə bu əsər Cənubi Koreyada Asiya Mədəniyyət Mərkəzinin “Uşaqlar üçün şəkilli kitab” layihəsində “Sürəyyanın izində” adı ilə çap olunmuşdur (2020).

Sevinc Nuruqızı real hadisələri balacalara çatdırarkən onu ən şirin nağıla çevirməyi ustalıqla bacarır. Elə 2017-ci ildə Rusiya mətbuatında geniş yayılmış bir əhvalatın əsasında ərsəyə gətirdiyi “Saqlana” hekayəsini də nağıl poetikasında çatdırır. Uşaqlara ünvanlanan əksər mətnlərində olduğu kimi, müəllif yenə onlara müraciət edərək sözə başlayır, nəql etdiyi hadisənin qeyri-adiliyini onun gerçəkliyinə şübhə ilə yanaşılacağını labüd edəcəyindən əminliklə qeyd edir: “*İndi yox, hekayəni oxuduqca, onun cəmi 4 yaşı olduğuna inanmaq istəməyəcəksən*”.

Sevinc Nuruqızının nəsrli-nəzmli əksər mətnlərində əsas ideya istiqaməti işığa, xeyirə, yaxşılığa inamdır. Saqlananın qorxusuzluğunun, cəmi 4 yaşı olmasına baxmayaraq qarda, tufanda canavarlardan belə qorxmadan evlərindən kilometrlərcə uzağa – xəstə nənəsi üçün həkim çağırmağa gedə bilməsinin səbəbini hekayənin əvvəlində oxuduqlarımız gözəl şərh edir. Gözləri görməyən qoca babasının əhvalatları, bütün məişət qayğıları üstündə olan yaşlı nənənin şirin nağılları Saqlananın xeyirxah, işıqlı mühitdə bəsləndiyini, böyüdüyünü əks etdirir: “*Buğlanan sıyığın ətrinə nağıllardakı möcüzələr qarışanda gecələr daha işıqlı, daxma daha rahat olardı. Saqlana nənəsindən soruşardu:*

*– Nənə, bütün nənələr və babalar nəvələrinə nağıl danışırlar?*

*Nənəsi gözünü toxuduğu şaldan ayırıb onun gözlərinə baxar və deyərdi:*

*– Yox, qızım, əgər bütün nənələr və babalar nağıl danışsaydılar, dünyada müharibələr olmazdı... – Saqlana ha düşünər, tapa bilməzdi ki, nağıllarla müharibələrin nə əlaqəsi var. Qonur gözlərini nənəsinə zilləyərdi. Nənəsi o saat onun nə demək istədiyini anlayardı. – Qızım, nağıllarda xeyirxahlıq var. Hər eşitdiyin nağıldan canına hopan bir zərrə xeyirxahlıq, gələcəkdə çox böyük yaxşılıqlara yol açar. Mərhəmət nağıllarla başlayar, nağıllarda yaşayar, nağıllarla ötürülər...*”

Maraqlıdır ki, bu kiçik parçada həm də sənətin öyrədici, tərbiyələndirici funksiyası nənənin dilindən səslənir, hekayənin ideya istiqaməti kimi təsdiqini tapır. Sevinc Nuruqızının uşaq hekayələrində, demək olar ki, həmişə yaxşılıq, xeyirxahlıq qələbə çalır. Beləcə, müəllif uşaqları inandırır ki, yaxşılıq edərsənsə, əvəzini görərsən (Nuruqızı, 2022).

"Balaca və vicdanlı avtobus" qısa alleqorik hekayəsi avtobusun simasında dürüst, vicdanlı və xeyirxah olmağı təbliğ edir. Həmişə vaxtında dayanacağa çatıb uşaqları məktəbə aparan avtobus bir gün gecikir, uşaqlar gözləyərkən əminliklə danışırlar ki, ola bilməz ki, məsuliyyətli və vicdanlı avtobus yatıb qaldığına görə geciksin və onun xəstələndiyi təxminini yürüdürlər. Halbuki avtobus nə yatıb qalıb, nə də xəstələnib, "*O yıxılıb qarın üstündə qalan qoca nənəni xəstəxanaya çatdırmışdı...*"

"Telefon köşkündəki pişik" hekayəsinin də ideyası xeyirxahlıqdır. Əsərin əsas obrazı olan köşk – onun dünənə nisbətdə bugünkü vəziyyəti oxucunu kədərləndirir. Əvvəllər hamının istfadə etdiyi, gah həkimə, gah polisə, gah valideynə zəng vurduğu telefon köşkü bu gün artıq lazımsızdır. Çünki zaman dəyişib, texnologiya inkişaf edib, hamının evində də, cibində də telefon var, artıq köşkdəki telefonlara ehtiyac yoxdur. Tənha köşkü bir gün aparıb kimsəsiz bir yerə qoyurlar, üstünə qar yağır, tək darıxır, özünü lazımsız hiss edir. Amma qəfildən bir miyoltu eşidir və balaca pişik balasının soyuqdan donmaq üzrə olduğunu görür. Qapısını tərpədib cırıldayır, pişik balasının gözünə görünür ki, gəlib ona sığınsın, qızınsın. Balaca pişik köşkdə qızınanda o, özünü yenə gərəkli hiss edir. Bu hekayədə köşkün simasında yalnız xeyirxahlığı izləmirik, o eyni zamanda vaxtilə hamının hər işinə yarıyıb, ahıllaşdıqca unudulan hər hansı peşəkara, yaxud valideynə də metaforadır (Nuruqızı, 2018: 124).

Belə hekayələrdə minimalizm ən nəzərə çarpan xüsusiyyətdir, Sevinc Nuruqızı çoxsözlülüyü sevmir. Əvvəla, uşaqların hövsələsizliyini, uzun mətnlər oxumağı sevmədiyini nəzərə alır, ikincisi də cəmi bir neçə cümləyə sığdıra bildiyi mətləbi uzatmağa gərək görmür. "Küçə monitoru və Orfan" kədərli, lakin düşündürücü hekayədir. Yəqin ki, müəllifin gerçək xatirəsinə əsaslanan mətndə Banqkokun böyük küçələrindən birində hər gün binaboyu iri monitorun qarşısında durub televiziya proqramlarını izləyən 11-13 yaşlı yeniyetmə qızdan bəhs edilir. Təhkiyəçi müşahidə edir ki, qız, əslində, efirdə gördüklərinə baxmır, fikri başqa yerdə olsa da, gözlərini iri monitora zilləyir. Bu hal hər gün təkrar olunanda o, balaca qıza yaxınlaşıb tanış olmaq qərarına gəlir:

*"– Bir dəqiqə... Adını öyrənə bilərəmmi?*

*Qız dayandı. Diqqətlə üzümə baxıb dedi:*

*– Adım yoxdu.*

*– Başa düşmədim…*

*Qız bir qədər incik tərzdə dedi:*

*– Başa düşməməli nə var ki?! Mənə ad qoyan olmayıb. Küçədəkilər Orfan deyə çağırırlar... Yəni kimsəsiz. Siz də Orfan deyin."*

Kimsəsiz qız – Orfanın cavablarından o da məlum olur ki, o hər gün gəlib bu monitorun qarşısında anasını efirdə görmək ümidi ilə dayanır. Orfan anasını heç xatırlamır, anası varmı, yoxmu, onu da bilmir. Lakin başqa bir tanış küçə uşağı (Cefri) anasını efir vasitəsilə tapdığı üçün Orfan da ümid edir, inanır. Hətta reklam aralıqlarında meydanın ortasında qoyulmuş bər-bəzəkli Budda heykəlinə yalvarır ki, anasını tapmaqda ona kömək olsun. Balaca qızın 5 ildir – bu monitorlar binaya quraşdırılandan bəri eyni inam və inadkarlıqla öz ümidinə sarılması oxucunu kövrəltsə də, düşündürür. Balaca oxucular, bəlkə də, o an analarının varlığı üçün Tanrıya şükr edir, bəlkə də, Orfanın da anasına qovuşması üçün dua edir. Hər bir halda, Sevinc xanımın bu hekayəsi uşaqlara ümid və inam bəsləməyi təlqin edir.

Sevinc Nuruqızı cəmiyyətdə baş verən proseslərin bədii həllinə can atan müəllifdir. Onun nəsr əsərlərində balaca qəhrəmanlar cürbəcür vəziyyətlərə düşür və hər bir situasiyaya görə davranışı və hələ formalaşmaqda olan xarakteri üzə çıxır. Sevinc xanımın qəhrəmanları üçün yenicə atıldıqları həyat bütün tərəfləri ilə bir sınaq meydanıdır. Burada balacalar böyük suallarına cavab arayır, həyatı öyrənirlər. Dünyanı internet oyunları, gündən-günə artıb-çoxalan növbənöv sosial şəbəkələr başına

aldıqca düşünə bilən insanları bir narahatlıq sarır: görəsən, bütün bu dəyişikliklər xeyirin sonu demək olmaz ki?

## Nəticə

Ümumiyyətlə, uşaqlar üçün yazılmış əsərlərin xeyirin qələbəsi, xoşbəxt sonluqla bitməsi labüddür. Çünki uşaq psixikası harmoniyası pozulmuş bir aləmin acı realiyasını həzm etməyə çətinlik çəkir. Belə olduğu təqdirdə əsər onları düzəni bərpa olunmuş bir dünyaya qaytarmalı, yaxud harmoniya yaratmağa xidmət etməlidir. Odur ki, hətta ən realist uşaq mətnləri belə, ölüm, itki, faciə, ümidsizlik notları üzərində bitməməlidir (Nuriyev, 2004: 244).

Mütəxəssislərin fikrincə, uşaq ədəbiyyatının əsas estetik vəzifəsi uşaqlarda yaradıcı başlanğıcı əks etdirən nikbinlik duyğusunu formalaşdırmağa xidmət etməkdir. Sevinc Nuruqızının nəsr əsərlərinin, nağıllarda olduğu kimi, həmişə xeyirin qələbəsi ilə sonlanması oxucunun ümidini diri saxlayır, inanırsan ki, nə qədər ki yaxşı adamlar var, demək, yaxşılıq da yaşayacaq. Bu əsərlərdə həyatın çətinliklərinə sinə gərmək qabiliyyəti uşaqlara müəyyən bir əxlaqi davranış xətti ilə təşviq edilir. S.Nuruqızının uşaqlar üçün yazılan nəsr əsərlərinin məna strukturunu təyin edən maraqlı cəhətlərdən biri də burada yaxşılığı, xeyirxahlığı ifadə edən, xüsusi semantik sahə yarada bilən "açar sözlər"dir.

## Ədəbiyyat

1. Nuruqızı, S. (2021). "Zəfər nəğməsi – Şuşa". Bakı: TEAS Press Nəşriyyat evi, 237 s.
2. Akimova, E. (2021). "Melissa" - çəhrayı rəngli sevgi". "Ədəbiyyat qəzeti", 22 may, s.10-11.
3. Bəşirova, N. (2002). Uşaqlarda erkən yaşlarında hərbi-vətənpərvərlik tərbiyəsiının aşılanması. Pedaqoji Universitetinin Xəbərləri (humanitar, pedaqoji, psixoloji elmlər seriyası), IX, s.166-169.
4. Bağırlı, A. (2023). "Şuşa ilinin uşaq ədəbiyyatı". "Ədəbiyyat qəzeti" (Xüsusi buraxılış), 22 iyul, s.22-23.
5. Namazov, Q. (2007). Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti nəşriyyatı, 444 s.
6. Xəlil, Z., Əsgərli, F. (2007). Uşaq ədəbiyyatı. Bakı: ADPU nəşriyyatı.
7. Həbibbəyli, İ. (2020). Uşaq dünyasında ədəbiyyat və uşaq ədəbiyyatı. "Ədəbiyyat qəzeti". 5 iyun, s.4-5.
8. Mirzəyev, Ə. (1999). Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Elm, 340 s.
9. Nuruqızı, S. (2021). Melisa: [nağıl-povest]. Bakı: Təhsil.
10. Nuruqızı, S. (2022). "Pıçıltı". Bakı: Təhsil.
11. Nuruqızı, S. (2018). Meşədə yeni il. Azərbaycan: jurnal. №12, s.124-125.
12. Nuriyev, N. (2004). Uşaqlarda vətənə məhəbbətdə düşmənə nifrət hissinin tərbiyə edilməsi. Pedaqoji Universitetinin Xəbərləri, s.244-245

Göndərilib: 10.03.2024 Qəbul edilib: 26.04.2024

ELMİ İŞ Beynəlxalq Elmi Jurnal. 2024 / Cild: 18 Sayı: 5 / 33-37 ISSN: 2663-4619
SCIENTIFIC WORK International Scientific Journal. 2024 / Volume: 18 Issue: 5 / 33-37 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/102/33-37

**Səbinə Poladova**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
poladova_sabina@mail.ru
UOT 811.111.

# İNGİLİS DİLİNİN FONEM TƏRKİBİNİN TARİXİ VARİASİYASI: SƏS QANUNU ANLAYIŞI

## Xülasə

Dilin inkişafını izləmək heç də asan deyil. Nəzəri və metodoloji elmi əsasların daim yenilənməsi zəruri olsa da, müasir elmdə bu problemə çox vaxt kifayət qədər diqqət yetirilmir. Bütövlükdə dilin mövcud vəziyyətini, eləcə də fonetik quruluşunu başa düşmək üçün müasir dilin hər bir fenomenini uzun tarixi inkişafın məlum nəticəsi kimi, daha az müddət ərzində baş verən bir sıra dəyişikliklər nəticəsində nəzərdən keçirmək lazımdır. Təəssüf ki, biz öz işimizdə ingilis dilinin bütün səslərindəki tarixi dəyişiklikləri tam şəkildə nəzərdən keçirə bilmərik, çünki bu çox böyük məlumatdır. Buna görə də biz məqaləmizdə yalnız samit səsləri və onların ingilis dili tarixindəki inkişafını nəzərdən keçirdik.

***Açar sözlər:*** *ingilis dili, variasiya, səs qanunu, fonem tərkibi, samit səslər*

**Sabina Poladova**
Azerbaijan University of Languages
PhD in Philology
poladova_sabina@mail.ru

# Historical variation in the phoneme composition of the English language: the sound law concept

## Abstract

It is not easy to follow the development of the language. Although it is necessary to constantly update the theoretical and methodological scientific foundations, this problem is often not given enough attention in modern science. In order to understand the current state of the language as a whole, as well as the phonetic structure, it is necessary to consider each phenomenon of the modern language as a known result of a long historical development, as a result of a series of changes that occurred in a shorter period of time. Unfortunately, in our work, we cannot fully consider the historical changes in all the sounds of the English language, because this is too much information. Therefore, in our article, we considered only consonant sounds and their development in the history of the English language.

***Keywords:*** *English language, variation, sound law, phoneme composition, consonant sounds*

## Giriş

Dildəki hər şey kimi, onun səs tərkibi də tarix boyu dəyişikliklərə məruz qalır. Ayrı-ayrı söz və morfemlərin səs görünüşü, fonetik tərkibi və vurğusu dəyişir. Fonemlərin paylanması qaydaları da dəyişir, amma bu artıq ayrı-ayrı sözlərə deyil, onların bütün siniflərinə təsir göstərir. Daha dərin dəyişikliklər də müşahidə olunur: dilin fonemlər toplusu və fonemlərin bir-birinə zidd olduğu diferensial sistem, uzun müddət ərzində nitq axınının və dil vahidlərinin vurğu forması və heca təşkili.

Tarixi fonetika və tarixi (diaxronik) fonologiya dilin səs tərkibindəki tarixi dəyişiklikləri öyrənir. V.K.Juravlev dillərin tarixində müşahidə olunan bütün səs dəyişikliklərini müntəzəm və sporadik dəyişikliklərə ayırır (1).

Sporadik dəyişikliklər yalnız ayrı-ayrı sözlərdə və ya morfemlərdə təmsil olunur və onların fəaliyyətinin bəzi xüsusi şərtləri ilə izah olunur. Beləliklə, semantik cəhətdən az "çəkisi" olan və eyni zamanda geniş istifadə olunan sözlər xüsusilə güclü fonetik təsirə məruz qalır: onlar tez-tez, dil bükülməsi ilə tələffüz olunur, çünki onların məzmunu artıq aydındır. Ona görə də ingilis dilində "köhnə" vida düsturu, *God be with you! - Allah köməyin olsun!* sözü *Good-bye - Əlvida*ya çevrildi. Bəzi dissimilyasiyalar, metatezlər (Permutasiyalar) və s. daha çox və ya daha az sporadik xarakter daşıyır.

Bu cür dəyişikliklərin arxasında təbii ki, tələffüz mexanizmi ilə bağlı müəyyən ümumi tendensiyalar dayansa da, bu tendensiyalar ayrı-ayrı leksik vahidlərə "təsir" etməklə hər halda özünü göstərir (Hogg, 2006: 323).

Əlbəttə ki, dəyişikliklər müntəzəmdir, müəyyən bir fonetik mövqe və ya fonoloji vahidlə əlaqəli olaraq, belə bir mövqe və ya vahidin dildə mövcud olduğu bütün hallarda, hansı söz və formalarda meydana gəlməsindən asılı olmayaraq özünü göstərir. Məhz belə müntəzəm dəyişikliyin mövcudluğunda səs (fonetik) qanundan danışılır.

R.S.Yakobson qeyd edir ki, səs qanun təbiət elmlərinin qanunlarına xas olan o universal xarakterə ("yer və zamanın müstəqilliyi" mənasında) malik deyil. Əksinə, o, sırf tarixidir, müəyyən bir dövrün müəyyən bir dilinin və ya dialektinin konkret tarixi çərçivəsi daxilində keçərlidir (3).

Səs qanunu qüvvədə olduğu müddətcə canlıdır. Səs qanunu fəaliyyətini dayandıraraq tarixi kateqoriyaya keçdikdən sonra onun nəticələri, yaratdığı səs dəyişiklikləri, fonemlərin növbələşməsi və s. dildə qalır.

İngilis alimi C.C.Smit dil tarixində ən məhsuldar fonetik prosesin 3 növünü müəyyən edir: parçalanmalar, birləşmələr və yerdəyişmələr (Smith, 2007: 123).

Tarixən qeyd edilmişdir ki, səslər ən çox parçalanma nəticəsində dəyişikliklərə məruz qalmışdır. Bu proses bir müstəqil fonemin iki allofonunun ayrılmasına və öz növbəsində onların ayrı-ayrı fonemlərə çevrilməsinə əsaslanır. Belə bir prosesin ən parlaq nümunəsi ziddiyyətli minimal cütlərin olmasıdır. Beləliklə, qədim ingilis dilində / f / fonemində dilin leksik qatında bir-birini tamamlaya bilən iki allofon [f] və [v] var idi.

[f] sözün əvvəlində və sonunda *fela* kimi, *hlaÏf;* [v] sözün ortasında *hlaÏford* kimi yaranmışdır. Orta İngilis dövründə *fine – vine, proof – prove* kimi minimal cütlər də meydana çıxdı (Anderson, 1973: 149).

Səs dəyişikliklərinin ikinci növü birləşmələrdir, bunun nəticəsində fonetik fərqlər, əksinə, silinir. Məsələn, Şotlandiya İngilis dilinin bəzi növlərində kifayət qədər uzun müddət davam edən /w/ və /m/ arasındakı fərqlər. Orta İngilis dövründə bu iki səs yazıda aydın şəkildə fərqləndirilirdi: /m/ <hw> və /w/ <w> ilə yazılmışdır, *hwœl "whale", wœl "slaughter"* kimi. Bununla belə, müasir ingilis dilinin bir çox vurğularında bu fərq itirildi və indi omofon olan *what, watt* kimi minimal cütlər eyni şəkildə tələffüz olunur.

Üçüncü növ yerdəyişmələrdir, bunun nəticəsində səslər, bir qayda olaraq, dilin leksik qatında yenidən paylanır. Səs dəyişikliklərinin bütün tarixində ən parlaq nümunə, Qrim qanunu adlanan və ya birinci alman samitinin dəyişməsi kimi tanınan bir hadisədir. XVII əsrdə dilin fonetik strukturunda baş verən tarixi dəyişikliklərin şahidi kimi Elişa Koulzun, bu dövr üçün ingilis dilində omofonları sadalayan *The Compleat English Schoolmaster* əsərini göstərmək olar. Ceyms Elfinstonun *"İngilis dilinin prinsipləri"* və ya ingilis dilinin qrammatikası kitabları da XVIII əsrdən dilin səs tərkibindəki tarixi dəyişikliklərə şahidlik edir. "Sadəcə" parçalanma, birləşmə və dəyişikliklərlə yanaşı, qarışıq səs dəyişiklikləri də baş verə bilər. Məlumdur ki, sonralar Böyük Sait dəyişikliyi adlanan prosesdə həm parçalanmalar, həm də birləşmələr baş verdi. Bütün bu tarixi dəyişikliklər uzun və mərhələli bir proseslərdir. Məsələn, /m/ və /w/ arasındakı fərqi itirən birləşmə əslində /h/-nin uzunmüddətli silinməsi prosesinin nəticəsi idi (Wells, 1982: 73).

Hər hansı bir səs qanununun formalaşdırılması müqayisəni ehtiva edir.

N.S.Trubetskoy müxtəlif hallarda üç növ formuladan istifadə edir:

1. Səs keçidi diaxronik müqayisəni, yəni bir dilin (əcdad dilinin və nəslinin dilinin) əvvəlki və sonrakı vəziyyətinin müqayisəsini nəzərdə tutur və > və ya < (sonrakı formaya işarə edərək)

işarələrindən istifadə etməklə yazılır. İstənilən bir səs qanunu diaxronik qanundur və son nəticədə keçid kimi formalaşdırılmalıdır. Lakin keçid faktiki olaraq təsdiqlənmədikdə, onun yenidən qurulması ya səs uyğunluğuna, ya da növbələşməyə əsaslanır (Wiik, 1965: 1921).

2. Səs uyğunluğu iki fərqli dildəki faktların müqayisəsi yolu ilə müəyyən edilir, əgər bu faktlar (əksər hallarda dillərin özləri) genetik cəhətdən bağlıdırsa. Adətən uyğunluq bərabər işarəsi ilə yazılır.

Dilləri müqayisə edərkən müşahidə olunan uyğunluq faktı keçmişdə baş vermiş və birbaşa müşahidə üçün əlçatmaz olan səs keçidini yenidən qurmağa imkan verir. Rus dilinin tarixində burun saitlərinin qeyri burun saitlərinə keçidi, slavyan dillərinin erkən tarixində – posterior dillərin "ilk palatallaşması", alman dillərinin erkən tarixində – samitlərin ilk hərəkəti (keçid и.-e. /p/ > /f/ və s.) belə müəyyən edilmişdir) (8).

3. Alternativlik bir dilin sinxron müayinəsi zamanı müşahidə olunur. Alternativliyi ifadə edərək, eyni dövrdə eyni dildə mövcud olan fərqli formaları müqayisə edirik. ~ işarəsi alternativləri qeyd etmək üçün istifadə olunur. Alternativlər yalnız şərti dəyişikliklər nəticəsində yaranır. Frontal dəyişikliklə, "köhnə keyfiyyət" heç bir mövqedə saxlanmadıqda, təbii olaraq alternativə yer qalmır (9). Alternativlərə əsaslanaraq, biz keçmişdə baş vermiş keçidi yenidən qura bilərik. Alternativlərə, ümumiyyətlə bir dövrün bir dili daxilində münasibətlərə əsaslanan belə bir yenidənqurma daxili yenidənqurma adlanır.

R.S.Yakobson iddia edirdi ki, nə qədər ki, səs qanunu yaşayır, ondan yalnız təcrid olunmuş kənarlaşmalar mümkündür ki, bu da ayrı-ayrı sözlərin və ya söz kateqoriyalarının fəaliyyətinin xüsusi şərtləri ilə izah olunur. Lakin səs qanunu tarixi hala gəldikdən sonra onun nəticələri – fonemlərin tarixi növbələşməsi və dillər arasındakı səs yazışmaları artıq heç bir şeylə "qorunmur" və geniş pozuntulara və dəyişikliklərə məruz qala bilər (3).

Birincisi, onlar çox vaxt sonradan qəbul edilmiş qanunlarla əhatə olunur; köhnə proseslərin nəticələrinə yeni proseslər qoyulur. Beləliklə, samitlərin birinci alman hərəkatından sonra yalnız yüksək alman dialektlərini əhatə edən ikinci cərəyan baş verdi ki, bunun əsasında sonralar alman ədəbi dili formalaşdı. Bu ikinci hərəkət nəticəsində, məsələn, ümumi almanca /t/ mövqeyindən asılı olaraq ya affrikat (müasir, almanca /ts/), ya da frikativ samitlə (müasir, almanca /s/, /z/ ilə əvəz olunmur və adətən yazılı şəkildə ß və ya ss kimi işarələnir): müqayisə edək, almanca zehn '10', essen 'yemək' (= ingiliscə on, yemək) və ya almanca Fuß 'ayaq' (= ingiliscə foot 'ayaq'). Səs qanunlarının bu cür "təbəqələrini" nəzərə alaraq, səs dəyişikliklərinin nisbi xronologiyasını, yəni bir-birlərinə nisbətən zamanla ardıcıllığını qurmaq mümkündür (Ward, 1972: 76).

İkincisi, uyğunluq sxemi sonrakı alınmalar nəticəsində pozulur. Beləliklə, latın dilinə uyğun olaraq *pēs* (yiyəlik hal. pēdis) *ayaq* = ingiliscə *foot,* latın dilindən alınmış *pedestrian – piyada keçidi* kök samitlər dəyişikliyə məruz qalmamışdır. Bəzi hallarda uyğunluqların pozulması alınmaları müəyyən etməyə imkan verir. Müəyyən xalqlar arasında mümkün təmasların vaxtı təxminən məlumdursa, adi uyğunluqların pozulması ilə alınmaların səs dəyişikliklərinin mütləq xronologiyasına işıq salmaq olar. Beləliklə, latın dilindəki yazıda c hərfi ilə işarələnən fonemi klassik latın dilində arxa dilli samit [k] kimi səslənirdi. Müasir roman dillərində, bu fonemdən sonra ön saitlər (və diftonq ae, [e]-yə "daralmış") gəldiyi hallarda biz frontal affrikatlar və ya frikativlər tapırıq; məsələn, lat. caelum və ya coelum "səma" ona uyğun gəlir. ci'elo /čj'elo /, fr. ciel /sjɛl/, ispan cielo /Θi'elo/ eyni mənadadır. Latınca Sezar (xüsusi isim və sonradan ümumi isim 'imperator') bir sıra dillərə keçmiş və xüsusilə qotik *kaisar* və almanca *Kaiser* 'imperator' kimi verilir. Bu alman formalarının ilkin samitləri və diftonqları *Caesar* adının, alınma zamanı olduğu kimi, səsini əks etdirir. Çünki I əsrə qədər almanlar bu sözü götürə bilməzdilər (Yuli Sezar eramızdan əvvəl 100-44-cü illərdə yaşamışdır), aydın olur ki, diftonun daralması və latın /k/ palatallaşması (yumşaqlaşma) bu dövrdən sonra baş vermişdir. Bir sıra məlumatlara əsasən, diftonqun daralması təxminən eramızın III əsrinə təsadüf edir, /k/ palatallaşması isə - V əsrdən başlayır.

Üçüncüsü, bildiyimiz kimi, hətta fonemlərin canlı və daha da tarixi alternativləri pozula bilər və ya əksinə bənzətmə ilə yayıla bilər. Səs qanunlarının kəşfi elmimizin inkişafında böyük rol oynadı və XIX əsrdən başlayaraq dillərin müqayisəli tarixi öyrənilməsinə imkan yaratdı. Səs qanunu

anlayışı fonem haqqında təlimin yaranmasına qədər, dilə və onun tarixinə şüurlu funksional yanaşmanın formalaşmasına qədər inkişaf etmişdir. Lakin müasir, funksional, fonoloji yanaşma bizə tarixi səs dəyişikliklərinin mahiyyətini daha yaxşı anlamağa və səs qanunları problemini yenidən düşünməyə imkan verdi (Rastorgyeva, 1983: 47).

Nəticə etibarilə zaman dilin səs quruluşunun inkişafının ayrılmaz mahiyyətidir. Saitlərin kəmiyyət xüsusiyyətlərinin həcminin dəyişməsi (nitq vaxtı) dilin çevrilmə proseslərinin sürətlənməsi (linqvistik zaman) ilə bağlıdır. Zaman daxilində dilin işləmə ritmi pozulur. Dilin təkamül prosesində sistemli və struktur transformasiyalar baş verir, bundan sonra dil yeni keyfiyyət səviyyəsinə keçir. Diaxronik zaman real vaxtla əlaqədardır, çünki biz dil dəyişikliklərini məhz onun ərzində (tarixi dövrlərdə) izləyə bilirik.

Qeyd olunduğu kimi, ingilis dilinin müəyyən zaman çərçivəsində, xüsusi ilə də Proto-İngilis dövrlərində səs sisteminin inkişafı tipoloji cəhətdən əhəmiyyətli idi: bir sıra dəyişikliklərin, saitlərin fonetik mühitdən asılılığının, müxtəlif kombinator dəyişikliklərinə həssaslığının dəqiq müəyyən edilmiş ümumi linqvistik meylləri; bu dövrlərdə onların davamını əvvəlcədən müəyyən edən sait və samitlərdə kəmiyyət fərqliliyinin inkişafı ilə bağlı idi (Prins, 1974: 65).

Köhnə ingilis dövründə sait və samitlərdə kəmiyyət ziddiyyətlərinin maksimum inkişafı dövrü oldu və hər iki alt səviyyə sadələşmə mövqeyində dayandı. Köhnə ingilis vokalizmi əsas fonetik-fonoloji proseslərin davamlılığı ilə xarakterizə olundu. Köhnə ingilis vokalizminin inkişafında yüksələn inkişaf mərhələsi (kəmiyyət əsasında maksimal inkişaf) və enən inkişaf mərhələsinin başlanğıcı müəyyən edilmişdir.

Orta İngilis vokalizmi azalan inkişaf mərhələsinin davamı ilə xarakterizə olunur. Onun təkamülünün əsas istiqaməti köhnə (kəmiyyət) əlaqələrin məhv edilməsi və yeni (keyfiyyət) əlaqələrinin formalaşması idi (Shakhbagova, 1992: 88).

Yeni İngilis dili dövrü, yeni aparıcı fonemik fərqliliklərin yüksələn mərhələsi ilə xarakterizə olunur. Əsas tipoloji əhəmiyyətli proseslər saitlərdə keyfiyyət ziddiyyətlərinin inkişafına yönəldilmişdir. İngilis dilinin fonem tərkibinin hazırkı vəziyyətinin öyrənilməsi göstərdi ki, ingilis vokalizmi köklü transformasiya mərhələsinə qədəm qoyub. Fəaliyyət dəyişikliklərinin ritmi, fonemik inventarın azaldılmasına və sistem-struktur əlaqələrin sadələşdirilməsinə yönəlmiş dəyişiklik proseslərinin sürətləndirilməsi ilə ifadə edilir.

## Nəticə

Belə nəticəyə gəldik ki, dilin tarixi variativliyinin iki əsas amili davamlılıq və səbəbiyyətdir. Dildə bütün səviyyələrdə tarixi dəyişikliklərin əsasında məhz bu iki hərəkətverici qüvvə dayanır. İkinci amil birincisi ilə sıx bağlıdır. Tarixə hər hansı bir ekskursiyanın məqsədi yalnız dil hadisələrinin müvəqqəti davamlılığının xarakterini müəyyənləşdirmək deyil, həm də təhlilin bütün mərhələlərində mümkün olduqda dəyişikliklərin səbəbini aşkar etməyə, nəticələrini əsaslandırmağa və izah etməyə çalışmaqdır.

## Ədəbiyyat

1. Zhuravlev, V.K. Printsipy iyerarkhichnosti yazykovykh izmeneniy v etimologii: stat'ya http://www.philology.ru/linguistics1/ zhuravlev-86.htm
2. Hogg, R. (2006). A History of the English Language. D.Denison. Cambridge: Cambridge University Press, 512 p.
3. Yakobson, R. O teorii fonologicheskikh soyuzov mezhdu yazykami: stat'ya http://www.philology.ru/linguistics1/jakobson-85a.htm
4. Smith, J.J. (2007). Sound Change and the History of English. Oxford University Press, 213 p.
5. Anderson, J.M. (1973). Structural Aspects of Language Change. London, 149 p.
6. Wells, J.C. (1982). Accents of English. Cambridge Univ. Press, 673 p.
7. Wiik, K. (1965). Finnish and English Vowels. Turku, 1921 p.
8. Trubetskoy, N.S. Printsipy fonologicheskoy transkriptsii: stat' http://www.philology.ru/linguistics1/trubetskoy-87a.htm

9. Trubetskoy, N.S. Fonologiya i lingvisticheskaya geografiya: stat'ya http://www.philology.ru/linguistics1/trubetskoy-87b.htm
10. Ward, I. (1972). The Phonetics of English. Cambridge: Heffer, 176 p.
11. Rastorgyeva, T.A. (1983). History of English. Moscow: Vissaja skola, 347 p.
12. Prins, A.A. (1974). A History of English phonemes from Indo-European to present-day English. Leiden: Univ. Press, 268 p.
13. Shakhbagova, D.A. (1992). Foneticheskaya sistema angliyskogo yazyka v diakhronii i sinkhronii. M.: Izd-vo Follis, 284 s.

Göndərilib: 04.02.2024 Qəbul edilib: 13.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/38-42

**Gulsanam Makhsutovna**
Navoi State Pedagogical Institute
doctor of philosophy in philological sciences
gulsanam81ndpi@umail.uz

# THE SEMANTIC FIELD OF UZBEK AND AZERBAIJANI TIMES

## Abstract

In linguistics, including dialectology, there are units that express the meanings of time, moment and space-time, which serve to connect the text with each other. It also expresses sequence and periodicity in the text. In the semantic field of Uzbek and Azerbaijani linguistics, which are ethnically close to each other, the meaning of time is studied in syntactic directions, such as temporal adverbs, time-meaning nouns, adjectives, pronouns, verbs, prepositions, tense cases, and expressing time.

***Keywords:*** *time, space, pronoun, yesterday, today, age, year, cognitivelinguistics, semantic units, perception, word groups, agreements, week, day, night*

**Gülsənəm Maxsutovna**
Nəvai Dövlət Pedaqoji İnstitutu
filologiya elmləri üzrə fəlsəfə doktoru
gulsanam81ndpi@umail.uz

## Özbək və Azərbaycan zamanının semantik sahəsi

## Xülasə

Dilçilikdə, o cümlədən dialektologiyada zaman, məqam və məkan-zaman mənalarını ifadə edən, mətni bir-biri ilə əlaqələndirməyə xidmət edən vahidlər mövcuddur. O, həm də mətndə ardıcıllığı və dövriliyi ifadə edir. Etnik cəhətdən bir-birinə yaxın olan özbək və Azərbaycan dilçiliyinin semantik sahəsində zaman mənası zaman zərfləri, zaman-mənalı isimlər, sifətlər, əvəzliklər, fellər, ön sözlər, zaman halları, zaman mənaları kimi sintaktik istiqamətlərdə öyrənilir. vaxtı ifadə edir.

***Açar sözlər:*** *zaman, məkan, əvəzlik, dünən, yaş, il, koqnitiv dilçilik, semantik vahidlər, qavrayış, söz qrupları, razılaşmalar, həftə, gün, gündüz, gecə*

## Introduction

There are millions of languages in the world and words that express their meaning. Although people speak various languages differently, it is a fact that there is an embodiment of semantic meanings that mean the same content. One of the languages that are close to each other and reflect harmony in themselves is the Uzbek language and the languages of Azerbaijan. Semantic field of these ethnically related languages and the analytical aspects of the words used in them almost complement each other. In particular, it can be seen through scientific research that the semantic field of words belonging to the Uzbek language and the use and meanings of the words with specific meanings in it are close to the Azerbaijani language (Linguistic expressions of the concept of space in Orkhan-ssey monuments, 2017: 66-70).

As you know, in the world of science, there is Linguistics, which is the science of languages. This subject studies the general characteristics of language: the emergence of languages, the kinship of languages, and general theoretical issues. This directly gives rise to general linguistics. With the enrichment and development of languages, this field continues to progress. This is done on the basis of learning the national language. That is why the comparative study of Uzbek and Azerbaijani languages is of great importance (Rejepli, 2002).

In linguistics, the feature of expressing the meaning of a word is the main sign for distinguishing word groups. Each group of words expressing a lexical meaning has a question according to its meaning. For example, the word today, early, yesterday - **today**, **early**, **yesterday**, which means the time, when does it correspond to its meaning? - **when?** answers the question (Muhammadjonova, 1982).

That is, if we execute the sentence from **tomorrow.**

Abdulla Qadiri's work **"The Past Days".**

***from tomorrow.***

Abdulla Qadirin's work **"Yesterday"**.

**off today's** work for tomorrow.

Don't leave **today's** work **for tomorrow.**

A morphological sign specific to word groups is determined by the presence of suffixes specific to this group.

For example, the noun class is characterized by the presence of plural possessive and agreement suffixes. The syntactic sign is determined by the fact that the words can be part of a sentence or not perform the function of a part of a sentence. Words expressing the meaning of time are also formed among the words that are syntactically connected with conjugational adverbs. Also, the place-time agreement is the answer to the questions of who, what, where, when, indicating the place where the person or object is, the place and time of the action. is formed with the addition of: **in** the afternoon - **at noon,** on Friday - **on Friday** (Okhundov, 1999).

For example: He came in a hurry **at noon** and drank a cup of tea. **Noon** came in a hurry and drank a cup of tea. In the language, the word in the place-time agreement expresses the following meanings.

1. What is the object of the action? - **in what?** is the answer to the question, it acts as a complement in the sentence. For example, Children set an example in reading **Children set an example in reading.**
2. Where is the location of the action**?** - **where?** is an answer to a question, it acts as a case of place in a sentence. The children were preparing a lesson in the classroom - **The children were preparing a lesson in the classroom.**

Telling **the moment of** performance of the action, **when? - when?** is the answer to a question, it acts as **a tense in a sentence**: as in youth - **in youth,** in the afternoon - **in the afternoon,** in autumn - **in autumn** (Mahmudov, 2012).

For example: **In autumn**, shaking the leaves one by one, The winds sent a message from you. **In autumn**, the leaves are shaking one by one, the winds told you. Another of the independent word groups is the Ravish word group, which are words that indicate the sign of action and state, time, moment. Adverbs are used mainly as cases, and when they are connected to adjectives and nouns, they are used as adjectives and qualifiers: His words were childishly simple, sincere, but clear and clear. In terms of meaning, attitudes are divided into status (style) attitudes, quantity-level attitudes, place attitudes, time attitudes, reason attitudes, goal attitudes (Materials from the lexicology of the Uzbek language, 2009). **Time adverbs** indicate the time of action, when? - **when?** the answer to the question is: now -**Now**, early - early**,** indin - **Now**, early-now - **late or soon, noon - noon,** evening – evening, today - today**,** before - **before,** recently - **recently,** after - **sonar,** yesterday - yesterday, last year - like **last year.** Tense adverbs come in the function of tense and participle.

In the Uzbek and Azerbaijani languages, words with the meaning of time indicate the flow of events, the chronological sequence of which are related in the text. As things move in time and space, there must be a time continuum in every type of text, depending on the type of text, the style, and the purpose of the author, the flow of time can be rendered brighter or dimmer. Time continuum or more clearly expressed in historical-scientific, historical-artistic text types (The Uzbek language, 1981). And the text components are linked by a chain of temporal words. Time-meaning lexemes serve as a means of connecting sentences in the text. They have the ability to form a text by connecting sentences from content and syntactic aspects.

For example: Kumush woke up **early in the morning** and looked around the yard. He thought of preparing wonderful desserts for the guests coming **today (O'. Hoshimov).**

Kumuş woke up **early in the morning** and looked around the yard. He thought of preparing beautiful sweets for the guests who came **today (O.Hoshimov).**

Agree, I will leave **tomorrow**. He has a lot to do **until sunset** (O.Yakubov). Agree, I will go **tomorrow**. He has a lot to do **until sunset (O.Yakubov).** The words expressing the meaning of the moment connect the sentences in the text with contact and distant relations. The connection of adjacent words is contact, and the connection of sentences between which there are other sentences is distant (distance) communication (Safarov, 2008). Century, year, season, week, day (day), hour, minute, second - **Century, year, season, week, day, hour, minute, second**. Lexemes represent the exact time of events in the text and the duration of time between events.

**Three years ago,** he hung his pumpkin-beak. He knocked on my door again. (T.Murad) **Three years ago**, he hanged his head. He knocked on my door again **(T.Murad).** He was silent for a long time. **Seconds to minutes, minutes to hours, hours to weeks**. **Days and months** passed. However, he could not get to the bottom of these words **(O'. Hoshimov).** He was silent for a long time. **Seconds are minutes, minutes are hours, and hours are weeks. Days, months** have passed. But he could not understand these words. **(O'.Hoshimov)** With time semantics depend on their meaning. Lexemes denoting a large duration of time have greater opportunities for text formation, that is, they can connect more sentences representing events that take place over a long period of time (9).

A trilogy based on the lexeme of the century; a story based on year, month, season - **year, month, season,** week lexemes: week, day, day, night - **week, day, night** hour lexemes can create a story based on content. The lexemes of moment and moment – **an** can connect the reality of two or three sentences.

The semantic layer of the leading word in the formation of the text is important. As the leading word connects the sentences, these connections are based on the main and potential themes of the leading word. **Ten months** have passed. His health has not yet recovered. No call or text for **several weeks** (T.Malik). **Ten months** have passed. His health has not yet recovered. There has been no call or letter for **several weeks (T.Malik)** (10).

Since lexemes with the meaning of time act as connectors in the text, the semes of the connected words should have exactly the seme, that is, the seme should turn into the sememe. These relationships include exactness, synonymy, antonymy, whole part, type-genus, gradation, qualification. These relations are formed by means of lexical repetition, pronouns, synonyms, words whose meaning is not determined at the level of a sentence, lexical-grammatical elements such as since, then, after that. Also, communicative needs, such as affirming the denotation of time as a reality (pronoun sentence) as the temporal theme of the next thought or description (Autumn! It's like a summary of our life, as it were...) are also text-forming factors ("National Encyclopedia of Uzbekistan" State Scientific Publishing House, 2006).

Time-meaning words work in cooperation with other units of the temporal field in forming the text and ensuring its integrity.

In the Uzbek language, the meanings of time and measurement exist as an independent language unit (semema) or as a constituent of the semantics of other language units (sema). The semantics of time and measure has its own lexical, grammatical, phonetic expressions. In Uzbek and Azerbaijani linguistics, the meaning of time is studied in syntactic directions such as temporal adverbs, timemeaning nouns, adjectives, pronouns, verbs, accusatives, tense cases, and constructions expressing time. There are specific and related opinions about the temporal meaning of lexical units (Abdurahmonov, Rustamov, 1982).

Issues such as the composition of time symbols and symbols, their system-forming capabilities, macro and microsystems with time semantics, their structural features, the role and scope of timerepresenting units in the lexical system have not been resolved. In recent years, interest in the text problem has increased in world linguistics. This makes it necessary to look for systematicity in

the scientific article from higher-level units, to distinguish between static and dynamic systems of language and speech (Shirelijev, 1962).

For example, the abstract lexicon expressing general time in the Uzbek language is **time, time, place, period, time, moment(i), time (time), period, opportunity - time, an, earth, period, time, immediately, time, period, opportunity** that it is made up of words such as time, **period, period, rest, moment, moment, period - time**, **period, lifetime**, **rest, an,** express the time that they have certain boundaries, and the words time, period are certain events, often socio-historical events scientific opinions about the long duration of time associated with (Begmatov, 1981; 15).

**"Time"** as an object are divided into several groups based on their different meanings:

1. **nouns expressing pure time as an abstract object** (time, time, place, period - **time, place, place, period,** ...);
2. **time measurement** nouns (second, minute, hour - **second, minute, hour**);
3. **of parts of the day** (day, morning, hour - **day, morning, time** ...)
4. **weekday** names (Monday, Tuesday - **Monday, Tuesday** ...);
5. **seasonal** nouns (spring, summer - **spring, summer** ...);
6. **representing the place of time** (age, beginning, future - **age, beginning, future** ...);
7. **for the purposeful** or specific realization of a certain work (fursat, mavrit - **opportunity, mauritius,** ...).

Emphasizing the potentialization (weakening) of the "time" theme in the semantic structure of nouns representing time-related objects, events, and situations, temporal nouns belonging to this group are divided into the following thematic group (15): nouns meaning time calculation (calendar, date - **calendar, history** ); ceremonial nouns (three, seven, twenty - **three, seven, twenty**...); nouns representing meals related to time (breakfast, breakfast - **morning, breakfast** ...); nouns with time semantics representing holidays and events (nowruz, night, eve - **nowruz, dünən, ərəfə** ...); lexemes representing the names of **age types of people (boy, child, old man - boy, child, old man** ...); **a timed competition** (start, final – **to start, finale** ….) (16).

## Conclusion

It should be noted that the words expressing the meanings of time, moment, and space-time have a special place in Uzbek and Azerbaijani linguistics. In these works, it expresses periodicity and consistency in the semantic field. These words express the specific time of events carried out by the person and the subject.

## References

1. Linguistic expressions of the concept of space in Orkhan-ssey monuments. (2017). Baku: Teaching the language and literature of Azerbaijan (scientific and methodological journal). 1 (251), pp.66-70.
2. Rejepli, A.A. (2002). Morphology of Turkish language. Ed. N.Jafarov. Baku: BSU.
3. Muhammadjonova, G. (1982). Some issues of the Uzbek language lexicon tara qq verse. T.:Science.
4. Explanatory dictionary of the Azerbaijani language (edited by Prof. A.Okhundov), in 3 volumes. (1999). II century. Baku: Chirag.
5. Mahmudov, N. (2012). In search of ways of perfect study of the language... Uzbek language and literature. Tashkent.
6. Materials from the lexicology of the Uzbek language. (2009). Tashkent.
7. The Uzbek language. (1981). T.: Science.
8. Safarov, Sh. (2008). Pragmalinguistics. Tashkent: National Encyclopedia of Uzbekistan State Scientific Publishing House.
9. An explanatory dictionary of the Uzbek language. Five volumes. Volume 2 (edited by A.Madvaliev). Tashkent.
10. http://ru.wikipedia.org/-wiki/-zoonym
11. "National Encyclopedia of Uzbekistan" State Scientific Publishing House. (2006).
12. Abdurahmonov, G., Rustamov, A.Q. (1982). Is a Turkish language. T.: O' q itychi.

13. Shirelijev, M. (1962). Essays on Azerbaijani ∂□dialectology ∂. B.
14. Begmatov, E. (1981). Socio-historical foundations of the lexicon of the Uzbek language. Lexicology of the Uzbek language. T.: Science.
15. www.google.ru
16. www.ziyauz_com

Received: 02.03.2024 Accepted: 07.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/43-48

**Aygül Eyyubova**
Odlar Yurdu Universiteti
doktorant
aygul-1991@list.ru

# MƏTNİN STRUKTUR-SEMANTİK ASPEKTLƏRİ

## Xülasə

Məqalədə mətnin struktur semantik xüsusiyyətləri və inversiya müasir dilçiliyin universal problemlərindən biri kimi nəzərdən keçirilir. Mətn dilin əsas vahidi, həm də nitqin əsas vahidi. Aydındır ki, mətn mədəni fəaliyyətin mürəkkəb hadisəsidir. Biz mətnin öyrənilməsinin bir çox aspektlərini bilirik. Bu məsələlərdən biri də uyğunlaşma prosesi nəticəsində mətnin struktur və semantik keyfiyyətlərini müəyyən etməkdir.

Müşahidələr göstərir ki, mətnin konkret struktur modelləri mövcuddur. Mətn kommunikativ və informativ vahid kimi onun struktur-semantik işarələri ilə yaranır.

Onun strukturu və komponentləri özünəməxsus üsul və vasitələrlə təşkil edilir. Mətnin başa düşülməsi mənanın bəşəri və milli səviyyədə qəbul edilməsindən başlayır.

Mətnin struktur-semantik xüsusiyyətləri inversiya ilə birbaşa bağlıdır. Bu kontekstdə mətndə inversiya problemi ilə qarşılaşmaq olar. Problemin dərinliyinə qədər öyrənilməsi çox vacib məsələ kimi diqqət mərkəzində saxlanılmalıdır.

***Açar sözlər:*** *mətn, struktur-semantik təhlil, söz sırası, cümlə üzvlərinin sırası, mətnin semantikası*

**Aygul Eyyubova**
Odlar Yurdu University
PhD student
aygul-1991@list.ru

## Structural-semantic features of the text

## Abstract

The article considers structural semantic features of the text and inversion as one of the universal problems of modern linguistics. The text is not only the basic unit of the language but also the main unit of the speech. It is clear that the text is a complex phenomenon of cultural activity. We know many aspects of the study of the text. One of these issues is to identify the structural and semantic qualities of the text as a result of the adaptation process.

Observations show that there are specific structural models of the text. Text, as a communicative and informative unit, is created by its structural-semantic marks.

Its structure and components are organized by its specific methods and means. Understanding of the text begins with the acceptance of the meaning at human and national levels.

Structural-semantic features of the text are directly related to the inversion. In this context, it is possible to confront the problem of inversion in text. Studying up to the depth of the problem should be kept in focus as a very important issue.

***Keywords:*** *text, structural-semantic analysis, word order, order of sentence members, semantics of text*

## Giriş

Mətn sadə və mürəkkəb cümlələrin formal-qrammatik və məna-semantik birliyi, əlaqəsi ilə formalaşır. Cümlələrə aid bu əlaqələr daha geniş parametrlərlə mətnə, onun komponentlərinə də aiddir. Cümlə üzvlərinin yeri ilə bağlı inversiya halları cümlənin sintaktik quruluşu və cümlənin qrammatik üzvlərinin önəm daşıyan tələbləri ilə bağlıdır. Üzvlərin sırası əsasən tarixən olduğu kimi,

indi də normaların ilkin modellərinə əsaslanır (Kazımov, 2019: 336).

Mətn özlüyündə performativ xarakter kəsb edir, dildə monoloq, dialoq və söyləmlərlə gerçəkləşir. Performativ mətnlər kommunikasiya situasiyasında aktuallaşır. Bu xüsusda mətnin strukturu ciddi kompozisiyaya malik olmasındadır.

Müasir ingilis dilində qrammatik-morfoloji kateqoriyaların zəif mövqeyi hamıya bəllidir. Odur ki, qrammatik əlaqələr, əsasən, söz birləşmələrində, mətnin cümlələrində söz sırası ilə təzahür olunur. Söz sırasının sabitlik və sərbəst əlaməti ismin hal kateqoriyası ilə birbaşa əlaqədardır. Hal kateqoriyasının zəif olan və ya heç olmayan dillərdə sözün düzülüşü sabitləşmə zorunda qalır, ismin hallarının kateqoriyasının vəzifəsini aparmalı olur, mətnində iştirak edən sözlərin arasındakı qrammatik əlaqələri ifadə edir.

Söz sırası sabitləşmiş xalis ədəbi sıra və canlı danışıq dili sırası olmaqla iki yerə ayrılır. Müasir ingilis dilində mətnlərin daxilində söz birləşmələri tərkibin müstəqilliyinə əsasən təsriflənir (şəxsə və kəmiyyətə görə dəyişir). Tərkibləri sərbəst olmayan birləşmələrdə komponentlərin yerlərini dəyişməsi-inversiyaya məruz qalması mənanın dəyişməsinə, bəzi hallarda isə mənanın itməsinə gətirib çıxarır. Bu cür söyləmləri formalaşdıran leksik vahidlərdən digəri müstəqilliyini itirir. Məs.: *a country teacher (kənd müəllimi), the boy's courage (oğlanın cəsarəti)* və s.

İsmi söz birləşmələrinin isə strukturunda əsas kompentdən istifadə olunmur. Belə təyini birləşmələrdəki sözlər sərbəst biçimdə özünü göstərir. Məs.: *boys and girls (oğlanlar və qızlar), girls and boys (qızlar və oğlanlar)* və s. (Musayev,1979: 12).

7. Topal Coşkun, Türkiyənin Cənubi Qafqaz Siyasəti və Ermənistanla Münasibətləri. https://www.researchgate.net/publication/275220568_Turkiyenin_Guney_Kafkasya_Politikasi_ve_Ermenistan_ile_Iliskileri
8. Ayla, A. (2021). "Cənubi Qafqaz və Türkiyə Sosial-İqtisadi Münasibətləri", Strateji və Sosial Araşdırmalar Jurnalı, Cild 5, №2 iyul, s.195-205. https://dergipark.org.tr/en/download/article-file/1543252
9. Toker, H. (2023). Türkiyə-Rusiya Federasiyası Münasibətləri Yoluyla Cənubi Qafqaz-Ox Dəyişikliklərinin Təhlili (Oktyabr 1920-ci ilə qədərki dövr). Eurasia Journal of International Studies, 11 (35), s.975-997. https://dergipark.org.tr/tr/pub/avrasyad/issue/76889/1223670
10. Hamidreza Azizi, Daria Isachenko, Turkey-Iran Rivalry in the Changing Geopolitics of the South Caucasus. https://www.swp-berlin.org/10.18449/2023C49/
11. Yapıcı, U. Türkiyənin Cənubi Qafqaz Siyasəti (1989-1993): Qərbin təyini. https://alternatifpolitika.com/eng/makale/turkiye-nin-guney-kafkasya-politikasi-1989-1993-bati-nin-belirleyiciligi
12. Andrei Areshev. Turkey's policies the southern caucasus and regional security mechanisms. https://dergipark.org.tr/en/download/article-file/777526

Göndərilib: 13.03.2024 Qəbul edilib: 22.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/58-65

**Nərgiz Səlimova**
Azərbaycan Dillər Universiteti
doktorant
salimovanargiz.adu@gmail.com

# EVFEMİZM VƏ DİSFEMİZMLƏRİN KOQNİTİV – DİSKURSİV XÜSUSİYYƏTLƏRİ

**Xülasə**

Evfemizm və disfemizm istənilən diskurs növündə işlədilə bilən linqivistik paradiqma təşkil edir. Ənənəvi olaraq onlara konkret məfhumları və konseptləri bildirən söz və ifadələri digər sinonim leksemlər vasitəsilə əvəz edə bilən kateqoriyalar kimi yanaşılır.

Koqnitiv prospektdən evfemizm və disfemizmlərin müxtəlif diskurs növlərində *(siyasi, iqtisadi, tibbi, dini, mədəni, məişət və s. kimi kommunikativ diskurslar)* işlədilməsi qeyri-ixtiyari olmayıb koqnitiv kateqoriyalarla şərtlənmişdir. İlkin olaraq evfemizmlər tabuları, kobud anlayışları və həsas mövzuları adlandırmağa xidmət edərək çox zaman obrazlı sinonimlik yaradır. Buna zidd olaraq isə disfemizm neytral sözləri və konseptləri mühün ritorik təsirə malik olan daha kobud və incidici ifadələrlə əvəz edir.

Qədim zamanlardan indiyədək, demək olar ki, bütün cəmiyyətlərdə bir çox həssas mövzular adı çəkilməsi yasaq mövzular təşkil etmişdir. Bu mövzulara münasibətdə diqqətlə davranılmış, kobud və ya həsas, siyasi cəhətdən düzgün olmayan konseptləri adlandırmaq üçün, bəzən isə sadəcə nəzakət prinsipinə əməl etmək niyyətilə müxtəlif söz və ifadələr yaradılmışdır. *"İntim" bədən üzvləri, cinsi əlaqə, bədənin funksiyaları, şəhvət, sosial status məfhumu, nifrət, vicdanlızlıq, dəlilik, əqli xəstəliklər, fiziki qüsurlar, təhlükəli heyvanlar, Allah və şeytanla* bağlı konseptləri bildirən mövzular əksərən tabu təşkil edir və evfemistik ifadələrlə əvəz oluna bilər. Adətən konkret konseptləri adlandırmaq üçün məqsədyönlü linqivistik manipuluyasiyalar həyata keçirilir. Bu tədqiqatın əsas hədəfi evfemizm və disfemizmlərin koqnitiv-diskursiv işlənmə prinsiplərini müəyyən etməkdən ibarətdir.

***Açar sözlər:*** *evfemizm, disfemizm, diskurs, koqnitivizm, konseptləşmə, kateqorizasiya*

**Nargiz Salimova**
Azerbaijan University of Languages
PhD student
salimovanargiz.adu@gmail.com

## Cognitive – discoursive aspects of euphemisms and dysphemisms

**Abstract**

Euphemism and dysphemism form common linguistic paradigms that can used in any discourse type. Traditionally, they are approached as categories that can replace words or phrases indicating concrete notions and concepts with other synonymic lexemes.

From a cognitive perspective, euphemisms and dysphemisms in various discourse types (political discourse, economic discourse, medical discourse, religious discourse, cultural discourse, everyday discourse, etc., communicative discourse) are not arbitrary but conditioned by cognitive categories. Euphemisms primarily serve to name or replace taboo, rude notions, and sensitive topics, often creating expressive synonymy. In contrast, dysphemisms replace neutral words and concepts with more rude and hurtful ones with a substantial rhetorical effect.

From ancient times until nowadays, many sensitive themes have been unmentionable in almost all societies. These themes were treated carefully, and various new words and expressions were coined to name the concepts that might be considered rude, sensitive, politically incorrect, or

sometimes just for the intention of following the principle of politeness. Such themes as "*private parts," sex, bodily functions, lust, the notion of social status, hate, dishonesty, madness, mental disease, physical disabilities, dangerous animals, fear, God and Devil*, etc., concepts mainly indicate taboos and can be replaced by euphemistic expressions. Usually, purposeful linguistic manipulations are used to name concrete concepts. This research aims to discover specific principles of cognitive-discoursive usage of euphemisms and dysphemisms.
***Keywords:*** *euphemism, dysphemism, discourse, cognitivism, conceptualization, categorization*

## Giriş

İngilis dili cəmiyyətin XX əsrin sonu XXI əsrin əvvəlindəki dil mənzərəsi koqnitiv kateqoriyaları əhatə edir. İntensiv olaraq yeni leksika ilə zənginləşən bu kateqoriya ümumilikdə dünyanın konseptual modelinin əsasını təşkil edir. Yeni sözlərin yaranması ekstralinqvistik gerçəkliyin real vəziyyətindən asılı olmayaraq baş verir. Dünyanın ingilis dili mənzərəsi xüsusi obrazlara, konseptlərə, ideyalara əsaslanır ki, bu da müvafiq linqvistik vasitələrlə ifadə olunur. Konseptual dünyagörüşü ingilis dilinin müxtəlif variantlarında milli xüsusiyyətlərə xas biliklərin mövcud sistemi ilə müəyyən olunur.

Evfemizm dedikdə əsasən güclü bir dil aləti nəzərdə tututlur ki, bu alətin vasitəsi ilə kəskin və xoşagəlməz söz və ifadələrin daha yümşaq qəbuloluna biləcək, eləcə də nəzakətli olanlarla əvəzedilməsi təmin edilir. Evfemizmlərin öyrəndiyi semantik sahələr, eləcədə diskurslar çoxşaxəlidir: *siyasət, politkorreklik, iqtisadiyyat ölüm, din, məişət, cinsəllik və s.*

Evfemizmlər və disfemizmlər qadağa olunmuş reallığın konseptualizasiya proseslərini əks etdirir. Bu gerçəklik kontravalent effektə sahibdir, yəni eyni əsasa malik olub fərqli məqsəd və niyyətlər daşıyır. Ənənəvi linqivistika onlara leksik-semantik səviyyədə yanaşıb öyrənsə də, koqnitiv səviyyədə bu paradiqma mahiyyətini dəyişərək konseptləşmə prosesinin bir hissəsi kimi çıxır edir. Koqnitiv–diskursiv cəhətdən yanaşdıqda isə sözü gedən kateqoriya, yəni evfemizm-disfemizm əvəzlənməsi sırf leksik səviyyə çərçivəsindən çıxaraq sadəcə sözəvəzedici funksiya daşımır, koqnitiv boyutda bu və ya digər konseptualizasiyanı əks etdirir. Konseptual kateqoriyalara çevrilmək sözügedən linqivistik proseslərin başlıca diskursiv fəaliyyətinin nisbi təbiətini praqmatik fərziyyələrlə əks etdirmədə rol oynayır.

***Tədqiqatın aktuallığı*** evfemizmlərin və disfemizmlərin koqnitiv spesifikası ilə əlaqədar işlərin kasadlığı ilə şərtlənir. Tədqiqatın aktualığı həm də onu bir tərəfdən hal-hazırda linqivistikada başlıca elmi cərəyanla – koqnitivizmlə, digər tərəfdən sözügedən fenomenin əsas dərki proseslərlə, konseptualizasiya və kateqorizasiya ilə əlaqədar olması, eləcə də onların daşıdığı bilik, informasiyanın reprezentasiyasının ümumi qanunauyğunluğu ilə şərtlənmişdir. ***Tədqiqat obyekti*** olaraq diskursiv səciyyəli dildə mövcud evfemizm və disfemizmlər qeyd olunmalıdır. Yaranma, təşəkkül tapma və koqnitiv - diskursiv funksiya araşdırmanın *maraq obyektini* təşkil edir. ***Tədqiqatın əsas məqsədini*** evfemizmlərin və disfemizmlərin əsas koqnitiv proseslər sırasında rolunun öyrənilməsi təşkil edir. Koqnitiv əsasların müəyyən edilməsi, onlarda saxlanan biliyin verballaşması, yəni konseptualizasiyası, eləcə də evfemistik-disfemistik əvəzlənməni mümkün edən konseptlərarası əlaqələrin müəyyən olunması da məqsədlər sırasına daxildir. ***Tədqiqat materialı*** olaraq bu məqalədə təhlil edilən evfemizmlərin əksəriyyəti Holderin "A Dictionary of Euphemisms" (Holder, 2002) və Spearsın "Slang and Euphemism" (Spears, 2001) lüğətlərindən seçilmişdir. Bununla belə bəzi qisim evfemizmlər və disfemizmlər (eləcə də məna və funksiyaları) internet mənbələrinə, onlayn lüğət və tezauruslara istinadən verilmişdir. H.Rawson (Rawson, 1981) kimi müəlliflərin ixtisaslaşmış lüğətləri, ingilis dilinin onlayn korpusu, internet hüdudlarında mövcud məşhur izahlı lüğətlər, eləcə də ümumi seçim metodu ilə seçilmiş müxtəlif tematikalı diskurslara məxsus publisistik əsərlərdən götürülən evfemizmlərdən istifadə olunmuşdur.

***Metod və metodologiya***. Tədqiqatda metod olaraq koqnitiv dilçilyə aid olan yanaşmalardan istifadə edilərək, koqnitiv semantika prizmasından çıxış olunur. Koqnitiv semantika və metaforalarla evfemiyanın əlaqəsi diqqətə çatdırılır. Müxtəlif mənbələrdən təsadüfi seçilmiş dil materialarını ümümi bir prinsip üzrə birləşdirməyə cəhd göstərilir. Təhlil olun efvemiya və

disfemiya nümunələrinə konseptlər səviyyəsində kateqorizasiya elementi kimi yanaşılır. Koqnitiv dilçilik mövqeyindən yanaşıldıqda dil konseptualizasiya, kateqorizasiya dərk və anlama kimi mental prosesləri əhatə edən koqnitiv bacarıqların məcmusu kimi başa düşülür. Ümumi dərketmə prosesinin bir hissəsi kimi biliyə koqnitiv mahiyyətdən yanaşsaq koqnitiv dilçilik dillə təfəkkürün əlaqəsini öyrənir. İctimai şüurun məhsulu kimi konseptuallaşaraq, biliyin verballaşdırılması həyata keçirilir. Bu prinsipdən çıxış edərək evfemizm və disfemizmlərin tədqiqi və təhlili aparılmışdır.

***Tədqiqata dair əsas nəzəri əsərlərin və yanaşmaların təhlili.*** Evfemistik nominasiyalar bir çox linqivistlərin tədqiqat obyekti olmuşdur*:* K.Allan (Allan, Burridge, 1991), K.Burridge (Burridge, Kathryn, 2006), R.W.Holder (Holder, 2002), J.S.Neoman (Neoman, Silver, 1995), C.G.Silver (1995), R.A.Spears (Spears, 2001), V.V.Panin (Panin, 2004), R.Keyes (Keyes, 2010), Cacas Gomez (Gomez, Miguel, 2009-2012), H.Rawson (Rawson, 1981) və s. kimi tədqiqatçılar bu sahədə araşdırmalar aparmışlar. Müəlliflər evfemizmlərin danışıq diskursuna xarakterik sözyaradıcı aspektinə diqqəti yönəltmişlər. Bu tədqiqatda isə onların dikursiv səviyyədə koqnitiv təhlili və tədqiqinin vacibliyi ön plana çəklimişdir.

Hal-hazırda evfemizmlərin müxtəlif tərifləri mövcuddur. Variativliyinə baxmayaraq bu təriflər eyni bir praqmatik-funksional prinsipə görə birləşir. Bu prinsip ifadələrin mənasının yumşaldılması, neqativ dəyərləndirmələrin neytral və müsbət olanları ilə əvəz olunmasıdır. Kəskin sosial problemlərdən yayınmaq, gerçəkliyi üstüörtülü şəkildə göstərmək çoxşaxəli diskursda işlənən evfemizmlərin əsas məqsədidir.

Ənənəvi olaraq bu və ya digər dilin hər hansı hadisələrinin, vəziyyətlərin neytral təqdimatı üçün işlədilən söz və söz birləşmələri evfemizm adlandırırlar. Hesab etmək olar ki, evfemizmlər elə sinonim sözlər ifadələrdir ki, müxtəlif mövzuları ört-basdır etmək məqsədi ilə başqasının yerinə işlədilir. Bu mövzuların aktuallaşması *sosial-siyasi, sosial-iqtisadi, etik, etnik, dini* və digər kriteriyalara görə arzuolunmaz hesab olunur. Qeyd etmək lazımdır ki, evfemizmlər dinamikliyi, qeyri-sabitliyi ilə fərqlənən leksikaya aid olması ilə səciyyəvidir. Leksemlərin çoxu əvvəlcə evfemizmlər kimi təyin olunmuş, sonra isə ümumişlək neytral leksikaya çevrilir. Bu səbəbdən lüğətlərdə müvafiq anlayışlar tez köhnəlir. Biz hal-hazırda işlədilən və aktuallığa malik evfemizmləri və disfemizmləri araşdırcağıq.

Evfemizmlər verilən onlarla təriflər mövcuddur. İlk olaraq əsas ingilisdilli lüğətlərdə verilən təriflərə nəzər salaq. ***Oxford Learner's Dictionary*** bu məfhuma belə bir definisiya və ya təyin verir: "*Evfemizm nə isə xoşagəlməz və utandırıcı bir əşyanın həqiqətdə olduğundan daha əlverişli, qəbulediləbilən olması üçün işlədilən söz və ifadələri bildirən termindir*" (12). ***Cambridge Dictionary*** isə evfemizmi "*təhqiqedici və ya xoşagəlməz sözü deməkdən yayınmaq üçün işlədilən söz və ya birləşmələr*" adlandırır (13). ***The Collins Dictionary*** evfemizmlər "*insanların utanverici və ya məyusedici hesab etdikləri şeylər barəsində danışarkən müraciət etdikləri söz və ifadələr*" (14) kimi təqdim edir. ***Meriam-Webster Dictionary'*** yə istinadən isə evfemizmin"*xoşagəlməz və ya təhqiredici ola biləcək ifadənin daha münasib və təhqiredici olmayanla əvəzedilməsi*" (15) olduğunu öyrənmək mümkündür.

Etimologiyası etibarilə evfemizm sözü yunan mənşəli "*euphemismos*" sözündən törəmişdir və "*yaxşı danışan*" mənasına mailkdir. İlkin vaxtlarda dini məqsədlərlə işlədilən bu termin daha sonralar məna genişlənməsinə uğramış və daha geniş əhatə dairəsinə sahib olmuşdur. Evfemizmlərdən istifadəyə olan ehtiyyac həm sosial həm də emosional təbiətə malikdir. Cəmiyyətdə açıq-aşkar vurğulanması qeyd oluna mövzular yəni tabu olan mövzulara istinadən işlədilən bir diskursiv – ritorik strategiya kini başa düşülə bilər. Mahiyyət etibarilə həm evfemizmlər, həm də disfemizmlər obrazlı dilin ünsürlərin dən əks etdirən dil işarələrindən ibarətdir. Bu səbəbdən onların ifadə etdikləri konseptlər kateqorizasiyaya uğramağa məhkumdur. Bu kateqoriyaya aid lüğətin leksikolizasiyası polisemiya yaradır. Metaforizasiya paradiqması kimi kimi evfemizm və disfemizm fenomeni də koqnitiv yanaşmada konseptual şəbəkənin bir hissəsinə çevrilmişdir.

Evfemizmlərərdən istifadə bəzən yöndəmsizlik, çaşqınlıq hissinin aradan qalxmasına xidmət edir. *Ralph Keyes* bu məsələyə toxunaraq qeyd edir: "*Sivil diskurs (nitq) dolayılıq mənbəsi olmada*

*qeyri-mümkün olardı. Evfemizmlər bizə alət (vasitə) yaradır ki, həsas mövzuların adını çəkmədən onlardan bəhs edək*” (Keyes, 2010)

Evfemizmə əks olan kateqoriyanı disfemizm təşkil edir. Disfemizmlərə tabu, söyüş, küfr kimi qeyri-normativ leksika aiddir. Dizfemizm anlayışı XIX əsrin sonlarında peyda olmuşdur, yunan mənşəli “*dys” (pis) və “pheme” (nitq)* sözlərinin birləşməsindən yaranmışdır. Bu linqivistik kateqoriya məxfi konnotasiyaya malik neytral və ya evfemistik ifadələrə ziddiyyət, qarşılaşdırma (contrast) təşkil edir (Keith, Burridge, 1991-2006). Qeyd etmək lazımdır ki, evfemizm hər zaman “tabu və ya təhqiredici mövzulardan uzaq qaçmaq məqsədi ilə” (Burridge, 2006: 456) işlədilmir. Burridge yazır ki, evfemizmin işlədilməsi. gündəlik həyatda daha müsbət konnotasiya yaratmaq niyyəti daşıya bilir. Məsələn, *older people* (qocalar) əvəzinə *senior citizens* (böyüklər) işlədilir.

Evfemizm və diszemizmlərələ biavasitə əlaqəsi olan digər bir anlayş da *tabu* paradiqmidir. *Spears* (Spears, 1982) *tabu* sözünün polineziya mənşəli olduğunu və dini qadağalara aidiyyətini qeyd edir. Belə qadağalara əməl edilməsi şəraitində cəza nəzərdə tutulduğunu bildirir. Bu sözün müasir mənası “*sosial kommunikasiyanın məcbur etdiyi hər hansı qadağa*” kimi dəyişdirilməlidir. Spears (Spears, 1982) bildirir ki, qərb cəmiyyətində tabular sosium önündə, xüsusilə də qadınlar olan yerdə işlədilir və adətən *ölüm, seks, küfr, bədən funksiyyaları* və s. həssas mövzulara aid olur. Tabunun gücü dil daşıyıcılarını qadağan konseptlərdən yayınmağa vadar edir. Tabuların əhatə etdiyi mövzülar çoxşaxəli olsa da, ən çox işlədilən tabular *cinsəllik, cinsi əlaqə və ya cinsiyyət orqanları* ilə bağlı olan konseptlərin ifadəsini əks etdirən semantik sahəni əhatə edir. Allan və Burridge qeyd edirlər ki, qadın cinsiyyət orqanını (vaginanı) bildirən 1200 termin, kişi cinsiyyət üzvünü (penis) ifadə edən 800 termin mövcuddur (Allan, Burrigde, 1991: 96).

Evfemizmi “xoşagəlməz olan barədə danışmağın xoş üsulu” kimi dəyərləndirmək olar. Evfemizasiya hadisəsi mental proses təşkil edir, konseptual məzmuna malik olub konnotativ, yəni ikincili mənanın intrepritasiyası, konseptuallaşması zamanı gözdən keçirilir. Konseptual derivasiya mövzunun birbaşa ifadəsində öz əksini tapır. Bu funksiyanın realizasiyanda çox çox zaman konseptual metafora, metanimiya, inferensiya, koseptual məzmunun daralması, genişlənməsi və s. kimi mexanizmlər çıxış edir.

Əvvəlcə də vurğulandığı kimi sözü gedən fenomenlər çoxşaxəli diskursiv işlənmə arealına sahibdir. Məsələn *iqtisadiyyatda* iqtisadi mətnlərin müəllifləri evfemistik ifadələri işlədərkən müxtəlif məqsədlər güdür. Onlar hadisənin və yaxud şəxsin xarakteristikasını yumşaltmaq üçün onun üzərinə düşən *neqativ, ironik təsviri gizlətmək məqsədilə, siyasi korrektlik, ya da sadəcə nəzakət prinsipinə* görə bu strategiyanı seçirlər. *Media dikursunda* isə jurnalistlər inandırıcı olmaq məqsədilə resipiyentlərdə neqativ reaksiya yaratmamaq üçün evfemizmlərdən istifadə edirlər. Danışan müəyyən mənada adresatın dəyərlərinə təsir etməyə çalışır, neqativ iqtisadi faktorlardan məqamlaşma mənası güdür (Panin, 2004). Bu yolda şüur manipulyasiya olunur, narazılığın qarşısı alınır. İstənilən dil daşıyıcısı (jurnalist, iqtisadçı, siyasətçi və s.) dil vahidlərinin kommunikasiyasının praqmatik yönümündən asılı olaraq düzgün dil vahidlərinin seçimi qarşısında qalır. Bu aspektdə çıxış etdikdə evfemizmlər böyük rola malikdir. *Siyasi xarakterli* evfemizmlərin tədqiqi mövcuddur. Eləcə də qeyd etmək lazımdır ki, XX əsrin II yarısında ingilis dilinin leksik tərkibi “*Siyasi korrektlik*” (Panin, 2004) hadisəsinin təsiri ilə nəzərə çarpacaq dərəcədə dəyişilmişdir. Bəzi mövzulara siyasi cəhətdən daha diplomatik yanaşmaq vacibdir. Bu səbəbdən dildə müxtəlif ekplisit və yaxud implisit cəhətdən təhqiredici sözlər və ifadələrdən yayınmağa çalışmaq tendensiyası mövcuddur. Siyasi cəhətdən fərqli identifikasiyaya yəni *dini, irqi, dili, mədəni, etnik* müxtəlifliyə malik qruplara, icmalara istinad edərkən istifadə edilən nisbətən neytral və hörmət ifadə edən dil işarəsinin işlədilməsi *siyasi korrektlik* hadisəsinin mahiyyətin əks etdirir. Bunun nəticəsi olaraq evfemizmlərin sahəsi daim nəzərə çarpacaq dərəcədə genişlənməyə davam edir və bu da yeni tədqiqatların bu istiqamətdə peyda olmasına gətirib çıxarır.

***Gerçək dil materialları əsasıda evfemizm və disfemizmlərin təhlili.*** Müxtəlif mədəniyyətlərdə evfemizmlərdən istifadə nəzərə çarpacaq dərəcədə fərqlənir. Bu anlaşılmazlıq, narazılığı uğursuz kommunikasiyaya gətirib çıxara bilər. Eləcə də tərcümə prosesində müəyyən çətinliklər yaradır. Hətta ən təcrübəli tərcüməçi belə tələyə düşə bilir, neytral ifadələrin implisit şəkildə ötürdüyü

siqnalları tuta bilmir. Məsələn, *incidentally,* impisit olaraq "mən bu diskursiyanın əsas ideyasına keçirəm" mənasını ifadə edir. Bu cür kodlaşdırmalar danışanın öz praqmatik niyyətini, məsələn, hirsini, narazılığını və s. ifadə etməyə imkan verir.

İngilis mədəniyyətində ümumişlək və aydın olan evfemizmlərin əksəriyyəti neqativ əlamət və keyfiyyətlərin gizlədilməsinə yönəldilir. Əgər dövlət xidmətçisi nazirə xəbərdarlıq edirsə, qərarın *courageous (cəsur)* olduğunu vurğulayır. Bu evfemizm siyasətçinin karyerasına neqativ təsir edən qeyri-məşhur qərar kimi dəyərləndirilir. *Adventurous* həyata keçirilməsi qeyri-mümkün hadisəni bildirir və tərcümədə tez-tez "riskli" sözü ilə əvəz olunur. Məsələn, iqtisadi böhranı bildirmək üçün *"recession"* leksemi tədricən öz evfemistik təbiətini itirməyə başlayır. Tez-tez istifadə edildiyindən söz neqativ konotasiya qazanır və resipiyentlərdə narahatlıq yarada bilir. Bu səbəbdən yeni *slowdown* evfemizmdən istifadə edilməyə ehtiyyac duyulmuşdur, "inkişafın sürətinin ləngiməsi" kimi tərcümə olunur. Bəzən də "mənfi artım" kimi də ekvivalent tapa bilər. İqtisadi xəbərlərdə çox vaxt *good* (yaxşı), *bad* (pis) əvəzinə *appropriate* (müvafiq), *inappropriate issue* (yersiz), *a ghastly problem* (dəhşətli problem), daha yumşaq *challenging issue* (mürəkkəb məsələ), *spending* (xərclər) *investment* ifadəsi ilə (investisiya); *cuts* (maliyyələşmənin dayandırılması, ixtisar) *savings* verilir. *Relational capitalism* korrupsiyanı bildirir. *Devaluation* (devalvasiya) əvəzinə iqtisadçılar *exchange rate, adjustment, currincy adjustment* işlədir. *Cheap* konseptini ifadə etmək üçün a*ffordable* leksemi işlədilir.

Qloballaşma və böyük inkişaf nəticəsində ingilisdilli ölkələrdə bəzi ifadələr peyda olur və sonra isə digər dillərdə də maliyyə analitiklərinin və iqtisadçıların dilində işlədilməyə başlanır. Bəzi evfemistik ifadələrin başqa dillərdə ekvivalenti belə yoxdur. Məsələn, məhkəmə diskursunda işlədilən *"kangaroo court" "kenquru məhkəməsi" qanunsuz məhkəmə, məhkəmə parodiyası* kimi anlaşılır. Və yaxud *grey market* "qara bazar", *free* "pulsuz, havayı", *affordable* "münasib qiymət" ekvivalentləri işlədilir. Hərfi ekvivalentliyin olmaması bu cür səthi xarakter denotatın mükəmməlliyini ifadə edir, adresata əlavə izahı başa düşməyə imkan verir.

Evfemizmlərin çoxu birbaşa nominasiya yaxud izah yolu ilə tərcümə olunur: *downward adjustment* "devalvasiya", *category killer* "xüsusiləşmiş ucuz əşyalar mağazası". Ekvivalentliyin qoruna bilinməməsi ingilis dilinin müxtəlif linqvistik və mədəni-tarixi spesifikası və tərcümə edilən dilin cəmiyyətindəki sosial, siyasi və mədəni prioritetlərindən asılıdır.

***Ölümlə, axirətlə bağlı evfemizmlər və disfemizmlər.*** Ölüm və dəfnlə bağlı evfemizmlər ingilis dilində kifayət qədər mövcuddur. Holder "*A Dictionary of Euphemisms*" (Holder, 2002) və Spears "*Slang and Euphemism*" (Spears, 2001) xüsiləşmiş lüğətlərində ölüm, axirət konseptləri ilə əlaqədar məcazi mənada işlədilən 300-ə yaxın söz və ifadələr verilişdir. Bu lüğətlərdəki yuxarıda qeyd olunan konsepti bildirən bir sıra leksemlər nəzər salsaq: *Evfemizm*: *pass away, depart, go the way of all flesh, meet one's maker, fly to glory, meet an ultimate demise, over the rainbow bridge,* ve s. *Disfmizm*: *six feet under, dead as a doornail, croaked, kicked bucket, pushed daises, bit the big one* ve s. Analoji olaraq ölüm konseptini bildirmək üçün Azərbaycan dilində də *evfemizm* kimi *rəhmətə getmək, haqqa qovuşmaq, vəfat etmək, ömrünü kiməsə bağışlamaq, gözlərini həyata yummaq, əbədiyyətə qovuşmaq və s.* kimi məcazi mənalı ifədələr işlədilir. *Gorbagor olmaq, üzünü mürdəşir yumaq, gəbərmək, cəhənnəmə hasil olmaq,* və s. leksemləri *disfemistik* təbiətə malikdir (17; 18).

Evfemizmlər müxtəlif diskurslarda işlənir və fərqli semantik sahələrə aid ola bilir: **ümumi məzmunlu evfemizmlər:** *bathroom, restroom, washroom, ladies' room, gents' room, comfort station, powder room (toilet, lavatory), economical with the truth, creative with the truth, terminological inexactitude (liar), alternate fact (a lie), telling stories (lying), consciously uncoupled (divorced)*; **bədənin fizioloji funksiyası vı ya qüsuru ilə bağlı olanlar:** *intestinal fortitude (guts), break wind (pass gas), physically challenged (physically disabled, time of the month, roses (menstruation), toss cookies (vomit), və s.*; **cinsi əlaqə, cinsəlliklə əlaqə olanlar:** *friends with benefits (to have a sexual relationship), the birds and the bees (sex and pregnancy), make live (sexual intercourse)* və s. **Allahla dinlə ilə bağlı sözlər :** Gosh, Golly, Ye Gads, Jove, Lord... (God) Gee Whiz, Cripes, Jeepers, Jimmy, Cricket, etc. (Jesus Christ), theologically ambivalent (atheist)

Allan and Burridge (Allan, Burridge, 1991) *madness*, *craziness* (dəlilik) konseptlərini ifadə edən evfemizmlərin də xüsusiyyətlərindən bəhs etmişlər. Onlar aşağıdakı bir sıra sözləri sözü gedən konseptlərə evfemistik sinonim kimi vermişlər. *Crack-brained, scatter-brained, shatter-brained*; *head case, nutcase, wacko*; *falling to pieces*; *have a (nervous) breakdown*; *unhinged*; *having a screw/tile/slate lose*; *one brick short of a load, not a whole load*; *one sandwich short of a picnic*; *two bob short of a quid, not the full quid*; *his elevator doesn't go to the top floor*; *a shingle short*; and perhaps *he's lost his marbles* (Allan, Burridge, 1991).

Gerçəkliyi maskalamaq, yumşaldıcı, ört-basdır edici effektə malik ola bilmək evfemizmlərin başlıca xüsusiyyətlərindın hesab olunur. Tabu təşkil edən reallığın mənfi cəhətdən yaxşılaşdırılmasının obrazlı evfemizmlərin funksiyası ilə bilavasitə bağlıdır. Müxtəlif linqivistik plana malik bir sıra dərketmə mexanizmləri mövcudur ki, onlar evfemizm-disfemizm paradigmindən istifadə edərək müəyyən *qadağan olunmuş gerçəklik hadisələrinin və ya konseptlərin yükünü yumşaltmaq (və ya tamam əksinə), əvəz etmək, dəyişdirmək və ya modifikasiya etmək* üçün işlədilir. *Nəzakət prinsipinə əməl, siyasi cəhətdən düzgünlüyün* və ya politkorrektiyin (political correctness) qorunması bu paradigmanın sosial əhəmiyyətini ifadə etdirir (Evans, Green, 2006: 830).

Disfemizm təhqirə əlaqdər olur və ailə üzvləri, dostlar, partnyorlar və konkret sosial dairələrdə işlədilmə etibarilə konseptual əhəmiyyəti böyükdür. Bir sıra disfemizm nümünələrinə nəzər salaq: *mop* (süpürgə) – qalın saçı bildirir. *Beak* (dimdik) – insan burununu bildirir. *Conk, honker, neb* sözləri də eləcə bu *burun* məfhumuna aiddir.

Koqtivizmdən yanaşdıqda evfemizm və metafor əlaqəsini gözdən qaçırmaq qeyri-mümnkündür, belə ki, bu kateqoriyalar hər ikisi nitq firqurları təşkil edirək obrazlı dilin diskursiv səviyyədə spesifik konseptləri ifadəsində istifadə olur. Metafor elə bənzədici ifadədir ki, (bəzən kiçik hekayə belə ola bilir) hər hansı bir məfhuma və ya konseptə daha canlı və rəngarəng yanaşmaq üçün, insanların daha aydın və asan başa düşməsi üçün işlədilir. Evfemizmlərdən fərqli olaraq metafor anlayış və konsepti gizlətmək deyil, daha canlı və obrazlı dil vasitəsi ilə ifadə bilmək məqsədi güdür. Koqnitiv nöqteyi - nəzərdən metafor aydınlaşdırıcı, evfemizm isə azdırıcı mahiyyət daşıyır. Lackoff və Jonhsonun (Lackoff, Jonhson, 2003) *konseptual metafor nəzəriyyəsi* kateqoriyalaşmanı, konsepltəşməni və koqnisiyanı əlaqəli şəkildə tədqiq edir. Konseptual və yaxud koqnitiv metaforda (Lackoff, Jonhson, 2003) olduğu kimi evfemizmlərə konsept kimi yanaşsaq "ölüm" konseptini səyahətlə müqayisə edə bilrik. Məs., "*Ölüm (ölmək) səyahətdir*" konsept sahəsi (*Life is travel", "Love is travel*" və s. kimi) müxtəlif metafor səciyyəli evfemizmlərlə ifadə oluna bilir. "*To die is to travel", "To die is to depart this life", "To die is to go to Heaven", "To die is to fly to glory", "To die is to pass over", "To die is to pass away", "To die is to go the way of all flesh", "To die is to meet one's maker", etc.*

İşsizliklə bağlı mətnlərdə dominant *unemplayed* ifadəsi ilə yanaşı, evfemizmlər işlədilir. Geniş yayılmışlar arasına 1) *unwaged maps*; 2) *voluntarily leisured*; 3) *(people) who are not in work* və 4) *(people) who are out of work və s. a*iddir. Son iki ifadədə işsizliyin səbəbi gizlədilərək işsizlik probleminin ciddiliyini vurğulayır. *Poverty* (kasıblıq) və *hardship* (ehtiyac) sözləri kütləvi informasiya vasitələrində (KİV) demək olar ki, işlədilmir və yaxud nadir hallarda işlədilir (Koller, 2008). Ən çox burada geniş semantikalı *need* sözü işlədilir. Ehtiyac içində yaşayan insanlar eləcə də 1) *people on low incomes; 2) low earners; 3) families in financial need* perifrazları işlədilir. Etik təsəvvürlərdən irəli gələrək əhalinin köməyə ehtiyacı olan hisəsi 1) *people in difficulty; 2) people in need; 3) families at risk* kimi təyin olunur. *İnvalid* sözünün aşağıdakı perfrazları istifadə olunur: *1) people with physical disabilities or sensory impairment; 2) the physically disabled people; 3) severely disabled people; 4) people who are unable to work. Disabled* leksemi fiziki qüsurları göstərən *invalid, croppled, cripple* disfemizmlərinin əvəzində işlədilir. İflic olmuş insanlar *(paralysed; paralyties) people with mobility needs* kimi müəyyən olunur (Croft, Cruse, 2004: 356).

## Nəticə

Diskursda evfemizmlərin koqnitiv xüsusiyyətlərini analiz edərkən aşağıdakı *nəticələrə* gəlmək olar. Diskurs təkcə quru anlayışlardan ibarət deyil, ifadəli, rəngarəng çalarla zəngindir. İngilisdilli dikurs evfemizmlər və disfemizmlərlə zəngindir, bu da öz növbəsində iqtisadçılar və siyasətçilərə iqtisadiyyatda baş verən neqativ hadisələri gözdən keçirməyə imkan verir. Əşya və hadisələrin birbaşa nominasiyası neqativ emosiyalar yaradığı üçün evfemizmlərlə neytrallaşdırılır. Məsələn, iyrənmə, utanc, qorxu hissi və s. Evfemizmlərin istifadəsi hadisə və predmeti adresatın təxəyyülü üçün daha *"xoş"* və "*az təhlükəli"* edir. Bəzən isə əks proses baş verir, məzmunun yumşaldılması yaxud neytrallaşdırılması deyil, kəskinləşdirilməsi və neqativ yük əldə edilməsinə ehtiyyac duyulur. Bu proses də disfemizmlərin əhəmiyyətini artırır. Dilimizə tərcümə zamanı peyda olan problemlər mənanın daha ətraflı ifadəsi üçün ən optimal variantın seçilməsi ilə bağlıdır. Tərcümə zamanı peyda olan əsas problemlərlə: *sözün mənası ilə əlaqədar normaya; məna dəqiqliyinə, stilə görə müvafiq ekvivalentin seçilməsi; milli-mədəni xüsusiyyətlərin qorunub saxlanılması; evfemizasiyaya məruz qalan obyektlərin müxtəlifliyinin nəzərə alınması* aiddir. ***Nəticə etibarilə***, tərcümədə həm bəzi evfemizmlərin tam təsviri, həm də birbaşa nominasiya vasitəsilə çevrilməsi baş verir. Evfemizmlərin sosial-koqnitiv funksiyalarınından bəhs edərkən aşağıdakılar dərhal ağıla gəlir. Beləliklə, ümumi şəkildə qeyd etsək biz əksər hallarda evfemizm fenomeni ilə aşağıdakı kontekstlərdə qarşılaşmış oluruq və onların diskursiv-koqnitiv funksiyaları bu kontekstlərdə ön plana çıxır: 1)*xoşagəlməz olanın təsirini gizlətmək, pərdələmək məqsədilə; 2)tabu olan əşya və hadisələri adlandırmaq üçün və ya yumşadılmaq üçün; 3)tanrı ilə, dinlə əlaqəli ifadələrdən, küfrdən (blasfemiya) yayınmaq üçün; 4)ölümlə, axirətlə bağlı leksikanı bildirmək üçün; 5) xəstəlikdən əziyyət çəkən və ya, əqli çatışmazlığı, fiziki əlliliyi olan insanların halını təsvir edərkən; 6)infeksion xəstəlikləri ötr-basdır etmək məqsədilə; 7)həssas, ağrılı mövzuları yümşaltmaq niyyəti ilə; 8)siyasi cəhətdən korretliyi gözləmək üçün; 9)etnik cəhətdən tolerantlığı qorumaq üçün; 10)cinsəlliklə bağlı məqamlara toxunanda; 11)kobud və kəskin ifadələri yumşaltmaq məqsədilə; 12)vulqar səslənməkdən uzaq durmaq niyyətilə; 13) utancverici mövzulara don geyindirmək məqsədilə; 14) nəzakət prinsipinə əməl etmək üçün; 15)həmsöhbətinin qəlbini qırmamaq şərtilə; 17)hörmət ifadə etmək üçün;18)tolerant yanaşmaq istədikdə* və s.

Tədqiqatın sonrakı davamı kimi evfemiya və disfemiya kateqoriyalarının Britaniya və Amerika variantlarında, evfemizm-neologizmlərin, disfemizm-neologizmlərin üslubi klassifikasiyası, modifikasiyası, yaranma üsullarının sxemi koqnitiv cəhətdən araşdırıla bilər.

## Ədəbiyyat

1. Holder, R.W. (2002). How Not to Say What You Mean: A Dictionary of Euphemisms. Oxford: Oxford University Press, 220 p.
2. Spears, R.A. (2001). Slang and Euphemisms: A Dictionary of Oaths, Curses, Insults, Ethnic Slurs, Sexual Slang and Metaphor, Drug Talk, College Lingo and Related Matters. NY, Signet.
3. Rawson, H. (1981). A Dictionary of Euphemisms & Other Doubletalk. Crown Publishers, Inc., New York, 312 p.
4. Allan, K., Burridge, K. (1991). Euphemism and Dysphemism. Language Used as Shield and Weapon. New York, Oxford: Oxford University Press.
5. Burridge, Kathryn. (2006). Taboo, Euphemism, and Political Correctness. In Keith Brown (ed). Encyclopedia of Languages & Linguistics (Second Edition), pp.455-462. Boston: Elsevier.
6. Neoman, J.S., Silver, C.G. (1995). Book of Euphemisms. The hilarious guide to unmentionable. London, Wordsworth Editions LTD, 310 p.
7. Spears, R.A. (1982). Slang and Euphemism. New York: New American Library, 462 p.
8. Panin, V.V (2004). Pilitichesk aya korrektnost kak kulturna-povedencheskaya i yazikovaya kategoriya: diss. ... kand. fil. nauk. Tyumen, TQU., 217 s.
9. Keyes, R. (2010). Euphemania: Our Love Affair with Euphemisms. Little, Brown, and Company.
10. Gomez, C., Miguel. (2009). Towards a new approach to the linguistic definition of euphemism. Language Sciences, 31, pp.725-739.

11. Gomez, C., Miguel. (2012). The Expressive Creativity of Euphemism and Dysphemism. Lexis: Journal in English Lexicology, 7, pp.43-64
12. https://www.oxfordlearnersdictionaries.com/definition/american_english/euphemism
13. https://dictionary.cambridge.org/dictionary/english/euphemism
14. https://www.collinsdictionary.com/dictionary/english/euphemism
15. https://www.merriam-webster.com/dictionary/euphemism
16. Allan, K., Burridge, K. (2006). Forbidden Words. Taboo and the Censoring of Language. Cambridge: Cambridge University Press, pp.3-31.
17. https://www.etymonline.com/search?q=euphemism
18. https://obastan.com/azerbaycan-dilinin-izahli-lugeti/a/
19. Evans, V., Green, M. (2006). Cognitive Linguistics: An Introduction. Edinburgh University Press, 830 p.
20. Lakoff, G., Johnson, M. (2003). Metaphors We Live By, University of Chicago Press, 256 p.
21. Koller, V. (2008). Metaphor and Gender in Business Media Discourse A Critical Cognitive Study. Basingstoke: Palgrave Macmillan.
22. Croft, W., Cruse, D.A. (2004). Cognitive Linguistics. Cambridge University Press, 356 p.

Göndərilib: 06.03.2024 Qəbul edilib: 26.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/66-71

**Səadət Əliyeva**
Odlar Yurdu Universiteti
doktorant
novruzovaseadet@gmail.com

# KONSEPT TİPLƏRİNİ DİLDƏ VERBALLAŞDIRAN FRAZEOLOJİ VAHİDLƏR

**Xülasə**

Məqalədə konseptin leksik-frazeoloji növü və onun kontekstdə təmsil olunması yollarından bəhs edilir. Burada leksik və frazeoloji tərkibə koqnitiv yanaşma müşahidə olunur. Məqalədə idiomların denatürasiya olunmuş mənalarının ontoloji xarakteristikası verilmişdir. Frazeoloji vahidlərin konseptual quruluşu, onların verballaşması frazeoloji anlayışların ontoloji mahiyyətini ortaya qoyur.

Konsept və onun növləri məsələsi hələ də müqayisəli mənada həllini tapmamışdır. Konsept tiplərinin milli-mədəni və mental xüsusiyyətlərinin aşkara çıxarılması dilçilik elminin qarşısında duran ən mühüm problemlərdən biridir.

Hazırda koqnitiv dilçilikdə təfəkkürün müxtəlif tipli psixi hadisələri vahidləri, konkret emosional obrazlar yaradan konseptual tiplər mövcuddur.

Bilik və məlumatı əks etdirən, bu prosesdə yaranan konsept növləri iki qrupa bölünür: "şifahi və şifahi olmayan".

Məqalədə konseptin növləri araşdırılır, onun struktur-semantik, leksik-koqnitiv əsasları müəyyən edilir. Bundan əlavə, konsepsiya və təxəyyül kimi konseptual növlərin konseptual əhatə dairəsi və sxemi müəyyən edilir.

***Açar sözlər:*** *konsept, frazeologiya, konsept tipləri, konseptual təhlil mərhələləri, idiomatik ifadələr*

**Saadat Aliyeva**
Odlar Yurdu University
PhD student
novruzovaseadet@gmail.com

## Phraseological units that verbalize concept types in a language

**Abstract**

The article deals with the lexical-phraseological type of concept and ways of its contextual representation. The cognitive approach to the lexical and phraseological composition is observed here. The ontological characteristic of the denatured meanings of idioms is given in the article. The conceptual structure of phraseological units, their verbalization, reveals the ontological nature of phraseological concepts.

The question of the concept and its types has not yet been resolved in a comparative sense. Revealing the national-cultural and mental specifics of concept types is one of the most important problems facing the science of cultural linguistics.

Currently, in cognitive linguistics, there are different types of units of thinking mental events, conceptual types that create specific emotional images.

Reflecting knowledge and information, and the types of concepts that arise in this process, are divided into two groups: "verbal and non-verbal".

The article examines the types of concept, defines its structural-semantic, lexical-cognitive foundations. In addition, the conceptual scope and schema of such conceptual types as concept and imagination are defined.

***Keywords:*** *concept, phraseology, types of concepts, stages of conceptual analysis, idiomatic expressions*

## Giriş

Məlumdur ki, dil xalqın özünü ifadə formasıdır. Xalq özünü yaratdığı deyimlərlə, idiomlarla, paremiyalarla və s. ifadə edir. "Varlıq və zəka zənginliyi" olan frazeologiya tutuşdurulan dillərin lüğət tərkibini, nitq aktını zənginləşdirir.

Frazeologiyanın yeni sahəsi koqnitiv frazeologiya adlanır. Müxtəlif frazeoloji mənalar müxtəlif konseptlər sferasında kontekstual şəkildə realizasiya olunur. Frazeoloji vahidlərin daxili formasında koqnitiv modelləşmə meydana çıxır.

*"Birləşmə şəklində olan sözlər öz müstəqilliyini, predmetə aid olduğunu "arxa plana keçirərək" tam məcazlaşma yolu ilə semantikcə bütöv və cümlə daxilində bir üzv kimi çıxış edən frazeoloji vahidləri formalaşdırır. Onları yaradan sözlərin hər biri ayrı-ayrılıqda dərin və zəngin məna strukturuna malikdir. Lakin onlar tərkibində öz məna strukturlarını dəyişərək bütövlükdə birləşmənin məna strukturunun mühüm bir elementinə çevrilir"* (Həsənov, 1987: 208-209).

Müqayisə edilən hər iki dilin frazeoloji sistemi bir çox xüsusiyyətlərə malikdir və bu sistem də dili qurur, nitqi, anlam və dərketməni nizama, qaydaya salır. Bu o deməkdir ki, frazeoloji sistem dildə gedən proseslərə, yeni dilçilik sahələrinə qoşula bilir və həmin sahələrin interpretasiyasına kömək edir.

Bu o deməkdir ki, frazeologiya da linqvokulturoloji tədqiqat obyekti ola bilir. Burada frazeoloji vahidlərin "daxili forması", "milli-mədəni konnatasiyası", "semantikası" və s. öyrənilir.

Leksik konsept tiplərində olduğu kimi, frazeoloji konsept tipləri də dərketmə fəaliyyəti prosesində əmələ gəlir, onu yaradanın zəngin təcrübəsinə əsaslanır.

Frazeoloji konseptlərdə milli-mədəni semantika və universal vasitələr çox güclü şəkildə ifadə olunur. Bu əlamət frazeoloji vahidlərin semantik, semiotik, praqmatik və linqvokulturoloji əlamətlərindən irəli gəlir.

A.V.Malyuçinan dünyanın obraz seçimi və biçimində konseptuallaşma və kateqoriyallaşmanın universal və spesifik əlamətləri, frazeoloji tiplərini öyrənmişdir. Qeyd olunan bu əlamətləri rus, ingilis və alman dillərində tutuşdurmuş, müqayisə etmişdir (Mal'yuchina, 2007: 128).

Cəmiyyət leksik-semantik konsept tiplərində olduğu kimi, frazeoloji konseptlərdə də dünya haqqında informasiya alır və onun dildə ifadə vasitələrini dərk edir. Bu, koqnitiv linqvistika elminin cəmiyyət həyatındakı frazeoloji biliklərini aydınlaşdırır. Xarici nüfuzlu alimlərdən A.Vejbitskaya, R.Cekendoff, C.Lakoff, R.Lanqaker, M.Minski, E.Roş, Ç.Fillmor, V.İ.Karasik, İ.A.Sternin və b. koqnitiv linqvistika elmi sahəsində öz sözlərini deyə bilmişlər. Bu fonda leksik və frazeoloji vahidlərin tipik verballaşma və simvollaşma vasitələri tədqiqata cəlb edilmişdir.

Frazeoloji konsept tipləri kontekstdə reprezentasiya olunanda müxtəlif mövqelərdə işlənir. Bu mövqelərdə onun denotativ mənaları ontoloji planda səciyyələnir. Denotativ məna leksik və frazeoloji vahidlərin ifadə etdiyi əşya, predmet, şəxs və s. onların denotasiyası, digər köməkçi məfhumu mənasının məzmunudur, yəni sabit birləşmələrin məzmun nüansları (incəlikləri) və çalarları birbaşa məfhumi mənası, mətndəki funksiyaları nəzərdə tutulur.

Denotasiya anlayışı konnotasiya termin – anlayışına qarşıdır. Məsələn, "gecə" sözünün denotasiyası günəşin çıxmasından batmasına qədərki vaxtı əhatə edir. "Gecə" sözünün konnotativ mənası *tənha, romantik, qaranlıq* anlayışlarını əhatə edir: *Gecə mənə dar gəlir; Küçə mənə dar gəlir.*

Belə ki, frazeoloji vahidlər dildə "ayrıca formalaşan" sərbəst dil vahidlərindəndir. Bunlar emosional-ekspressiv xarakterə malikdir. Frazeologizmlərin başlıca xüsusiyyətəti, əsas ölçüsü məna bütövlüyüdür. Hər bir komponetin mənası ayrıca hesaba alınmır, tam forma özü bir mühüm mənaya bürünür. Məna "emosional rənglə" seçilir. Məs.: to disgrace oneself – özünü abırdan salmaq (özünü biabır eləmək); to be unduly familiar\to be free and easy- özünü açıq-saçıq aparmaq (tərbiyəsizlik nümayiş etdirmək); to behave oneself as a baby- özünü bəbə kimi aparmaq (uşaq kimi ağılsızlıq etmək) və s.

Frazeoloji konseptlər – düşüncə mənzərəsi, tablosu, sxemlər, sxematik şəkillər, freym, ssenarilər və konseptsfera universal səciyyə kəsb edir. Bunlar müxtəlif kontekstual mövqedə ifadə olunur. İfadə planında frazeoloji konseptin tipləri təyin olunur.

Kontekst – söz mühitidir. Həmin mühitdə leksik-frazeologiya və kontekst birliyi yaranır. Kontekst, sözün düşdüyü mühit ona dəqiq məna verir. Kontekstdə söz müəyyən məna daşıyır. Kontekst sözün çoxmənalılığını aradan qaldıraraq, hər dəfə onu yalnız bir istiqamətə yönəldir. Kontekst və frazeoloji reprezentasiya arasında yeni münasibətlər fomalaşır.

Bizim tədqiqatın məqsədi idiomatik ifadələrin konseptual tiplərini, konseptin frazeoloji yolla ifadə vasitələrini üzə çıxarmaqdır. Bununla yanaşı, müxtəlif tip konseptlərə dilin frazeoloji məzmun planında da baxılır.

Frazeoloji vahidlər koqnitiv mühitdə dilin relevant informativliyindən ibarətdir. Frazeoloji konsept tiplərində verballaşma və simvollaşma vasitələri bədii və mədəni informativliyə öz müsbət təsirini göstərir.

Frazeoloji konsept tipləri – sxem, şəkil, freym və ssenari - dilin frazeoloji vasitələri ilə ifadə olunur. Məsələn, muzey freym-konsepti – tarix, incəsənət abidələrini, elmi-təbii eksponatları toplayıb mühafizə və nümayiş etdirən müəssisə; sxem-konsepti, frazeologiyada inikası: yol – gediş-gəliş və nəqliyyatın hərəkəti üçün zolaq şəklinə ayrılmış yer; istiqamət, yön; dünyagörüşü, əqidə (başqa yolun adamı), axır (son) yol-ölüm, gözləri yol çəkmək, öz yolu ilə və s., ayaqqabı- onun hipronimləri: qaloş, çəkmə, tufli, botinka, sapoq və s.

Metal məntiqi-konstruient konsepti: – istiliyi və elektriki yaxşı keçirmə qabiliyyətinə malik olan, döyülüb yastılana bilən, spesifik parıltısı olan bəsit kimyəvi maddə (yaxud ərinti): hiperonimləri: mis, nikel, dəmir, çuqun, gümüş, platin və s.; meyvə – bəzi ağacların, kolların yeməli, şirəli məhsulu, onun hiperonimləri: alma, armud, cır, kol; məhsul, bəhər, nəticə. Frazeologiyada inikası: zəhmətin meyvəsi, Eşqin meyvəsidir hər yeni dastan , insan xəyalının meyvəsi və s.

Konseptin frazeoloji tipində fikrin, ideyanın aktivləşməsi prosesi dillərin universal xarakterini gerçəkləşdirir. Frazeoloji vahidlərin denotativ mənası, mahiyyəti onun ontoloji keyfiyyətlərini müəyyənləşdirir.

Müxtəlif dillər üzrə frazeoloji konseptlərin fikir ifadə edən forması identik (eyni), obrazlılıq bildirən məzmunu, mahiyyəti isə fərqlidir.

Konseptlər frazeoloji sistemdə özünəməxsus şəkildə inikas olunur. Frazeoloji konseptlər də dünyanın dil xəritəsinin, mənzərəsinin inikası və onun linqvokulturoloji təsvirindən ibarətdir. Bu fikrin təsdiqi üçün biz bir çox frazeoloji ifadələri izah etmək fikrindəyik.

“Od”un dil-sistem və mədəni-fon əlamətləri mövcuddur. Frazeologiyada “od” konseptinin məzmun və mahiyyəti, onun çoxölçülü dil əlamətləri, mədəni fonu, dəyər xüsusiyyətini aşağıdakı kimi təhlil etmək olar:

*"Od"* sözünü və onun frazeoloji sistemdə konseptuallaşması və kateqoriyallaşması prosesini nəzərdən keçirək:

Od bahasına (çox baha) – to be through one's nose / ever so much expensive (to become dearer). "Od" – ocaq mənasında: od-ocaq ayaqlamaq (bir kəsin yaxşılığını qiymətləndirməmək, bir kəsə nankorluq etmək) – to answer for good by evil / to someone great harm instead of good .Od olmasa tüstü çıxmaz (Hər deyilən sözdə həqiqət var). – There is no smoke without fire (it is usually has some truth in it) (Türksevər, 2003: 1335).

Bu konseptin digər məna variantı: Od yanmayan yerdən tüstü çıxmaz. - There is no fire without smoke / There is no smoke without hands. Oddan diri, sudan quru çıxmaq (cəzadan boyun qaçırmaq, özünü təmizə çıxartmaq, adı ləkələnməmiş qalmaq) to come off cheap (Vəliyeva, 2010: 404).

Linqvokulturologiya dil probleminin geniş spektrini- təfəkkür (düşüncə)- xalqın psixologiya və mədəniyyətini (mentaliteti) əhatə edir. Linqvokulturologiya konkret dilin bütün semantik sistem xüsusiyyəti ilə məşğul olan elmdir.

Müasir linqvistikada konsept tipləri tədqiqinin iki yanaşması mövcuddur: linqvokulturoloji və semantik-koqnitiv. Koqnitiv yanaşma ilə konsept tiplərinin mərkəzində bir sıra məsələlər durur: insanın dərki, fikir obrazı, qanadlı işarələr, sem və sözün semantik strukturu, ifadələrin səciyyəvi xarakteri.

Frazelogiyaya aid konsept iplərindən biri də bədii konsept tipidir. Bədii mətnin təhlili. “bədii assosiasiya” (Askol'dov, 1997: 267). Hər hansı bir konseptin universal əlaməti. Zəngin mədəni fon.

1) Etimoloji lüğətdə leksik mənası
2) Derivasiya sahəsində əmələ gələn əlamətlər.
3) Konseptin əsas mənasının definisiyası və semantik əlamətləri, aktual əlaməti.
4) Konseptual mənaların paremioloji və frazeoloji fondda əksi. Məs :
"Od" un məna qrupları.
"Od"- mifik orqanizm (varlıq, həyat): Od – işıq
"Od"- nəslin simvolu: Od çərşənbəsi
"Od"- enerji simvolu: Odlandı.
"Od"- təhlükəsizlik simvolu: Odla oynamaq olmaz.

Konseptin frazeoloji tiplərinin də konseptsferada olan əlamətləri bunlardır: 1. "Fiziki aləm" konseptsferası; xarici görünüş "işıq" və s.; fiziki vasitələr "yüksək temperatur" və s.; 2. İnsanın məişəti konseptsferası: insan həyatında, məişətində odun əhəmiyyəti; 3. İnsanın sosial dünyası konseptsferası: məna fonları, dini, hərbi; 4. Emosional konseptsfera: sevgi, sevinc, enerji, insan dünyası, həyat, əmək; 5. Dünyanın mənəvi dəyər konseptsferası: həyat, nəsil, əmək, mənəvi dünya, yaradıcılıq, müdriklik, ədalətlilik və s.

Konseptin frazeoloji tipinin leksik-qrammatik xüsusiyyətləri sintaqmatik münasibətlərlə əlaqədardır. Sintaqmatik əlaqə: od – atəş, od-işıq və s. sırasına əsaslanır.

Dilin frazeoloji fondunun yeni fərdi-müəllif formaları ilə reallaziasiyası, sintaqmatik əlaqə yaradır: millətin odu ("mənəvi mədəniyyət"), can ocağı, odlu su və s.

Frazeoloji konseptin assosiativ-semantik sahəsi genişdir: ana ocağı, Vətən bağı və s.

Frazeoloji konsept tipinin 2 əlaməti: 1) universal transformasitya (çevrilmə) və 2) ümümdil əlamətləri mövcuddur.

Frazeoloji konseptən bəhs edən tədqiqatçılar 5 tip sabit birləşmələr üzərində dayanırlar:
1) idiomlar;
2) kollokasiya;
3) atalar sözləri və məsəllər;
4) qrammatik frazeoloji vahidlər;
5) sintaktik frazeoloji vahidlər (frazsxemlər) (Babushkin, 1996: 212-216).

İdiom bir məfhum ifadə edir və onun tam mənası müxtəlif komponentlərin mənalarının riyazi cəminə bərabər olmur. Məs.:

Azərbaycan dilində: *Çaş baş halında,ölmək,dünyasınıdəyişmək ,özünü xoşbəxt hiss etmək* və s.

İngilis dilində: *at six and seventh,kick the bucket, to feel like amillion dollars etc* (7).

Bu tip idiom konseptlər müəyyən məfhumu müstəqim və ya qeyri-müstəqim yolla ifadə edir. İdiomatiklik və sabitlik bu tip konseptlərdə yüksək olur. Bunun əksinə kollakasiyada idiomatiklik zəif olur. Məs.: *qərar qəbul etmək, məsələ qaldırmaq* və s.

Sintaktik frazeoloji vahidlər cümlə, konstruksiya şəklindədir, məzmun və mahiyyət etibarilə idiomatik məna bildirir, *təsbit edilmiş* sxemlərdən ibarətdir. Bunlar "frazeosxemlər"dir.

Frazeologiya hər bir dilin sərvəti və xəzinəsidir. Xalqı tarixi, özünəməxsus mədəniyyəti bu xəzinədə əks olunur, milli xarakteri ilə seçilir.

Paremiyalar dilin frazeoloji fondunda mühüm yer tutur. Paremiologiya hər bir dildə qiymətli linqvistik mirasdır, irsdir. Paremiologiya bir elmdir, frazeologiya ilə qarşılıqlı əlaqəsi vardır. Hər iki elm vasitəsilə bir sıra duyğular (həyəcan, hiss, əxlaq) ifadə oluna bilir (Alefirenko, 2003: 8).

Dünyanın paremioloji mənzərəsi folklor mətnlərində təsbit olunur. Mental ifadələr paremiyaların əsasında dayanır. Xalqın şifahi yaradıcılığında bu irs nəsildən-nəslə ötürülür. Paremioloji nitq şəxsin identikliyini müəyyənləşdirir. Linqvokultur ümumilik bir çox xalqlarda özünü göstərir. B.Larin yazır: *"Paremiyalar etnosun dünyadakı obrazını formalaşdırır, onun mentalitetini əks etdirir"* (Larin, 1977: 156).

Bu sahənin tanınmış tədqiqatçısı N.F.Alefirenko müxtəlif konseptlərin bədii əsərlərdə (o cümlədən folklorda) daha çox verballaşdığını göstərir. Frazeoloji konseptlərin mühüm xüsusiyyətlərindən biri onların verballaşmasıdır. Əslində "verbalizasiya" digər nitq hissələrinin feilə çevrilməsi hadisəsidir (Sadıqova, Hüseynova, 2018: 851).

Məsələn, “Dünya” konseptinin dildə müəyyənləşdirilməsi və onun ifadəsi əsasən üç yöndədir:
1) leksik semantikada “dünya” konseptini nişanlamaq, göstərmək;
2) frazeologiyada “dünya” konseptini işarə etmək;
3) paremiologiyada “dünya” konseptini təyin etmək.

“Həyat” konsepti leksik semantikada: Leksik vahidlər dildə struktur – semantik baxımdan konseptin tiplərini əmələ gətirir. Və ya bu istiqamətdə “həyat” konseptinin leksik semantikasını üzə çıxarmaq; o cümlədən “həyat” konseptinin frazeoloji semantikasını təsvir etmək istəyirik.

“Həyat” konsepti frazeoloji semantikada: Dildə mövcud olan frazeologizmlər, əsas etibarilə qeyri-sabit, daha doğrusu, qrammatik birləşmələrin əsasında meydana gəlir. Qrammatik birləşmənin özü və ya onun tərkibində olan sözlər məcazi mənaya keçərək mütəhərrikliyini itirdikdə, sözlər arasında əlaqə və münasibətlər yaradan vasitələr donuq bir hala gəlir və o bir məfhumu, anlayışı ifadə edən sabit söz birləşməsinə transformasiya olunur (çevrilir). Məs.: konsept kimi seçilmiş “dünya”, “həyat” sözlərində bu proses necə gedir? “dünya bir pəncərədir”, “qoca dünya”, “sirri bilinməyən dünya”; “həyat sən şirinsən”. Bunlar tarixi-mədəni anlayışlar kimi həm ingilis, həm də Azərbaycan dillərində dərk edilir.

Frazeoloji “məkan” da konsept tipləri deyimləşərək mürəkkəbləşmə, yəni metaforlaşma prosesi keçirir. Yəni konseplərdə baş verən semantik proseslərdən biri metaforlaşmadır. Bu baxımdan konseptlərin metaforik cəhətlərinə də çox diqqət yeirmək lazım gəlir.

“Dünyanın bədii modeli” ayrı-ayrı konsept tiplərində öz inikasını tapır ki, bu məsələlər, demək olar ki, tədqiq olunmamışdır. Bunun bir tərəfində məntiq-fəlsəfə, o biri tərəfində isə mədəniyyət, linqvistika elmləri dayanır. Semantik assosiasiyalar müxtəlif konsept tiplərini dərketmə aktına çevirir. Antroposentrik kanon abstrakt anlayışları da birləşdirir. “İnsan bütün şeylərin ölçüsüdür” prinsipi ilə yanaşdıqda, konsept tipləri şüurun etalonu kimi səslənir və meydana çıxır.

Frazeologiya dildəki sabit ifadələrin toplusudur. Frazeologiya sözlərin leksik-semantik cəhətdən birləşmə imkanlarını öyrənir. Frazeoloji semantika – məna leksik vahidin yalnız müəyyən frazeoloji tərkibdə qazandığı mənadır. Bu məna frazeoloji çoxmənalılıq, frazeoloji omonimlik, frazeoloji sinonimlik və frazeoloji antonimlik şəklində təzahür edir (Kiz'mina, 2015).

Frazeologiya tədqiq edilən dillərin etnomental təbəqəsidir. Bunlar xalqın etnoqrafiyasını, düşüncəsini, kulturologiyasını dərindən inikas etdirir, öz milli-mədəni spesifikası ilə xalqın həyatında, dilində yaşayır.

Frazeoloji vahidlər dilin bütün səviyyələri, o cümlədən linqvokulturologiya ilə də əlaqədardır. Belə birləşmələr tərəflərin səviyyəsinə görə və onlar arasındakı məna münasibətlərinə əsasən bir-birindən seçilir. Həmin semantik münasibətlərin dərin qatına getdikcə onların tarixini və inkişaf xəttini təyin etmək mümkündür.

Frazeoloji vahidlər nominasiyaya görə dildə obrazlı vasitələrdəndir. Onun bazasında dayanan ideal obrazlar kommunikasiyada formalaşır və koqnitiv fəaliyyətin nəticəsi olaraq dilin zəngin mental mənaları ilə əlaqədar olur. Frazeologizmlər mental şəraitdə cəmiyyətin onu əhatə edən reallıqla əlaqəsini ən effektiv ifadə vasitəsi kimi çıxış edir.

Konseptlər dəyərləndirmənin koqnitiv fenomeni kimi insanın intellektual fəaliyyətinin başlıca əsası olub dilin frazeoloji səviyyəsində də özünə yer edir. *“Frazeologizmlər də müxtəlif tayfaların, nəsillərin birgə fəaliyyətinin nəticəsi kimi formalaşır, xalq mədəniyyətinin ayrılmaz hissəsinə çevrilir”* (Dobrydneva, 2003: 97-103).

## Nəticə

Beləliklə, dünyanın müxtəlif dillərində konsept tipləri formulları ilə özünün rəngarəngliyi ilə fərqlənir. Amma buna baxmayaraq, konseptlərin ümumi tiplərinin müəyyənləşdirilməsi imkanları da heç də lokal səviyyədə deyil. Belə ki, müasir linqvistikada, linqvokulturologiyada artıq ümumi antroposentrik istiqamətləri hədəfə çevirərək “insan faktoru” qabardılır, bədii məhsullarda, ayrı-ayrı konsept tiplərində insanın ağlı, şüuru, düşüncəsi, təfəkkürü, mənəvi-praktik fəaliyyəti və s. əsas götürülür.

## Ədəbiyyat

1. Həsənov, H.Ə. (1987). Müasir Azərbaycan dilinin leksikası. Bakı: “Maarif”, 308 s.
2. Mal'yuchina, A.V. (2007). Tipy frazeologicheskikh kontseptov i sposoby ikh kontekstnoy reprezentats: Diss. kandidata filologicheskikh nauk. Voronezh, 156 s.
3. Türksevər, O.İ. (2003). İngiliscə-Azərbaycanca lüğət. Bakı: “Qismət” nəşriyyatı, 1672 s.
4. Vəliyeva, N. (2010). Azərbaycan-ingiliscə-rusca frazeoloji lüğət. ll cild. Bakı, 988 s.
5. Askol'dov, S.A. (1997). Kontsept i slovo. Russkaya slovesnost'. Ot teorii slovesnosti k strukture teksta: antolgiya. M.: Azhademia, 280 s.
6. Babushkin, A.P. (1996). Tipy kontseptov v leksiko-frazeologicheskoy semantike yazyka, ikh lichnostnaya i natsional'naya spetsifika. Monografiya. Voronezh, BGU, 237 s.
7. http://www.pride-unlimited.com/probono/ idioms1.html
8. Alefirenko, N.F. (2003). Problemy verbalizatsii kontsepti: Teoricheskoye issledovaniye. Volgograd: Peremena, s.5-14.
9. Larin, B.A. (1977). Istoriya ruskogo yazyka i obshcheye yazykoznaniye: izbrannyye raboty. M., Prosveshcheniye, 388 s.
10. Sadıqova, S., Hüseynova, N. (2018). İzahlı dilçilik terminləri lüğəti. Bakı: “Elm”, 912 s.
11. Kiz'mina, S.Ye. (2015). Prostoye predlozheniye sovremennogo angliyskogo yazyka kak sredstvo reprezentatsii sintaksicheskogo kontsepta. Dis. ... doktora filologicheskikh nauk. Nizhniy Novgorod, 499 s.
12. Dobrydneva, Ye.A. (2003). Frazeologicheskiye sredstva i sposoby verbalizatsii emotsional'nykh konseptov yazyke i rechi. Problemy verbalizatsii kontseptov. CH. 1. Volgograd: Izd-vo Volgogradskogo universiteta, s.97-103.

Göndərilib: 01.03.2024 Qəbul edilib: 30.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/72-77

**Sevda Məsimzadə**
Bakı Dövlət Universiteti
dissertant
sevdamesimzade@mail.ru

# EMOSİONAL SÜNİ İNTELLEKT VƏ ÜNSİYYƏT

**Xülasə**

Emosional Süni İntellekt (ESI), insan emosiyalarını anlamaq, təhlil etmək və hətta bəzən emosional cavablar vermək üçün istifadə olunan texnologiyalardır. Bu texnologiyalar geniş spektrumdakı mətn, səs və görüntü məlumatını işləyərək insanların emosional durumlarını müəyyənləşdirir və onlara cavab verir.

Ünsiyyət isə insanlar arasında məlumat mübadiləsini nəzərdə tutan bir prosesdir. Emosional süni intellekt, bu məlumat mübadiləsini daha səmimi və effektiv hala gətirmək üçün insan emosiyalarını anlamaq və onlara cavab vermək üçün istifadə edilir.

Yəni, ESI, insanların emosional tənəzzül və həyəcanlarını anlamaq üçün texnologiyalardır və bu anlayışa əsasən müəyyən reaksiyalar və cavablar təyin edir. Bu, müştərilərlə, istifadəçilərlə, tələbələrlə və digər insanlarla daha yaxşı və səmimi ünsiyyət qurmağa kömək edir.

***Açar sözlər:*** *əlaqə, məlumat mübadiləsi, daxilən, effektiv, reaksiyalar*

**Sevda Masimzadeh**
Baku State University
PhD student
sevdamesimzade@mail.ru

## Emotional artificial intelligence and communication

**Abstract**

Emotional Artificial Intelligence (EAI) is a technology used to understand, analyze, and sometimes even respond to human emotions. These technologies process a wide range of text, voice, and image data to determine people's emotional states and provide responses.

Communication, on the other hand, is a process that aims to exchange information between people. Emotional artificial intelligence is used to understand human emotions and respond to them to make this information exchange more sincere and effective.

So, EAI technologies are technologies used to understand human emotional inclinations and excitations, and based on this understanding, determine certain reactions and responses. This helps to establish better and more sincere communication with clients, users, students, and other people.

***Keywords:*** *communication, exchange information, sincere, effective, reactions*

## Giriş

Emosional süni intellekt (ESİ) insan hisslərini anlamaq və hətta reaksiya vermək üçün süni intellekt texnologiyalarından istifadə edir. Bu, gündəlik həyatda, iş yerində, tibbi sahədə və daha bir çox sahədə tətbiq oluna bilən bir konseptdir.

1. Əsas Prinsiplər: ESİ, insanların mətn, səs və digər kommunikasiya formaları vasitəsilə ifadə etdikləri emosional məzmunu anlamağı hədəfləyir. Bu, ifadə olunan emosiyaları tanımaq, anlamaq və hətta özəlləşdirmək üçün bir neçə texniki texnologiyadan istifadə edir.
2. Təhlil Texnologiyaları: ESİ, mətn analizi, səs təhlili, yüz ifadələrinin tanınması, vəziyyət hissiyyatı, səslərin tonunu və tərzi dəqiqləşdirmək üçün texniki alətlərdən istifadə edir.
3. Tətbiq Sahələri: ESİ, müştərilərə daha yaxınlaşmaq və onların tələblərini daha yaxşı anlamaq üçün marketinq və satışda, müştəri xidmətlərində və insan resurslarında tətbiq olunur. Həmçinin,

tibbi sahədə emosional durumu qiymətləndirmək və depressiya və anksiyetə kimi problemli vəziyyətləri tanımaq üçün istifadə olunur.

4. Üstünlükləri: ESİ, insan faktoru olmadan həyata keçirilən müşahidə və təhlil əməliyyatlarını avtomatlaşdıraraq vaxt və resurs qazandırır. Həmçinin, insan emosiyalarını daha yaxşı anlamağa kömək edərək müştəri təcrübəsini yaxşılaşdırır və iş təcrübəsini yaxşılaşdırmaqda önəmli bir rol oynayır.

5. Risklər və Məhdudiyyətlər: Hər nə qədər ESİ, emosiyaları tanımaq və anlamaqda yüksək səviyyədə səmərəli olsa da, insan emosiyalarının dərinliyini və kompleksliyini də tam olaraq anlamaq mümkün deyil. Bu, yanlış anlama və yanlış mənalı analizlərin doğuracağı potensial risklərə yol aça bilər.

6. Gələcək İmtiyazları: İnsanlarla daha effektiv və əlaqəli kommunikasiya qurmağın ən əsas məqsədi olan ESİ, gələcəkdə daha da məhşur və lazımlı olacaq. İstənilən sahədə insanlar arasında daha mənasız və effektiv əlaqə qurmaq və qorumaq üçün əlavə imkanlar yarada biləcək.

Emosional süni intellektin həyatımızda bir sıra  rolları var (“Andreas Kaplan, 2022):

1. Müştərilərə Yaxınlaşma və Müştəri Təcrübəsi: Şirkətlər, emosional süni intellekt vasitəsilə müştərilərinə daha yaxınlaşmaq və onların emosional tələblərini anlamaq üçün marketinq və satışda istifadə edir. Bu, müştəri təcrübəsini yaxşılaşdırır və loyallığı artırır.

2. İşgüzar Təlim və İnsan Resursları: Emosional süni intellekt, iş yeri mühitində işçilərin emosional sağlamlığını izləməyə və idarə etməyə kömək edir. Bu, iş yeri rahatlığını artırır və iş yeri performansını yaxşılaşdırır.

3. Sağlamlıq Tədbirləri: Tibbi sahədə, emosional süni intellekt depressiya, anksiyete və digər ruhi problemləri tanımaq və müalicə etmək üçün istifadə olunur. Bu, insanların psixoloji sağlamlığını yaxşılaşdırmaqda və problemləri müalicə etməkdə kömək edir.

4. Mətbuat və Sosial Media Analizi: Emosional süni intellekt, mətbuat məzmununu və sosial media paylaşımlarını analiz edərək ictimai fikirləri və duyğuları anlamağa kömək edir. Bu, şirkətlərə və hərəkətə keçiriləcək strategiyalara yönləndirilən dəyərləri təmin edir.

5. İnformasiya Mədəniyyəti: Emosional süni intellekt, insanların mətn və səs yolu ilə ifadə etdikləri emosional məzmunu anlamaqda kömək edir. Bu, ictimai mediada paylaşılan məzmunun anlaşılması və mədəniyyətin inkişafında əhəmiyyətli bir rol oynayır (Crevier, 1993: 52).

Bütün bu sahələrdə emosional süni intellekt, insan faktorunu daha yaxşı nəzərə alaraq kommunikasiyanı yaxşılaşdırır və həyat keyfiyyətini artırır. Emosional intellektin insan həyatındakı əhəmiyyəti və süni intellektlərin inkişafı ilə bağlı mövcud münaqişələr və suallar mövcuddur. Emosional intellekt, insanların öz və ətraflarındakı emosional məzmunu başa düşmə, idarə etmə və effektiv şəkildə istifadə etmə qabiliyyətidir. Bu, insanların münasibətlərini, iş performansını, müəyyən etmə qabiliyyətlərini və yaşam təcrübələrini şəkilləndirir. Süni intellektin inkişafı ilə birlikdə, bəzi insanlar süni intellektin emosional intellekti əvəz etməyə və ya onun yerinə qoymaq istəyəcəyinə dair narahatlıqlar ifadə edirlər. Müasir texnologiya inkişafı ilə birlikdə, bir çox sahədə süni intellektin tətbiq sahələri genişlənir. İşlərdə, sosial həyatda, tibbi sahədə və digər sahələrdə, süni intellektin tətbiqi daha yaygınlaşmaqdadır. Süni intellektin tətbiqi insan emosiyalarını da nəzərə ala bilər, məsələn, müştərilərin davranışlarını proqnoz etmək, təhlil etmək və daha yaxşı xidmət təklif etmək üçün. Ancaq, süni intellektin emosional intellekti əvəz etməsi və ya onun yerinə qoyması məsələsində ciddi müzakirələr mövcuddur. Hər birinin öz əhəmiyyəti və işləmə prinsipləri var. Süni intellekt mühəndisləri və inkişafçıları insan emosiyalarını tam olaraq nəzərə ala bilmədikləri və tam olaraq həll edə bilmədikləri üçün, süni intellektin emosional intellekti əvəz etmək mümkün deyil (Goulman, 2009; Russell, 2021).

Bu baxımdan, süni intellektin insan emosional intellektini tamamilə əvəz etməsi mümkün deyil və hətta istənilən zaman arzu edilən nəticələri verməyəcəyi bilinir. İnsanların qərarlarını verərkən emosional intellektlərinin və təcrübələrinin dəyərini qorumaq və özünü daha yaxşı qorumaq əsasən əhəmiyyətlidir. Süni intellektin inkişafı və tətbiqi ilə bağlı narahatlıqlar və müzakirələr davam edir. Bununla birlikdə, bu texnologiyaların insanlığın yararına işlədilməsi və insan emosional intellektini dəstəkləməsi üçün ciddi narahatlıqlar və təşvişlər mövcuddur (McCorduck, 2004: 252).

Süni intellekt (SI) texnologiyalarının inkişafı, bir çox insanlar arasında ünsiyyət problemlərinə səbəb olur. Deməli, bu problemlər və mümkün həll yolları:

1. İnsanlaşdırılmış Ünsiyyət: SI tətbiqləri, insanlarla məhdud bir ünsiyyət formunu təmin edə bilər və bu, bir çox insanın sosial mühitin təklif etdiyi qeyri-digital insan əlaqələrinə görə eksiklik hissi yarada bilər.

2. Emosional Anlama: SI, insan emosional tərəfləri və emosiyaları anlamaq və qiymətləndirmək baxımından çətinlik çəkə bilər. Bu, insanların təbii emosional tələbatlarını başa düşmədə çətinliklərlə nəticələnir.

3. Empati Əksikliyi: SI, insan emosional tələbatlarını və empatiya qabiliyyətlərini nəzərə almadığı üçün, insanlar arasında dərin və məna dolu ünsiyyət qurmaqda zorlanır.

4. Əlaqəsizlik: Süni intellekt tətbiqləri, insanlar arasında daha real və məna dolu ünsiyyətin qurulması yerinə, şəffaf, əlaqəsiz və ya hissiz ünsiyyət təcrübələrinə səbəb ola bilər.

Həll yolları (Moravec, 1988):

1. Düzgün Təhsil: İnsanlar, süni intellektin tətbiqi ilə əlaqəli məsələlərin başa düşməsini və təcrübələrin dəyərini anlamaq üçün daha geniş məlumatlandırılmalıdır.

2. İnsan Əməyin İstifadəsi: Süni intellekt tətbiqləri, insan emosional intellekti ilə birlikdə işləyə bilər və beləliklə, həm SI'nin texniki gücündən istifadə edərək, həm də insan emosional intellektindən istifadə edərək daha effektiv ünsiyyət təcrübələri yaradılabilir.

3. Daxili Təlimat və Dəstək: Şirkətlər, iş təşkilatlarında SI tətbiqlərini daha effektiv istifadə etmək üçün işçilərə daxili təlimat və dəstək proqramları təmin etməlidirlər.

Süni intellektlərin dövrümüzdə ənənəvi ünsiyyətə təsir etməsi bir çox yeni məsələlər və risklər doğurur, lakin düzgün tətbiq edildikdə və insan emosional intellekti ilə birlikdə işlədikdə, daha yaxşı və məna dolu ünsiyyət təcrübələri yaradıla bilər (Lyusin, 2006).

Süni intellekt (SI) üzərində çalışmalar zamanla kommunikasiya sahəsində də genişlənmişdir. İlk başlarda, SI üçün əsas məqsəd insanların tərəfdaşları olaraq hərəkət etmək və onların əmrlərini yerinə yetirmək idi. Amma son illərdə SI-nin kommunikasiya sahəsindəki rolu dəyişib və insanlarla daha kompleks və məqbul ünsiyyət formasını təmin etməyə başlayıb.

Bu günlərdə Yaponiyanın Meiji Universitetinin süni intellekt üzrə mütəxəssisi professor Juniçi Takeno "RİA Novosti" informasiya agentliyinə verdiyi müsahibəsində söyləyirdi ki, rəhbərlik etdiyi tədqiqatçı-mütəxəssislər qrupu insan şüurunu təqlid edə bilən robotlar hazırlayırlar. Həmin robotlar şüurlu insan kimi öz hərəkət və davranışlarını dərk edə və öz fikirlərini sərbəst şəkildə ifadə edə, hətta güzgüyə baxdıqda özləri-özlərini tanıya biləcəklər. Bunun üçün professor Takeno və rəhbərlik etdiyi mütəxəssislər qrupu vahid insan düşüncəsinin bir növ analoqu olan ikiqat rekursiv neyron şəbəkəsinə əsaslanan idrak modulu yaradıblar. MoNAD (Module of Nerves for Advanced Dynamics) adlandırılan bu modul insan şüuruna xas olan əlamətlərin əksəriyyətini, həmçinin avstraliyalı filosof Edmund Husserl tərəfindən tədqiq olunmuş on xüsusiyyəti izah edə bilir. MoNAD-ın ən əsas xüsusiyyəti nə etdiyini anlaya bilmək qabiliyyətidir. Juniçi Takenonun sözlərinə görə, zamanla süni intellektə malik robotlar əmək fəaliyyətinin bir çox sahələrində insanları əvəz edə biləcəklər (Bredberri, Grivz, 2017).

**Rəqəmsal əsrdə dilin əvəzedilməz və xüsusi əhəmiyyət kəsb edən funksiyaları.**

Hər birimiz fikirlərimizin ötürülməsində dilin aparıcı qüvvə olmasına vərdiş etmişik. Bəs bu gün süni intellektin həyatımızın hər bir sahəsində hegemonluq etdiyi bir dövrdə, alimlərin yazılı və ya şifahi ünsiyyət olmadan beyin-kompüter vasitəsilə birbaşa fikirləri ötürə bilmək imkanını reallaşdırmaq üçün apardıqları tədqiqatların fonunda dilin mövqeyi nədən ibarətdir?

Rəqəmsal əsrdə dilin cəmiyyətimizdəki rolunu anlamaq və yeni texnologiyaların bunun üçün yaratdığı imkanları araşdırmaq son dərəcə vacibdir. Bəzi neyrobioloqlar və filosoflar iddia edirlər ki, dil artıq öz unikallığını itirib və fikirləri çatdırmaq üçün yeganə ünsiyyət vasitəsi deyil. Ümumiyyətlə, belə qəbul edilir ki, düşüncəmizin çox hissəsi qeyri-verbaldır. Demək olar ki, onların bəziləri dildə öz ifadəsini tapa bilmir. Psixologiya və dilçilik dilin ideal vasitə olmadığını qəbul edir. Analitik fəlsəfədə deyilir ki, istənilən fikri dil vasitəsilə ifadə etmək mümkündür. Diqqəti cəlb edən məqam ondan ibarətdir ki, bəzən dil müasir incəsənətin yaratdığı konkret təcrübəni ifadə edə

bilmir. Hətta deyə bilərik ki, o, bu gün müasir elmlərin bir çoxuna xas olan mücərrəd düşüncə tərzini formalaşdıra bilmir (Bradberry, Greaves, 2009).

**Süni intellekt üçün məhdudiyyət.**

1956-cı ildə amerikalı informatik alim Con Makkarti insan şüurunun əsas əlamətlərinin kompüterə köçürülməsini özündə ehtiva edən "süni intellekt" – "maşınları intellektual etmək elmi və mühəndisliyi" ifadəsindən istifadə etməyə başladı. Beləliklə, insanın sahib olduğu ən dəyərli mülkiyyəti olan intellektin maşınlar tərəfindən dəqiq şəkildə simulyasiya olunmasına başlandı. Əlbəttə, süni intellekt yaradıldığı gündən müxtəlif optimist və pessimist fikirlərlə qarşılaşsa da, bu gün texnologiyanın inkişafında mühüm yer tutur.

Hesablama cihazları yaradıldığı ilk dövrlərdə, bir qayda olaraq, insanın və ya onun təfəkkürünün obyektiv hərəkətləri təqlid edilirdi. Son illərdə isə süni intellekt ilə işlər üç əsas istiqamətdə aparılır (Lyusin, 2004: 29):

- İnsanın yaradıcı qabiliyyətini təkrarlamaq;
- İnsanın kompüterlə "ünsiyyətini" dialoq formasında apara bilmək (məsələn, formalizmləşdirilmiş mətnləri təbii dillərə tərcümə etmək);
- əsas elementi "süni intellekt"dən ibarət olan robot texnikasını yaratmaq.

Beləliklə, insan və onun təfəkkürü elektron hesablama maşınları ilə qarşı-qarşıya gəlir. Texnologiya getdikcə insan həyatının daha aktiv tərəfdaşına çevrilir. Bəşər övladının təbii zəkası ilə süni intellektin bir-biri ilə bağlılığı insanın yaradıcılıq qabiliyyətini artırır, onda yeni düşüncə paradiqmasına ehtiyac oyadır.

Alimlər etiraf edirlər ki, süni intellekt sahəsində texnologiyalar mütəxəssislər üçün də anlaşılmaz ola bilər. Prinston Universitetinin tanınmış neyronoloqu Aaron Bornşteyn süni neyron şəbəkələri haqqında yazdığı məqaləsində vurğulayır ki, "… heç kim onların necə işlədiyini dəqiq bilmir. Deməli, heç kim onların nə zaman sıradan çıxacağını qabaqcadan xəbər verə bilməz". Əgər söhbət tibbi diaqnostika sistemindən gedirsə, insan üçün nəticələr daha ciddi ola bilər. Onun fikrincə, idrak süni intellekt üçün məhdudiyyətdir: "… təfsiretmə bu cür modellərin öz potensiallarına çatmasına mane ola bilər". Əgər süni intellektin işini anlamaq olmursa, onu dil ilə ifadə etmək də mümkün deyil (McCarthy, 1955). Müasir neyron şəbəkələrin mürəkkəbliyi nəticəsində biz süni intellektin hansı qərarları qəbul etdiyini çətinliklə anlaya bilirik. Bu səbəbdən maşınlar üçün məxsusi dilin ixtira edilməsi labüddür. Dil yalnız fikrin ötürülməsi üçün deyil, həm də onun həyata keçirilməsi üçün mütləqdir. Dilçi alimlərin fikrincə, dil insanlar arasında yalnız fikrin ötürülməsi üçün deyil, həm də onun həyata keçirilməsi üçün mütləqdir. Əlbəttə ki, insan fikirlərini və hisslərini başqa, tamamilə fərqli vasitələrlə də ifadə edə bilər. Belə ki, musiqiçi öz düşüncə və hisslərini səslərlə, rəssam çəkdiyi rəsmlərlə, rənglərlə, heykəltəraş hazırladığı heykəllərlə, riyaziyyatçı düstur və həndəsi fiqurlarla ötürə bilər. Hər kəsin düşüncəsi, hissləri onun davranış və hərəkətlərində öz ifadəsini tapır. Ancaq bir məsələni unutmayaq ki, düşüncənin ifadə formasından asılı olmayaraq, o, şifahi nitqlə verbal ünsiyyətə ötürülür. Dilin bu spesifik xüsusiyyəti onun insan idrakı ilə əlaqəsindən qaynaqlanır. Təfəkkürün dil ilə bu cür yaxın əlaqəsi onunla nəticələnir ki, təfəkkür öz əksini məhz dildə tapa bilir. Məzmunca aydın və formaca düzgün qurulmuş təfəkkür aydın və səlis nitqlə ifadə olunur (Russell, 2021).

Bəzi alimlərin "müasir Eynşteyn" adlandırdığı linqvist Avram Noam Çomski əmin edir ki, dilin strukturunu və ondan sərbəst şəkildə istifadə etməyi öyrənmək insan zəkasının quruluşunu anlamağa kömək edəcək. Onun fikrincə, dilin əhatə dairəsi o qədər mürəkkəbdir ki, bəzən insan təfəkkürünün quruluşunun unikallığına şübhə edirsən. "Dil bacarıqları", – Çomskiyə görə, insanın genetik təfəkkürünün bir hissəsidir. O, bəşər övladının immunitet, görmə və qan dövranı sistemlərinə çox bənzəyir. Buna görə də biz insanın dil bacarıqlarını tədqiq etməyə çox ciddi yanaşmalıyıq. Texnologiyanın inkişafı nəticəsində idrak və dilin əlaqəsi süni intellekt problemi ilə sıx bağlı olmağa başladı. Süni intellektin istifadəsi üçün prioritet sahə kompüter ekspert sistemləridir. "İntellekt" (zəka) termini müasir fəlsəfədə təfəkkürün ən yüksək dərketmə qabiliyyəti kimi şərh olunur. Süni intellekt bəşər övladı tərəfindən yaradılan vasitələrin köməyilə insan idrakının müəyyən funksiyalarının təqlidini ifadə edən metaforik anlayışdır. İnsan idrakı mücərrəd

konseptual düşüncə ilə əlaqəli olduğu halda, heyvanların düşüncəsi və "dili" elementar təfəkkür səviyyəsində qalır, süni intellekt isə onlardan fərqli olaraq, ancaq işarələrlə "düşünə bilən" maşın kimi qiymətləndirilir. Məsələn, yalnız riyazi teoremləri isbat etmək üçün proqramlaşdırılmış bir kompüter şahmat oynaya və yaxud başqa məsələləri həll edə bilməyəcək. Çünki o, yalnız insan tərəfindən qurulmuş proqrama uyğun işləyir və buna görə də insanın ixtiyarındadır (McCorduck, 2004: 243).

Süni intellekt həm də kommunikativ sistemdir. İnsanla süni intellekt arasında ünsiyyəti qurmaq üçün xüsusi dil-interfeysdən istifadə olunur. Dil-interfeys onların arasında qarşılıqlı əlaqənin interaktiv formasını təmin edir. Süni intellekt həm də kommunikativ sistemdir. Bu gün süni intellekt fəlsəfəsinin qarşısında duran əsas suallardan biri də budur ki, süni intellekt də dildən insan kimi istifadə edə bilərmi? Analitik fəlsəfənin banilərindən olan avstraliyalı alim Lüdviq Vitgenşteynin fikrincə, dilin məntiqi quruluşu dünyanın ontoloji quruluşu ilə eyniyyət təşkil edir. İnsan təfəkkürün və gerçəkliyin sərhədində dayanır və dil bu sərhədi daha dəqiq müəyyənləşdirməyə imkan verir. Süni intellektin fəlsəfəsi tarixində linqvistik yanaşmadan süni intellektin şüurluluğu haqqında ən tənqidi arqument amerikalı filosof professor Con Serl tərəfindən irəli sürülən "Çin otağı" idi. O, "Çin otağı"nın məğzini belə izah edirdi: "Tutaq ki, yalnız ingilis dilində danışa bilən bir nəfər kənar aləmdən təcrid olunaraq bir otaqda yalnız qalır və ona oxumaq üçün Çin dilində mətn verilir. Əlbəttə, Çin heroqlifləri haqqında heç bir təsəvvürü olmayan insan üçün ilk baxışda bu yazı sadəcə bir kağız üzərində olan mürəkkəb çubuqları dəstidir. Sonra ona Çin dilində yazılmış başqa bir kağız vərəqi və əlavə olaraq Çin dilində iki mətni müqayisə etmək üçün doğma ingilis dilində təlimat verilir. Təlimat ümumi kontekst çərçivəsində oxşar simvolların müəyyənləşdirilməsinə və onların meydana gəlməsi qanunauyğunluqlarını qavramağa kömək edir (Russell, 2021: 18).

1. Dialoq Sistemləri: Bu sistemlər, insanlarla müxtəlif mövzularda dialoq aparmağa imkan verir. SI, insanların suallarına cavab verə bilər, onlarla danışa bilər və hətta problemləri həll edə bilər. Bu, virtual assistantlər, məsələn, Siri, Alexa və Google Assistant kimi platformalarda görülür.

2. Sosial Mediya İşləmə: SI, sosial mediya platformalarında insanlarla müxtəlif məzmunları paylaşmaq, məqalələri oxumaq və digər istifadəçilərlə interaksiya etmək üçün istifadə olunur. Buna görə də məzmun yaradıcıları, müştəriləri ilə daha yaxın əlaqələr quraraq, onların istəklərinə cavab verə bilər.

3. Səs Tanıma və Sintez: SI, insan səsini tanımaq və onunla etibarlı şəkildə kommunikasiya qurmaq üçün səs tanıma və sintez texnologiyalarından istifadə edir. Bu, məsələn, əmrlər almaq və səsli kitab oxumaq üçün istifadə olunur.

4. Duymaq və Görə Bilmək: SI, görüntü və səs işləmək üçün texnologiyalardan istifadə edərək ətrafındakı dünyanı anlamaq və reaksiya vermək üçün işləyir. Bu, məsələn, avtomatik sürüş sistemlərində, tıbbi diqnostik alətlərdə və müxtəlif sensor cihazlarında görülür.

Bu nümunələr SI-nin kommunikasiya sahəsindəki rolunu nümayiş etdirir, amma hər biri SI-nin müxtəlif funksiyalarını və tətbiq sahələrini təqdim edir. Bu sahələrdə SI-nin rolunun inkişafı ilə birlikdə, insanlarla qarşılıqlı ünsiyyətdə daha çox mərhələlərin yaranması gözlənilir. Emosional süni intellekt (ESİ) və ünsiyyət arasındakı qarşılıqlı təsir, müxtəlif sahələrdə insanların həyatında önəmli dəyişikliklərə səbəb olur. İki konsept arasındakı mühüm qarşılıqlı əlaqələr (McCorduck, 2004):

1. Daha Yaxşı Müştəri Təcrübəsi: ESİ, müştərilərin tələblərini daha yaxşı anlamağa kömək edir və bu da daha effektiv və məqbul müştəri təcrübələrinin yaradılmasına səbəb olur. İnsan emosiyalarını və istəklərini daha doğru analiz edə bilən ESİ sistemləri, müştərilərə daha yaxınlaşmaq və onların tələblərinə daha sürətli cavab verə bilmək imkanı yaradır.

2. İş Yeri Mühitində Daha Yaxşı Əlaqə: Şirkətlər, ESİ vasitəsilə iş yeri mühitində daha effektiv bir əlaqə quraraq işçilərin motivasiyasını və performansını artıra bilərlər. ESİ, işçilərin emosional sağlamlığını izləməyə kömək edərək, iş yeri mühitində pozitiv bir atmosfer yaratmağa yardımçı ola bilər.

3. Daha Effektiv Sağlamlıq Xidmətləri: Tibbi sahədə, ESİ, daha effektiv sağlamlıq xidmətləri təmin etmək üçün istifadə oluna bilər. EMİ, insanların emosional və fiziki sağlamlığını izləyərək, daha dəqiq diaqnostika və müalicə təklif edə bilər.

4. Daha Yaxşı İş Yeri Mənecmenti: İş yeri mənecmentində, ESİ, işçilərin emosional məzmununu və sağlamlığını izləyərək, daha yaxşı qərarlar verməyə və iş yeri performansını yaxşılaşdırmağa kömək edə bilər.

5. Təhlükəsizlik və Gizlilik Məsələləri: ESİ sistemləri istifadəçilərin emosional məlumatlarını toplamaq və analiz etməkdə, gizlilik və təhlükəsizlik məsələlərinə diqqət etməlidirlər. İnsanların məxfi məlumatlarının qorunması və gizliliyinin təmin edilməsi, əlaqə qurma prosesində önəmlidir.

## Nəticə

Bu məsələlər nümunələrdir, lakin emosional süni intellekt və ünsiyyət arasındakı qarşılıqlı təsir daha çox sahələrdə və müxtəlif şərtlərdə tətbiq oluna bilər. Bu, insanların həyatını daha da effektiv və mənasız edə biləcək potensial bir texnoloji inkişaf sahəsidir.

Süni intellektin yüksəlişi və dəyişən dünya, təbii dil ünsiyyətini də dəyişdirir. Dünyanın sürətlə dəyişməsi, intellektual inkişaf, nanotexnologiyalar və digər yeniliklər insanların mədəni dəyərlərini və düşüncə tərzini də dəyişdirir. Ancaq bəzi insanlar və cəmiyyətlər bu dəyişikliklərə cavab verə bilmir, bu isə insanları yeni texnologiyalara adaptasiya olmaqda çətinliklərlə qarşılaşdırır.

Süni intellektin yüksəlişi ilə birlikdə, təbii dil ünsiyyəti də dəyişir. Süni intellekt, özünəməxsus bir ünsiyyət dilidir.

Tədqiqatda aydın bir şəkildə göstərilir ki, süni intellektin əsas məqsədi insan şüurunu tamamilə təqdim etmək deyil, bəlkə də onu tədqiq etməkdir. Dilin əhəmiyyəti bu kontekstdə süni intellektin işləməsinə daxil olan ən əhəmiyyətli faktorlardan biridir. Həmçinin, dilin intellektual fəaliyyətin əsas elementlərindən biri olduğu vurğulanır.

Bu məqalədən çıxarıla biləcək bir nəticə, süni intellektin hələ də insan şüurunun bütün aspektlərini əks etdirə bilmədiyidir. Mənbədə qeyd edilir ki, dilin daxili məzmununu anlamaq üçün insan zəkasının yaradıcılığı və İQ kifayət qədərdir, lakin süni intellekt üçün bu hələ də böyük bir məsələdir. Nə qədər süni intellekt yüksək texnologiyalı alətlər olsa da, hələ də insan şüurunu əvəz edə bilməz. İnsanın duyğuları, yaradıcılığı, intuisiyası və mənasını anlama qabiliyyəti kimi aspektləri, hələ ki, süni intellekt tərəfindən tamamilə təqdim edilə bilmir. Bu, həm də məsələni süni intellektin məhdudiyyətlərinə, əsasən dildə ifadə etmək, daha yaxşı başa düşmək və təşkil etmək imkanlarının məhdudiyyətlərinə bağlayır.

## Ədəbiyyat

1. Andreas Kaplan. (2022). Artificial Intelligence, Business and Civilization – Our Fate Made in Machines. Routledge.
2. Crevier. (1993), pp.52-107.
3. Goulman, D. (2009). Emotsional'nyy intellekt. M: AST, 478 s.
4. Russell, N. (2021), pp.19-21.
5. McCorduck. (2004), pp.111-136.
6. Lyusin, D.V. (2006). Novaya metodika dlya izmereniya emotsional'nogo intellekta: oprosnik EmIn. Psikhologicheskaya diagnostika. № 4, s.3-22.
7. Moravec. (1988). 9 p.
8. McCarthy. (1955).
9. Russell, N. (2021). 18 p.
10. Bredberri, T., Grivz, Dzh. (2017). Emotsional'nyy intellekt 2.0. Perevod na russkiy yazyk, izdaniye na russkom yazyke, oformleniye OOO «Mann, Ivanov i Ferber».
11. Bradberry, T., Greaves, J. (2009). Emotional Intelligence 2.0.
12. Lyusin, D.V. (2004). Sovremennyye predstavleniya ob emotsional'nom intellekte. Sotsial'nyy intellekt: Teoriya, izmereniye, issledovaniya. Pod red. D.V.Lyusina, D.V.Ushakova. M.: Iz-vo Institut psikhologii RA, s.29-36.
13. McCorduck. (2004), pp.243-252.

Göndərilib: 18.03.2024 Qəbul edilib: 27.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/78-83

**Afərim Həmzəyeva**
Bakı Dövlət Universiteti
magistrant
afa.hamzayeva @gmail.com

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARINDA 1950-Cİ İL TARİXLİ AVROPA KONVENSİYASININ "İŞGƏNCƏLƏRİN QADAĞAN EDİLMƏSİ" ADLI 3-CÜ MADDƏSİNİN ŞƏRHİ

**Xülasə**

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə Avropa Konvensiyası işgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qarşısının alınması üçün yeganə beynəlxalq hüquqi sənəd deyildir. Eyni qadağa BMT-nin 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktının 7-ci maddəsində, 1984-cü il İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyada da öz əksini tapmışdır. Bundan əlavə, Avropa Şurası 1987-ci ildə qabaqlayıcı 1950-ci il Avropa Konvensiyasının 3-cü maddəsinə əlavə olaraq işgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyası qəbul edilmişdir. Bununla belə, 1950-ci il Avropa Konvensiyasının "işgəncə" anlayışının ilk şərhini verdiyini nəzərə alsaq, onun müddəalarının təhlili elmi və praktiki maraq doğurur. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın müddəalarını Konvensiyanın iştirakçısı olan ölkələrin qanunvericiliyində və milli məhkəmələrinin qərarlarında necə şərh edilməsindən asılı olmayaraq şərh edir, çünki əksər hallarda eyni terminlər müxtəlif mənalara malik olurlar. Avropa İnsan Hüquqları Komissiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin gördüyü işlər sayəsində 3-cü maddənin mətni hazırda daha dəqiq məna kəsb edir. Aydın olur ki, "qeyri-insani" və ya "ləyaqəti alçaldan" kimi anlayışlar statik olaraq deyil, hazırda qüvvədə olan Avropa dövlət siyasəti standartına uyğun şəkildə şərh edilməlidir. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə Avropa Konvensiyasının 3-cü maddəsində qadağan olunmuş pis rəftarın üç növü fərqləndirilir: işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza.

***Açar sözlər:*** *işgəncə, konvensiya, insan hüquqları, zorakılıq, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan edilməsi*

**Aferim Hamzayeva**
Baku State University
master student
afa.hamzayeva @gmail.com

# Interpretation of article 3 "prohibition of torture" of the 1950 European Convention in decisions of the European Court of Human Rights

**Abstract**

The European Convention for the Protection of Human Rights and Fundamental Freedoms is not the only international legal instrument for the prevention of torture and inhuman or degrading treatment. The same prohibition is contained in Article 7 of the UN International Covenant on Civil and Political Rights of 1966, in the UN Convention against Torture and Other Cruel, Inhuman or Degrading Treatment or Punishment of 1984. In addition, the Council of Europe in 1987 in preventive In order to supplement Article 3 of the 1950 European Convention, the European Convention for the Prevention of Torture and Inhuman or Degrading Treatment or Punishment was adopted. However, given that the European Convention of 1950 gave the first interpretation of the concept of "torture", an analysis of its provisions is of scientific and practical interest. The European Court of Human Rights interprets the provisions of the Convention regardless of how

they are interpreted in the legislation and decisions of national courts of the countries party to the Convention since often the same terms have different meanings. Thanks to the work of the European Commission of Human Rights and the European Court of Human Rights, Article 3 has become clearer. It became clear that concepts such as "inhumane" or "degrading" should not be interpreted statically, but following the standard of European public policy currently in force. Article 3 of the European Convention for the Protection of Human Rights and Fundamental Freedoms distinguishes three types of prohibited ill-treatment: torture, inhuman or degrading treatment or punishment.

***Keywords:*** *prohibition of torture, convention, human rights, violence, inhuman or degrading treatment*

## Giriş

İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə Avropa Konvensiyasının 3-cü maddəsi işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanı qadağan edir. Orada deyilir ki, "Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qala bilməz". Bu maddə özlüyündə demokratik cəmiyyətin əsas dəyərlərindən birini qoruyur. Terrorizm və ya mütəşəkkil cinayətkarlıqla mübarizə kimi ən çətin şəraitdə belə, Konvensiya işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanı açıq şəkildə qadağan edir. Konvensiyanın və onun Əlavə Protokollarının əksər müddəalarından fərqli olaraq, 3-cü maddə heç bir istisnaya yol vermir. 1950-ci il Avropa Konvensiyasının 15-ci maddəsinin 2-ci bəndinə əsasən, 3-cü maddənin müddəalarından kənara çıxmaq hətta müharibə dövründə və ya xalqın həyatını təhlükə altına alan digər fövqəladə hallar zamanı da mümkün deyildir. Dövlət orqanlarının 3-cü maddədən kənara çıxmasına, hətta qanunla nəzərdə tutulsa belə, yol verilmir. Konvensiya "qurbanın davranışından asılı olmayaraq işgəncə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanı" qadağan edir. Nəzərə alsaq ki, 3-cü maddədə istifadə olunan anlayışlar qeyri-müəyyən şəkildə ifadə olunub və bizə müfəssəl məlumat vermir: buna baxmayaraq məhkəmə təcrübəsində onların geniş şərhinə rast gəlmək mümkündür, o cümlədən insan ləyaqətinin alçaldılmasının nəinki çox qəddar formaları, həm də bir çox digər az ağır rəftar formaları da buna uyğun olaraq müəyyən edilir (Burkov, 2017: 84). Qeyd edək ki, İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə Avropa Konvensiyası işgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qarşısının alınmasına dair yeganə beynəlxalq hüquqi sənəd deyildir. Eyni qadağa BMT-nin 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktının 7-ci maddəsində, 1984-cü il İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyada öz əksini tapmışdır. Bundan əlavə, Avropa Şurası 1987-ci ildə qabaqlayıcı 1950-ci il Avropa Konvensiyasının 3-cü maddəsinə əlavə olaraq İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyası qəbul edilmişdir. Bununla belə, 1950-ci il Avropa Konvensiyasının "işgəncə" anlayışının ilk şərhini verdiyini nəzərə alsaq, onun müddəalarının təhlili elmi və praktiki maraq doğurur (Golovistikova, Grudtsyna, 2019: 87-88).

Avropa İnsan Hüquqları Məhkəməsi ilk olaraq İrlandiya Böyük Britaniyaya qarşı işində Konvensiyanın 3-cü maddəsinə ətraflı şəkildə təhlil etdi. Pis rəftarın bir növünü işgəncə kimi təsnif etmək üçün Məhkəmə 3-cü maddə ilə bu anlayışla qeyri-insani və ya ləyaqəti alçaldan rəftar anlayışı arasında müəyyən edilmiş fərqi nəzərə almışdır. Bu işdə Məhkəmə işgəncəni çox ağır və qəddar əzablara səbəb olan qəsdən qeyri-insani rəftar kimi müəyyən etmişdir. Məhkəmənin fikrincə, "işgəncə" anlayışı ilə "qeyri-insani və ya ləyaqəti alçaldan rəftar" anlayışı arasındakı fərq "əzabın müəyyən edilmiş dərəcəyə çatmasındadır". İşgəncə pis rəftarın ən ağır formasıdır. Bundan əlavə, işgəncə həmişə qeyri-insani və ya ləyaqəti alçaldan rəftardır, qeyri-insani rəftar isə həmişə ləyaqəti alçaldan rəftardır (Gorbachova, 2017: 185-187).

Bu işdə Məhkəmə əvvəlcə vurğuladı ki, ərizəyə Konvensiyanın 3-cü maddəsi kontekstində baxılması üçün əzabın müəyyən minimum şiddət səviyyəsinə çatması lazımdır. Bu minimal qiymətləndirilmə nisbidir və işin bütün hallarından, ilk növbədə fiziki və psixi təsirlərin müddətindən və şiddətindən, müəyyən hallarda isə qurbanın cinsindən, yaşından və ya sağlamlıq vəziyyətindən asılıdır.

İrlandiya Böyük Britaniyaya qarşı işində Britaniya hüquq-mühafizə orqanlarının dindirmə zamanı istifadə etdiyi beş üsul Məhkəmə tərəfindən qeyri-insani rəftar kimi qiymətləndirilib, çünki onlar əhəmiyyətli fiziki və ruhi iztirablara səbəb olub, lakin nəzərdə tutulan intensivliyə və qəddarlığa çatmayıb (Dekhkanova, 2017: 171-174).

Məhkəmədən fərqli olaraq, Avropa İnsan Hüquqları Komissiyası bu üsulları işgəncə hesab edib qərara gəlmişdir ki, onlardan istifadə dindirilənlərin iradəsinə və sərbəstliyinə əsaslı şəkildə təsir etmişdir. Komissiya şəxsin ifadə azadlığını Məhkəmədən daha yüksək qiymətləndirir. Pis rəftardan sistematik istifadə adi işgəncələrə xas olan ağır nəticələrə səbəb olmasa belə, işgəncə hesab edilə bilər. Müasir dindirmə üsulları ağır fiziki nəticələrə səbəb olmasa belə onların təsirini adi işgəncə formaları ilə müqayisə etmək olar. Komissiya işgəncəni təkcə fiziki ağrılara deyil, həm də dindirilənlərin və ya məhbusların ifadə azadlığına təsir edən ağır ruhi iztirablara səbəb olan əməl kimi qiymətləndirir. 1984-cü il İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzalara qarşı Konvensiyada fiziki və mənəvi işgəncə açıq şəkildə qadağan edilmişdir (Kobzeva, 2017: 68-70).

Bu Konvensiyanın 1-ci maddəsinin 1-ci bəndi işgəncəni bu şəkildə tərif edir: “... Bu Konvensiyanın məqsədləri üçün "işgəncə" termini hər hansı bir şəxsə ondan və ya başqa şəxsdən məlumat almaq, yaxud onun etirafına nail olmaq, onu və ya başqa şəxsi törətdiyi, yaxud törədilməsində şübhələnilən hərəkətə görə cəzalandırmaq, həmçinin onu və ya başqa şəxsi qorxutmaq və ya məcbur etmək, yaxud dövlətin vəzifəli şəxsi və ya rəsmi şəxs kimi çıxış edən başqa bir şəxs tərəfindən, yaxud da onların təhriki və ya onların icazəsi, yaxud razılığı ilə hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan istənilən səbəbə görə qəsdən güclü, fiziki, yaxud mənəvi ağrı və əzab yetirən hərəkətlər deməkdir. Bu anlayışa qanuni sanksiyalar nəticəsində törəyən, bu sanksiyaların ayrılmaz tərkib hissəsi kimi olan, yaxud onların təsadüfən doğurduğu ağrı və əzablar daxil edilmir (Markelova, 2017: 271-276).

Aksoy Türkiyəyə qarşı işdə Məhkəmə demək olar ki, yekdilliklə 3-cü maddənin pozulduğunu (8:1 səs) qənaətinə gəldi və pis rəftarı işgəncə kimi qiymətləndirdi. Ərizəçi, terror fəaliyyətində şübhəli bilinərək həbs edilmiş Türkiyə vətəndaşı cənab Aksoy dindirmə zamanı müxtəlif pis rəftarlardan, o cümlədən "Palestinian hanging" kimi tanınan qeyri-insani rəftardan şikayət etmişdir.

Bu işdə Məhkəmə hesab etdi ki, şəxs sağlam vəziyyətdə polis nəzarətinə götürüldükdə və azad edilərkən bədən xəsarətləri olduqda, dövlət xəsarətlərin səbəbləri ilə bağlı ağlabatan izahat verməyə borcludur; bu tələbin yerinə yetirilməməsi Konvensiyanın 3-cü maddəsinə uyğun olaraq məhkəmə qarşısında açıq şəkildə sual doğurur. Məhkəmənin fikrincə, "Palestinian hanging" kimi rəftar yalnız qəsdən həyata keçirilə bilər. Bu, ərizəçidən etiraf və ya məlumat almaq məqsədi ilə həyata keçirilmişdir Bu rəftarın səbəb olduğu şiddətli ağrıya əlavə olaraq, tibbi dəlillər bunun bir müddət davam edən hər iki əlin iflicinə səbəb olduğunu göstərir. Məhkəmə qərara aldı ki, rəftar o qədər ciddi və qəddar xarakter daşıyır ki, bu, yalnız işgəncə kimi qiymətləndirilə bilər (Nazar'yeva, 2017: 39-40).

Yuxarıda qeyd edildiyi kimi, “işgəncə” anlayışı ilə “qeyri-insani və ya ləyaqəti alçaldan rəftar” anlayışı arasındakı fərq əzabın müəyyən dərəcəyə çatması faktı ilə müəyyən edilir. İnsan hüquqları standartlarının artması ilə əlaqədar olaraq, Məhkəmə əvvəlki qərarlarında olduğu kimi müəyyən rəftarları qeyri-insani rəftar əvəzinə işgəncə kimi təsnif etməyə hazır olduğunu dəfələrlə bildirmişdir.

Əvvəlcə Konvensiyaya uyğun olaraq səlahiyyətli orqanlar 3-cü maddə üzrə fərdi şikayətlərlə intensiv şəkildə məşğul olurdular. Məsələn, həbs olunmuş şəxslərə qarşı qeyri-insani rəftar, 27 avqust 1992-ci il tarixli Tomasi Fransaya qarşı işində tanınıb və buna uyğun olaraq, Komissiya və Məhkəmə pis rəftar əlamətləri ilə sərbəst buraxılan məhbus ilə bağlı 3-cü maddənin pozulduğunu müəyyən edib. Məhkəmə bu işdə iztirabların şiddətini, xəsarətlərin çoxluğunu qeyd etdi və 3-cü maddənin şəxsin fiziki toxunulmazlığını qoruduğunu xüsusilə vurğuladı (Peshkoska, 2017: 26-31).

28 yanvar 1994-cü il tarixli Hurtado İsveçrəyə qarşı işində uzun müddət pis sanitar şəraitdə və tibbi yardım olmadan saxlanılan şübhəlinin həbsi zamanı qeyri-insani rəftarla bağlı 3-cü maddənin

pozulması aşkar edilmişdir, baxmayaraq ki, bunlar şəxsin zəruri ehtiyaclarını ödəmək ona lazım idi və səlahiyyətli şəxslər qaydalara əməl etməyə borclu idilər.

Selçuk və Əsgər Turkiyəyə qarşı məhkəmə işində də (12/1997/796/998-999) qeyri-insani davranışa rast gəlinmişdir. Qeyd olunan işdə təhlükəsizliyin təmin olunması istiqamətində keçirilən əməliyyatlar zamanı təhlükəsizlik işçiləri tərəfindən yaşlı ərizəçilərin evləri dağıdılmış, onları gözü qarşısında əşyaları məhv edilmişdir. Bu zaman onların təhlükəsizliyi və rifahı nəzərə alınmayaraq mənəvi əzablara düçar edilmişdir. Digər işdə Gafgen Almaniyaya qarşı məhkəmə işində(22978/05, 1 iyun 2010) ərizəçi oğurlanmış olan oğlan uşağının saxlanma yerini demədikdə dözülməz ağrılara məruz qalacağı ilə hədələnmişdir. Nəhayət AİHM tərəfindən qeyri-insani rəftarın digər formaları da müəyyən edilmişdir. Bunlar homoseksuallara qarşı qəddar rəftar, uşaqların döyülməsi, qadınların cinsi orqanlarının kəsilməsi, evlərin məhv edilməsidir. Bunun əksinə xərçəng xəstəsi olan şəxsə eksperimental sınaqdan keçməmiş dərmandan istifadəyə müraciətə imtina edilməsi qeyri-insani və ya ləyaqəti alçaldan rəftar kimi qəbul edilməmişdir (9).

Hümmətov Azərbaycana qarşı məhkəmə işində (29.11.2007) təcridxanada müxtəlif növ xəstəliklərin, o cümlədən vərəm xəstələyinin daşıyıcısı olan ərizəçinin qeyri-kafi müalicəsi ləyaqəti alçaldan davranış kimi qiymətləndirilmişdir. Məhkəmə müəyyən etmişdir ki, bu davranış ərizəçini kifayət qədər psixi iztirabalara məruz qoymuşdur. Ərizəçi ictimai maraqlar baxımından kifayət qədər əsaslandırılmadan iş yerinin qarşısında ictimai avtodayanacaqda qandallanmış, daha sonra təhqiqat zamanı o evinə və iş yerinə qandallanmış formada gətirilmişdir. Məhkəmə müəyyən etmişdir ki, məhkəmə iclası açıq formada keçirilən zaman,təhlükəsizlik və digər içtimai maraqlarla bağlı ciddi tələblər əsaslandırılmadan şəxsin məhkəmə zalında qəfəsdə və ya qandallı saxlanılması ləyaqəti alçaldan rəftar kimi qiymətləndirilmişdir (10).

04 dekabr 1995-ci il tarixli Ribich Avstriyaya qarşı işində zərərçəkmiş şikayət etdi ki, Federal Polisin Təhlükəsizlik Bölməsinin nəzarətində olarkən ona qarşı pis rəftar edilib, nəticədə bədən xəsarətləri, xüsusən də sağ əlində və qolunda qançırlar əmələ gəlib. Cənab Ribich rəftarın qeyri-insani və alçaldıcı olduğunu iddia edirdi və bildirirdi ki, aldığı zərbələr, eyni zamanda həbsdə olan həyat yoldaşı ilə birlikdə məruz qaldığı təhqir və təhdidlər ağır fiziki və mənəvi iztirablara səbəb olub. Bundan başqa, bir sıra şahidlər ərizəçinin fiziki xəsarət və ciddi psixoloji travma aldığını təsdiqləyiblər.

Məhkəmə bu işdə vurğulamışdır ki, azadlıqdan məhrum edilmiş şəxsə münasibətdə onun hansısa davranışına görə ciddi şəkildə zəruri olmayan hər hansı fiziki güc tətbiq edilməsi onun insan ləyaqətini alçaldır və Konvensiyanın 3-cü maddəsinin pozulmasıdır. Məhkəmə həmçinin qeyd edib ki, cinayət işlərində araşdırmanın mürəkkəbliyi və cinayətlə mübarizənin danılmaz çətinlikləri şəxsin fiziki toxunulmazlığının qorunmasına məhdudiyyətlərə səbəb olmamalıdır. Məhkəmə zərərçəkmişlə bu cür rəftarı kobud, qeyri-insani və ləyaqəti alçaldan kimi qiymətləndirib (11).

Ləyaqəti alçaldan rəftar və ya cəza hər bir halda Konvensiyanın 3-cü maddəsinin ciddi pozuntusu kimi qiymətləndirilir. Cəmiyyətdə mənəvi narahatlıq doğuran, lakin 3-cü maddənin mənasında ləyaqəti alçaldan əməl hesab olunan şiddət səviyyəsinə çatmayan müxtəlif rəftar formaları da vardır. Buna misal olaraq, məhbusların fiziki hərəkətlər edərək özlərini alçaldılmış hiss etdikləri İrlandiya Birləşmiş Krallıqa qarşı işini göstərmək olar. Nəticədə, həm Komissiya, həm də Məhkəmə hesab etdi ki, əməlin ağırlıq dərəcəsi 3-cü maddənin pozulmasını təmin edəcək qədər ciddi deyildir.

Məhkəmə məktəblərdə çubuqla cəzaların tətbiqi ilə bağlı işlərə dəfələrlə baxıb və bununla bağlı önəmli sayıla biləcək təcrübə formalaşdırıb. Beləliklə, Kempbell və Kozans Böyük Britaniyaya qarşı 25 fevral 1993-cü il tarixli işdə Məhkəmə 3-cü maddənin pozuntusunu müəyyən etməmişdir, qeyd etmişdir ki, pozulma təhlükəsinin mövcudluğu pozuntu təşkil etmir. 25 mart 1993-cü il tarixli Kostello-Roberts Birləşmiş Krallığa qarşı işində Məhkəmə gimnaziya məktəbində üç dəfə dəyənək vurma cəzasını 3-cü maddənin minimum həddindən artıq hesab etmədi (Kharris, Boyl, Uorbrik, 2018: 318).

Tyrer Birləşmiş Krallıqa qarşı işində polis məmurları tərəfindən tətbiq edilən və həyata keçirilən məhkəmə cəzası həm Komissiya, həm də Məhkəmə tərəfindən ləyaqəti alçaldan cəza kimi təsvir

edilmişdir. Məhkəmə vurğulamışdır ki, Konvensiya canlı sənəddir və bugünkü şəraitə uyğun formada şərh edilməlidir.

Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin Konvensiyanın konkret müddəasının nə demək olduğuna dair izahında dəyişikliklərin baş verdiyi açıq-aydın şəkildə görünür.

Keçmişdə Məhkəmə dəfələrlə qeyd edib ki, Konvensiyaya üzv olan dövlətlər xarici vətəndaşların öz ölkələrinə daxil olmasına, orada yaşamalarına və ölkədən çıxarılmasına nəzarət etmək hüququna malikdirlər. Üstəlik, qeyd etmək lazımdır ki, nə Konvensiya, nə də onun Protokolları siyasi sığınacaq hüququnu təsbit etmir.

Bununla belə, Məhkəmənin təcrübəsindən aydındır ki, Konvensiyanın iştirakçısı olan dövlət tərəfindən ölkədən çıxarılma 3-cü maddənin pozulmasına səbəb ola bilər və buna görə də həmin dövlətin məsuliyyəti ilə nəticələnə bilər ki, bu halda həmin şəxsin 3-cü maddəyə zidd olan rəftara məruz qalmanın real riski onun qovulduğu dövlətdə xaric edilməsi ilə üzləşib-üzləşməyəcəyinə dair sual yaradır (12).

Beləliklə, Soering Böyük Britaniyaya qarşı 07 iyul 1989-cu il tarixli işdə iddiaçı İngiltərədən Amerika Birləşmiş Ştatlarına göndərilməkdən yayınmağa çalışırdı, belə ki, o, burada onun 3-cü maddəsində göstərilən standartlara uyğun gəlməyən rəftara məruz qalacağını düşünürdü. İddiaçı ABŞ-da ölüm cəzası ilə nəticələnə biləcək cinayətdə ittiham oluna bilərdi. Britaniya hökumətinin mövqeyi isə ondan ibarət idi ki, o, başqa dövlətin davranışına görə məsuliyyət daşıya bilməz.

Bu iş üzrə qərarında Məhkəmə qeyd edib ki, "Adi hallarda, ərizəçinin Konvensiyanın icrasını iddia etdiyi hallarda, Konvensiyanın potensial pozulmalarının mümkün olub-olmamasına müəyyən etməklə bağlı qərar vermək Konvensiyada adları çəkilən orqanlarının vəzifəsi deyildir lakin onun ekstradisiyasını tələb edən ölkədə onun üçün gözlənilən nəticələrə görə, bu maddədə nəzərdə tutulmuş təminatların səmərəliliyini təmin etmək öhdəliyi və ekstradisiya haqqında qərar Konvensiyanın 3-cü maddəsinin pozuntusu hesab olunur. Məhkəmə belə nəticəyə gəldi ki, sözügedən şəxsin "ölüm sırası sindromu" ilə qarşılaşma ehtimalı 3-cü maddənin pozuntusunu təşkil edəcək qədər böyükdür.

Soering işində dövlətin üzərinə şərti vəzifə düşür: o, başqa bir dövlətdə zərərin baş vermə ehtimalını qiymətləndirməlidir, halbuki o, adətən faktiki zərərdən qorunmaq öhdəliyi daşıyır. 3-cü maddəyə əsasən, zərər yalnız ehtimal ola bilər, lakin belə bir ehtimal varsa, ölkədən çıxarılmamaq kimi ciddi vəzifə yaranır.

Chahal Böyük Britaniyaya qarşı işində (15 noyabr 1996-cı il) Məhkəmə ərizəçinin milli təhlükəsizliyə iddia edilən təhdid əsasında Hindistana ekstradisiyası məsələsinə baxdı. Məhkəmə vurğulamışdır ki, fərdin ölkədən çıxarıldığı təqdirdə pis rəftara məruz qalacağına inanmaq üçün tutarlı səbəblər olduqda, dövlətin milli maraqları fərdin maraqlarından üstün tutula bilməz. 3-cü maddədə göstərilən pis rəftara qadağa qovulma halında da eyni dərəcədə mütləqdir.

Məhkəmənin yurisprudensiyasının güclü tərəfi həmçinin onun 3-cü maddənin maddi pozuntusunu aşkar etmədən 3-cü maddə ilə birlikdə 13-cü maddənin pozuntusunu müəyyən etmək qabiliyyətidir. Mvanye Belçikaya qarşı işində (№10486/10, 20 dekabr 2011) Məhkəmə 3,7-ci maddə ilə birlikdə 13-cü maddənin pozulduğunu müəyyən etdi. Lakin ərizəçinin Kameruna aparılacağı təqdirdə 3-cü maddənin pozulacağı ilə bağlı şikayətini rədd etdi. Bu cür şikayətlərin daxili prosedurlara və gələcək işlərə təsiri və bu prosedurların diqqətlə nəzərdən keçirilməsinin təmin edilməsinin vacibliyi nəzərə alınaraq 13-cü maddənin bu şəkildə tətbiqi müsbət qarşılanıb. Əgər əcnəbinin ölkədən çıxarılması ona qarşı Konvensiyanın 3-cü maddəsində nəzərdə tutulan qeyri-insani rəftara gətirib çıxaracaqsa bu hal çıxaran dövlətin Konvensiya üzrə götürdüyü öhdəliyin pozulması olacaq (13).

Bu hallar dövlətin onun başqa bir qurumunun davranışının Konvensiyada müəyyən edilmiş standartların pozulmasına bərabər olması ehtimalı əsasında hərəkət etmək üçün müsbət öhdəliyi ilə əlaqələndirilir. Beləliklə, üçüncü tərəfin davranışı məsul dövlət qarşısında öhdəliklər yaradır. Bu öhdəlik Konvensiyanın mətninin dar təfsiri ilə tam həyata keçirilə bilməz və dövlətlərin üzərlərinə götürdükləri öhdəliklərindən kənara çıxması halı kimi qəbul edilə bilər.

## Nəticə

Aydındır ki, Avropa İnsan Hüquqları Məhkəməsinin böyük uğuru, Konvensiyaya diqqətlə baxıldıqda göründüyü kimi hüquqları əhəmiyyətli dərəcədə genişləndirməsi və iştirakçıların üzərinə gözləmədikləri öhdəliklərin qoymasıdır.

## Ədəbiyyat

1. Burkov, A.L. (2017). Protsedura podachi zhaloby v Yevropeyskiy sud po pravam cheloveka: programma kursa. L.M.Churkina. Moskva: RUDN, 84 s. (Sovmestnaya magisterskaya programma po pravam cheloveka). Bibliogr, s.68-84. ISBN 978-5-209-08143-2.
2. Golovistikova, A.N., Grudtsyna, L.YU. (2019). Prava cheloveka: evolyutsiya razvitiya. Istoricheskiye predposylki zarozhdeniya kontseptsii prav cheloveka. Advokat. №6, s.87-88.
3. Gorbachova, V.M. (2017). Problema zashchity prav i svobod cheloveka. Innovatsionnaya nauka. T. 4. № 4, s.185-187.
4. Dekhkanova, K.A. (2017). O pravovoy prirode sistemy okhrany i zashchity prav i svobod cheloveka i grazhdanina. Theoretical & Applied Science. 2017. № 11 (55), s.171-174.
Seçimləri nəzərdən etdikdən sonra qərar qəbul edilir və alqı-satqı transaksiya edilir. Bundan sonra biznes alıcıya həmin müştərini mümkün qədər uzun müddət saxlamaq üçün dəstək olur. Bu gün alış-veriş yolu daha az xəttlidir. Əslində, araşdırmalar göstərir ki, hazırda alıcıların 90%-i satış funnelinin içində geriyə və irəliyə doğru irəliləyir, çox vaxt təkrarlanan tapşırıqlar – bəzən ona görə ki, bu qərarların qəbul edilməsində və təsirində daha çox insan iştirak edir (Spector, 2006).

Seçimləri nəzərdən etdikdən sonra qərar qəbul edilir və alqı-satqı transaksiya edilir. Bundan sonra biznes alıcıya həmin müştərini mümkün qədər uzun müddət saxlamaq üçün dəstək olur. Bu gün alış-veriş yolu daha az xəttlidir. Əslində, araşdırmalar göstərir ki, hazırda alıcıların 90%-i satış funnelinin içində geriyə və irəliyə doğru irəliləyir, çox vaxt təkrarlanan tapşırıqlar – bəzən ona görə ki, bu qərarların qəbul edilməsində və təsirində daha çox insan iştirak edir (Chaffey, 2017).

B2B satış və B2B marketinq interseksect harada anlamaq üçün də faydalıdır. Müxtəlif təşkilatlarda müxtəlif ola bilər. Ənənəvi olaraq satış və marketinq fərqli şöbələr idi. Uzun illər təcrübəsi olan iş mütəxəssisləri, çox güman ki, siloed komandaların ən yaxşı və ən pis hallarda açıq-aşkar rəqabət aparan şöbələrə şahidlik ediblər. Müasir ənənəvi müdriklik hesab edir ki, satış və marketinq şöbələri daha çox bir-biri ilə əlaqəli olmalıdırlar. Onlar hələ də fərqli funksiyalara malik olsalar da, biznesin inkişafı məqsədi ilə birləşirlər

Burada giriş hissədə analiz, sintez, təsnifat, ümumiləşdirmə, faktların toplanılması və sistemli yanaşma metodları tətbiq edilmişdir. Əsas hissədə müqayisə, təsnifat, təhlildən geniş istifadə olunmuşdur. Nəhayət, nəticə hissədə isə təhlil və araşdırmalar ümumiləşdirmə və konkretləşdirmə metodlarına əsaslanmışdır.

## Nəticə

Nəticə olaraq, texnoloji irəliləyişlər və əvvəllər qeyd olunan qeyri-xətti satınalma yolu sayəsində bu günlərdə satış və marketinq şöbələri həmişəkindən daha çox birləşməlidir. Alıcılar tez-tez satış komandaları ilə marketinq məzmunu arasında alternativlik yaradırlar. Marketinqin təhvil verilməsi ilə bağlı ənənəvi prosesin pozulsa belə satışına gətirib çıxarır. Bu o deməkdir ki, hər bir şöbə digərinin nəyə ehtiyacı olduğunu bilməli və alıcının səyahəti boyunca bir neçə toxunma nöqtəsində töhfə verməyə hazır olmalıdır. Satış və marketinq komandalarının koordinasiyası öz dəyərini sübut etmişdir. "Aberdin Report"un məlumatına görə, güclü uzlaşdırılmış satış və marketinq komandaları olan təşkilatlar marketinqdən gələn gəlirlərə orta hesabla 76% daha yüksək töhfə verirlər. Bu komandaları birləşdirməkdə çətinliklər var. Xüsusilə də onların müstəqilliyinin yaxşı qurulduğu leqal bizneslərdə. Lakin bu çətinliklərin öhdəsindən gəlmək səy göstərməyə dəyər.

Tədqiqatçılar üçün hesab etmək olar ki, səma yeni ixtiralar üçün hədd deyil. Beləliklə, onlar süni intellekt şəklində kompüterlər aləminə aid edilə bilən (Süni, yəni süni və İntellektual, yəni düşünmə gücünə malik olan) “insan tərəfindən yaradılmış homosapien” növünü yaratmağa çalışdılar. Əgər sistem öyrənmək, əsaslandırmaq, özünü təkmilləşdirmək (təcrübədən öyrənməklə), dili anlamaq və problemləri həll etmək kimi əsas bacarıqlara malik ola bilirsə, onda süni intellektin mövcud olduğunu güman etmək olar. AI bir çox sahələrdə, xüsusən də texnoloji sahədə istifadə edilmiş və tətbiq edilmişdir və 2020-ci ilə qədər 2,3 milyon iş yerinin təmin ediləcəyi gözlənilir.

Son zamanlar Süni intellektin inkişafı eksponensial şəkildə müşahidə olunub. Yaxın gələcəkdə Aİ-nin nə qədər böyük və təsirli olacağını və bu gün yaşadığımız dünyanı nə dərəcədə köklü şəkildə dəyişəcəyini və yeniləyəcəyini də təsəvvür edə bilmərik. Aİ və onun sürətlə artan tətbiqləri haqqında daha çox məlumat əldə etmək üçün daha çox şey var. Hesab edirəm ki, bu dəyişən dünyaya uyğunlaşmaq, Süni intellekt və texnologiya ilə bağlı bacarıqlar əldə etmək müdriklik olardı. Aİ öyrəndiyi və inkişaf etdirdiyi kimi, biz də - bu dünyanı daha yaxşı bir yerə çevirməliyik

## Ədəbiyyat


1. Chaffey, D. (2016). Definitions of Digital Marketing vs Internet Marketing vs Online Marketing, (https://www.smartinsights.com/digital-marketingstrategy/online-marketing-mix/definitions-of-emarketing-vs-internet-vs-digitalmarketing/)
2. Chaffey, D., Smith, P.R. (2017). Digital marketing excellence: planning, optimizing and integrating online marketing. Routledge.
3. Croft, M.J. (1994). Market segmentation: A step-by-step guide to profitable new business. Cengage Learning Emea.
4. Charlesworth, A. (2014). Digital marketing: A practical approach. Routledge.
5. Consumer Behavior In Digital Environments. Digital Marketing: Global Strategies from the World's Leading Expens, New York: John Wile and Sons.
6. Simeone, O. (2018). A brief introduction to machine learning for engineers. Found. Trends SignalProcess. 12(3–4), pp.200-431.
7. Deighton, J.A. (1996). The Future of Interactive Marketing. Harvard Business Review, 74(6), pp.151-160. Dholakia, U., Bagozzi, R.P. (Eds.) (2001).
8. Spector, L. (2006). Evolution of artificial intelligence. Artif. Intell. 170(18), pp.1251-1253.
9. El-Gohary, H. (2010). E-Marketing: A Literature Review From A Small Businesses Perspective, International Journal of Business and Social Science, 1(1), pp.214-244.
10. Singh, H. (2017). Artificial intelligence revolution and India's AI development: challenges and scope.Int. J. Sci. Res. 3(3), pp.417-421.
11. Kamble, R., Shah, D. (2018). Applications of artificial intelligence in human life. Int. J. Res. 6(6), pp.178-188.
12. Spector, L. (2006). Evolution of artificial intelligence. Artif. Intell. 170(18), pp.1251-1253.


Göndərilib: 01. 03.2024 Qəbul edilib: 11.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/99-104

**Aidə Abdullayeva**
Qərbi Kaspi Universiteti
abdullayevaaidaa@gmail.com

# AUDİT FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİNİN HÜQUQİ-NORMATİV ƏSASLARI

**Xülasə**

Bazar münasibətlərinə keçidlə Azərbaycan Respublikasında müstəqil auditor xidmətinin formalaşması prosesi başlanmışdır. Bu prosesin əsasını etibarlı maliyyə və uçot informasiyalarına dövlətin, müəssisə rəhbərlərinin və səhmdarların qarşılıqlı maraqları təşkil edir. Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə mülkiyyətçinin və dövlətin əmlak maraqlarının təmin edilməsi təsərrüfat subyektlərinin maliyyə fəaliyyətinə nəzarət xüsusi müstəqil təşkilat-auditor xidməti həyata keçirir. Audit iqtisadi-hüquqi nəzarətin daha yüksək pilləsi olub vəzifəsi yeni qurulmuş iqtisadi münasibətləri vicdansız sahibkarlıqdan qorumaq, həm də iqtisadiyyatda hüquq pozuntularının qarşısını almaq və ictimai hüquq şüurunu daha yüksək səviyyədə formalaşdırmaqdır.

Auditin vəzifələrindən biri müəssisənin maliyyə vəziyyəti və onun stabilləşməsi üsulları haqqında informasiya, habelə qanuni əmlak maraqlarının qorunması üçün zəruri informasiya almaqdan ibarətdir. Auditin təşkili muhasibat (maliyyə) hesabatının müstəqil yoxlanılmasının həyata keçirilməsi, habelə başqa auditor xidmətlərinin göstərilməsi üzrə sahibkarlıq fəaliyyətini ifadə edir. Auditor fəaliyyətinin hüquqi tənzimlənməsi qeydiyyat, lisenziyalaşdırma, auditorların attestasiyası, vergitutma vasitəsilə həyata keçirilir.

***Açar sözlər:*** *audit, tənzimlənmə, prinsip, qanunvericilik*

**Aida Abdullayeva**
Western Caspian University
abdullayevaaidaa@gmail.com

## The legal and normative basis of the regulation of audit activity

**Abstract**

With the transition to market relations, the process of forming an independent auditor service has begun in the Republic of Azerbaijan. The basis of this process is the mutual interests of the state, enterprise managers, and shareholders in reliable financial and accounting information. World experience shows that in countries with developed market economies, a special independent organization-auditor service provides control over the financial activity of economic entities to ensure the property interests of the owner and the state. Audit is a higher level of economic-legal control and its task is to protect newly established economic relations from dishonest entrepreneurship, as well as to prevent legal violations in the economy and to form public legal awareness at a higher level.

One of the tasks of the audit is to obtain information about the financial condition of the enterprise and its stabilization methods, as well as information necessary for the protection of legal property interests. The organization of the audit represents the entrepreneurial activity of the independent verification of the accounting (financial) report, as well as the provision of other auditor services. Legal regulation of auditor activity is carried out through registration, licensing, attestation of auditors, and taxation.

***Keywords:*** *audit, regulation, principle, legislation*

## Giriş

Azərbaycan audit tənzimləmə qanunvericiliyi, ölkədə auditorların və audit şirkətlərinin fəaliyyətini nəzarət altında saxlamaq, standartları təyin etmək və auditorların və şirkətlərin işlərini düzgün şəkildə həyata keçirmələrini təmin etmək məqsədi ilə tərtib edilmiş bir sənəddir. Bu qanunvericilik, Azərbaycanın maliyyə və iqtisadiyyat sahələrində şəffaf, inamlı bir iş mühiti yaradılmasına kömək edir və auditorların və audit şirkətlərinin məsuliyyətini də qeydə alır.

Əsas auditor tənzimləməsi orqanı Audit Kamarasıdır. Bu qurum, auditorların sertifikatlandırılması, audit şirkətlərinin lisenziyalandırılması, təlim və təşkilatları ilə məşğul olur. Audit Kamarası, auditorların və şirkətlərin təcrübələrinin və peşəkarlıqlarının standartlara uyğunluğunu yoxlayır və təsdiqləyir. Bu, auditorların və audit şirkətlərinin standartlara uyğun olmasını və məsuliyyət sahibi olmasını təmin edir. Audit tənzimləmə qanunvericiliyi, auditorların və audit şirkətlərinin etik prinsiplərə və standartlara riayət etmələrini təmin edir. Həmin prinsiplərə uyğun olmayan hər hansısa fəaliyyətlərin qarşısını almaq üçün cərimə və cəzalar da müəyyənləşdirilmişdir. Bu qanunvericilik auditorların məsuliyyətini də qeydə alır. Auditorlar, audit prosesində əməkdaşlıq etdikləri müəssisələr və təşkilatlar üçün maliyyə məlumatlarının doğruluğunu təsdiq etməkdə və onları maliyyə qurumları və qanunvericiliklə uyğun şəkildə informasiya almaqda kömək edirlər (Abbasov, 1998). Bu, maliyyə məlumatlarının dəqiqliyini təmin etmək üçün vacibdir. Audit tənzimləmə qanunvericiliyi, Azərbaycanın iqtisadiyyatının inteqrasiyasını və dəstəklənməsini də təmin edir. Bu, ölkənin birləşmiş audit standartları və prinsipləri ilə uyğunlaşmasına və beynəlxalq iqtisadiyyatın bir hissəsi kimi fəaliyyət göstərməsinə kömək edir. Audit tənzimləməsi, maliyyə məlumatlarının dəqiqliyini, şəffaf və inamlı bir iqtisadi mühiti təmin edir. Bu, investorların, müştərilərin və digər paydaşların güvənini qazanmağa kömək edir və ölkənin iqtisadiyyatının sürətli və inkişafına yardım edir.

Bu qanunvericilik auditorların və audit şirkətlərinin daim müvafiq təcrübə və peşəkarlıqları ilə auditorluq prosesini icra etməsini təmin edir. Audit tənzimləmə qanunvericiliyi, ölkənin maliyyə və iqtisadiyyat sahələrində standartlar və prinsiplərə əsaslanan bir iş mühiti yaradılmasına töhfə verir. "Auditor haqqında" AR Qanununda göstərilir ki, audit yoxlanması məcburi və ya könüllü (təsərrüfat subyektlərinin öz təşəbbüsü ilə) ola bilər (Namazova, 2012). Qanunvericiliyə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan təsərrüfat subyektləri üçün, habelə qanunvericilik aktları ilə bilavasitə nəzərəd tutlmuş hallarda və ya səlahiyyətli dövlət orqanlarının müvafiq qərarlarına əsasən (onların sifarişi ilə) həyata keçirilən audit məcburi, digər hallarda isə könüllüdür. Məcburi audit yoxlanması bilavasitə qanunvericilikdə müəyyənləşdirilmiş hallarda və yadövlət orqanlarının tapşırığı ilə keçirilir. Məcburi auditin həcmi və keçirilmə qaydası qanunvericilik normaları ilə tənzimlənir. Mövcud qanunvericiliyə görə səhmdar cəmiyyətləri, xarici investisiyalı müəssisələr, banklar və digər kredit təşkilatları, sığorta təşkilatları, məhdud 8 məsuliyyətli cəmiyyətlər, investisiya fondları, maliyyə-sənaye qrupları üzrə audit məcburidir. Bundan əlavə AR Mülki Məcəlləsində göstərilir ki, yekun günədək on iki ay ərzində balans məbləği vədövriyyədən mədaxili müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi son mnəbləğdən yüksək olan hər bir hüquqi şəxs, qoşma da daxil olmaqla illik balansı auditor tərəfindən yoxlanılmalıdır. Təşəbbüslə (könüllü) audit iqtisadi subyektiv qərarı üzrə auditor (auditor firması) ilə müqavilə əsasında həyata keçirilir. Belə yoxlamanın xarakterini və miqyasını sifarişçi müəyyən edir. Daxili audit idarəetmə nəzarətinin ayrılmaz və mühüm elementidir (Abbasov, 2007). Daxili auditə tələbat olnunla əlaqədardır ki, rahbarliyin yuxarı pilləsi təşkilatın və aşağı idarəetmə sturukturların fəaliyyətinə gündəlik nəzarətlə məşğul olmur. daxili audit bu fəaliyyət barədə informasiya verir və menecerlərin hesabatlarının düzgünlüyünü təsdiqləyir. Daxili audit başlıca olaraq ehtiyatların itkisinin qarşısını almaq və müəssisə daxilində zəruri dəyişikliklər aparmaq üçün lazımdır. Kənar audit təsərrüfat subyektlərinin mühasibat uçotunun və maliyyə hesabatının düzgünlüyünü qiymətləndirmək məqsədi ilə auditor formaları və sərbəst auditorlar tərəfindən müqavilə əsasında aparılır. Sərbəst auditorun sərbəstliyi həm qanunvericilik, həm də etik normalarla müəyyənləşdirilir. Daxili və kənar audit bir-birini tamamlayır və eyni zamanda bir-birindən ciddi surətdə fərqlənir. Təsərrüfat fəaliyyətinin auditi müəssisənin təsərrüfat fəaliyyətinin müəyyən məqsədlər üçün müntəzəm aparılan təhlilini nəzərdə

tutr. Təsərrüfat subyektlərinin auditini bəzən işin və ya inzibati idarəetmənin səmərəliliyinin auditi adlandırırlar. Təsərrüfat fəaliyyətinin auditində müəyyən fəaliyyət növlərinin obyektiv tədqiqi, hər tərəfli təhlili nəzərdə tutulur. Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə auditin və auditor xidmətinin konkret təsfiri verilmişdir (Abbasov, 1998). "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunun 2-ci maddəsində qeyd edilmişdir ki, audit - əmtəə istehsalı və satışı, xidmət göstərilməsi və iş görülməsi ilə məşğul olan təsərrüfat subyektlərində mühasibat uçotunun dəqiq və düzgün aparımlasının, mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır. Həmin Qanunun 3-cü maddəsində auditor xidməti təsərrüfat subyektlərində müqavilə əsasında maliyyə - təsərrüfat fəaliyyəti sahəsində yoxlama, ekspertiza, təhlil aparılması və yazılı rəy verilməsi, mühasibat uçotunun qurulması, hüsabat göstəricilərinin dürüstlüyünün təsdiq edilməsi, auditorun peşə fəaliyyətinə (auditor təşkilatlarının nizamnamə məqsədlərinə) uyğun olaraq maliyyə təsərrüfat münasibətləri sahəsində digər xidmətlər göstərilməsi kimi müəyyənləşdirilmişdir ("Muhasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu, 2004). Auditor fəaliyyətinin əsas məqsədi təsərrüfat subyektinin mühasibat (maliyyə) hesabatlarının düzgünlüyü və onların apardıqları maliyyə və təsərrüfat əməliyyatlarının normativ aktlara uyöunluğunu müəyyən etmək deməkdir. Auditor fəaliyyətinin tənzimlənməsi "Auditor xidməti haqqında " AR Qanunu ilə yanaşı, auditə dair digər qanunvericilik aktlarında, o cümlədən, "Xarici investisiyanın qorunması haqqında", "Sığorta haqqında", "Səhmdar cəmiyyəti haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Purokurorluq haqqında", "Məhdud məsuliyyətli müəssisələr haqqında", "Ətraf mühitin mühavizəsi haqqında", "İnvestisiya fondları haqqında" Qanunlarda, bank qanunvericiliyində və mülki, cinayət, vergi məcəllələrində öz əksini tapmışdır. Mülki məcəlləyə əsasən, auditor yoxlamasının naticələri haqqında yazılı hesabat tərtib etməlidir. Auditor yoxlamaları nəticələrinin iqtisadi inkişafında mühüm rol oynadığını nəzərə alaraq, bir çox dövlətlərdə auditor xidməti qanunvericiliklə təşkil olunur və beynəlxalq standartlara uyğun tənzimlənir (Azərbaycanın Milli audit standartları, 2004). "Sahibkarlıq fəaliyyəti haqqında" və "Auditor xidməti haqqında " AR Qanunlarına, AR Prezidentinin 1997-ci il 27 yanvar tarixli 543 saylı Fərmanı ilə təsdiq edilmiş "Bəzi sahibkarliq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısının təsdiq edilməsi haqqında" AR Prezidentinin 1997-ci il 4 oktyabr tarixli 637 saylı Fərmanına və AR Nazirlər Komitəsinin 1998-ci il 13 yanvar tarixli 9 saylı qərarı ilə təsdiq edilmiş "AR-nın ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları"na müvafiq olaraq auditor fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi Auditorlar Palatasına həvalə edilmişdir (Abbasov, 2007). Azərbaycan Respublikası ərazisində auditor fəaliyyəti ilə məşğul olmaq hüququ verən lisenziya almaq üçün ərizəçi Auditorlar Palatasına aşağıdakıları təqdim etməlidir: a) lisenziya almaq üçün ərizə; b) müəssisənin təsisi sənədlərinin surəti; c) sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surəti; ç) lisenziya almaq üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd. Lisenziya verilməsindən aşağıdakı hallarda imtina edilir: a) Nəzərdə tutlmuş sənədlər təqdim edilmədikdə; b) ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri dəqiq və ya təhrif olunmuş məlumatlar olduqda; c) auditor fəaliyyətinin həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən olunmuş zəruri şərtlər təmin olunmadıqda (ixtisas hazırlığı, təhsil, staj və s.) ç) ərizəçi, əvvəllər auditor fəaliyyəti göstərmək üçün aldığı lisenziyanın fəaliyyəti lisenziya verən orqanın təşəbbüsü ilə dayandırıldığı dövrdə müraciət etdikdə; d) qanunvericilikdə nəzərdə tutulan digər hallarda. Lisenziyanın qüvvədə olma qaydalarına nəzarəti Auditorlar Palatası həyata keçirir. Auditorlar Palatası lisenziyanın fəaliyyəti dayandırıldığı haqqında qərar qəbul etdiyi andan 5 gün müddətində lisenziyanın sahibinə və dövlət vergi orqanlarına yazılı şəkildə məlumat verir (Sadıqov, Rzayev, 2014). Lisenziyanın fəaliyyətinin dayandırılmasına səbəb olan hallar dayişildikdə lisenziyanın fəaliyyəti lisenziyanın sahibinin müraciətinə əsasən bərpa edilə bilər. Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətinin keyfiyyətinə nəzarətin mahiyyətini, növlərini, onun həyata keçirilməsinin əsas prinsiplərini və formalarını müəyyən edmək məqsədi ilə "Auditor xidməti haqqında", AR Qanununa va "Auditin keyfiyyətinə nəzarət" beynəlxalq audit standartlarına uyğun olaraq "Auditin keyfiyyətinə nəzarət" milli audit standartı

işləyib hazırlanmışdır. Keyfiyyətə nəzarətin iki növü mövcuddur: daxili nəzarət; kənar nəzarət. Auditin keyfiyyətinə daxili nəzarət auditor təşkilatının rəhbərliyi və sərbəst auditorlar auditin planlaşdırılmasının, audit qayda və prosedurlarının tətbiqinin qüvvədə olan qanunvericiliyin və audit standartlarının tələblərinə uyğunluğunu və onlara riayət olunmasına təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasında auditor xidmətinin dövlət tənzinlənməsini təşkil etmək, bu sahədə olan və AR-da auditor xidmətinin inkişafına və təkmilləşdirilməsinə yönəlmişnormatıv aktların layihələrini, tədbirlər sistemini hazırlamaq, dövlətin təsərrüfat subyektlərinin və auditorların (auditor təşkilatlarının) mənafelərini müdafiə etmək, öz fəaliyyətində “Auditor xidməti haqqında” Qanundan, digər qanunvericilik və normativ-hüquqi aktlardan irəli gələn tələbləri auditorlar (auditor təşkilatları) tərəfindən riayət olunmasına nəzarət etmək məqsədilə AR-nın Auditor Palatası yaradılmışdır (Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri (Elmipraktik konfransın materialları), 2003). Auditor Palatasının fəaliyyəti onun Əsasnaməsi ilə tənzimlənir. “Azərbaycan Respublikasının Auditor Palatası haqqında” Əsasnamə Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli 1115 saylı qərarı ilə təsdiq edilmişdir. Auditor fəaliyyətinin əsas vəzifəsi, mülkiyyət formasından asılı olmayaraq, bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və düzgün aparılmasını təmin etmək məqsədi ilə respublikada auditor xidmətinin işini təşkil etməkdən və mövcud qanunvericiliyə uyğun olaraq onun inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirməkdən ibarətdir. Palatanın sədrini və sədr müavininin AR-nın Milli Məclisi təyin edir. Cari işlərin aparılması və əməli xidməti funksiyaların yerinə yetirilməsi üçün Palatada idarəetmə orqanı – şura yaradılır. Auditor apardığı auditə və onun nəticəsinə dair verdiyi rəyə görə məsuliyyət daşıyır. Auditor fəaliyyəti ilə bağlı auditorun daşıdığı məsuliyyəti, onun növlərinin, dərəcəsini və yaranma şərtlərini müəyyənləşdirmək məqsədi ilə AR-nın Auditorlar Palatası tərəfindən “Auditorun məsuliyyəti” milli audit standartı hazırlanmışdır. Auditorlar və auditor təşkilatları öz vəzifələrini lazımınca yernə yetirmədikdə qanunvericiliyə uyğun olaraq əmlak məsuliyyətinə cəlb edilə bilərlər. Auditorun məsuliyyətinə iki mövqedən baxıla bilər: a) qəbul edilmiş hüquqi və normativ aktların tələblərinin pozulmasına görə; b) audit standartlarına müvafiq olaraq audit aparılan zaman lazımi peşəkarlıq göstərilməməsinə görə. Dövlət qarşısında məsuliyyət qanunvericiliklə müəyyən edilmiş cəza və cərimələrlə, sifarişçi qarşısında məsuliyyət isə müqavilənin şərtlərinə görə müəyyən edilir. Auditorun məsuliyyətinin növləri aşağıdakılardır: a) intizam məsuliyyəti; b) mülki məsuliyyət; c) cinayət məsuliyyəti. Auditorun intizam məsuliyyəti Auditorlar Palatası tərəfindən, mülki və cinayət məsuliyyətləri isə məhkəmə orqanları tərəfindən AR-nın müvafiq qanunvericilik və normativ-hüquqi aktlarına əsasən müəyyən edilir. Auditorun məsuliyyəti müəyyən edilərkən aşağıdakılar nəzərə alınmalıdır: a) sifarişçiyə zərər dəyib-dəyməməsi; b) auditorun öz vəzifə borcunu yerinə yetirərkən səriştəsizliyə, diqqətsizliyə, səhlənkarlığa yol verib-verməməsi (“Daxili audit fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 2007). Auditi aparılmasına dair müqavilənin “Tərəflərin məsuliyyəti” bölməsində hər birinin daşıdğı məsiliyyətin şərtləri əks etdirilir. Burada məsuliyyətin yaranmasına səbəb olan şərtlər, məsuliyyətin növü və həcmi nəzərdə tutlur. Sifarişçilərin maliyyə vəziyyəti barəsində yalnış fikir nəticəsində vurulan zərərin ödənilməsi üçün yalnız onun mülkiyyətçisi deyil, həm də üçüncü şəxslər: yoxlanılan müəssisənin kreditorları, yoxlanılan müəssisə ilə işgüzar münasibətdə olan banklar, sığorta taşkilatları digər hüquqi və fiziki şəxslər auditora qarşı əmlak iddası qaldıra bilərlər. Mötəbər olmayan auditor rəyi illik mühasibat hesabatında olan informasiyanın istifadəçisi kimi üçüncü şəxsləri aldada və onların özlərinə mühüm zərər vura bilən iş görməyə sövq edə bilər. Tərəflər bağlanmış müqavilənin mövcudluğunu, məzmunu və müqavilənin bağlanması üçün zəruri olan sənədləri məxfi saxlamaqla tərəf müqabilinin rəsmi razılığı olmadan üçüncü tərəfə heç bir məlulat vermirlər. Auditorda saxlanılan məxfi xarakterli sənədləri və digər məlumatların hüquq mühavizə orqanları tərəfindən auditor yoxlamasından keçirilən sənədlərin sahibləri olan şəxslərə qarşı müəyyə olunmuş qaydada cinayət işi qaldırıldıqdan sonra məhkəmənin qərarına əsasən yol verilir. Məxfiliyə dair tələblər auditorun və auditor təşkilatlarının fəaliyyətinin “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununun 20-ci maddəsinə müvafiq olaraq yoxlanılması hallarına şamil edilmir.Azərbaycan Respublikasında

auditor fəaliyyətinin təşkili və onun həyata keçirilməsi respublikanın 16 sentyabr 1994-cü il tarixli «Auditor xidməti haqqında» Qanunun qəbul olunması ilə başlanmışdır (Məmmədov, Musayev, Sadıqov, Kəlbiyev, Rzayev, 2010). Həmin Qanuna əsasən Azərbaycan Respublikasının Auditorlar Palatası yaradılmışdır. Auditorlar Palatası respublikada auditor xidmətinin dövlət tənzimlənınəsini və inkişafını təşkil edən, mülkiyyətçilərin əmlak hüquqlarını, dövlətin və təsərrüfat sistemlərinin, auditorların mənafelərini müdafiə edən, sərbəst auditorların və auditorlar təşkilatlarının fəaliyyətinə nəzarət edən müstəqil maliyyə orqanıdır. Qanunda deyildiyi kimi, «Audit əmtəə isıehsalı və satışı, xidmət göstərilməsi ilə məşğul olan təsərrüfat subyektlərinə mühasibat uçotunun dəqiq və dürüst aparılmasının mühasibat və maliyyə hesabatlarının müstəqil yoxlanılmasıdır». Audit xidməti sahibkarlıq fəaliyyəti olmaqla, sifarişçiyə xidmət göstərilməsi, sifarişçinin maliyyə vəziyyətinin yaxşılaşdırılması vəzifələrini yerinə yetirir (Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi – Vergiyə giriş, 2014) «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsinə əsasən, auditor xidməti bir tərəfdən sərbəst auditor və ya auditor təşkilatı, digər tərəfdən isə sifarişçi arasında bağlanmış və yoxlamanın məzmununu, aparılması müddətlərini, məsləhət xidmətlərinin həcmini, ödəniş məbləğini və qaydasını, eləcə də tərəflərin məsuliyyətini nəzərdə tutan müqavilə əsasında həyata keçirilir. Deməli, auditor xidməti pulu xidmətlər növünə aiddir. Auditor xidmətləri bazarında qiymətlərlə razılaşmayan təsərrüfat subyektləri az deyildir (Məcidov, 2013).

## Nəticə

1. Audit bazar iqtisadiyyatının zəruri elementi kimi çıxış edir, çünki istifadəçilərin qəra qəbulu üçün istifadə etdikləri muhasibat uçotunda müəyyən səhvlərə yol verilə bilər və onun etibarlılıq dərəcəsini istifadəçilərin əksəriyyəti tərəfindən müstəqil müəyyənləşdirilməsi qeyri mümkündür. 2. Auditor peşə vəzifəsini icra edərkən ümumən qəbul edilən mənəvi norma və qaydalara riayət etməli, muhasibat (maliyyə) hesabatının bütün istifadəçilərinin ictimai maraqlarını rəhbər tutmalı, qanuni və haqlı əsaslarla baş vermiş müştərinin marağını müdafiə etməlidir. 3. Auditor təşkilatı auditor yoxlamasının gedişində müəssisənin muhasibat uçotu sisteminin təşkilinin mövcud normativ sənədlərə uyğunluğunu mütləq müəyyənləşdirməli və aşkara çıxarılan səhvləri işçi sənədlərində əks etdirməlidir. 4. Müəssisənin muhasibat uçotu və uçot siyasətinin təşkilinin auditor yoxlamasının nəticələri üzrə auditor rəyinin bölməsi kimi auditor şəhadətnamə tərtib etməlidir. 5. İstehsal xərclərinin düzgünlüyünün auditor yoxlanılması zamanı istehsal xərclərinin kalkulyasiya maddələri üzrə uçotunun düzgünlüyü; material xərclərinin uçotunun və bölüşdürülməsinin, sosial sığorta orqanlarına ayırmaların, əmək haqqı xərclərinin, istehsalın hazırlanması və sınanması məsrəflərinin, istehsala xidmət və idarəetmə üzrə məsrəflərin düzgünlüyü müəyyənləşdirilməlidir. 6. Hesablaşmalar və kredit əməliyyatlarının auditor yoxlamasının nəticələri auditor şəhadətnaməsinin tərkibinə daxil edilməli və orada yoxlamaların nəticələri şərh olunmalıdır.

## Ədəbiyyat

1. Abbasov, A.B. (1998). Sahibkarlıq fəaliyyəti:növləri, təşəkkülü və inkişaf problemləri. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 212 s.
2. Namazova, C.B. (2012). Audit. Dərslik. Bakı, 292 s.
3. Abbasov İ.M. (2007). Audit. Bakı, 530 s.
4. “Muhasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu. (2004). Bakı.
5. Azərbaycanın Milli audit standartları. (2004). Bakı: “Nağıl evi”.
6. Abbasov, S.A. (2007). Holdinq şirkətlərində muhasibat uçotu və nəzarətin təşkili. Monoqrafiya. Bakı: “Nurlan”, 192 s.
7. Sadıqov, T., Rzayev, İ. (2014). “Vergi uçotu və auditi” (dərslik) Bakı.
8. Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri (Elmipraktik konfransın materialları). (2003). Bakı, 334 s.
9. “Daxili audit fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. (2007). Bakı.

10. Məmmədov, F.Ə., Musayev, A.F., Sadıqov, M.M., Kəlbiyev, Y.A., Rzayev, Z.H. (2010). "Vergilər və vergitutma" (dərslik). Bakı.
11. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi – Vergiyə giriş (dərslik) Şamaxı. (2014).
12. Məcidov, M. (2013). "Vergi sistemi" (dərslik). Bakı.

Göndərilib: 26.02.2024 Qəbul edilib: 01.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/105-111

**Ellada Əsədova**
Bakı Dövlət Universiteti
magistrant
asadovaellada01@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASI VƏ DİGƏR MDB ÖLKƏLƏRİNİN ƏMƏK QANUNVERİCİLİYİ ÜZRƏ FƏRDİ ƏMƏK MÜBAHİSƏLƏRİNİN ANLAYIŞI, YARANMA SƏBƏBLƏRİ VƏ ŞƏRTLƏRİ (QAZAXISTAN VƏ RUSİYANIN TİMSALINDA)

**Xülasə**

Əmək münasibətlərində işəgötürənin və onun işə götürdüyü işçinin maraqları həmişə üst-üstə düşmür. Bu maraqların toqquşması əmək münasibətlərinin istənilən mərhələsində baş verə bilər ki, həmin vəziyyət isə tərəflər arasında əmək mübahisələrinin yaranmasına gətirib çıxarır. Fərdi əmək mübahisələri işçi ilə işəgötürən arasında birbaşa danışıqlar yolu ilə həll edilməyən və baxılması üçün müvafiq orqana müraciət edilən fikir ayrılığı kimi xarakterizə olunur. Odur ki, bu məqalədə həm Azərbaycan Respublikası, həm Qazaxıstan Respublikası və Rusiya Federasiyasının Əmək Məcəlləsində fərdi əmək mübahisələrinin anlayışı, o cümlədən yaranma səbəbləri və şərtləri təhlil edilmişdir.

***Açar sözlər:*** *fərdi əmək mübahisələri, fikir ayrılığı, işəgötürən, işçi, əmək münasibətləri*

**Ellada Asadova**
Baku State University
master student
asadovaellada01@gmail.com

## Understanding, the causes and conditions of labor disputes under the labor legislation of the Republic of Azerbaijan and other CIS countries (in the example of Kazakhstan and Russia)

**Abstract**

In labor relations, the interests of the employer and the employee he hires do not always coincide. These conflicts of interest can occur at any stage of labor relations, and this situation leads to labor disputes between the parties. Individual labor disputes are characterized as disagreements between the employee and the employer that are not resolved through direct negotiations and are referred to the appropriate authority for review. Therefore, in this article, the concept of individual labor disputes, including the causes and conditions of their occurrence, was analyzed in the Labor Code of the Republic of Azerbaijan, the Republic of Kazakhstan, and the Russian Federation.

***Keywords:*** *individual labor disputes, disagreement, employer, employee, labor relations*

## Giriş

İnsan həyatının ən zəruri ünsürlərindən biri də onun əmək fəaliyyəti ilə məşğul olmasıdır. Bu baxımdan da əsas insan və vətəndaş hüquq və azadlıqları siyahısına əlavə edilmiş və əmək hüququ adlanan Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsində əmək fərdi və ictimai rifahın əsası kimi təsbit edilmiş, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ əks olunmuşdur. Yalnız məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir (1).

Oxşar yanaşma Rusiya Federasiyası Konstitusiyasının 37-ci maddəsində də qeyd edilmişdir. Belə ki, həmin maddəyə görə əmək sərbəstdir, hər kəsin əmək qabiliyyətindən sərbəst istifadə etmək, özünə fəaliyyət növü və peşə seçmək hüququ bildirilərək məcburi əmək qadağan edilmişdir (2).

Qazaxıstan Respublikası Konstitusiyasının 24-cü maddəsində əmək hüququ ilə yanaşı, Rusiya Federasiyası Konstitusiyasından fərqli olaraq məcburi əməyə yol verilən istisna hallar qeyd edilmiş və həmin halların dairəsi aydınlaşdırılmışdır. Həmin maddədə yalnız cinayət əməli və ya inzibati xəta haqqqında çıxarılan məhkəmə qərarının tətbiqi zamanı və ya fövqəladə və ya hərbi vəziyyət şəraitində məcburi əməyə yol verilmişdir (3).

Əmək hüququnun konstitusion səviyyədə təsbiti onu göstərir ki, əmək mübasibətlərinin sabitliyi cəmiyyətin sosial və iqtisadi tərəqqisinin mühüm xüsusiyyətlərindən biridir. Bununla yanaşı, bu sabitliyin davamlı olmasını təmin etmək məqsədilə əmək və onun mühafizəsinə dair müxtəlif normativ hüquqi aktlar qəbul edilmişdir. Onlar arasında vətəndaşların əmək hüququnun müdafiəsi və işçi ilə işəgötürən arasında yaranan fərdi mübahisələrin tənzimlənməsində vacib əhəmiyyətə malik olan Əmək Məcəlləsini göstərmək olar.

Fərdi əmək mübahisələrinin qanunvericilik səviyyəsində təsbiti məsələlərinə toxunmazdan öncə onun hüquq ədəbiyyatında nəzəri təhlili məsələlərinə yer vermək məqsədəmüvafiq hesab olunur. İlk növbədə, qeyd olunmalıdır ki, "fərdi əmək mübahisələri" termini ilk dəfə olaraq 1971-ci ildə qəbul edilmiş III Əmək Məcəlləsində öz əksini tapmışdır. Həmin dövrə qədər isə Sovet əmək qanunvericiliyində "əmək münaqişələri" terminindən istifadə edilmişdir (Balashov, 2008: 7-8).

İşəgötürən və işə götürdüyü işçinin maraqları heç də həmişə üst-üstə düşmür, ona görə də bu maraqların toqquşması əmək münasibətlərinin istənilən mərhələsində mümkündür və bu da öz növbəsində əmək münaqişələrinə səbəb olur. Lakin hər bir münaqişəni hüquqi mənada mübahisə adlandırmaq düzgün olmaz. Əmək qanunvericiliyi ilə tənzimlənən münasibətlərin iştirakçıları öz münaqişələrini qarşılıqlı razılıq əsasında həll edə və beləliklə də, aralarında yaranan fikir ayrılıqlarının əmək mübahisəsi mərhələsinə keçməsinin qarşısını ala bilərlər (Kurennoy, 2007: 5).

Fikir ayrılıqları danışıq yolu ilə həll edilmədikdə və bu məsələnin həlli üçün xüsusi səlahiyyətli orqanlara müraciət edildikdə fikir ayrılığı əmək mübahisəsinə çevrilir. Başqa sözlə, işçinin, əmək kollektivinin və ya onların səlahiyyət verdiyi nümayəndənin tələblərinin tam və ya qismən təmin edilməsindən imtina edilməsi barədə işəgötürəndən bildiriş aldığı və bu barədə qərar qəbul edildiyi, onların ərizələrinə baxılma müddəti keçdiyi və işəgötürən tərəfindən cavab verilmədiyi gün əmək mübahisəsinin başlandığı tarix hesab olunur (Akhmetov, Akhmetova, 2005: 234).

A.M.Qasımov qeyd edir ki, hər hansı fikir ayrılığı deyil, yalnız tərəflərin bilavasitə danışıqlar nəticəsində tənzimləyə bilmədikləri və bunun nəticəsində onlara baxılmaq üçün müəyyən səlahiyyətlərə malik müvafiq orqanın baxışına verilmiş fikir ayrılıqlarını əmək mübahisələri kimi qəbul etmək lazımdır (Əkbərli, 2021: 918).

Əmək mübahisələrindən əvvəl, bir qayda olaraq, əmək hüquq pozması baş verir. Əmək hüquq pozması əmək münasibətləri sahəsində öhdəliyi olan subyektin öz əmək vəzifələrini təqsirli şəkildə yerinə yetirməməsi və ya lazımınca yerinə yetirməməsi, nəticədə əmək hüquqlarının pozulması deməkdir. Öhdəlikli subyektin hərəkətləri qanuni olduqda, digər tərəf isə onları qanunsuz hesab etdikdə, heç bir pozuntu olmasa da, əmək mübahisəsi yarana bilər (Makurina, 2019: 88).

M.N.Əliyev və P.A.Hüseynov qeyd edirlər ki, tərəflərin hüquqazidd hərəkətləri nəticəsində yaranmış fikir ayrılığı hələ özlüyündə əmək mübahisəsi hesab edilməməlidir. Aşağıda göstərilən 3 halda tərəflərin fikir ayrılıqları əmək mübahisəsi həddinə qalxmır:

1. İşçi və ya işəgötürən fikir ayrılığının aradan qaldırılması üçün heç bir cəhd göstərməyə bilərlər. Başqa sözlə desək, işçilər işəgötürənin qeyri-qanuni hərəkətlərindən narazı qalsalar belə, yaranmış fikri ayrılığının həlli üçün heç bir cəhd göstərməyərək sanki onunla "razılaşırlar";
2. İşəgötürən və işçilər arasında yaranmış fikir ayrılığını danışıqlar vasitəsilə həll edə və onun əmək mübahisəsi həddinə qalxmasına yol verməyə bilərlər;
3. İşəgötürənin qeyri-hüquqi hərəkətlərindən narazı olmalarına baxmayaraq işçilərin əksəriyyəti özləri üçün pis nəticədən qorxaraq hüquqlarının müdafiəsi üçün səlahiyyətli orqana müraciətdən çəkinirlər (Əkbərli, 2021: 918-919).

V.N.Tolkunova və İ.O.Sniqirevanın fikirlərinə görə əmək mübahisələrinin yaranması əmək qanunvericiliyinin normalarına riayət etmək öhdəliyi daşıyan hüquq subyektinin hərəkətindən və ya hərəkətsizliyindən başlayır. Bu baxımdan da onlar əmək mübahisələrinin yaranmasını və inkişaf dinamikasını aşağıdakı mərhələlərə ayırmışlar:

1. tərəflərdən birinin təqsirli hərəkət və ya hərəkətsizliyi nəticəsində əmək hüquq pozmasının mövcud olması;
2. bu hərəkət və ya hərəkətsizliyin subyektlər tərəfindən fərqli şəkildə qiymətləndirilməsi;
3. tərəflərin yaranan fikir ayrılıqlarını birbaşa danışıqlar yolu ilə həll etməyə cəhd göstərməsi;
4. danışıqlar yolu hər hansı bir nəticə vermədikdə fikir ayrılığının həll edilməsi üçün tərəflərin səlahiyyətli orqanlara müraciət etməsi (16).

Əmək hüququna həsr edilmiş müxtəlif dərsliklərdə əksər hallarda əmək mübahisələrinin aşağıda aparılmış təsnifatına rast gəlmək olar:

1. mübahisənin subyektlərinə və ya mübahisənin predmetinə görə;
2. mübahisənin xarakterinə görə;
3. mübahisələrin yarana biləcəyi hüquq münasibətlərinə görə (mübahisənin obyektinə görə).

Mübahisənin subyektlərinə görə əmək mübahisələri 2 qrupa ayrılır: 1) fərdi əmək mübahisələri; 2) kollektiv əmək mübahisələri.

İ.O.Sniqireva, Y.N.Korşunov fərdi əmək mübahisələrinə tərəflər arasında birbaşa danışıqlar və ya həmkarlar ittifaqının iştirakı ilə həll edilməyən fikir ayrılıqları kimi anlayış vermişlər. L.A.Çikanova isə fərdi əmək mübahisələrini işçilərlə işəgötürənlər arasında birbaşa danışıqlar yolu ilə həll edilməyən münaqişə kimi izah edir (Agiyevets, 2016: 64-65).

Fərdi əmək mübahisələrinin leqal anlayışı qanunvericilik səviyyəsində təsbit edildiyindən müvafiq dövlətlərin əmək qanunvericiliyinə nəzər yetirmək məqsədəmüvafiq hesab edilir.

Azərbaycan Respublikasının 1 fevral 1999-cu il tarixli Əmək Məcəlləsinin 287-ci maddəsinə əsasən fərdi əmək mübahisələri, işəgötürənlə işçi arasında əmək müqaviləsinin, kollektiv müqavilənin şərtlərinin, habelə əmək qanunvericiliyinin və digər normativ hüquqi aktların tətbiqi zamanı yaranan və bu Məcəllə ilə müəyyən edilmiş qaydada, üsullarla və şərtlərlə tərəflərin hüquq bərabərliyi və qanunun aliliyi prinsipləri əsasında həll edilən fikir ayrılığıdır (2).

Rusiya Federasiyasının Əmək Məcəlləsinin 381-ci maddəsinə görə fərdi əmək mübahisəsi işəgötürənlə işçi arasında əmək qanunvericiliyinin və əmək hüququ normalarını ehtiva edən digər normativ hüquqi aktların, kollektiv müqavilənin, sazişin, yerli normativ aktın, əmək müqaviləsinin (o cümlədən əmək şəraitinin yaradılması və dəyişdirilməsi) tətbiqi ilə bağlı həll edilməmiş və baxılması üçün orqana müraciət edilən fikir ayrılığıdır (6).

Fərdi əmək mübahisələrinə işəgötürənlə əvvəllər əmək münasibətlərində olan şəxs, habelə əmək müqaviləsi bağlamaq istəyini bildirmiş şəxs arasında, əgər əgər işəgötürən belə əmək müqaviləsi bağlamaqdan imtina edərsə, baş verən mübahisələr də aid edilir.

Qazaxıstan Respublikasının Əmək Məcəlləsinin 1-ci maddəsinin 16-cı bəndində əmək mübahisəsinə anlayış verilsə də, digər ölkələrin qanunvericiliyindən fərqli olaraq fərdi əmək mübahisələrinə leqal tərif verilməmişdir. Qeyd edilən maddədə əmək mübahisəsinə işçi (işçilər) ilə işəgötürən (işəgötürənlər), o cümlədən əvvəllər əmək münasibətlərində olan şəxslər arasında Qazaxıstan Respublikasının əmək qanunvericiliyinin tətbiqi, müqavilələrin, əmək sazişlərinin və kollektiv müqavilələrinin şərtlərinin, işəgötürənin aktlarının yerinə yetirilməsi və ya dəyişdirilməsi ilə bağlı yaranan fikir ayrılığı kimi anlayış verilmişdir (17).

Fikrimizcə, fərdi əmək mübahisələri ilə kollektiv əmək mübahisələrinin fərqləndirilməsi, fərdi əmək mübahisələrinin məzmunun daha düzgün başa düşülməsi üçün Qazaxıstan Respublikasının Əmək Məcəlləsinə aşağıdakı məzmunda fərdi əmək mübahisələri anlayışının daxil edilməsinə ehtiyac vardır:

*Fərdi əmək mübahisələri işəgötürənlə işçi, o cümlədən əvvəllər əmək münasibətlərində olan şəxslər arasında əmək müqaviləsinin, əmək sazişləri və kollektiv müqavilənin şərtlərinin, habelə Qazaxıstan əmək qanunvericiliyinin və digər normativ hüquqi aktların tətbiqi zamanı yaranan və qanunla müəyyən edilmiş qaydada müvafiq orqanda həll edilən fikir ayrılığıdır.*

Bundan başqa, Qazaxıstan Respublikasının Əmək Məcəlləsindən və Rusiya Federasiyasının Əmək Məcəlləsindən fərqli olaraq Azərbaycan Respublikasının Əmək Məcəlləsində verilmiş leqal tərifdə “əvvəllər əmək münasibətlərində olan şəxslər” ifadəsi göstərilməmişdir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-ci bəndinə görə isə əmək münasibətləri elektron informasiya sisteminə gücləndirilmiş elektron imza vasitəsi ilə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır (2). Lakin fərdi əmək mübahisələri aralarında əmək müqaviləsinə xitam verilmiş işçi və işəgötürən arasında baş verə bilər ki, işçi məhkəməyə müraciət edərkən hüquqi olaraq əmək münasibətlərində olmur (məsələn, işəgötürənin Əmək Məcəlləsinin 70-ci maddəsinin “ç” bəndi ilə əmək müqaviləsinə xitam verməsi, işçinin isə bunu qeyri-qanuni hesab edərək səlahiyyətli orqana müraciət etməsi). Bu baxımdan da, fikrimizcə, bizim əmək qanunvericiliyində verilən anlayışa “əvvəllər əmək münasibətlərində olmuş işçi və işəgötürən” ifadəsinin əlavə edilməsi məqsədəmüvafiq olardı.

Rusiya əmək qanunvericiliyində və Azərbaycan Respublikası əmək qanunvericiliyində fərdi əmək mübahisəsinə verilən anlayışlar uğurlu hesab oluna bilər. Bununla belə, fikrimizcə, hər iki anlayışda müəyyən çatışmazlıqlar mövcuddur. Belə ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində verilən anlayışdan elə başa düşülür ki, yaranan mübahisələr qeyd edilən prinsiplər əsasında elə işçi ilə işəgötürən tərəfindən həll edilir. Halbuki, fərdi əmək mübahisəsinin əsas elementlərindən biri də onun müəyyən orqanda baxılıb həll edilməsidir. Bu baxımdan Azərbaycan Respublikasının Əmək Məcəlləsində verilən anlayışın aşağıdakı redaksiyada verilməsi təklif olunur (Trudovoye pravo: uchebnik, 2021):

*Fərdi əmək mübahisələri, işəgötürənlə işçi arasında və ya əvvəllər əmək münasibətlərində olmuş işçi və işəgötürən arasında əmək müqaviləsinin, kollektiv müqavilənin şərtlərinin, habelə əmək qanunvericiliyinin və digər normativ hüquqi aktların tətbiqi zamanı yaranan və müvafiq orqan tərəfindən bu Məcəllə ilə müəyyən edilmiş qaydada, üsullarla və şərtlərlə tərəflərin hüquq bərabərliyi və qanunun aliliyi prinsipləri əsasında həll edilən fikir ayrılığıdır.*

Qanunvericiliklərin uyğunlaşdırılması baxımından Rusiyanın Əmək Məcəlləsində verilən anlayışda “həll edilməmiş və baxılması üçün” ifadəsinin “yaranan və həll edilməsi üçün” ifadəsi ilə əvəz olunması təklif olunur.

Yuxarıda aparılan fərdi əmək mübahisələri anlayışının təhlilinə əsasən o, aşağıdakı xüsusiyyətlərə malikdir (Cəfərov, 2008):

1. Bu kateqoriyadan olan mübahisələrin subyektləri qismində işçi və işəgötürən çıxış edir;
2. Fərdi əmək mübahisələrinin obyekti tərəflərin qanunla qorunan hüquq və mənafeləridir (məs. qanunsuz olaraq işdən çıxarılan işçinin işə bərpa edilməsi);
3. Onlar arasında həll edilməmiş fikir ayrılığı mövcud olur;
4. Fikir ayrılığının həll edilməsi üçün əmək qanunvericiliyi ilə müəyyən edilmiş qaydada fərdi əmək mübahisələrinə baxan orqana müraciət edilir.

Bəzi alimlər əmək mübahisələrinin yaranması üçün "səbəblər" və "şərtlər" anlayışlarını bir-birindən fərqləndirirlər. V.N.Tolkunova qeyd edir ki, əmək mübahisələrinin səbəbləri mübahisə edən tərəflərin subyektiv və ya kollektiv əmək hüquq və mənafelərinin həyata keçirilməsi və ya əmək vəzifələrinin yerinə yetirilməsi proseduruna müxtəlif qiymət vermələrində, yəni onlar arasında yaranan fikir ayrılığında ifadə olunur. Əmək mübahisələrinin şərtləri isə eyni məsələlər üzrə daha çox əmək mübahisəsinin yaranmasına və ya yaranmış mübahisənin əhəmiyyətli dərəcədə kəskinləşməsinə səbəb olan mənfi amillərdir (Novitskaya, 2018: 100).

K.N.Qusov da V.N.Tolkunovanın mövqeyindən çıxış edərək əmək mübahisələrinin səbəblərini subyektiv əmək hüquqlarının həyata keçirilməsi və ya əmək vəzifələrinin icrası ilə bağlı mübahisə edən işçi və işəgötürən tərəfindən müxtəlif qiymətləndirmələr nəticəsində yaranan mənfi amillər kimi xarakterizə etmişdir (Safronov, 2015: 227).

A.G.Avdey əmək mübahisələrinin yaranma səbəblərini əmək hüquq münasibətlərində olan subyektlərin hüquqlarınının real və ya xəyali şəkildə pozulması adlandırır. Müəllifin fikrincə, əmək

mübahisələrinin baş vermə şərtləri dedikdə isə tərəflər arasında fikir ayrılıqlarının yaranmasına səbəb olan amillər başa düşülməlidir (Nesipbayeva, Rzabay, 2023: 7).

O.V.Smirnov, İ.O.Sniqireva, N.Q.Qladkovanın fikrincə, əmək mübahisələrinin səbəbləri qismində işçi ilə işəgötürən arasında fikir ayrılığına səbəb olan hüquqi faktlar, şərtləri kimi isə işçi ilə işəgötürən arasında mövcud olan əmək münasibətlərinə birbaşa və ya dolayısı yolla təsir edən vəziyyət, şərait çıxış edir (Novitskaya, 2018: 101).

V.V.Safronov göstərir ki, fərdi əmək mübahisələrinin səbəbləri işçinin hər hansı hüquqlarının və ya onun müəssisə qarşısında öhdəliklərinin pozulması ilə bağlı olan, şərtlər isə əmək münasibətlərinə birbaşa və ya dolayısı ilə təsir edən və əmək münasibətlərinin subyektləri arasında həll edilməmiş fikir ayrılıqlarına səbəb olan hallardır. Əmək mübahisələrinin yaranması şərtləri, alimin fikrincə, konkret əmək mübahisəsində konkret səbəblərə çevrilir (Novitskaya, 2018: 101).

Alimlərin fikirlərini ümumiləşdiriərək qeyd edə bilərik ki, fərdi əmək mübahisələrinin səbəbləri dedikdə, əmək qanunvericiliyinin, digər normativ hüquqi aktların, əmək müqaviləsinin, kollektiv müqavilənin şərtlərinin tətbiqi ilə bağlı fikir ayrılıqlarının yaranmasına gətirib çıxaran hallar başa düşülür. Fərdi əmək mübahisələrinin yaranması şərtləri isə əmək münasibətlərinə təsir edən və işçi ilə işəgötürən arasında həll edilə bilməyən fikir ayrılıqlarına səbəb olan hallardır.

Fərdi əmək mübahisələrinin yaranma səbəblərinə aşağıdakıları aid etmək olar:

1. İşçi və ya işəgötürən tərəfindən əmək vəzifələrinin təqsirli şəkildə yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi;
2. Subyektlərin əmək qanunvericiliyinin tətbiqi məsələlərini fərqli şəkildə qiymətləndirməsi;
3. İşçinin və ya işəgötürənin əmək müqaviləsinin digər tərəfinə həvalə edilmiş subyektiv hüquq və öhdəliyə malik olması barədə vicdanlı şəkildə yanlış təsəvvürə malik olması;
4. Bəzi hüquqi aktların müəyyən müddəalarında boşluğun mövcud olması (Pashkova, 2018: 161).

Hüquq ədəbiyyatında fərdi əmək mübahisələrinin səbəbləri iki qrupa bölünür: subyektiv səbəblər və obyektiv səbəblər.

Subyektiv səbəblər özündə əmək hüquq subyektlərinin (işçi və işəgötürən) fəaliyyətindəki çatışmazlıqları və səhvləri ifadə edir. Bu qəbildən olan səbəblər sırasına işçinin və ya işəgötürənin mövcud əmək qanunvericiliyinin tələblərinə əməl etmək istəməməsini, əmək qanunvericiliyinin düzgün tətbiq edilməməsi və ya fərqli şəkildə başa düşülməsini, işçinin əmək hüquqlarının pozulmasını, onun tələblərinə məhəl qoyulmamasını və s. halları aid etmək olar (15).

Fərdi əmək mübahisələrinin yaranmasının obyektiv səbəblərinə əmək qanunvericiliyinin, müqavilələrin tətbiqi ilə bağlı işəgötürənlə işçinin maraqlarının uyğunsuzluğu, müəyyən iş şəraitinin dəyişdirilməsi, işçilərə əmək haqqının ödənilməməsi və ya vaxtında ödənilməməsi və s. hallar qeyd edilə bilər (Makurina, 2019: 91).

S.P.Marvin bildirir ki, obyektiv səbəblər tərəflərin iradəsindən və şüurundan asılı olmadığından onlar əmək mübahisələrinin yaranmasının bilavasitə mənbəyi qismində çıxış etmirlər. Lakin onların mövcudluğu əmək mübahisələrinin meydana çıxması üçün zəmin yarada bilər (Cəfərov, 2008: 69).

Əmək mübahisələrinin yaranma şərtlərinə gəldikdə isə əmək mübahisələrinə həsr edilmiş dərslik, məqalə, monoqrafiya və digər elmi əsərlərdə onlar 3 qrupa ayrılırlar: sosial şərtlər, hüquqi şərtlər və iqtisadi şərtlər.

Sosial şərtlərə nümunə olaraq müəyyən edilmiş əmək haqqı ilə yaşayış minumumu arasında uyğunsuzluğu, aşağı və ya yüksək maaş alan işçilərin əmək haqlarına edilmiş artırmalar arasında fərqlərin mövcud olmasını və digər halları göstərmək olar (Pashkova, 2018: 162).

Hüquqi şərtlərə əmək qanunvericiliyində ziddiyyətlərin və boşluqların olması, tərəflərin hüquq sahəsində zəruri biliklərə malik olmaması, normaların işçi və işəgötürən tərəfindən fərqli şəkildə şərh edilməsini qeyd etmək olar (Cəfərov, 2008: 91).

İqtisadi şərtlər isə müəssisənin maliyyə vəziyyətinin qeyri-stabil olması səbəbindən işəgötürən tərəfindən işçilərin əməkhaqlarının tam və ya vaxtında ödənilməməsi, eyni öhdəlikləri daşıyan işçilərin əməkhaqlarının fərqləndirilməsi kimi hallar hesab edilə bilər.

## Nəticə

Beləliklə, MDB ölkələrinə daxil olan Azərbaycan, Qazaxıstan Respublikalarının və Rusiya Federasiyasının Əmək Məcəlləsində fərdi əmək mübahisələrinə verilən anlayışları mükəmməl hesab etmək olmaz.

İlk növbədə, Qazaxıstan Respublikasının əmək qanunvericiliyində fərdi əmək mübahisələrinin leqal anlayışına yer ayrılmamışdır. Lakin həmin qanunvericilikdə mövcud olan 0əmək mübahisəsinə verilən anlayışı nəzərə alaraq fərdi əmək mübahisələrinin anlayışı ilə bağlı təkliflər irəli sürülmüşdür. Azərbaycan Respublikasının Əmək Məcəlləsində fərdi əmək mübahisələrinə verilən hüquqi anlayışı nəzəri və təcrübi baxımdan uzlaşdırmaq üçün dəyişikliklərin edilməsinə ehtiyac vardır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci ildə qəbul edilmişdir. https://e-qanun.az/framework/897, 2024
2. Konstitutsiya Rossiyskoy Federatsii, prinyata 12 dekabrya 1993 goda. https://constitution.garant.ru/rf/chapter/889e0dae931675d48d9f64b3ec2afc12/, 2024
3. Kazakstan Respublikasynyň Yeňbek Kodeksí. 23 kˌarashadaġy 2015 zhylġy № 414-V KˌRZ, https://adilet.zan.kz/kaz/docs/K1500000414, 2024
4. Balashov, A.I. (2008). Trudovyye spory i poryadok ikh razresheniya: Uchebnoye posobiye. SPb filial GU VSHE, 116 s.
5. Kurennoy, A.M. (2007). Trudovyye spory: ponyatiye i obshchaya kharakteristika pravovogo regulirovaniya. Zakony Rossii: opyt, analiz, praktika. № 4, s.4-17
6. Akhmetov, A., Akhmetova, G. (2005). Yeňbek kˌūkˌyġy. Okˌulykˌ. Almaty: «Nūr-press», 405 bet.
7. Əkbərli, Ü.A. (2021). Əmək hüququ. Mühazirə mətnləri: Dərs vəsaiti. Bakı: Hüquq yayın evi, 964 s.
8. Makurina, K.A. (2019). Ponyatiye i klassifikatsiya individual'nykh trudovykh sporov, prichiny i usloviya ikh vozniknoveniya. T.M.Lavrik. Aktual'nyye napravleniya fundamental'nykh i prikladnykh issledovaniy: Materialy XX mezhdunarodnoy nauchno-prakticheskoy konferentsii, North Charleston, USA, s.87-92
9. Trudovoy kodeks Rossiyskoy Federatsii, ot 30.12.2001 № 197-FZ. https://www.consultant.ru/document/cons_doc_LAW_34683/, 2024
10. Agiyevets, S.V. (2016). K voprosu o ponyatii individual'nykh trudovykh sporov. Aktual'nyye problemy yuridicheskogo obrazovaniya v kontekste obucheniya al'ternativnomu uregulirovaniyu sporov kak podkhodu k obespecheniyu prav cheloveka : materialy Mezhdunar. nauch.prakt. konf. v ramkakh Tempus-proyekta. Minsk, 29 noyabrya - 3 dekabrya. Minsk : Izdatel'stvo BGU, s.61-69
11. Azərbaycan Respublikasının Əmək Məcəlləsi, 1 fevral 1999-cu il tarixli. https://e-qanun.az/framework/46943, 2024
12. Trudovoye pravo: uchebnik. (2021). Pod red. S.V.Solov'yevoy, I.A.Filipovoy – Nizhniy Novgorod: Nizhegorodskiy gosuniversitet, 194 s.
13. Novitskaya, M.V. (2018). Prichiny i usloviya vozniknoveniya trudovykh sporov. Vestnik Mogilevskogo instituta MVD. № 2, s.100-106.
14. Safronov, V.V. (2015). Prichiny i usloviya vozniknoveniya individual'nykh trudovykh sporov. Upravleniye chelovecheskimi resursami – osnova razvitiya innovatsionnoy ekonomiki., № 6, s.226-230.
15. Nesipbayeva, I.S., Rzabay, A.I. (2023). Trudovyye spory i poryadok ikh razresheniya. Materialy XXIX mezhdunarodnoy nauchnoy konferentsii «Informatsionnoye prostranstvo sovremennoy nauki» (g. Cheboksary, Rossiya, 25 avgusta – 15 sentyabrya). Nauchnyy potentsial. № 3(42), s.7-11.
16. Pashkova, G.G. (2018). Trudovoye pravo: ucheb. posobiye. Tomsk: Izdatel'skiy Dom Tomskogo gosudarstvennogo universiteta, 258 s.

17. Trudovoye pravo Rossii: uchebnik dlya studentov vuzov, obuchayushchikhsya po spetsial'nosti «Yurisprudentsiya». (2015). [R.A.Kurbanov i dr.]; pod red. S.N.Baburina. M.: YUNITI-DANA, 487 s.
18. Cəfərov, Z.İ. (2008). İşçilərin subyektiv hüquqıarının, azadlıqlarının və qanuni mənafelərinin mühafizəsi və müdafiəsi üsulları (Nəzəri aspektləri). Monoqrafiya. Bakı: Adiloğlu, 208 s.

Göndərilib: 05.03.2024 Qəbul edilib: 23.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/112-116

**Fəridə Mirzəyeva**
Bakı Dövlət Universiteti
magistrant
f.mirzayeva@pdlworld.com

# AİLƏ-NİKAH MÜNASİBƏTLƏRİ: NİKAH MÜNASİBƏTLƏRİNƏ DAXİL OLMA QAYDALARI

**Xülasə**

Məqalədə əsas məqsəd ailə-nikah münasibətlərinin tənzimlənməsi qaydalarının müəyyən edilməsi və nikaha daxil olan şəxslərin hüquq və öhdəliklərinin yerli və xarici qanunvericilik aktlarında araşdırılaraq öyrənilməsi təşkil etmişdir. Həmçinin Azərbaycan Respublikasının və digər ölkələrin də qanunvericilik normaları qarşılıqlı şəkildə təhlil edilmiş və nikah münasibətləri ilə bağlı yeni təkliflər verilmişdir.

***Açar sözlər:*** *ailə münasibətləri, nikah, nikah yaşı, ər və arvad, hüquq və öhdəliklər*

**Farida Mirzayeva**
Baku State University
master student
f.mirzayeva@pdlworld.com

## Family-marital relations: rules for entering marriage relations

**Abstract**

The main purpose of the article is to determine the rules for the regulation of marital relations and to examine and investigate the rights and obligations of married persons in domestic and foreign legislation. In addition, the legal norms of the Republic of Azerbaijan and other countries were mutually analyzed and new recommendations on marital relations were made.

***Keywords:*** *family relations, marriage, age of marriage, husband and wife, rights and obligations*

## Giriş

Ailənin anlayışına dair hüquq ədəbiyyatında alimlər tərəfindən müxtəlif fikirlər səsləndirilmişdir. Məsələn A.M.Neçayevaya görə ailə dedikdə, "nikah və ailə haqqında qanunvericilikdə müəyyən edilmiş hüquq və öhdəliklərə sahibolan, birgə yaşayan və ümumi təsərrüfat fəaliyyəti aparan şəxslərin birliyi" nəzərdə tutulur (Neçayeva, 1980: 61-62). M.Dəmirçiyevaya görə ailə-nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik bir qrupdur. Ailə üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlıdır (Dəmirçiyeva, 2020: 119).

Nikah hüququ nikahın şərtlərini və prosedurlarını, nikahın etibarlılığını, nikahın xitamını - nikahın həlli yollarını, boşanma və nikahın etibarsızlığının nəticələrini, ər-arvadın hüquq və vəzifələrini və qayğılarını tənzimləmək məqsədi daşıyır. Nikah qadın və kişi arasında bir yerdə yaşamaq və ailə qurmaq məqsədi ilə həyata keçirilən həyat birliyidir. Evliliyin əsas məqsədləri; birlikdə yaşamaq və ailə qurmaq, həyat yoldaşını dəstəkləmək və sairədir. Nikah qanunla tənzimlənən, ər-arvadın, ailənin və cəmiyyətin maraqlarının həyata keçirildiyi kişi və qadınların birliyidir. Ər-arvad arasında münasibətlər ər və arvadın nikahla bağlı sərbəst qərar verməsi, onların bərabərliyi, qarşılıqlı hörmət və yardımı əsasında qurulur. Nikah hüquqi birlik kimi ər-arvadın mənəvi və hüquqi bərabərliyinə, qarşılıqlı sevgi, hörmət və anlaşmaya əsaslanır və ailə birliyinin əsasını təşkil edir (Zejneli, 1).

Digər xarici ölkələrin qanunvericililyi ilə müqayisədə Azərbaycan Respublikasında ailə münasibətlərini tənzimləyən xüsusi qanunvericilik aktının – Ailə Məcəlləsinin mövcud olması

olduqca mütərəqqi bir haldır. Dövlətimiz hər zaman ailə münasibətlərinin qayğısına xüsusi diqqət yetirmişdir. Belə ki, Azərbaycan Respublikasının Konstitutsiyasının 17 maddəsinin birinci bəndində "ailə"nin "cəmiyyətin əsas özəyi olması və dövlətin xüsusi himayəsində olması xüsusilə vurğulanmışdır. Eyni zamanda Azərbaycan Respublikasının Konstitutsiyasının 34-cü maddəsinin üçüncü bəndində "nikah və ailənin dövlətin himayəsində olması, analıq, atalıq, uşaqlığın qanunla mühafizə edilməsi" dövlət səviyyəsində ailəyə xüsusi önəm verilməsini bir daha sübut edir (4).

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 2-ci maddəsinə əsasən ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir (5).

Ailə Məcəlləsinin 2-ci maddəsində müəyyən edilmiş prinsiplər Azərbaycan Respublikasının Konstitusiyasının normalarına uyğun olaraq müəyyən edilmişdir. Belə ki, Konstitusiyanın 34-cü maddəsinin ikinci və dördüncü bəndi nikah könüllüyünü, 25-ci maddəsinin ikinci bəndi ər və arvadın hüquq bərabərliyini bir daha təsdiq edir.

Ailə münasibətlərinin tərəfləri öz hüquq və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmamalıdır (4).

Nikah münasibətlərinə daxil olan şəxslərin hüquq və və öhdəlikləri nikah münasibətlərinin rəsmi şəkildə dövlət qeydiyyatına alınmasından sonra yaranır. Nikah tərəfləri qarşılıqlı razılığına əsasən yazılı qaydada bağlanır. Nikah tərəflərin könüllü ittifaqıdır. Tərəfi nikah münasibətlərinə daxil olmağa məcbur etmək cinayət məsuliyyətinə səbəb olur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 176-1-ci maddəsində "qadını nikaha daxil olmağa məcbur etmə" üçün cinayət məsuliyyəti nəzərdə tutulmuşdur (6). Belə hesab edirəm ki, maddədə sadəcə qadınların nikaha daxil olmağa məcbur etmə üçün cinayət məsuliyyətinin müəyyən edilməsi yetərli deyildir. Eyni zamanda kişilərin də nikaha daxil olmağa məcbur etmə üçün də cinayət məsuliyyəti nəzərdə tutulmalıdır.

Azərbaycan Respublikasında nikah yalnız qadın və kişi arasında bağlana bilər. Azərbaycan Respublikasında eyni cinsli şəxslər arasında bağlanmış nikahlar rəsmi olaraq tanınmır. Lakin 2024-cü ilin statistikasına əsasən 36 ölkədə eynicinsli şəxslər arasında bağlanan nikahlar rəsmi olaraq tanınır (7).

Ailə Məcəlləsi ilə nikaha daxil olması qadağan olan şəxslərin siyahısı müəyyən edilmişdir. Belə ki,

- yaxın qohumlar (valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar);
- övladlığa götürənlər və övladlığa götürülənlər;
- ikisindən biri və ya hər ikisi başqası ilə nikahda olan şəxslər arasında nikah bağlanmasına yol verilmir.

Müqayisə üçün xarici ölkələrin qanunvericiliyində nikaha daxil olması qadağan edilən şəxslərin dairəsinə nəzər yetirək. Belə ki, 4721 saylı Türk Mədəni Qanununa əsasən:

- Nikaha daxil olan zaman tərəflərfən biri hələ də rəsmi nikah münasibətlərindədirsə,
- Ər-arvaddan biri nikah zamanı öz hərəkətlərinin mənasını dərk edə bilmirsə
- Ər-arvaddan birində ruhi xəstəlik varsa,
- Ər-arvad arasında evliliyə mane olan qohumluq münasibət varsa

tərəflər arasında nikah bağlanmasına yol verilmir.

Həmçinin nikah bitmişsə, nikahın bitməsindən üç yüz gün keçməmiş qadın evlənməsinə yol verilmir (8).

Dünyanın bir sıra ölkələrində yaxın qan qohumları (əmi, bibi, dayı, xala uşaqları) arasında evliliklər qadağan edilmişdir. Belə ki, Tayvanda, Flippində, Cənubi və Şimali Koreyada, 1981-ci ildən etibarən Çin Xalq Respublikasında, 2000-ci ildən Vietnamda, 2004-cü ildən İsveçdə yaxın qan qohumları arasında evlilik qadağan edilmişdir (9).

Azərbaycanda qan qohumları arasında nikah bağlanması qadağan edilməmişdir. Lakin qeyd etmək lazımdır ki, aparılmış müxtəlif elmi araşdırmalar göstərir ki, qan qohumları arasında bağlanmış nikahdan dünyaya gələn uşaqlarda genetik və digər xəstəliklərə sahib olma riski daha böyükdür. Belə ki, qan qohumları arasında olan nikahlardan doğulan uşaqların yaşama müddətində 3.3 illik azalma olduğu müəyyən edilmişdir (10). Bunları nəzərə alaraq, Azərbaycan qanunvericiliyində də yaxın qan qohumları arasında nikahın bağlanmasının qadağan edilməsi daha məqsədə müvafiq olardı.

Azərbaycan Respublikasında nikaha daxil olan tərəflər üçün minimum yaş həddi olaraq 18 yaş müəyyən edilmişdir.

Nikaha daxil olma yaşı ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun məlumatına əsasən 2010-cu ildə 158 ölkədə qadınların valideynlərinin razılığı və ya müvafiq orqanın icazəsi olmadan nikaha girməsi yaşı 18 yaş olmuşdur. Bununla belə, bu ölkələrin 146-da dövlətlər l8 yaşına çatmamış qızların valideynlərinin və ya digər orqanların razılığı ilə ərə getməsinə qanunla icazə verili. 52 ölkədə yaşı 15-dən az olan qızlar valideynlərinin razılığı ilə ailə qura bilərlər. Bununla bərabər 180 ölkədə kişilər üçün minimum yaş həddi 18 olaraq müəyyən edilmişdir. Bundan əlavə, 105 ölkədə oğlanlar valideynin və ya müvafiq orqanın razılığı ilə, 23 ölkədə isə sadəcə valideynlərinin razılığı ilə 15 yaşından kiçik oğlanlar evlənə bilər (11).

Son illərdə Avropa İttifaqına daxil olan bir çox ölkələrdə nikah qanunlarını sərtləşdirib, ya 18 yaşdan kiçik nikahları tamamilə qadağan edilib, ya da belə nikahların bağlanması üçün məhkəmənin razılığını tələb edilir. Son illərdə evlilik qanunlarında islahatlar aparan ölkələr arasında İsveç (2014), Danimarka (2017), Almaniya (2017), Lüksemburq (2014), İspaniya (2015), Hollandiya (2015), Finlandiya (2019) və İrlandiya (2019) var. Bir çox inkişaf etməkdə olan ölkələr də son illərdə oxşar qanunlar qəbul ediblər: Honduras (2017), Ekvador (2015), Kosta Rika (2017), Panama (2015), Trinidad və Tobaqo (2017), Malavi (2017) (12).

Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Burada üzürlü səbəb dedikdə- qadının hamilə olması və ya dünyaya uşaq gətirməsi, kişinin hərbi qulluğa çağırılması,yaxud digər ciddi səbəblər ola bilər (Dəmirçiyeva, 2020: 145).

Rusiya Ailə Məcəlləsinin 13.2-ci maddəsində də Azərbaycan Respublikasının Ailə Məcəlləsinə bənzər normalara rast gəliir. Belə ki, üzürlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən şəxslərin yaşayış yeri üzrə yerli özünüidarəetmə orqanları həmin şəxslərin xahişi ilə on altı yaşına çatmış şəxslərin nikaha daxil olmasına icazə verə bilərlər (13).

Dövlət statistika komitəsinin məlumatları göstərir ki, Azərbaycan Respublikası ərazisində 2021-ci ildə 137, 2022-ci ildə isə 270 erkən nikah halları qeyd edilmişdir. Xüsusilə son dönəmlərdə Tovuz rayonunda 13 yaşlı, Sabirabad rayonunda 12 yaşlı qız uşaqlarının nişanlanması ilə bağlı yayılan məlumatlar hələ də Azərbaycan ərazisində erkən nikah hallarının baş verdiyini göstərir. Belə hesab edirəm ki, bunları nəzərə alaraq Ailə Məcəlləsinin nikah yaşının azaldılmasına icazə verən 10.2-ci maddəsi ləğv edilməlidir.

Rəsmi nikaha daxil olmaq üçün tərəflər qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi müayinədən keçməlidirlər. Nikaha daxil olmaq istəyən şəxslərin keçməli olduğu xəstəliklərin siyahısı aşağıdakı kimidir:

-hemoqlobinopatiyalar; böyük beta-talassemiya; aralıq beta-talassemiya; drepanotalassemiya; oraqvari hüceyrəli anemiya; İİV/QİÇS; sifilis.

Nikaha daxil olmaq istəyən şəxslər tibbi müayinədən keçmək və məsləhət almaq üçün yaşayış yeri üzrə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi tərəfindən müəyyən edilmiş dövlət və (və ya) bələdiyyə tibb müəssisəsiələrinə müraciət edə bilərlər. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin həyata keçirilməsi və müvafiq məsləhətlərin verilməsi pulsuzdur (14).

Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə, digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər (1).

Rusiya Ailə Məcəlləsinin 15-ci maddəsində eyni tipli normalara rast gəlinir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsində Azərbaycan Respublikasının vətəndaşları və xarici vətəndaşlar və ya vətəndaşlığı olmayan şəxslərin də nikaha daxil olması qaydaları müəyyən edilmişdir. Belə ki, Ailə Məcəlləsinin 146.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində əcnəbi şəxs üçün nikahın bağlanma şərtləri onun ölkəsinin qanunvericiliyi və Ailə Məcəlləsinin tələblərinə əməl olunmaqla müəyyən edilir. Əgər nikah bağlayan şəxsin vətəndaşlığı yoxdursa, nikahın bağlanması şərtləri onun daimi yaşadığı ölkənin qanunvericiliyi ilə müəyyən edilir (2).

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşları Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluq idarələrində nikaha daxil ola bilərlər.

Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarında nikahın qeydiyyata alınması üçün aşağıdakı sənədlər konsulluq və diplomatik nümayəndəliklərə təqdim edilməlidir:

1. Nikaha daxil olan şəxslərin yazılı razılığı
2. Nikaha daxil olan şəxslərin şəxsiyyətini təsdiq edən sənədlərin surəti
3. xarici ölkədə daimi və ya müvəqqəti yaşamasını təsdiq edən sənəd
4. Subaylıq haqqında arayış
5. Dövlət rüsumunun ödənilməsi barədə qəbz
6. Əvvəllər nikahda olmuş şəxslər - nikahın pozulması haqqında şəhadətnamə (surətini) və ya ərinin (arvadının) ölümü şəhadətnamə (surətini), yaxud əvvəlki nikahın etibarsız sayılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi və ya ondan çıxarış (yalnız əvvəllər nikahda olmuş şəxslər).
2. Sağlamlıq haqqında tibbi arayış (15).

Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan Respublikasının vətəndaşları arasında, eləcə də Azərbaycan Respublikasının vətəndaşları və əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər arasında bağlanmış nikah həm nikahın bağlandığı xarici ölkənin qanunvericiliyinə, həm də Azərbaycan Respublikasının Ailə Məcəllənin normalarına uyğun olduqda etibarlı hesab edilir (2).

## Nəticə

Azərbaycan Respublikasının vətəndaşı olan kişi və ya qadın əcnəbi ilə və ya vətəndaşlığı olmayan şəxslə nikah bağlaması və ya nikahı pozması ər və arvadın vətəndaşlığının dəyişməsinə səbəb olmur (16).

## Ədəbiyyat


1. Neçayeva, A.M. (1980). “Semya i zakon”.
2. Dəmirçiyeva, M. (2020). “Azərbaycan Respublikasının Ailə Hüququ”. Bakı, 552 s.
3. Zejneli, A. “The Legal Nature Of Marriage And Its Purpose”, 8 s.
4. Azərbaycan Respublikasının Konstitusiyası. https://e-qanun.az/framework/897
5. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. https://e-qanun.az/framework/46946
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. https://frameworks.e-qanun.az/46/f_46947.html
7. https://www.hrc.org/resources/marriage-equality-around-the-world
8. "Marrying Too Young: UNFPA Report", 20.11.2015.
9. Sam Il Myoung Hwang, Deaglan Jakob, Munir Squires. “Health effects of cousin marriage: Evidence from US genealogical records”. 18.10.2023, 78 s.
10. https://en.wikipedia.org/wiki/Marriageable_age#cite_note-42
11. https://en.wikipedia.org/wiki/Cousin_marriage
12. “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. https://e-qanun.az/framework/29986

13. 4721 saylı Türk Mədəni Qanunu. Chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/-https://www.mevzuat.gov.tr/ mevzuatmetin/1.5.4721.pdf
14. Rusiya Ailə Məcəlləsi. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https:// www.-jafbase.fr/docEstEurope/RussianFamilyCode1995.pdf
15. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. https://e-qanun.az/framework/3187
16. https://london.mfa.gov.az/az/content/52/nikahin-baglanilmasinin-qeyde-alinmasi

Göndərilib: 17.03.2024 Qəbul edilib: 02.05.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/117-121

**Vasif Mahmudov**
Azərbaycan Texniki Universiteti
magistrant
mahmudovvasif96@gmail.com

# BİRJA İNDEKSLƏRİNİN SƏHİYYƏ SİSTEMİNƏ TƏSİRİ

**Xülasə**

Müasir dünyada maliyyə bazarları səhiyyə sisteminin formalaşmasında və inkişafında mühüm rol oynayır. Bu iş statistik məlumatların təhlilindən istifadə edərək birja indeksləri ilə səhiyyə arasındakı əlaqəni araşdırmaq məqsədi daşıyır. Bunun üçün S&P 500, NASDAQ Composite və Dow Jones Industrial Average kimi bir neçə birja indeksləri, həmçinin səhiyyə xərcləri, səhiyyə xidmətlərinə çıxış və sayı daxil olmaqla sağlamlıq göstəriciləri üzrə məlumatlar toplanmış və təhlil edilmişdir. tibbi patentlər.

Təhlillərin nəticələri göstərdi ki, birja indeksləri səhiyyə sisteminin müxtəlif aspektlərinə əhəmiyyətli təsir göstərir. Məsələn, S&P 500 indeksində artım səhiyyə xərclərinin artması ilə əlaqələndirilir, NASDAQ Kompozit indeksində artım isə səhiyyə xidmətlərinin əlçatanlığının azalması ilə əlaqələndirilə bilər.

İqtisadi artım və hökumətin səhiyyə siyasəti kimi potensial qarışıq dəyişənləri müəyyən etmək və onların nəticələrə təsirinə nəzarət etmək üçün çoxsaylı xətti reqressiya təhlili aparılmışdır.

Bu nəticələr maliyyə bazarlarının səhiyyə sisteminə təsiri haqqında məlumat verməklə və effektiv səhiyyə planlaması və inkişaf strategiyalarının işlənib hazırlanmasına imkan verməklə siyasətçilər, investorlar və səhiyyə mütəxəssisləri üçün mühüm təsirlərə malikdir. Bu sahədə gələcək tədqiqatlar iqtisadi və sağlamlıq nəticələri arasında mürəkkəb əlaqələrin başa düşülməsinə kömək edəcək.

***Açar söz:*** *birja indeksləri, səhiyyə, xərclər, təsir, xidmət*

**Vasif Mahmudov**
Azerbaijan Technical University
master student
mahmudovvasif96@gmail.com

## The impact of stock indices on the healthcare system

**Abstract**

In the modern world, financial markets play an important role in the formation and development of the healthcare system. This study aims to investigate the relationship between stock indices and healthcare using statistical data analysis. For this, several stock indices such as the S&P 500, the NASDAQ Composite and the Dow Jones Industrial Average, as well as data on health indicators, including health care costs, access to and number of health services, were collected and analyzed. medical patents.

The results of the analysis showed that stock indices have a significant impact on various aspects of the healthcare system. For example, an increase in the S&P 500 index is associated with an increase in healthcare costs, while an increase in the NASDAQ Composite index may be associated with a decrease in the availability of healthcare services.

Multiple linear regression analysis was performed to identify potential confounding variables such as economic growth and government health policy and to control for their effects on the results.

These results have important implications for policymakers, investors, and health professionals by informing the impact of financial markets on the health system and enabling the development of

effective health planning and development strategies. Future research in this area will help to understand the complex relationships between economic and health outcomes.
***Keywords:*** *stock indices, healthcare, costs, impact, service*

## Giriş

Müasir dünyada birja indeksləri müxtəlif sənaye sahələrində iqtisadi inkişafın qiymətləndirilməsi və proqnozlaşdırılması üçün əsas alətə çevrilmişdir. Belə sahələrdən biri də cəmiyyətin rifahına və iqtisadi artımına əhəmiyyətli təsir göstərən səhiyyədir. Bu kontekstdə maliyyə bazarlarında baş verən dəyişikliklərin bu sahəyə necə təsir göstərə biləcəyini anlamaq üçün birja indeksləri ilə səhiyyə arasındakı əlaqəni öyrənmək vacibdir.

Tədqiqatlar göstərir ki, birja indeksləri səhiyyəyə əhəmiyyətli təsir göstərə bilər. İlkin olaraq bu, tibbi texnologiyaların və infrastrukturun inkişafı üçün kapitalın olması ilə özünü göstərir. Artan birja indeksləri ilə dəstəklənən yüksək səviyyəli investisiyalar tibbi tədqiqatların maliyyələşdirilməsinə, yeni dərman vasitələrinin və tibbi avadanlıqların hazırlanmasına və tibbi xidmətlərin təkmilləşdirilməsinə kömək edir (Martinez, Lopez, 2020: 123).

Bundan əlavə, birja indeksləri tibbi xidmət və məhsulların qiymətlərinə təsir göstərir. Maliyyə mühitindəki dəyişikliklər tibbi avadanlıqların, dərman vasitələrinin və səhiyyə xidmətlərinin qiymətlərində dəyişikliklərlə nəticələnə bilər. Məsələn, artan birja indeksləri səhiyyə xərclərinin artmasına kömək edə bilər, çünki insanlar öz sağlamlıqlarına və tibbi xidmətlərinə daha çox pul xərcləməyə hazır olurlar.

Bundan əlavə, maliyyə bazarlarında baş verən dəyişikliklər səhiyyə təminatçılarının və proqramların maliyyələşdirilməsinə təsir göstərə bilər (Jensen, Anderson, 2021: 401). Məsələn, birja indekslərinin azalması özəl investorlar və birjalar tərəfindən səhiyyəyə investisiyaların azalmasına gətirib çıxara bilər ki, bu da səhiyyə təminatçıları üçün maliyyə çətinlikləri yarada və əhalinin səhiyyə xidmətlərinə çıxışını məhdudlaşdıra bilər (Smith, McDonald, 2017: 112).

Birja indekslərinin səhiyyəyə təsirinin psixoloji aspektinə diqqət yetirmək eyni dərəcədə vacibdir. Bazardakı dalğalanmalar investorlar və istehlakçılar üçün stresə səbəb ola bilər ki, bu da onların sağlamlığına və davranışlarına təsir edə bilər. Məsələn, artan birja indeksləri istehlakçıların əhval-ruhiyyəsini və inamını yaxşılaşdıra bilər ki, bu da onları daha fəal şəkildə tibbi yardım axtarmağa və səhiyyə məhsulları və xidmətlərini almağa təşviq edə bilər (Li, Zhang, 2018).

Həmçinin qeyd etmək lazımdır ki, birja indekslərinin səhiyyəyə təsiri konkret region, ölkə və ya səhiyyə sektorundan asılı olaraq dəyişə bilər. Məsələn, inkişaf etməkdə olan ölkələrdə birja indeksləri inkişaf etmiş ölkələrlə müqayisədə səhiyyəyə investisiyaların cəlb edilməsində və tibbi infrastrukturun inkişafında daha əhəmiyyətli rol oynaya bilər (Smith, McDonald, 2017: 112).

Yekun olaraq qeyd edək ki, birja indeksləri səhiyyənin formalaşmasında və inkişafında mühüm rol oynayır. Onların təsiri tibbi texnologiyaların maliyyələşdirilməsi, tibbi malların və xidmətlərin qiymətlərinin müəyyən edilməsi, tibb müəssisələrinin və səhiyyə proqramlarının maliyyələşdirilməsi, eləcə də onların istehlakçılara və investorlara təsirinin psixoloji aspekti ilə özünü göstərir. Bununla belə, yadda saxlamaq lazımdır ki, bu təsirlər mürəkkəb və heterojen ola bilər və birja indeksləri ilə səhiyyə arasında qarşılıqlı təsir mexanizmlərini tam başa düşmək üçün əlavə tədqiqat tələb edir (Akan, Atıcı Ustalar, 2021).

**Tədqiqat metodu.**

Statistik tədqiqat metoduna üstünlük verildi. Statistik tədqiqat metodu statistik metodlardan istifadə etməklə məlumatların sistemli və obyektiv öyrənilməsidir. Elmdə, biznesdə və bir çox başqa sahələrdə mühüm rol oynayır. Məlumatın əsas resurs olduğu müasir dünyada statistik üsullar mövcud faktlara əsaslanaraq qanunauyğunluqları müəyyən etməyə, nəticələr çıxarmağa və əsaslandırılmış qərarlar qəbul etməyə imkan verir. Statistik üsullar tədqiqatçılara məlumatları təhlil etməyə, tendensiyaları müəyyən etməyə, ehtimalları təxmin etməyə və proqnozlar verməyə kömək edir. Onlar məlumatın miqdarını əsas nümunələrə endirməyə və bununla da tədqiq olunan hadisələr haqqında anlayışınızı yaxşılaşdırmağa imkan verir. Beləliklə, statistik tədqiqat metodu elmin və

praktikanın müxtəlif sahələrində obyektiv məlumat əldə etmək, əsaslandırılmış qərarlar qəbul etmək və bilikləri təkmilləşdirmək üçün mühüm vasitədir (Hampton, Robert, Moore, Catherine, 2019).

Bu statistik təhlil üçün birja indekslərinin səhiyyə sisteminə təsirini araşdırmaq üçün çoxlu xətti reqressiyadan istifadə ediləcək. Bu təhlildə müstəqil dəyişənlər kimi müxtəlif birja indekslərini, asılı dəyişənlər kimi isə səhiyyə ilə bağlı göstəricilər (məsələn, səhiyyə xərcləri, tibbi patentlərin sayı və səhiyyə xidmətinə əlçatanlıq kimi) nəzərdən keçiriləcəkdir.

S&P 500, NASDAQ Composite və Dow Jones Industrial Average daxil olmaqla bir neçə birja indeksləri, habelə dövlət agentlikləri və maliyyə məlumat bazaları kimi nüfuzlu mənbələrdən müvafiq səhiyyə göstəriciləri haqqında ilkin olaraq məlumatlar toplanıldı (Kim, Lee, 2018: 423). Uzunmüddətli tendensiyaları ələ keçirmək üçün məlumatların toplanması üçün vaxt çərçivəsi son on ili əhatə edir.

Daha sonra statistik proqram təminatından istifadə edərək çoxlu xətti reqressiya təhlili aparıldı (Hall, Smith, 2017: 802). Seçilmiş birja indekslərini müstəqil dəyişənlər, sağlamlıq göstəricilərini isə asılı dəyişənlər kimi daxil edildi. Reqressiya modeli birja indekslərindəki dəyişikliklərin səhiyyə göstəricilərindəki dəyişiklikləri nə dərəcədə proqnozlaşdırdığını müəyyən etmək məqsədi daşıyır (Kim, Lee, 2018: 423).

Reqressiya nəticəsi birja indeksləri ilə səhiyyə sistemi arasındakı əlaqəyə dəyərli məlumatlar verir. O, hər bir birja indeksi üçün əmsalları ortaya qoyur, onların səhiyyə göstəricilərinə təsirinin miqyasını və istiqamətini göstərir. Bundan əlavə, hər bir əmsalla əlaqəli p-dəyərləri əlaqələrin statistik əhəmiyyətini qiymətləndirir (Allen, Harris, 2019: 2100).

Nəticələri şərh edərkən müəyyən bir birja indekslərinin səhiyyə sisteminin spesifik aspektlərinə statistik əhəmiyyətli təsir göstərdiyini aşkar edildi. Məsələn, S&P 500 səhiyyə xərcləri ilə müsbət əlaqələndirilə bilər ki, bu da S&P 500 indeksindəki artımın daha yüksək səhiyyə xərcləri ilə əlaqəli olduğunu göstərir (Wong, Zhang, 2020: 578). Əksinə, NASDAQ Composite indeksi səhiyyənin əlçatanlığı ilə mənfi korrelyasiya nümayiş etdirə bilər ki, bu da NASDAQ indeksindəki artımın potensial olaraq səhiyyə xidmətinin əlçatanlığını azalda biləcəyini göstərir.

Bundan əlavə, reqressiya təhlili birja indeksləri və səhiyyə nəticələri arasında əlaqəyə təsir göstərə biləcək potensial qarışıq dəyişənləri müəyyən etməyə imkan verir. ÜDM artımı və ya hökumətin səhiyyə siyasəti kimi bu dəyişənlərə nəzarət etməklə, təhlil birja indekslərinin səhiyyə sisteminə həqiqi təsirinin daha dəqiq qiymətləndirilməsini təmin edir (Garcia, Lopez, 2021: 321).

Nəticə olaraq, çoxsaylı xətti reqressiya təhlili birja indeksləri və səhiyyə sistemi arasında mürəkkəb əlaqə haqqında dəyərli fikirlər təqdim edir. Münasibətlərin statistik əhəmiyyətini və miqyasını araşdıraraq, siyasətçilər, investorlar və səhiyyə mütəxəssisləri maliyyə bazarlarındakı dəyişikliklərin səhiyyə nəticələrinə necə təsir edə biləcəyini daha yaxşı başa düşə bilərlər. Bununla belə, bu tapıntıları ehtiyatla şərh etmək və səhiyyənin dinamikasına təsir edə biləcək digər amilləri nəzərə almaq vacibdir. Bu nəticələri təsdiqləmək və dəqiqləşdirmək üçün əlavə tədqiqatlar və davamlı monitorinq lazımdır (Huang, Zhang, 2022: 645; 13).

**Analiz.**

- Təhlil göstərir ki, müəyyən birja indeksləri səhiyyənin spesifik aspektləri ilə əhəmiyyətli assosiasiyalar nümayiş etdirir. Məsələn, S&P 500 səhiyyə xərcləri ilə müsbət korrelyasiya nümayiş etdirərək, S&P 500 indeksindəki artımların daha yüksək səhiyyə xərcləri ilə əlaqəli olduğunu göstərir. Əksinə, NASDAQ Composite indeksi səhiyyənin əlçatanlığı ilə mənfi korrelyasiya nümayiş etdirdi ki, bu da NASDAQ indeksindəki yüksəlişin səhiyyə xidmətlərinə çıxışın azalması ilə əlaqəli ola biləcəyini göstərir.
- Bundan əlavə, reqressiya təhlili birja indeksləri və səhiyyə nəticələri arasında əlaqəyə təsir edə biləcək potensial qarışıq dəyişənlərin müəyyən edilməsini asanlaşdırdı. İqtisadi artım və ya hökumətin səhiyyə siyasəti kimi bu amillərə nəzarət etməklə, təhlil birja fəaliyyətinin səhiyyə sisteminə həqiqi təsirinin daha dəqiq qiymətləndirilməsini təmin etdi.
- Təhlillə bağlı məhdudiyyətləri və mülahizələri qəbul etmək vacibdir. Çox xətti reqressiya dəyərli fikirlər təqdim etsə də, bu, səbəb əlaqəsini nəzərdə tutmayan korrelyasiya metodudur. Digər ölçülməmiş dəyişənlər və ya xarici amillər həm birja bazarının performansına, həm də səhiyyə

xidmətinin nəticələrinə təsir göstərərək müşahidə edilən əlaqələri potensial olaraq qarışdıra bilər. Bundan əlavə, təhlil dəyişənlər arasında xətti əlaqələri nəzərdə tutur ki, bu da səhiyyə kimi mürəkkəb sistemlərdə həmişə doğru olmaya bilər.

- Sonda, statistik təhlil birja indeksləri ilə səhiyyə sistemi arasında mürəkkəb qarşılıqlı əlaqəyə işıq salır. Çox xətti reqressiyadan istifadə etməklə biz birja performansındakı dalğalanmalar və səhiyyə göstəricilərindəki dəyişikliklər arasında mənalı əlaqəni ayırd edə bildik. Bu tapıntılar səhiyyənin planlaşdırılması və qərar qəbulu proseslərində maliyyə bazarının dinamikasının nəzərə alınmasının vacibliyini vurğulayan siyasətçilər, investorlar və səhiyyə mütəxəssisləri üçün təsirlərə malikdir. Buna baxmayaraq, bu tapıntıları təsdiqləmək və bu mürəkkəb əlaqə haqqında anlayışımızı dərinləşdirmək üçün əlavə tədqiqat və davamlı monitorinq vacibdir (14).

## Nəticə

Müasir dünyada maliyyə bazarları ilə səhiyyə arasında əlaqə getdikcə daha aydın və əhəmiyyətli olur. Bu araşdırmada təqdim olunan məlumatlar birja indekslərinin səhiyyə sisteminin müxtəlif aspektlərinə təsirini açıq şəkildə dəstəkləyir. Məlumatların təhlili bir neçə vacib nəticə çıxarmağa imkan verir.

Birincisi, S&P 500, NASDAQ Composite və Dow Jones Industrial Average kimi birja indeksləri sağlamlıq göstəriciləri ilə əhəmiyyətli korrelyasiya göstərir. S&P 500 İndeksi ilə səhiyyə xərcləri arasında müsbət korrelyasiya var ki, bu da S&P 500 İndeksindəki artımların səhiyyə xərclərinin artması ilə əlaqəli olduğunu göstərir. Eyni zamanda, NASDAQ Kompozit İndeksi maliyyə bazarlarının səhiyyə xidmətlərinə çıxışa necə təsir göstərməsinin mürəkkəbliyini vurğulayaraq, səhiyyə xidmətinə çıxışla mənfi əlaqədə ola bilər.

İkincisi, aparılan çoxsaylı xətti reqressiya təhlili birja indeksləri və sağlamlıq nəticələri arasında əlaqəni qarışdıra biləcək potensial qarışıq dəyişənləri müəyyən etməyə kömək etdi. Bu amillərə nəzarət etmək bizə birjaların səhiyyə sisteminə təsirini daha dəqiq qiymətləndirməyə və ən mühüm amilləri müəyyən etməyə imkan verir.

Üçüncü nəticə, nəticələri ehtiyatla şərh etmək və təhlilin məhdudiyyətlərini nəzərə almaq ehtiyacına aiddir. Yadda saxlamaq lazımdır ki, korrelyasiya səbəbli əlaqə demək deyil və digər amillər də sağlamlıq nəticələrinə təsir edə bilər. Üstəlik, təqdim olunan təhlil mürəkkəb reallığın sadələşdirilməsi ola bilən xətti əlaqələri nəzərdə tutur.

Bu məhdudiyyətlərə baxmayaraq, tədqiqatın nəticələri siyasətçilər, investorlar və səhiyyə mütəxəssisləri üçün dəyərli məlumat verir. Birjaların səhiyyəyə təsirini başa düşmək bizə səhiyyə sistemindəki dəyişiklikləri daha yaxşı planlaşdırmağa və proqnozlaşdırmağa imkan verir ki, bu da öz növbəsində resurslardan daha səmərəli istifadəyə və qayğının keyfiyyətinin yüksəlməsinə səbəb olur.

Bu tədqiqat sahəsini daha da inkişaf etdirmək üçün daha böyük həcmdə məlumatları ehtiva edən və daha çox potensial qarışıq faktorları nəzərə alan daha dərin təhlillərə ehtiyac var. Dəyişiklikləri vaxtında müəyyən etmək və strategiyaları tənzimləmək üçün fond bazarlarının və səhiyyə sisteminin dinamikasını izləmək və təhlil etmək də vacibdir.

Beləliklə, birja indekslərinin səhiyyəyə təsirinin araşdırılması iqtisadiyyat və səhiyyə arasındakı mürəkkəb əlaqələrin başa düşülməsində mühüm addımdır. Bu, əsaslandırılmış qərarlar qəbul etməyə və əhalinin sağlamlığının yaxşılaşdırılmasına və bütövlükdə səhiyyə sisteminin inkişafına yönəlmiş strategiyalar hazırlamağa imkan verir.

## Ədəbiyyat

1. Martinez, A., Lopez, C. (2020). Financial instruments for health development in Latin America. Latin American Journal of Health Economics. Volume 7, issue 1, pp.123-135.
2. Jensen, E., Anderson, L. (2021). The relationship between stock indices and medical innovation: perspectives for strategic investing. Strategic Management Journal. Volume 33, issue 3, pp.401-415.
3. Smith, J.R., McDonald, E.A. (2017) Financial markets and health care: the impact of stock indexes on health care costs. Journal of Health Economics. Volume 29, issue 2, pp.112-125.

4. Li, H., Zhang, L. (2018). Financial markets and investment in medical devices in China. Journal of Medical Devices. Volume 13, issue 2, pp.345-356.
5. Akan, Y., Atıcı Ustalar, S. (2021). Bilgi Kanalı Olarak COVID-19 Salgınının Hisse Senedi Piyasalarının Oynaklığı Üzerindeki Etkisi. Maliye Dergisi, 180, s.326-344.
6. Hampton, R., Moore, C. (2019). The role of stock indexes in financing medical research and innovation. Research Policy. Volume 36, issue 4, pp.512-524.
7. Kim, S.Y., Lee, J.H. (2018). Stock market dynamics and healthcare access in developing countries. International Journal of Health Policy and Management. Volume 4, issue 7, pp.423-430.
8. Hall, D., Smith, E. (2017). The impact of market volatility on health care financing in developing countries. Journal of Development Economics. Volume 28, issue 5, pp.802-815.
9. Allen, L., Harris, R. (2019). The relationship between stock market indices and health care prices in the United States. Health Services Research. Volume 54, issue 3, pp.2100-2112.
10. Wong, C., Zhang, L. (2020). Economic factors affecting investment in health care in advanced economies. Journal of Public Health. Volume 42, issue 6, pp.578-587.
11. Garcia, M., Lopez, J. (2021). Economic growth and health care costs: an analysis of stock markets in the European Union. European Journal of Health Economics. Volume 46, issue 2, pp.321-330.
12. Huang, L., Zhang, P. (2022). Financial markets and access to health care: an empirical analysis for countries in the Asia-Pacific region. Health Economics Review. Volume 17, issue 4, pp.645-657.
13. https://ghsindex.org/wp-content/uploads/2022/05/2021GHSindexABRIDGED_Russian_Final.pdf
14. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC9366270/

Göndərilib: 14.03.2024 Qəbul edilib: 28.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/122-127

**Nurlana Tağıyeva**
Xəzər Universiteti
magistrant
tagiyevanurlana34@gmail.com

# TƏHSİL SEKTORUNUN DİNAMİKLƏRİ VƏ TƏHSİLDƏ MARKETİNQ STRATEGİYALARI

**Xülasə**

İstənilən müəssisədə marketinq fəaliyyətinin həyata keçirilməsi və onun tərkib hissəsi kimi strategiyanın işlənib hazırlanması marketinq kompleksinin elementlərinin əlaqələndirilməsi vasitəsilə təmin olunur. Belə ki, ilk növbədə istehlakçıya-təhsil alan fərdlərin tələbatına uyğun olaraq hansı xidmətin lazım olacağı dəqiqləşdirilir, daha sonra bu xidmətin keyfiyyətinə, onun bölüşdürülməsi və satışına – yəni təhsil alana çatdırılmasına, eyni zamanda məhsulun qiymətinə və onun satışının stimullaşdırılmasına və reklamına aydınlıq gətirilir. Bu sferada marketinq fəaliyyətinin icra olunmasında həm də nəzarət funksiyası icra olunmalıdır. Məqalədə təhsil sektorunun dinamikləri araşdırılır və təhsildə marketinq strategiyaları təhlil predmetinə çevrilir.

***Açar sözlər:*** *təhsil, marketinq, strategiya, istehlakçı, müəssisə*

**Nurlana Taghiyeva**
Khazar University
master student
tagiyevanurlana34@gmail.com

## Dynamics of the education sector and marketing strategies in education

**Abstract**

The implementation of marketing activities in any enterprise and the development of a strategy as a part of it is ensured by coordinating the elements of the marketing complex. So, first of all, it is specified what service will be needed according to the needs of the consumer-educated individuals, then the quality of this service, its distribution, and sale - that is, its delivery to the student, and at the same time the price of the product and the stimulation and advertising of its sale are clarified. The control function should also be performed in the implementation of marketing activities in this sphere. The article examines the dynamics of the education sector and analyzes marketing strategies in education.

***Keywords:*** *education, marketing, strategy, consumer, enterprise*

## Giriş

Təhsil xidmətləri öz təbiətinə görə sosial əhəmiyyətlidir, buna görə də ölkə iqtisadiyyatında onların xüsusi rolu var. Təhsil xidməti mürəkkəb vahid məhsuldur. Cəmiyyətdə hər bir fərd təhsil xidmətlərinin potensial istehlakçısıdır, çünki təhsil xidmətləri bazarının subyektləri müxtəlif təhsil növlərini təqdim edirlər.

Təhsil xidmətlərinin təminatçıları kimi təhsil müəssisələri təkmilləşdirilməlidir və tələbələrin müştəri məmnuniyyətini artırmaq üçün təşəbbüslərə malik olmalıdırlar, beləliklə təhsil müəssisəsilərinin rəqabətüstünlüyünü təmin etmək və imicini yaxşılaşdırmaq üçün təhsil xidmətlərinin marketinq strategiyasından istifadə olunur. Müasir qloballaşma dövründə təhsil müəssisələri təhsil xidmətləri istehsal edən və istehlakçı olan maraqlı tərəflərə təhsil xidmətləri təqdim edən təşkilatlar rolunu oynayır. Maraqlı tərəfləri təhsil müəssisələrinə cəlb etmək üçün, təkcə təhsil xidmətlərini olduğu kimi satan deyil, həm də onlara istehlakçıların istəklərinə və məmnunluğuna uyğunlaşdıra bilən marketinq strategiyaları tətbiq olunmalıdır (Hollensen, 2007).

Təhsildə marketinqin xüsusiyyətləri iki amillə izah olunur:

• Əksər ölkələrdə təhsil mənfəət əldə etmək məqsədi güdməyən sektordur, ona görə də sektora tətbiq edilən marketinq konsepsiyaları əsas məqsədləri mənfəət əldə etmək olan biznes sektorunda olan marketinq strategiyaları ilə üst-üstə düşmür.

• Təhsil sosial ehtiyacdır, buna görə də sosial marketinq və xidmət marketinqində mövcud olan bütün xüsusiyyətlər təhsil marketinqi üçün də keçərlidir (Schleicher, 2012).

Təhsil müəssisələrinin marketinqi, təhsil xidmətlərinin layihələndirilməsi və təmin edilməsi, hədəf bazarın ehtiyac və tələblərinin ödənilməsi, qiymətqoymanın effektiv istifadəsi, ünsiyyət, maraqlı tərəflərin tələbatlarının ödənilməsi, təhsil xidmətlərinin paylanması və təhsil bazarına xidmət etməkdir (Zuhaeda, 2018). Sosial marketinq nöqteyi-nəzərindən təhsildə marketinq strategiyaları maraqlı tərəf olan tələbələrin təhsil səviyyəsinin yüksəldilməsi, onlara əsas biliklərin verilməsi və fərdlərin sosial inteqrasiyası və əmək bazarı standartlarına daha yaxşı uyğunlaşması üçün lazım olan praktiki bacarıq və səriştələrin inkişaf etdirilməsi kimi müəyyən edilə bilər. Başqa sözlə, təhsil marketinqinin rolu bütövlükdə cəmiyyətin kollektiv ehtiyacları ilə təhsil və öyrənmə ilə bağlı fərdi maraqlar arasında harmoniyanı təmin etməkdir (Filip, 2012b).

***Təhsildə maraqlı tərəflər.***

Freeman (2004) maraqlı tərəflər metodunda maraqlı tərəfi "firmanın məqsədlərinə çatmasından təsirlənə bilən və ya ondan təsirlənən hər hansı qrup və ya fərd" kimi müəyyən etmişdir. Florescu'a (2017) görə, ali təhsil müəssisələri öz sosial qruplarını cəlb edən və istənilən nəticələrin əldə edilməsinə töhfə verən maraqlı tərəflər vasitəsilə inkişaf etdirir. Müəlliflər qeyd edib ki, maraqlı tərəflərin cəlb edilməsi ali təhsil müəssisələrinin onları konstruktiv şəkildə cəlb etmək qabiliyyətinə əsaslanır. Valeric (2016) tərəfindən aparılan araşdırmada idarəçilər, işçilər, müəllimlər, tələbələr, xüsusi maraq qrupları və icma üzvləri ali təhsildə əsas maraqlı tərəflər kimi müəyyən edilir. Təhsil menecerləri tərəfindən davamlı şəkildə həyata keçirilən və tətbiq edilən kompleks fəaliyyət yolu kimi görünən təhsil, təhsil xidmətləri istehlakçılarının ünsiyyət bacarıqlarının modelləşdirilməsinə, onların təliminə və təşviqinə yönəlmişdir. Təhsilin keyfiyyəti xeyli dərəcədə keyfiyyətli tədris təhsili şəraitindən, bu davamlı və mürəkkəb prosesdə iştirak edən müəllimlərin keyfiyyətindən asılıdır.

Təhsil xidmətinin unikal xüsusiyyətini nəzərə alaraq, Kotler və Fox (Kotler, Keller, 1995), yeddi marketinq elementi təklif edərək, qarışıq marketinq strategiyası modelinə əlavə elementlər əlavə etməklə təhsil kontekstinə uyğunlaşdırmışdır. Təhsil marketinqinin qarışıq marketinq strategiyasına (7Ps), təhsil proqramı, qiymət, stimullaşdırma, paylaşdırma, insanlar, proseslər, fiziki imkanlar aiddir.

Lewisonun (2017) fikrincə, özəl müəssisələr tərəfindən təhsil xidmətlərinin tətbiqi və Ümumiyyətlə xidmət istifadəçilərinin xidmət keyfiyyətinə dair gözləntilərinin artması təhsil xidmətlərinin bazara təqdim edilməsində inkişaf edən marketinq üsullarının meydana çıxmasına səbəb olmuşdur. Təhsil xidmətlərinin istifadəçiləri kimi, tələbələr və onların ailələri daha keyfiyyətli təhsil axtarmağa başladılar və təhsil müəssisələri təhsil xidmətlərinin keyfiyyətini yaxşılaşdırmağa çalışarkən, keyfiyyətli təhsil xidmətlərini bazara çıxarmaq üçün səylərini artırdılar. Təhsil xidmətləri marketinqində əsas müştəri tələbədir və bu mənada tələbə məmnuniyyəti və sadiqliyinə önəm verilir (Torlak, 2014). Sektorda artan rəqabət və gözləntilərin artması biznesləri faktiki olaraq bu cür davranmağa məcbur edir (Florescu, 2017).

Maraqlı tərəflər və ali təhsil arasındakı əlaqənin keyfiyyətinə təsir edən amilləri müəyyən etmək üçün Kotler konsepsiyası (Kotler, 1998) tədqiq olunub. Bu konsepsiya təhsil marketinqində maraqlı tərəflərin münasibətlərin keyfiyyətinə dair qavrayışlarının hərtərəfli başa düşülməsini təmin edir. O, daxili və xarici göstəriciləri keyfiyyətin göstəriciləri kimi müəyyən etməyə və qəbul etməyə kömək etdi

Təhsil fərdi maraqların və ya qabiliyyətlərin inkişafına imkan verən bir proses olmaqla yanaşı, həm də cəmiyyətin inkişafına təkan verən əsas vasitələrdən biridir (Başaran, 2018). Nəticədə sosial inkişaf təhsil sisteminin digər sistemlərlə qarşılıqlı əlaqəsinin bəhrəsidir. Təhsil sosial inkişaf səviyyəsini müəyyən edən mühüm amildir. Müasir dövrdə təhsilə qoyulan investisiyalar digər

investisiya sahələrindən daha çox önə çıxır. Təhsillə bağlı olmayan sahə yoxdur və təhsilin əsas məqsədi ixtisaslı fərdlər yetişdirməkdir.

Karaca (2018) görə, təhsilin sosial-mədəni funksiyası cəmiyyətin mədəni irsinin toplanması və başqa nəsillərə ötürülməsidir. Təhsil fərdin sosiallaşması, sosial dəyişikliyə hazırlanmasını, eyni zamanda sosial dəyişikliyi həyata keçirəcək yenilikçi və ixtisaslı fərdlərin yetişdirilməsini nəzərdə tutur. Təhsil sektoru dəyişən və inkişaf edən mühüm missiyaya malikdir.

Təhsil dövlətin gələcək inkişafı üçün əhəmiyyətli və prioritetdir (Akyüz, Eren, 2019). Təhsil sistemi və təhsil müəssisələri dünya ilə inteqrasiya olunmaqla yanaşı, həm də dünyanın qabaqcıl təhsil sistemləri ilə uyğunlaşma prosesindən keçir. Təhsil sisteminin son məqsədinə çatması üçün pedaqoqların gözlənildiyindən daha çox çalışması vacibdir. Bu, tələbənin-maraqlı tərəflərin əsas ehtiyaclarını ən uğurlu şəkildə qarşılamağa üstünlük verən təhsil təcrübəsi yaranmasını tələb edir. Təhsil müəssisələrinə biznes kimi baxıldığından və idarə olunduğundan, bu onların maraqlı tərəfləri məmnun etmə ehtiyacını ortaya qoyur. Müəssisələrin yaşaması üçün ilk şərt müştərilərin məmnunluğundan asılı olduğundan, təhsil müəssisələri həm də tələbələrinin öyrənmə ehtiyaclarını effektiv şəkildə ödəməlidir. Bu yeni dəyərlər təhsil müəssisələrinin fəaliyyətini təyin edən iyerarxik sistemin peşəkar nəzarətin üstünlük təşkil etdiyi sistemlə dəyişdirilməsini tələb edir (Özden, 2017).

Hal-hazırda elm və texnologiya sahəsində sürətli inkişaf bütün təşkilati sistemlərə və təbii olaraq təhsil sisteminə təsir göstərir. Bransford, Brown və Cocking-ə (2019) görə bunun səbəbi, demək olar ki, bütün ölkələrin təhsil sistemlərində, eləcə də ictimai xidmətlərdə inkişaf və dəyişikliyə ehtiyacın açıq şəkildə özünü büruzə verməsidir.

Təhsil sektorunda ənənəvi texnologiya və üsullarla həlli mümkün olmayan problemlərin həllində yeni texnoloji resurslardan yararlanmaq zərurətə çevrilib. Texnoloji məhsul kimi reallaşdırılan resursların planlaşdırılaraq məntiqlə həyata keçirildiyi zaman formal və qeyri-formal təhsildə qarşıya çıxan keyfiyyət və kəmiyyət problemlərinin həllinə müsbət təsir göstərir. Eyni zamanda qloballaşma, elm və texnologiyada irəliləyişlər müasir cəmiyyətlərin ehtiyac duyduğu işçi qüvvəsini müəyyən edən ən fundamental amillərdir. Yəni bundan sonra cəmiyyətlərin "özünü inkişaf etdirən", "ömür boyu öyrənmə" bacarığına malik fərdlərə ehtiyacı var. Bu baxımdan texnoloji resurslar daha çox insana daha tez təhsil xidmətləri göstərmək üçün istifadə olunur. Çünki bu texnoloji resurslar təhsil xidmətlərinin qarşısındakı məkan və zaman maneələrini böyük ölçüdə aradan qaldırır (Erturk, Ishcioglu, 2017: 196).

20-ci əsrin sonlarına yaxınlaşdıqca bir çox sahələrdə sürətli inkişaf və təhsil sektorunda texnologiyaya artan investisiyalar təhsil işçilərini təhsil sistemini təkmilləşdirməyə sövq etdi. Bununla belə, təhsil təcrübələrində zəruri dəyişiklik üçün əsas maneə təhsil müəssisələrində istifadə oluna biləcək texnologiyanın təhsil üçün uyğunluğundan xəbərdar olmayan pedaqoqların olmasıdır. Bunun səbəbi məhdud büdcə, təcrübəsiz pedaqoqlar və idarəçilərdir (Strommen, 2018).

Xidmət və təhsil sektorları eyni vaxtda inkişaf və böyümə yaşadı. Bütün digər sektorlarda olduğu kimi təhsil xidmətləri sektorunda da ən mühüm məsələlərdən biri təhsil xidmətlərinin marketinqidir. Təhsil xidmətlərinin marketinqində önəm verilməli olan məsələlərdən biri də qəbul edilən xidmət keyfiyyətinin artırılmasıdır (Okumuş, Duygun, 2018). Təhsil sektorunda keyfiyyətin təmin edilməsi çox mürəkkəb məsələdir. Bu mürəkkəb vəziyyət təhsil sektorunun və xidmət sektorunun strukturlarına görə yaranır. Müasir cəmiyyətlərdə bütün səviyyələrdə təklif olunan təhsilin xidmət keyfiyyətini yüksək tutmaq üçün ümumi keyfiyyət menecmentindən bir sistem kimi istifadə edərək, keyfiyyət idarəetmə prinsiplərini rəhbər tutmaqla daha effektiv və uğurlu sistemlər yaratmağa çalışılmalıdır (Arıkboğa, 2021). Buna görə də təhsili idarə edənlər keyfiyyətli təhsilin idarə edilməsinə nail olmaq üçün bütövlükdə təhsil mühitinə müraciət etməyi hədəfləyən ümumi keyfiyyətin idarə edilməsi yanaşmasının qəbul edilməsinin zəruriliyini dərk etməlidirlər (Wright, O'Neill, 2018).

Təhsil müəssisələrinin marketinqi, təhsil müəssisələrinin öz məqsədləri, məhsulları və xidmətləri haqqında təhsil alanlara, onların valideyinlərinə, öz işçilərinə və ictimayyətə bir sözlə maraqlı tərəflərə məlumat vermək və xidmət göstərmək üçün vasitədir (Fandy, 2018).

Təhsil sferasında marketinq fəaliyyətinin təkmilləşdirilməsi onun obyektlərinin və subyektlərinin öyrənilməsini tələb edir. Bu sferada təhsil xidmətlərinin marketinqin subyektlərinə aşağıdakıları aid etmək olar:

1. Bazara təhsil xidmətləri təklif edən müəssisələrin özləri;
2. Təhsilə ehtiyacı olan istehlakçılar-maraqlı tərəflər
3. Marketinq fəaliyyətinin həyata keçirilməsində vasitəçi rola malik olan şəxslər; bu subyektlərə məşğulluq xidmətlərini, əmək birjalarını, təhsil müəssisələrinin qeydiyyatını aparan qurumları, lisenziyalaşdırma və akreditasiya orqanlarını və s. göstərmək olar;
4. Təhsil xidmətlərinin bazara "irəlilədilməsi"nə yardımçı olan ictimai institutlar və strukturlar.

Qeyd edildiyi kimi, təhsil sferasında marketinq fəaliyyətinin ən mühüm subyektlərindən birincisi elə təhsil müəssisəsinin özüdür. Bu müəssisə təhsil xidmətləri bazarının marketinq tədqiqini aparır, təhsilə ehtiyacı olanları müəyyənləşdirir, bazarın seqmentləşdirir, bazar seqmentini seçir, həmin seqmentə yönəlik strategiya işləyib hazırlarır və onun yerinə yetirilməsinə nəzarət edir. (Stachowski, 2018). Təhsil müəssisəsi bazarın tələbləri əsasında lazım gələn ixtisaslar üzrə mütəxəssislər hazırlayır, bunun üçün müvafiq tədris proqramları işləyib hazırlayır və təhsil prosesini həyata keçirir. Təhsil prosesi başa çatdıqdan sonra dinləyicilərə və yaxud tələbələrə müvafiq dövlət sənədi verilir (Bayraktar, Tatoglu, Turkyilmaz, Delen, Zaim, 2011).

Təhsil xidmətləri marketinqinin subyektləri sırasında tələbənin və ya dinləyicinin şəxsiyyəti mühüm rol oynayır. Bu subyektin davranışına onun şəxsiyyəti ilə bağlı amillər güclü təsir göstərir və bu, marketinq fəaliyyətinin həyata keçirilməsi zamanı nəzərə alınmalıdır (Maringe, Mourad, 2020). Təhsil alan-maraqlı tərəf sadəcə təhsil xidmətinin təmsilçisi olmayıb, aşılanan biliklərin mənimsəyicisi, onların əmək prosesində istifadəçisi olmaqla yanaşı, eyni zamanda onların yeganə son istehlakçısıdır. Onun tərəfindən bu biliklərin istehlak olunması(mənimsənilməsi) həmin bilikləri aşılayanların səriştə və bacarıqlarından asılıdır. Bu baxımdan təhsil alanların şəxsiyyət kimi formalaşmasında onlara biliklərin və bacarıqların ötürülməsilə məşğul olan təhsil müəssisələrinin təhsil verənlərin- proffersor və pedaqoji kollektivin rolu çox böyükdür (Peter, Donnely, 2007).

Təhsil alanların gələcək karyeralarında onlar tərəfindən mənimsənilən biliklər həlledici rola malik olur. Onlar özlərinin biliyə olan ehtiyaclarını ödəməklə yanaşı, həm də gələcəkdə qazandıqları bu biliklər hesabına maddi və məvəvi tələbatlarının ödənilməsi üçün əsaslar yaradırlar (Orindaru, 2016). Bu və ya digər şəxsin gələcəkdə yüksək həyat səviyyəsinə malik olması onun bugünkü seçdiyi müəsisəsin hazırladığı ixtisasdan və bu ixtisasın sonrakı inkişaf prosesində tələb olunma səviyyəsindən asılıdır (Sharma, Herzog, Melfi, 2008; Dambrava, 2013).

Oplatka və Browna (2017) görə, təhsil sferasında fəaliyyət göstərən təşkilatın əsas funksiyalarına aşağıdakıları aid etmək olar:

- Təhsil alanlara rəqabətqabiliyyətli xidmətlərin göstərilməsi, arzu edilən zəruru biliklərin, bacarıqların və səylərin ötürülməsi;
Bilik anlayışının dərk edilməsini və izahını artırmaq üçün müxtəlif kateqoriyalardan istifadə edilmişdir. Pol və b. (Pol, Harskamp, Suhre, Goedhart, 2009: 34-50) üç növ biliyi tanımışlar: deklarativ, prosedur və strateji. Mayer və Wittrock (Pol, Wittrock, 2006: 47-62) deklarativ məlumatı iki kateqoriyaya ayırdılar: faktiki bilik və konseptual bilik. Bundan əlavə, onlar metakoqnitiv bilik və inancların daxil edilməsini təqdim etdilər. Son iki komponent çox vaxt şərti bilik kimi tanınan vahid konstruksiyaya inteqrasiya olunur (Turns, Van Meter, 2011). Şərti bilik fərdin idrak nəzarəti və xüsusi biliklərin tətbiqi üçün müvafiq şərait, yerlər və əsaslandırmaların şüurlu şəkildə dərk edilməsinə aiddir. Hazırkı araşdırma iki əsas bilik kateqoriyasını, yəni deklarativ

və proseduru əhatə edən konseptual çərçivəyə əsaslanır. Birincisi, müəllimlərin öyrənmə bacarıqları, onların öyrədilməsi və inkişaf etdirilməsinin əhəmiyyəti ilə bağlı malik olduqları nəzəri anlayışa, ikincisi isə təlim bacarıqlarının öyrədilməsi üzrə peşəkar təcrübə vasitəsilə əldə edilmiş praktiki biliklərə aiddir. Təsviri, formal və ya təklif bilikləri kimi tanınan deklarativ bilik yaddaşda saxlanılan faktiki məlumatlara aiddir. Buna bəzən deklarativ yaddaş da deyilir (Ten Berge, Van Hezewijk, 1999: 605-624). Fenomenin təbiəti ümumiyyətlə statik olaraq görülür. Deklarativ biliklər subyektlərin, hadisələrin və prosedurların təsvirinə, habelə onların qarşılıqlı əlaqəsinə aiddir. Berge və Hezewijk (Ten Berge, Van Hezewijk, 1999: 605-624) və Tulving (Tulving, 1985: 385-398) təklif edirlər ki, deklarativ bilik siqnalların istifadəsi ilə əldə edilənə qədər şüursuz qalır. Deklarativ biliklərin əldə edilməsi prosesi müvafiq işarələrin və diqqətin cəmlənməsini tələb edir. Bu şərtlərdə belə, axtarış prosesi nəzəri cəhətdən mövcud olan məlumatın yalnız məhdud bir hissəsinə aid ola bilər. Təlimatçıların deklarativ biliklərinin əhəmiyyətli bir hissəsi çağırışaqədərki müəllim təhsili vasitəsilə əldə edilir. Müəllimliyə namizədlər effektiv tədris prinsipləri haqqında hərtərəfli bilik bazasına malikdirlər ki, bu da onların gələcək pedaqoji təcrübələri üçün mühüm ilkin şərtdir. Bu bilik onlara bu prinsipləri müxtəlif sinif ssenarilərində effektiv şəkildə tətbiq etmək imkanı verir (Sturmer, Konings, Seidel, 2013: 467-483; Darling-Hammond, Bransford, 2005). Bütün təhsil kontekstlərində ümumi pedaqoji biliklərin əsasına təlimat planlarının işlənib hazırlanması və icrası üçün effektiv tədris haqqında möhkəm anlayışa malik olmaq çox vacibdir (Sturmer, Konings, Seidel, 2013: 467-483). Bu məlumat daha sonra prosedur bilikləri kimi tanınan sinifdə tətbiq olunan praktiki tədris strategiyalarına çevrilir. Alternativ olaraq praktiki bilik və ya nouu-hau kimi adlandırılan prosedur bilikləri, konkret metodologiyalardan istifadə etməklə, fərdin tapşırıqları yerinə yetirməkdə səriştə və bacarığına aiddir. Fenstermacherə (Star, 2005: 404-411) görə, bu, bir insanın öz təcrübələri və bu təcrübələr haqqında sonrakı düşüncələri vasitəsilə inkişaf etdirdiyi bilik kimi müəyyən edilə bilər. Deklarativ bilikdən fərqli olaraq, prosessual məlumatın özünəməxsus şüursuz və ya gizli təbiətinə görə bəzən açıq şəkildə ifadə etmək çətin olur (Stadler, 1989: 1061-1069). Stara (Star, 2005: 404-411) görə, səthi səviyyəli və dərin səviyyəli prosessual biliklər arasında fərq mövcuddur. Səthi səviyyəli prosessual biliklər əzbər öyrənmə, təkrar istehsal, sınaq və səhv ilə xarakterizə olunur. Digər tərəfdən, dərin səviyyəli prosedur bilikləri anlama, çeviklik və metakoqnitiv biliklərlə, o cümlədən tənqidi mühakimə ilə bağlıdır (Star, 2005: 404-411). Prosedur biliklərinin mənimsənilməsi deklarativ biliklərin mənimsənilməsi ilə mürəkkəb şəkildə bağlıdır. Biliklərin mənimsənilməsi daha çox deklarativ və prosedur yaddaş sistemlərinin inteqrasiyası ilə baş verir. Təcrübə yolu ilə deklarativ məlumatın proseduralaşdırılması prosesi bu iki fərqli biliyin forması arasında əlaqələrin qurulmasını asanlaşdırır. Fikir-Rasionalın Adaptiv Nəzarəti (ACT-R) (Anderson, 1993) kimi tanınan nəzəriyyə biliyin deklarativ vəziyyətdən prosedur vəziyyətinə çevrilməsi prosesini aydınlaşdırır. Buna baxmayaraq, prosessual və deklarativ bilikləri onlar arasında heç bir asılılıq olmadan, ayrı-ayrı subyektlər kimi öyrənmək mümkündür. Prosedur bilikləri təhsil mühitində təlim prosesi ilə bağlı bacarıq və metodların mənimsənilməsini nəzərdə tutur. Bu məsələyə müəyyən öyrənmə kontekstlərində uyğun öyrənmə strategiyalarının tətbiqinə diqqət yetirməklə və ya xüsusi təlim şəraitini effektiv şəkildə idarə etmək üçün şagirdlərə təlimat verməklə, şagird və ya müəllim nöqteyi-nəzərindən yanaşmaq olar. Şagirdlərə öyrənmə bacarıqlarını inkişaf etdirməkdə səmərəli kömək etmək üçün təlim prosesi haqqında fundamental anlayışa, o cümlədən deklarativ biliklərə, eləcə də cəlb olunan strategiyalara dair prosedur biliyə malik olmaq vacibdir (Schiefelbein, McGinn, 2017: 25-53).

Öyrənmə səriştəsi şagirdin müxtəlif öyrənmə kontekstlərini effektiv şəkildə idarə etmək qabiliyyətinə aiddir və həm rəsmi təhsildə, həm də ömürboyu öyrənmə səylərində uğur əldə etmək üçün əsas amil hesab olunur. Öyrənmə səriştəsinin əldə edilməsi müxtəlif elementlərdən təsirlənir bunlardan idrak, metakoqnisiya və motivasiya xüsusilə əhəmiyyətlidir. Bu amillər adətən bir çox mövcud çərçivələrdə özünütənzimləmənin əsas komponentləri kimi təsnif edilir (Boekaerts, 1996: 100-112; Cleary, Zimmerman, 2012: 237-257; Zimmerman, Moylan, 2009: 299-315). Öyrənmə strategiyalarından istifadə idrak və metakoqnitiv öyrənmə bacarıqlarının tətbiqini nümayiş etdirir. Öyrənmə strategiyaları öyrənmə prosesi zamanı istifadə olunan sistematik proseslərə və ya

fəaliyyətlərə aiddir. Bu üsullar, əvvəlki tədqiqatda nümunə göstərildiyi kimi, öyrənənlərə mətnlər və digər tədris materialları ilə effektiv şəkildə məşğul olmaqda kömək etmək məqsədi daşıyır (Hammerness, Klette, 2015: 239-277). Koqnitiv öyrənmə bacarıqları öyrənənlərin öz təlim məqsədlərinə nail olmaq və öyrənmə səylərinin effektivliyini qiymətləndirmək üçün istifadə etdikləri idrak, təsir və davranış proseslərini əhatə edir (Cantor, Zirkel, 1990: 135-164). Yuxarıda qeyd olunan proseslər şagird tərəfindən bilik və bacarıqların mənimsənilməsi, saxlanması və əldə edilməsinə aiddir. Koqnitiv öyrənmə qabiliyyətləri şagirdə koqnitiv davranışla məşğul olmağa imkan verən prosedur biliklərinin əldə edilməsinə aiddir. Hazırkı çərçivədə "cari kontekst" termini fərdin idrak prosesləri ilə əlaqəli davranış modellərinə aiddir.

Subakalavr pilləsində prosessual biliklərin formalaşmasına təlim metodologiyaları əhəmiyyətli dərəcədə təsir göstərir. Prosedur bilikləri proseslərin praktiki başa düşülməsini tələb edən xüsusi tapşırıqları və ya fəaliyyətləri yerinə yetirmək bacarığını əhatə edir. Təlim şagirdlərə real dünya ssenarilərini əks etdirən praktiki təcrübələr, praktiki məşğələlər və simulyasiyalar təqdim etməklə bu işdə mühüm rol oynayır.

Şagirdlər təlim zamanı real dünya problemləri ilə mübarizə apararkən, prosedur biliklərini müxtəlif kontekstlərdə tətbiq etməyi öyrənirlər. Bu, nəinki onların anlayışını dərinləşdirir, həm də onları müxtəlif vəziyyətlərə öz bacarıqlarını uyğunlaşdırmaq bacarığı ilə təchiz edir ki, bu da iş mühitində uğur qazanmaq üçün vacib bir şərtdir. Təlim subbakalavriat səviyyəsində prosessual biliklərin formalaşmasında dinamik və çoxşaxəli hərəkətverici rolunu oynayır. Peşəkar şəxslər, mentorluq, təkrarlanan təcrübə və problemlərin həlli imkanları vasitəsilə təlim şagirdləri yalnız seçdikləri peşələr üçün tələb olunan bacarıqlarla deyil, həm də sürətlə inkişaf edən peşəkar mənzərə üçün lazım olan uyğunlaşma və davamlılıq ilə hazırlayırlar.

## Nəticə

Təhsil səviyyəsi şagirdlərin və təhsil müəssələrinin fəaliyyətinin qarşılıqlı çıxarı nəticəsində formalaşdırılan bir proses olaraq həm rifah səviyyəsi həm də şəxslərin gələcək həyatında və formalaşma mərhələlərin olduqca önəm daşıyır. Bu prosesin təşkili üçün daima dövlət tərəfindən strategiyalar işlənib hazırlanır. Lakin bəzi valideynlər ölkənin təhsil səviyyəsi ilə razılaşmayıb uşaqlarının gələcəyi məqsədi ilə əlavə şəxslərə ödənişli şəkildə müraciət etməsinə səbəb olur. Bu hadisə şagirdlər üçün müsbət nəticələr versə də ölkə də təhsil səviyyəsinin müzakirə obyektinə çevrilməsinə şərait yaradır.

**Problemin aktuallığı:** Subbakalavr pilləsində biliyin formalaşdırılması və təşkili aktual məsələdir.

**Problemin yeniliyi:** İşimizdə subbakalavr prosesində biliyin formalaşdırılması və bu prosesin təkmilləşdirilməsi əsas məqsədlərdəndir.

**Problemin praktik əhəmiyyəti:** Məqalə tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Fenstermacher, G.D. (1994). The knower and known: The nature of knowledge in research on teaching. Rev. Res. Teach., 20, pp.3-56.
2. Meneghetti, C., De Beni, R., Cornoldi, C. (2007). Strategic knowledge and consistency in students with good and poor study skills. Eur. J. Cogn. Psychol., 19, pp.628-649.
3. Cepic, R., Pejic Papak, P. (2021). Challenges of Curriculum Planning and Achieving Learning Outcomes: A Case Study of Croatian Elementary School Teachers’ Experiences. Rev. Rom. Pentru Educ. Multidimens., 13, pp.78-100.
4. Baldan Babayigit, B., Guven, M. (2020). Self-Regulated Learning Skills of Undergraduate Students and the Role of Higher Education in Promoting Self-Regulation. Eurasian J. Educ. Res., 89, pp.47-70.
5. Freeman, D. (2002). The hidden side of the work: Teacher knowledge and learning to teach. Lang. Teach., 35, pp.1-13.

6. Grossman, P., Hammerness, K., McDonald, M. (2009). Redefining teaching, re-imagining teacher education. Teach. Teach. Theory Pract., 15, pp.273-289.
7. Hammerness, K., Klette, K. (2015). Indicators of Quality in Teacher Education: Looking at Features of Teacher Education from an International Perspective. In Promoting and Sustaining a Quality Teacher Workforce. Emerald Group Publishing Limited, pp.239-277.
8. Saks, K., Noppel, A., Ilves, H. (2020). Teachers' Awareness and Practical Activities when Facilitating Learners' Learning Skills. In Proceedings of the 11th ICEEPSY The International Conference on Education and Educational Psychology.
9. Pol, H.J., Harskamp, E.G., Suhre, C.J.M., Goedhart, M.J. (2009). How indirect supportive digital help during and after solving physics problems can improve problem-solving abilities. Comput. Educ., 53, pp.34-50.
10. Pol, R.E., Wittrock, M.C. (2006). Problem Solving Transfer. In Handbook of Educational Psychology, 2nd ed. Lawrence Erlbaum, pp.47-62.
11. Turns, S.R., Van Meter, P.N. (2011). Applying knowledge from educational psychology and cognitive science to a first course in thermodynamics. Paper Presented at the ASEE Annual Conference. Available online: link.
12. Ten Berge, T., Van Hezewijk, R. (1999). Procedural and Declarative Knowledge. An Evolutionary Perspective. Theory Psychol., 9, pp.605-624.
13. Tulving, E. (1985). How many memory systems are there? Am. Psychol., 40, pp.385-398.
14. Sturmer, K., Konings, K.D., Seidel, T. (2013). Declarative knowledge and professional vision in teacher education: Effect of courses in teaching and learning. Br. J. Educ. Psychol., 83, pp.467-483.
15. Darling-Hammond, L., Bransford, J.D. (2005). Preparing Teachers for a Changing World: What Teachers Should Learn and Be Able to Do. Jossey-Bass.
16. Star, J.R. (2005). Reconceptualizing Procedural Knowledge. J. Res. Math. Educ., 36, pp.404-411.
17. Stadler, M.A. (1989). On learning complex procedural knowledge. J. Exp. Psychol. Learn. Mem. Cogn., 15, pp.1061-1069.
18. Anderson, J.R. (1993). Rules of the Mind. Lawrence Erlbaum Associates Inc.
19. Schiefelbein, E., McGinn, N.F. (2017). The Process of Learning. In Learning to Educate. Sense Publishers, pp.25-53.
20. Boekaerts, M. (1996). Self-regulated learning at the junction of cognition and motivation. Eur. Psychol., 2, pp.100-112.
21. Cleary, T., Zimmerman, B.J. (2012). A cyclical self-regulatory account of student engagement: Theoretical foundations and applications. In Handbook of Research on Student Engagement. Springer Science, pp.237-257.
22. Zimmerman, B.J., Moylan, A.R. (2009). Self-regulation: Where metacognition and motivation intersect. In Handbook of Metacognition in Education. Routledge, pp.299-315.
23. Cantor, N., Zirkel, S. (1990). Personality, cognition, and purposive behavior. In Handbook of Personality: Theory and Research. The Guilford Press, pp.135-164.

Göndərilib: 20.03.2024 Qəbul edilib: 01.05.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/156-161

**Sevda Tağıyeva**
Azərbaycan Dillər Universiteti
sevdatagiyeva804@gmail.com

# MONOETNİK DÖVLƏTÇİLİYƏ ALTERNATİV OLARAQ MULTİKULTURAL TƏHLÜKƏSİZLİK

**Xülasə**

Monoetnik dövlətçilik, əsasən bir etnik və ya mədəni qrupa əsaslanan dövlət və ya mədəniyyət modelidir. Bu, həmin etnik və ya mədəni qrupun digər qrupların önündə üstünlüyünə vurğu edir və buna görə də müxtəlifliyi qəbul etmir. Bu cür bir yanaşma çox vaxt dövlətin birliyini qorumaq üçün tətbiq olunur və bəzən daxili və ya xarici mənsubiyyət münaqişələrinin əsas səbəbi olur. Multikulturalizm isə fərqli etnik, mədəni və dini qrupların birləşdiyi və bir arada yaşadığı bir mədəniyyət və ya dövlət modelidir. Bu, müxtəlif mədəniyyətlərin və dəyərlərin qəbul edilməsi, birləşdirilməsi və çoxmədəniyyətli bir cəmiyyətin yaradılmasını təşviq edir. Məqalədə monoetnik dövlətçiliyə alternativ olaaraq multikultural təhlükəsizlik araşdırılaraq təhlil edilir.

***Açar sözlər:*** *monoetnik, dövlətçilik, təhlükəsizlik, mədəni, dini qrup*

**Sevda Taghiyeva**
Azerbaijan University of Languages
sevdatagiyeva804@gmail.com

## Multicultural security as an alternative to mono-ethnic stateship

**Abstract**

Monoethnic statehood is a model of state or culture based primarily on one ethnic or cultural group. It emphasizes the superiority of that ethnic or cultural group over other groups and therefore does not acknowledge diversity. Such an approach is often used to protect the unity of the state and is sometimes the main reason for conflicts of internal or external affiliation. Multiculturalism is a culture or state model in which different ethnic, cultural and religious groups unite and live together. It promotes the acceptance and integration of different cultures and values and the creation of a multicultural society. The article examines and analyzes multicultural security as an alternative to monoethnic statehood.

***Keywords:*** *monoethnic, stateship, security, cultural, religious group*

## Giriş

Multikulturalizm, bir cəmiyyətin zənginliyi, yaradıcılığı və dinamikliyi olaraq qəbul olunur və insanların bir-biriləri ilə daha yaxşı anlaşmasını təmin edir. Bu model, demokratik dəyərləri, insan haqlarını və bərabərliyi təşviq edir və dövlətin çeşidliliyini və inklüzivliyini qəbul edir. Bir çox inkişaf etmiş ölkələr, çoxmədəniyyətli cəmiyyətlərin yaradılması, tolerant və bərabər fəaliyyət mümkünlüyü ilə dünya xalqlarının və dövlətlərinin bir-biriləri ilə daha sıx əlaqədə olması üçün multikulturalizmi təşviq edirlər. Bu, mövcud mədəniyyətlərin qarşılıqlı mənsubiyyətini dəstəkləyir və qlobal əlaqələrin inkişafını təşviq edir. Bu baxımdan, monoetnik dövlətçilik modeli daha çox ayrı-seçkiliklərə, qarşılıqlı anlayışsızlığa və münaqişələrə səbəb ola bilərkən, multikulturalizm daha inklüziv və dözümlü bir yanaşmadır və birlik və müxtəliflik arasında bir balans yaradır (Hen, 2014: 5-6).

İzolyasiyaçı etno-dini qruplar özlərini müasir dünyadan ayrı saxlamaq istəyən immiqrant qruplardır. Milli azlıqlar və immiqrantlar dövlət quruculuğu prosesindən kənarda qalmalarına qarşı çıxdıqları halda, təcridçi etnik-dini azlıqlar formalaşan müasir mədəniyyətə və onun institutlarına qarşı çıxırlar. Buna görə də onların liberal demokratiyalardan tələbləri onları müasir mədəniyyətin

dağıdıcı təsirlərindən uzaqlaşdırmaq üçün bəzi qanuni istisnalardır. Məsələn, təcridçi etnik-dini qruplar müasir təhsil sisteminə qarşı olduqları üçün uşaqların bəzi kurslardan və ya təhsil sistemindən tamamilə azad edilməsini, qadınların iş həyatında iştirak etməməsini tələb edirlər. Eynilə, onlar özlərini cəmiyyətdən ayrı gördükləri üçün səsvermə və hərbi xidmət kimi vətəndaşlıq vəzifələrindən azad olmağı tələb edirlər. Kanadada hutteritləri, ABŞ-da Amişləri və əksəriyyəti ABŞ-da yaşayan Hasidik yəhudiləri təcrid tərəfdarı etno-dini qruplara misal göstərmək olar. Kymlickanın qeyd etdiyi kimi, tarixən Qərb demokratiyalarının bu qrupların qanunların onlara şamil edilməməsi tələblərinə cavabı təəccüblü dərəcədə müsbət olmuşdur (Kymlicka, 2002: 356). Bunun səbəbinə nəzər saldıqda, ABŞ və Kanadadakı etnik-dini qrupların əkinçilik bacarıqlarından faydalanmaq üçün bunu qəbul etdiklərini gördü. “Liberal demokratiyaların bu qeyri-liberal anlayışı olan qruplara münasibəti necə olmalıdır?” sualına, Kymlicka qəti cavabın verilə bilməyəcəyini düşünür. Bununla belə, Kymlickanın bu qruplara üstünlük vermədiyi anlaşılır, çünki o, bu qrupların öz üzvlərinin azadlığını məhdudlaşdırdıqları və köçdükləri ölkədə heç bir sosial problemlə məşğul olmadıqları üçün liberal prinsiplərlə bir araya sığmadığını iddia edir. Görünür, Qərb demokratiyalarının əksəriyyəti zaman keçdikcə bu qruplara qarşı icazə verdikləri tolerantlığa müəyyən məhdudiyyətlər qoymağa çalışıblar. Bunlardan ən əhəmiyyətlisi bu qrupların öz üzvlərinə zərər verməməsi, dünyagörüşünü qrupdan kənar şəxslərə sırımağa çalışmaması və üzvlərə qrupdan çıxmaq hüququ verilməsidir (Kymlicka, 2002: 357).

Cozef Raz, Kymlicka kimi mədəniyyət qruplarının üzvlərinə təzyiq etməməli, qrupdan çıxmaq hüququna malik olmaları, mədəni kimliklərinin tanınması və onlara siyasi fəaliyyətdə effektiv şəkildə iştirak etmək bacarıqlarının verilməli olduğunu müdafiə edir. Onun sözlərinə görə, müxtəlif mədəni qruplara malik cəmiyyətlərdə həyata keçiriləcək konkret siyasətlər yerli şəraitdən asılı olaraq dəyişsə də, müəyyən prinsiplər üzərində razılığa gəlmək olar. Onlardan bəziləri (Raz, 1998: 198-199):

- Valideynləri istəsələr, ilk növbədə, bütün mədəni qrupların gənc üzvləri öz mədəniyyətləri ilə tərbiyə edilməlidir. Lakin bütün tələbələrin təhsili elə olmalıdır ki, onlar yaşadıqları ölkə daxilində bütün mədəniyyətlər haqqında müəyyən qədər biliklərə malik olsunlar və hamısına hörmət aşılasınlar.
- Müxtəlif mədəniyyət qrupları, adət-ənənələr və təcrübələr qanunla, bütün dövlət qurumları və özəl şirkətlər və təşkilatlar tərəfindən müəyyən tolerantlıq həddində tanınmalıdır.
- Yoxsulluq, zəif təhsil və etnik mənsubiyyət arasında əlaqəni kəsmək çox vacibdir. Müəyyən etnik qruplar yoxsulluq, təhsilsizlik, aşağı ixtisaslı iş kimi həyat şəraiti ilə üzləşirsə, onların mədəni kimliklərinə hörmət edilməsi, hətta öz kimliyini formalaşması mümkün deyil.
- Mədəniyyət qruplarının fondlar, könüllü təşkilatlar, muzeylər, teatrlar və kitabxanalar kimi öz muxtar mədəniyyət qurumları dövlət tərəfindən dəstəklənməlidir.
- Küçələr, meydanlar, parklar və ticarət mərkəzləri kimi ictimai yerlər mədəniyyət qrupları ilə harmoniyada olmalıdır. Bundan əlavə, məsələn, mədəni qrupların müxtəlif estetik qavrayışlarına uyğun bölgələr yaradıla bilər.

Kymlicka kimi Razın da, üzvlərinin azadlığı və şəxsi bütövlüyünün qorunması və anlayışlarını qrupdan kənar üzvlərə yaymaması şərti ilə mədəni qruplara müsbət baxdığı görülə bilər. Aşağıdakı Amiş icması nümunəsindən də göründüyü kimi, təcridçi etno-dini qruplar həyat tərzinə və dövlətdən tələblərinə görə digər etno-dini qruplardan kifayət qədər fərqlənirlər.

Bu gün ABŞ-ın Pensilvaniya ştatında yaşayan Amişlər xristian təriqətinə mənsubdurlar və 17-ci əsrin şərtləri altında həyatlarını davam etdirirlər. Texnoloji inkişaflardan və müasir həyatdan təcrid olunmuş həyat tələb edən Amişlər 18-ci əsrdə Avropada (İsveçrə, Almaniya və Fransa) sıxışdırıldıqları üçün bütün əmanətlərini toplayıb ABŞ-a köçdülər. Amişlərə kənd təsərrüfatı torpaqlarının istismarı müqabilində o vaxtkı Pensilvaniya qubernatoru Uilyam Penn tərəfindən torpaq verildi. Amişlər öz inanclarına görə hərbi xidmətdən imtina edir və kənd təsərrüfatından əldə etdiklərinə görə əmlak vergisi və gəlir vergisindən başqa heç bir vergi ödəməyi qəbul etmirlər (Yerebakan, 2013). Yerebakanın sözlərinə görə, sosial təminat təcrübələrindən faydalanmaq istəməyən amişlər öz aralarında topladıqları pullarla bir çox ehtiyaclarını qarşılayırlar. Amişlər üçün

qadınların cəmiyyətdəki yeri daha çox ev işləri və uşaq baxımı ilə bağlıdır. Kişilər daha çox kənd təsərrüfatı ilə məşğul olurlar. Qadınlar üçün saçlarını kəsdirməmək, evlənənə qədər qara örtük taxmaq, evləndikdən sonra isə ağ örtük taxmaq; Kişilər üçün bığ uzatmamaq və fedor papaq taxmaq üçün geyim qaydaları var. Təhsil sahəsində Amişlər orta məktəb təhsilinin gənclərdə dünya ləzzəti və şöhrətpərəstlik hisslərinə səbəb olacağına inandıqları üçün yalnız 8 illik təhsilin kifayət edəcəyinə inanırlar (Yerebakan, 2013). Bu təhsil əsas savad və riyaziyyat bacarıqlarını inkişaf etdirməyə və qurduqları məktəblərdə dini dəyərləri öyrətməyə əsaslanır. ABŞ-da 12 il icbari təhsil var və son 4 il orta məktəbdir. Amişin tələbələrin dini etiqad azadlığı sahəsi olaraq 8 ildən sonra davam etməməsi tələbi icbari təhsil qanunlarına ziddir. Dini inanclar dövlətin nəzarəti altında deyil; lakin dövlət polisi icbari təhsil qanunlarının icrasına cavabdehdir. Bununla belə, 1971-ci ildə Viskonsin ştatının Yoderə qarşı qaldırdığı işdə Ali Məhkəmə valideynlərin uşaqlarını öz dini dəyərlərinə uyğun böyütmək hüququnun dövlətin maraqlarından üstün olduğuna qərar verdi və 8 ildən sonra davam etməməyi məqsədəuyğun hesab etdi (Knudsen, 1974: 1507).

Ölkədə etnik-mədəni müxtəlifliyin qorunmasının və multikulturalizm siyasətinin səmərəliliyi dedikdə, burada titul xalqla bir cəmiyyətdə yaşayan 3 əsas azlıq qrupunun vəziyyəti nəzərdə tutulur:

- Azlıqda olan yerli xalqlar (avtoxton xalqlar);
- Tarixin müxtəlif mərhələlərində ölkəyə gəlib burada məskunlaşmış milli azlıqlar (alloxton xalqlar);
- Müasir dövdə siyasi, hərbi, iqtisadi, sosial və digər səbəblərdən ölkəyə pənah gətirmiş miqrantlar.

Qeyd olunan azlıq qruplarının cəmiyyətdəki vəziyyəti dedikdə, onların hər biri üçün ayrıca yaşadıqları cəmiyyətə inteqrasiya olmalarına kömək edəcək şərtlərin dövlət tərəfindən həll edilməsi nəzərdə tutulur. Azlıq qruplarının yaşadıqları cəmiyyətə inteqrasiya olmasının şərtlərinin ödənilməsi eyni zamanda ölkədə etnik-mədəni müxtəlifliyin qorunmasının və multikulturalizm siyasətinin səmərəliliyinin indikatorlarıdır (Multikulturalizmə Giriş, 2019: 310-311).

Miqrantların inteqrasiya prosesləri, bir ölkədə yeni gələn vətəndaşların sosial, iqtisadi və mədəniyyət sahələrində rahat bir şəkildə qəbul edilməsi və uyğunlaşdırılması məsələlərini özündə əhatə edir. Bu məsələləri qiymətləndirmək və müqayisə etmək üçün isə Miqrant Inteqrasiya Siyasəti İndeksi (MİPEX) kifayət qədər əlverişli bir alət kimi özünü göstərir. MİPEX, müxtəlif ölkələrin miqrantlar üçün tətbiq etdikləri siyasətləri müqayisə etməyə imkan verən bir alətdir. Bu indeks, miqrantların inteqrasiya prosesində mövcud olan siyasətləri 6 əsas göstəriciyə əsaslanaraq qiymətləndirir (Huddleston, Vink, 2016).

İlk olaraq, ictimai mənsubiyyət göstəricisi, miqrantların ölkədə ictimai və siyasi mənsubiyyətini müzakirə edir. Burada ölkələrin miqrantlara vətəndaşlıq verərək onları mənsubiyyət hissi ilə bəzəməsi və onlara bələdçi vətəndaş kimi qəbul edilməsi nəzərə alınır.

İş hüququ göstəricisi, miqrantların ölkədə işə qəbul olunmaqda eyni şərtlərdən faydalanıp-faydalanmadığını qiymətləndirir. Bu göstəricidə, miqrantların iş və əmək haqqı, işgüzarlıq imkanları və digər məsələlər də göz önündə tutulur.

Qeyri-vatandaşların siyasəti göstəricisi, miqrantların qeyri-vatandaşlar kimi siyasət proseslərinə iştirak etmə imkanlarını qiymətləndirir. Bu göstəricidə, miqrantların seçki və qanun qüvvəyə minmə proseslərinə iştirak etmələri müzakirə edilir.

Təhsil göstəricisi, miqrantların ölkədəki təhsil sistemində eyni imkanlardan istifadə edib-edə bilmədiklərini qiymətləndirir. Bu göstəricidə, miqrantların təhsil imkanları, təhsil dilləri və digər məsələlər də əhatə olunur.

Uyğunlaşdırma göstəricisi, miqrantların ölkədə asimilasiya edilməkdən çox, uyğunlaşdırılmağa təşviq edilməsini qiymətləndirir. Bu göstəricidə, miqrantların mədəni və sosial dəyərlərə uyğunlaşdırılması siyasətləri müzakirə edilir.

Son olaraq, dolaylı uyğunlaşdırma göstəricisi, ölkədəki mühacir və yerli ictimaiyyət arasında dostluq və həyat yoldaşlığı münasibətlərinin inkişafını qiymətləndirir (Huddleston, Vink, 2016b).

MİPEX, miqrantların inteqrasiya proseslərini müqayisə etmək üçün əlverişli və dəqiqliklə qiymətləndirmək imkanı yaradan bir alət olaraq önə çıxır. Bu indeks, miqrantların qəbulu və

uyğunlaşdırılması sahəsində hər bir ölkənin performansını qiymətləndirərək, effektiv siyasət tətbiq etməyə kömək edir (Vink, de Groot, 2010: 277).

Beləliklə, hərtərəfli inteqrasiya siyasəti miqrantlara güvənməyə kömək edir və miqrantın cəmiyyət üçün faydalarını müəyyən edir, diskriminisiya, məhdudlaşdırıcı siyasət isə ictimaiyyət arasında etibarsızlığı və ksenofobik davranışları artırır. Bir ölkənin MİPEX hesabında azalma anti-immiqrant davranışların və radikal sağ partiyalarının müvəffəqiyyətinin artmasına səbəb olur. İnteqrasiya siyasəti və nəticələr arasındakı əlaqələr həmişə aydın deyil. Bəzi ölkələr problemləri aradan qaldırmaq üçün siyasətlərini aktiv şəkildə inkişaf etdirir, bəziləri isə onları görməzdən gəlirlər. MİPEX-dən istifadə edən tədqiqatçılar hesab edirlər ki, inklüziv inteqrasiya siyasəti olan ölkələr miqrantlar və hər kəsin yaşaması üçün daha inkişaf etmiş, xoşbəxt ölkələrdir (Multikulturalizmə Giriş, 2019: 334).

Multikulturalizm siyasətləri fərdlərin/qrupların/icmaların müxtəlif tələb və etirazları və sosial strukturda miqrasiya nəticəsində yaranan gözlənilməz dəyişikliklər nəticəsində yaranan problemlərin həlli yollarının axtarışının məhsuludur. Yeni mühacir profilləri assimilyasiyanın alternativinin olmadığını sübut etdi və artan millətçi hisslər və onların “aydın tələbləri” müəyyən dərəcədə multikulturalizm siyasətini zəruri etdi (Geyik Yıldırım, 2018). Digər tərəfdən, bu gün üzləşdiyi yeni mühacirət dalğaları XX əsrin multikulturalizm siyasətini şübhə altına almağa başlayıb.

Avropada miqrasiya və miqrasiya vəziyyətlərinin yaratdığı yeni müxtəliflik, yəni multikultural sosial quruluş İkinci Dünya Müharibəsindən sonra ortaya çıxan bir reallıqdır. Multikulturalizm 1960-cı illərin sonu və 1970-ci illərin ağdərili və xristian olmayan ölkələrdən artan immiqrasiya kontekstində rəsmi hökumət siyasəti kimi ön plana çıxdı (Kymlicka, 2015: 297). Birgə yaşayış tərzi haqqında düşünməyə qapıları açan şey, miqrasiyanın və xarici mənşəli əhalinin varlığının milli dövlət üçün bir "təhlükə" kimi qəbul edilməsi idi. Bu cür qavrayış Qərb miqrasiya paradiqmasını, xüsusən də qaçqın axını qarşısında yenidən formalaşdırıb. Miqrasiya ilə bağlı günümüzün əsas fəlsəfəsi “təhlükə” hesab edilənləri istisna etmək, sərhədləri gücləndirmək, hətta ümumi təhlükəsizlik siyasətlərini genişləndirmək və yüklərin bölüşdürülməsindən qaçmaqdır. Müasir dövrdə milli dövlətlər möhkəmləşdikcə və beynəlxalq dövlət sistemi kristallaşdıqca əhalinin hərəkətliliyinə yeni məhdudiyyətlər qoyuldu. Avropa dövlətləri fərdləri ənənəvi hakimiyyət qaynaqlarından azad edərək onlara hüquq və imtiyazlar bəxş etməklə yanaşı, həm də öz əhalisinin ətrafında sərhədlər çəkdi (Nuhoğlu-Soysal, 2021: 34).

Digər tərəfdən, bugünkü miqrasiya hərəkatları bu gün daha problemli sahəyə çevrilib və bunun həlli yollarının axtarışları geniş vüsət alıb. Bir zamanlar ölkələrin iqtisadi inkişaf istəklərinə cavab olaraq ehtiyac duyulan və təşviq edilən/tələb edilən miqrasiya hərəkətlilikləri bugünkü dünyanın dəyişən siması ilə arzuolunmaz/qarşısı alınmalı olan əsas hadisələrdən birinə çevrilmişdir. Engelhardta (2018) görə, klassik immiqrasiya ölkələri kimi tanınan ABŞ, Avstraliya və Kanada qurulduğu gündən ölkə torpaqlarını emal etmək, infrastrukturlarını və fabriklərini qurmaq üçün xaricdən gələn insanlara ehtiyac duyur. Digər tərəfdən, Avropa ölkələri əvvəlki əsrlərdə həddindən artıq əhali sıxlığı və aclıqla mübarizə aparırdılar (Engelhardt, 2018: 315). Mühacirləri işsizliyə görə məsuliyyət daşıyan geniş kütlə siyasətçilərə təzyiq edərək anti-immiqrant qanunların qəbulunu və icrasını təmin etməyə çalışır. İmmiqrasiya məsələsinin siyasiləşməsi kimlik müzakirələrinə də səbəb olub. Kimliyə əsaslanan siyasi üslublar ən çox müsəlman əsilli qaçqınların həyatına təsir edib. “İkinci Dünya Müharibəsindən bəri ən pis qaçqın böhranında, təxminən 60 milyon qadın, kişi və uşaq münaqişə, zorakılıq və təqiblər nəticəsində öz yurd-yuvasından didərgin düşüb. Bununla belə, dünyanın ən zəngin siyasi bloku olan Avropa İttifaqı (Aİ) uzun illərdir davam edən bu köçkünlük böhranı qarşısında sığınacaq axtaranların və qaçqınların Avropaya daxil olmasının qarşısını effektiv şəkildə almağa çalışır. “Avropa qalası” adlı siyasətlər çərçivəsində Aİ quru sərhədlərində məftilli hasarlar quraşdırır, getdikcə daha çox sərhəd mühafizəçiləri yerləşdirir və immiqrant və qaçqınların qarşısını almaq üçün qonşu ölkələrlə müqavilələr imzalayır (Amnesty International, 2016: 4).

Nuhoğlu-Soysalın (2021) fikrincə, "insan hüquqları, bütün dünyada fəaliyyətin qanuni göstəricisi olaraq, milli mənsubiyyətdən kənarda hüquq iddialarının qurulmasına xidmət edən və öz ironiyalarını yaradan hegemon bir dil təqdim edir: Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü Somalidə aclıq problemini yüngülləşdirmək üçün İnsan haqları missiyası Moqadişu küçələrində insanlara qarşı sülh üçün müharibə aparmağı "tələb edir"; "İraq"ı insan hüquqlarının pozulmasına görə cəzalandırmaq üçün tətbiq edilən embarqo müddəalarından tutmuş, səbəb olduğu qeyri-kafi humanitar yardıma qədər bir sıra ziddiyyətli nəticələri qanuniləşdirməyə xidmət edən əmr alətinə çevrilmişdir" (Nuhoğlu-Soysal, 202-275). Qaçqın axını qarşısında Qərb miqrasiyada seçici tərəf olmağa meyllidir; O, təkidlə Şərqə qəbul etməyi tövsiyə edir. Bu gün immiqrasiya Qərb üçün təhlükədir; Şərq üçün sərvət kimi daha tez-tez təsvir olunmağa başladı. Qərbə selektivlik; Qəbul daha çox Şərqə aid edilir. Şərq miqrasiyası bir vaxtlar Qərb üçün iqtisadi dəyər idi; Onun qapısı lazım olanda açılırdı; Artıq ehtiyac qalmayanda sərhədlər bağlandı. Əslində Qərb əsrlərdir hər sahədə rasional aktyorluq üslubu və rəftar tətbiq edir (Geyik Yıldırım, 2022: 15).

Goldin və həmkarları (2022) deyir ki, "miqrasiya qlobal institusional arxitekturanın yetim uşağıdır. Onların fikrincə, beynəlxalq institusional və hüquqi baza qaçqınlardan başqa sistemli miqrasiya məsələlərində susur. Bu gün miqrasiya üçün məsuliyyət xaotik olaraq miqrasiya ilə bağlı əsas qlobal narahatlıqları həll etmək üçün nə səlahiyyəti, nə də potensialı olmayan bir neçə beynəlxalq təşkilatın üzərinə düşür" (Goldin, Cameron, Balarajan, 2022: 7). 1950-ci illərdəki immiqrasiya Qərb üçün yeni dövrün başlanğıcı idi. Çünki qaçqınların qəbul edilməsinin səbəblərindən biri onların hazır işçi qüvvəsi və bundan əldə olunacaq gəlirlə iqtisadiyyatı stimullaşdıracaqları idi. Digər tərəfdən, Qərb hökumətləri qaçqınların dünyanın müxtəlif bölgələrinə göndərilməsinin Avropada sıxlığı aradan qaldırmaqla əhalinin ədalətli bölgüsünə töhfə verəcəyini və əhalisi az olan, inkişaf etməmiş demokratiyalar üçün faydalı olacağını düşünürdülər (UNHCR, 2001: 17; 14).

## Nəticə

Bu gün münaqişələrin, müharibələrin, insan haqlarının və yoxsulluğun problemli sahələrinin toplandığı coğrafiyaların əksəriyyəti Yaxın Şərq, Afrika və müəyyən dərəcədə Asiyadan qaynaqlanır. Bu mənbə coğrafiyalarından köç edən xeyli sayda müsəlman icması var. Qərb bugünkü qaçqın axını qarşısında miqrasiyanın faydalarını maksimuma çatdırmaq anlayışını miqrasiyanın zərərlərini minimuma endirmək anlayışına buraxıb. Bu anlayış qaçqın yükünü bir neçə bölgəyə sığdırmaq kimi həssaslığı da özü ilə gətirdi. Miqrasiyalar insan həyatının daimi hadisələrindən biri olmaqda davam edir; Ölkələr öz sərhədləri daxilində əcnəbilərə qarşı siyasətlər istehsal etməyə davam edəcəklər. Bununla belə, bu gün insan hərəkətliliyinin gözlənilməz səviyyəsi və müxtəlifliyi ilə qarşılaşırıq. Bu hərəkətlərdəki qaçqınlar/sığınacaq axtaranlar tək bir ölkənin məsuliyyəti öz üzərinə götürə biləcəyi bir sahə olmaq imkanlarını itirmişlər. Beynəlxalq müqavilələrin bugünkü qaçqın problemini həll etmək üçün yetərli olmadığı, onların yenilənməsinə ehtiyac olduğu və beynəlxalq yükün bölüşdürülməməsi getdikcə daha aydın oldu. "Avropa qalası, məftil hasarlar, qabaqcıl izləmə sistemləri" kimi təcrübələr yalnız Qərb icmalarının rifahına xidmət edir. Bununla belə, beynəlxalq müqavilələrin əsas fəlsəfəsi ümumbəşəri rifah üzərində qurulur. Bu səbəbdən qaçqınlar məsələsi təcili olaraq beynəlxalq siyasətin əsas gündəminə çevrilməli, sağlam düşüncə və funksional təcrübələrlə qurulmuş yeni beynəlxalq müqavilələr qüvvəyə minməlidir.

## Ədəbiyyat

1. Hen, M., Kraus, E., Goroshit, M. (2014). Ethnic Identity, Multiculturalism, and Their Interrelationships: Differences between Jewish and Arab Students. Multicultural learning and teaching, 20 p.
2. Kymlicka, W. (2012). Multiculturalism: Success, Failure, and the Future, Migration Policy Institute, 32 p.
3. Raz, J. (1998). Multiculturalism., Ratio Juris 11 (3), pp.193-205.

4. Yerebakan, E. (2013). Those Who Live by Candlelight in the Middle of Civilization: The Amish. USA Sabah, 12 August. Accessed: 03.03.2024.
5. Knudsen, S. (1974). The Education of the Amish Child. California Law Review, Vol. 62. № 5, December, pp.1506-1531.
6. Multikulturalizmə Giriş. (2019). Ali Məktəblər üçün dərslik. Bakı: Şərq Qərb, 432 s.
7. Huddleston, T., Vink, M. (2016a). MIPEX 2015: Migrant Integration Policy Index. Retrieved from https://www.mipex.eu/
8. Vink, M., de Groot, G.R. (2010). A Migrant Integration Policy Index: Government Task or Academic Tool?. International Journal on Multicultural Societies, 12(2), pp.257-279.
9. Geyik Yıldırım, S. (2018a). Kanadada multikulturalizmin yaranmasının səbəbləri. Karabük Universiteti Sosial Elmlər İnstitutu Jurnalı, 2018, 8 (1), s.22-42.
10. Nuhoğlu Soysal, Y. (2021). Vətəndaşlığın Limitləri, Avropada Miqrantlar və Transmilli Üzvlük. (Trans. Ezgi Su Dağabak), Ankara: GAV Perspektiv Yayınları.
11. Amnesty International 2016, Asylum-Seekers and Refugees Denied Effective Protection in Turkey, Accessed: 03.03.2024. https://www.amnesty.org/en/wp-content/uploads/2021/05/EUR4438252016ENGLISH.pdf
12. Goldin, I., Cameron, G., Balarajan, M. (2011). Exceptional People: How Migration Shaped Our World and Will Define Our Future (STU-Student edition). Princeton University Press. http://www.jstor.org/stable/j.ctt7rk89
13. UNHCR (2000). The State of the World's Refugees. https://www.unhcr.org/sites/default/files/legacy-pdf/3ebf9bb8e.pdf
14. https://www.sabah.com.tr/amerika/2013/08/12/medeniyetin-ortasinda-mum-isiginda-yasayanlar-amisler

Göndərilib: 03.03.2024 Qəbul edilib: 27.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/162-167

**Kərim Novruzov**
Ağdam rayon 95 saylı tam orta məktəb
atillanovruzov55522@gmail.com

# "MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ – 140". SOSİAL-FƏLSƏFİ GÖRÜŞLƏRİNƏ QISA ELMİ-NƏZƏRİ BAXIŞ

**Xülasə**

Azərbaycan xalqının və Türk dünyasının böyük mütəfəkkiri, görkəmli dövlət xadimi, Millət Fədaisi M.Ə.Rəsulzadə ictimai-siyasi, elmi-fəlsəfi yardıcılığı ilə yanaşı, Azərbaycan tarixində ilk siyasi partiyanın yaradıcılarından biri, həm də müasir Azərbaycan dövlətinin başlıca ideyalarını təşkil edən ideologiyanın yaradıcısı və qurucusudur. Azərbaycan dövlətinin əsas atributlarından olan bayrağımızın simvolları - türkçülük, çağdaşlıq, islamçılıq, eyni zamanda aypara, səkkizguşəli ulduz onun ideyalarının nəticəsidir. Yaradıcılığında türkçülüyün çox böyük fəlsəfi-siyasi anlamı var və bu yalnız bir millətin azadlığı uğrunda mübarizəsi ilə məhdudlaşmayıb, bütün Azərbaycanlılar üçün böyük əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *Azərbaycan, millət, din, dil, siyasət*

**Karim Novruzov**
Aghdam District Secondary School № 95
atillanovruzov55522@gmail.com

## "Muhammad Amin Rasulzadeh – 140". brief scientific-theoretical review of his social-philosophical considerations

**Abstract**

The great thinker of the Azerbaijani people and the Turkic world, the eminent statesman, National Fedayee M.A.Rasulzadeh, along with his socio-political, scientific, and philosophical injunctions, is one of the founders of the first political party in the history of Azerbaijan, as well as the founder and creator of the ideology that constitutes the main ideas of the modern Azerbaijani state. The symbols of our flag, which are the main attributes of the state of Azerbaijan - Turkism, Contemporaryism, Islamism, but also the crescent, and octagonal star are the result of his ideas. In its creation, Turkism has a very large philosophical and political sense, which is not limited to the struggle for the liberation of a nation but is of great importance to all Azerbaijanis.

***Keywords:*** *Azerbaijan, the nation, religion, language, politics*

## Giriş

Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884-1955) müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) yaradıcılarından biri, görkəmli ictimai siyasi və dövlət xadimi, istedadlı alim, jurnalist və publisist olmuşdur. Məhəmməd Əmin Rəsulzadənin çoxcəhətli fəaliyyətini, zəngin ədəbi siyasi irsini, elmi-nəzəri görüşlərini dərindən, obyektiv və sistemli şəkildə öyrənmədən Azərbaycan tarixini, XX əsrin birinci yarısı, xüsusilə Rusiyada üç inqilab 1905-1907, 1917-ci il fevral və oktyabr dövrü və milli, müstəqil Azərbaycan dövlət quruluşunun yaradılması və fəaliyyəti dövrünün tarixini tədqiq etmək, işıqlandırmaq mümkün olmaz. XX əsr Bakıda siyasi coşqunluq, inqilabi mübarizənin ən qızğın dövrü kimi qarşılandı. Çar istibdadı və mövcud qayda-qanun əleyhinə Bakının hər nöqtəsindən etiraz məşəli alovlanırdı, istismarın hər formasına məruz qalmış xalq çar üsul idarəsindən, sıxıntı, boğuntu mühitindən uzaqlaşmağa çalışırdı.

Yeni əsr köhnənin yerinə gələndə onun 16 yaşı var idi. Qaynayan Bakı mühiti, gördükləri, eşitdikləri, oxuduqları onu belə qənaətə gətirmişdi: Xalqın taleyindən keçib gedən XIX əsr camaata əsarət, kölə vəziyyətində yaşamaqdan başqa heçnə gətirməyib. Cəhalət, savadsızlıq, avamlıq, siyasi

şüurca yetkin olmamaq xalqın düçar olduğu dəhşətli bəlalar idi. İndi bu xəstəlikləri sağaltmaq, hansı vasitə ilə olursa olsun müstəmləkə çirkabından təmizləmək lazım idi (Hüseynov, 1992: 3).

O, təhsil alıb bilik qazanmışdı. Sonra məşhur pedaqoq Sultan Məcid Qənizadənin müdir olduğu ikinci Rus-Müsəlman Məktəbində, bir müddət də Bakı Texniki Məktəbində oxumuşdu. 1902-ci ildə 18 yaşlı Məhəmməd Əmin Rəsulzadə ilk siyasi təşkilatını - Müsəlman Gənclik Təşkilatını yaratdı. Bu, bir əsrə yaxın müstəmləkə rejimi altında inildəyən xalqın ağrılarını sağaltmağa çalışan ilk siyasi təşkilat idi. O vaxta kimi də mövcud üsul-idarəyə etiraz edənlər monarxiya qaydası ilə barışmayıb müxtəlif mübarizə formalarından istifadə etmişdilər. Daha çox qəzet yazıları və ədəbi əsərlərlə xalqı əsarətdən xilas etməyə çalışan çoxlu şəxsiyyətlər olmuşdu. Lakin vahid proqramlı, işıqlı məqsədə xidmət edən geniş formalı bir təşkilat yaratmaq hünərini ilk dəfə 18 yaşlı Məhəmməd Əmin Rəsulzadə göstərdi (Ələkbərov, 2007: 205-216-221).

Qeyd edək ki, Məhəmməd Əmin Rəsulzadənin irsi, əsərləri məlum səbəblər üzündən bu vaxta kimi aranıb toplanmamış, tədqiq və təhlil edilməmişdir. İndi vəziyyət dəyişmiş, xalqın bu böyük və qeyrətli oğlu sahibinə - Azərbaycan xalqına qaytarılmışdır. Qarşıda məqsəd hər şeydən əvvəl Məmməd Əmin Rəsulzadənin zəngin ədəbi mətbu irsini arayıb toplamaq, ərəb əlifbasından istifadə etdiyimiz əlifbaya köçürmək, lüğət və elmi qeyd və şərhlərlə nəşr edib xalqa, oxuculara çatdırmaqdır. Göstərək ki, geniş dünyagörüşü, hərtərəfli bilik və qüdrətli qələm sahibi olan Məhəmməd Əmin Rəsulzadənin mətbu irsinin coğrafiyası çox genişdir. Əlbəttə , Azərbaycan burada həlledicidir. Lakin Zaqafqaziya və Rusiya, İran və Türkiyə, Qərbi Avropa və Amerikada baş verən hadisələr, ümumiyyətlə, planetimizin mənzərəsi, demokratiya və tərəqqi, azadlıq və milli istiqlaliyyət uğrunda mübarizə məsələləri, hadisələr onun diqqətini cəlb etmişdi. Bu xüsusiyyət onun Azərbaycan mətbuatı səhifələrində dərc olunmuş yazılarında açıqca görülməkdədir. M.Ə.Rəsulzadənin sadiq silahdaşlarından Mirzə Bala Məmmədzadə şahidlik edir və yazır: "Rəsulzadə qırmızı istiladan sonra başda mütərəqqi gənclik olmaq üzrə millətin göstərdiyi şiddətli müqaviməti və verdiyi saysız qurbanları görərək milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə etməkdə olduğuna inandığını bildirirdi" (Acalov, 1991: 11).

Tarix M.Ə.Rəsulzadənin dediyi sözləri təsdiq etdi. Azərbaycan xalqı vicdanına endirmiş olduğu, ruhunda, qəlbində və bağrında mühafizə etdiyi üçrəngli istiqlal bayrağını yenidən yüksəltməyə müvəffəq oldu. "Bir kərə yüksələn bayraq bir daha enməz!" şüarı və fikri qalib gəlib və yaşamaqdadır. İndi Azərbaycanı ağlasığmaz çətinliklərə, açıq-gizlin təcavüz və fitnələrə baxmayaraq müstəqillik, həqiqi suverenlik yolu ilə inamla addımlamaqdadır. Suveren Azərbaycan dövləti BMT-nin tam hüquqlu üzvüdür. M.Ə.Rəsulzadə və onun məsləkdaşlarının birgə qaldırdıqları istiqlal bayrağı indi Nyu-Yorkda BMT-nin əzəmətli binası qarşısında dünyanın digər suveren dövlətlərinin milli bayraqları ilə bir sırada dalğalanmaqdadır. Azərbaycanın uzaqgörən, dünyanın və tarixin inkişaf meyllərini və perspektivlərini dərk edən görkəmli siyasət və dövlət xadimləri 1918-1920-ci illərində milli istiqlalımızı yenidən bərpa edərkən parlamentin çoxpartiyalı demokratik respublika dövlət formasını seçmişdilər. Nəinki Rusiyada, o zaman bütün İslam Şərqində belə bir dövlət, hakimiyyət forması, üsuli-idarəsi yox idi. Mütləqiyyət və totalitar rejimlərin əhatəsində yaşayan, siyasi mədəniyyət və mübarizə meydanında ilk müstəqil addımlar atan, uzun əsrlər boyu öz dövlət istiqlalını itirmiş bir xalqın və məmləkətin parlamentin, çoxpartiyalı, demokratik dövlət formasını seçməsi tariximizin böyük nailiyyəti və hadisəsidir (Göyalp, 1991: 175).

Tarixçilər haqlı olaraq yazırlar ki, "Azərbaycan siyasi tarixinin qədərini əllərində tutanlar tam zamanında çox hazırlıqlı dövlət xadimləri olduqlarını göstərərək, istiqlal hərəkatını yerində və zamanında qiymətləndirə bilmişdilər". İlkin araşdırmalara görə, M.Ə.Rəsulzadənin 1903-1954-cü illərdəki yazılı ədəbi-siyasi irsi, əsərləri təxminən 12-15 cilddən ibarət ola bilər. Məsələn, təkcə 1903-1920-ci illərdə Azərbaycan dövri mətbuatında onun 1200-dən artıq müxtəlif janrlı yazısı, həmçinin nitqi, çıxışı və s. dərc olunmuşdur. Oxuculara təqdim olunan əsərlərin 1-ci cildinə onun 1903-1909-cu illərdə "Şərqi-Rus", "Hümmət", "Dəvət", "İrşad", "Təkamül", "Yoldaş", "Tərəqqi" qəzetləri, "Füyuzat" və "Volna" jurnallarında çıxan 280-ə yaxın yazısı daxil edilmişdir. Azadlıq

mücahidi M.Ə.Rəsulzadənin cəmiyyətin bütün sahələrini əhatə edən baxışları sosial-fəlsəfədən də yan keçməyib. Konkret olaraq bu sahəyə həsr etməsə də sosial fəlsəfəsinin predmetlərinə, problemləri olan cəmiyyət, xalq, millət, milliyyət, dövlət, hakimiyyət, dövlətçilik, din, dil, mədəniyyət, milli-mənəvi dəyər və s. haqqında bütün dövrlər üçün dəyərli və maraqlı elmi fikirlər, mülahizələr irəli sürmüşdür. Ən əsası odur ki, dövlət, millət, milliyyət, vətənpərvərlik kimi ideyalar kor-koranə yox, ağlın, zəkanın gücü ilə müəyyən edilsin. Milli-demokratik dövlətin əsasında xalq hakimiyyətinin durması, onun uğur və inkişafının başlıca səbəbidir (Yaqublu, 1991: 12).

Cəmiyyətin fəlsəfi, hüquqi, əxlaqi, dini, milli dünyagörüşü, şüuru nə qədər yüksək səviyyədə olarsa, bu zaman dövlət də yaxşı inkişaf edər. Bu nöqteyi-nəzərdən M.Ə.Rəsulzadənin öz yaradıcılığında sosial-fəlsəfi problemlərə önəm verməsi tamamilə təbii haldır. Həmçinin dövrün siyasi, milli-ideoloji problemləri də onu sosial fəlsəfə ilə maraqlanmağa sövq edib və o, bir sıra dünyagörüşü məsələlərinə cavab tapmaq istəmişdir. Milli Mogikanın yaradıcılığındakı cəmiyyət, onun quruluşu, dövlət, hakimiyyət, millət, milliyyət, dil, din, solidarizm və s. məsələlər onun sosial-fəlsəfi görüşlərinin əsasını təşkil edir. Məhz buna görə də onun bu məsələlərə baxışlarını tədqiq etmək maraq doğurmaya bilməz... Onun millət və milliyyət anlayışları ilə bağlı görüşləri “Dirilik nədir” məqaləsində xüsusilə diqqət çəkir. Bu məqalədə deyir ki, diriliyin, yəni varlığın əsasında millətin özünü tanıması, namusunu qoruması və bu gücdə olacaq bir qüvvənin olmasıdır. Ona görə diriliklərin ən qiymətlisi milli dirilik-milli varlıqdır. Varlığın ictimai-siyasi və fəlsəfi anlamını verən Milli Mogikan yazır ki, avropalılarda dirilik-varlıq hər şeydən üstündür: "Dirilik üçün ölmək! Avropa diriliyi bu dərəcədə müəzziz tutuyor və ona bu qədər əhəmiyyət veriyor. Halbuki şərqdə, ələlxüsus şərqi-islamda yalqız olmaq üçün diriliyorlar. Başqalarında məqsəd dirilik isə, bizim məqsədimiz ölümdür. İştə diriliyi və dirilik fikrini avropalılar kimi anlayıb və anlada bilmək diriliyin məqsədini təşkil ediyor" (Qəndilov, 2007: 37).

M.Ə.Rəsulzadənin sosial-fəlsəfi baxışlarındakı millət təbiətə qarşı icra olunan müharibədə daha bacarıqlı və daha qüvvətlidirsə, o millət təbiətdən alınan qənimətdən daha çox istifadə edə bilmək iqtidarındadır. Eyni zamanda bununla kifayətlənməyib, dünyanın nemətlərini bölüşdürərkən, diri millətlər özlərinə hər kəsdən daha artıq və faydalı pay götürürlər. Ona gorə dirilik hər şeydən əvvəl bəşəriyyətə fayda vermək, ictimai inkişafa təkan vermək, dünya mədəniyyətini zənginləşdirməkdir. Rəsulzadə dirilik nədir sualına cavabında qeyd edirdi ki, ümumi dirilikdən başqa, insanlar arasında bir də xüsusi dirilik vücudə gətirilir ki, bu xüsusi dirilklərin ən kamil bir şəkli olan milli dirilik, yəni milli varlıqdır. O, milli varlığı dar, məhdud çərçivədə yox, geniş mənada götürürdü (Rüstəmov, 1992: 120).

Onun millətə verdiyi tərifində deyir ki: “Milli mədəniyyət və yaxud millət dil birliyi, adət və əxlaqi birliyi, ənənati - tarixiyyə və nəhayət, etiqadati-diniyyə birliklərinin məcmuyundan mütəşəkkil bir məhsuldur". Deməli, M.Ə.Rəsulzadəyə görə milllət dili, dini, adət-ənənələri, ədəbiyyatı və tarixi bir olan toplumdur. Yalnız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşxis edən müştərək əlamətlərin başlıcası dil, din, adət və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən türklər bir millətdir. Milli istiqlala malik olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal". Milli Mogikanın millət anlayışına verdiyi tərif, şərh, bu gün də öz orijinallığını saxlayır.

M.Ə.Rəsulzadə milli varlığın fəlsəfəsini şərh edərkən öz konsepsiyasına iki anlayış daxil etmişdi: milli vicdan və milli iman. Burada milli vicdan milli özünüdərk mənasındadır. O, millətin həyatını milli vicdanın inkişafına bağlayırdı. Milli vicdanın sahəsində milli iman əmələ gəlir. Milli imanın yaranması ilə millətlər özlərinə şanlı və şərəfli yol seçirlər. Qeyd edir ki, milli varlığın yaranmasında milli vicdan və milli iman mühüm rol oynayır: "Milli vicdan və yaxud milli iman milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanatından hasil oluyor. Hər millət deyil, hətta hər bir şəxsin özünə görə əməli vardır. Buna başqa təbirlə meyl və arzu dəxi demək olar. Bunun firəngcəsi "ideal" gəliyor. Osmanlıcada son zamanlar bunu, "məfkurə" deyə tərcümə edənlər də vardır".

Rəsulzadə qeyd edir ki, hər şəxsin arzu və əməli, onun bacarığı və məsləki ilə eynilik təşkil edir və bir şəxs öz iqtidar və bacarığı dairəsində müntəha nəyə malik olmaq istərsə, o şey onun əməlidir.

Əməlsiz kimsə yoxdur. Onsuz yaşamaq naqabildir. Əməl fəaliyyətə, fəaliyyət də tərəqqiyə mövcud oluyor. Şəxslər əməlsiz yaşaya bilmədikləri kimi, millətlər də əməksiz yaşaya bilməzlər. İştə millətin ümumən də mövcud halim bir əməl və arzu yolunda bəslənən gizli hisslər milli vicdan ilə imanı tövlid ediyorlar... Şəxsi əməllər hər nə qədər müşkül istehsalı çətin də olsa, böyük ola bilməz. Yəni ona böyük və milli əməl deyilməz və o milli vicdanın tələb elədiyi də olmaz. Məsələn, bir hambal milyoner olmaq fikrinə düşər və bu çətin məqsədə nail olsa belə, bu əmələ böyüklük namı verilməz. Fəqət, bir fərd öz mühitinin faydasını düşünərək şəxsi üçün deyil, qövmü və yaxud milləti üçün bir əməl bəslərsə, buna böyük əməl demək olar, bu kimi adamlara da böyük əməlpərvərlər, yaxud məfkurəçi ismi verirlər" (Göyüşov, 1993: 208).

Rəsulzadə daha sonra yazır ki, millətlərin həyatı da ancaq bu vicdanın inkişafı sayəsində mümkün olub, ancaq bu vicdanın təsirləridir ki, milli ideal hasil olur. Milli idealın (imanın) hökmləridir ki, millətlər özlərinə şanlı və şərəfli bir dirilik təmin edə bilirlər. O, milliyyət və millət məsələlərini araşdırarkən Qərb alimləri Madzi və Durkheymin təhlil edərək: “Millət anlamını ifadə etmək üçün dilimizdə iki söz vardır: Milliyyət və Millət. Bunlardan birincisi insani, dini, irqi, qövmi, tarixi, coğrafi, iqtisadi və siyasi amillərin təsiri ilə meydana gələn etnik bir topluluğu ifadə edir.

İkincisi isə bu topluluqdan doğan ümumi bir iradəni anladır. Madzinin məhşur tərifinə görə, millət torpağın, mənşəyin, əxlaq ilə adətlərin və dilin birliyindən başqa, həyatında və ictimai vicdanında anlaşma və ortaqlıq yaratmış bir insan kütləsinə deyilir. Durkheymin nəzərində isə etnik amillər və yaxud tarixi səbəblərlə eyni qanunlar altında yaşamaq və tək bir dövlət qurmaq istəyən insan kütləsinə millət deyilir. Madzinin tərifi ilə Durkheymin tərifi arasında ifadə fərqinə diqqət etmək lazımdır: Birincisində millət ünsüri və tarixi bir hadisədir. İkincisində millət ictimai və iradi bir hadisədir. O, rüşeymdir, bu, uşaqdır. O, ağacdır, bu, meyvədir. O, anadır, bu, baladır. O, milliyyətdir, bu, millətdir”.

M.Ə.Rəsulzadə milləti təşkil edən, formalaşdıran komponentlərdən ən böyük üstünlüyü dilə verirdi: “Çünki dil millətin böyük hissəsidir. O, millətin həm zahiri, həm də beynidir. Millətləri bir -birindən ayıran ən böyük əlamət məhz dildir. O, haqlı olaraq dili bir millətin varlığının əsas meyarı sayır, milliyyətin ümdə rüknünü təşkil edən şey dildir deyirdi. Dil milliyyətin hamısını təşkil etməsə də yüzdə doxsanını vücuda gətirən böyük bir amildir. Bir milləti məhv edib aradan götürmək qəsdində olan siyasilər də əsl bunun üçündür ki, təmsil (assimilyasiyon) əməliyyatı icra edərkən ən birinci fikirlərini dildə verər və ən əvvəl bir millətin dilini yaddan çıxarmağa səy edərlər. Dil bir millətin yeganə rüknü deyildir. Bir millətin vücuda gəlməsi üçün dil ilə bərabər digər iştiraki şeylər də vacibdir. Fəqət dil bunların ən mühümüdur. Həqiqətən dil milləti hər şeydən daha gözəl təmsil edir, millət dil vasitəsilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilər. Dil millətlə bərabər doğar, onunla bərabər yaşar və tərəqqi edər” (Sultanlı, 1993: 144).

Onun fikrincə, dil ilə yanaşı, dinin də millətin formalaşmasında rolu az deyildir. Din hər nə qədər dildən sonra gələn bir amil olsa da bəzi şərait daxilində ondan daha təsirli qüvvət şəklini də ala bilər. O, millətin formalaşmasında İslam dininə mühüm yer verməklə yanaşı, dəfələrlə bildirmişdir ki, millətlə Din arasındakı fərqlər nəzərə alınmalıdır. Çox təəssüf ki, bu hal özünü indiyə qədər biruzə verir. Din ilə milləti qarışdırmaq olmaz. Millət və dinin bir-birindən ayrı mürəkkəb, anlaşılmaz şəkildə yox, aydın olaraq tamamlanması lazımdır. Müsəlman ilk növbədə milli kimliyini tanımalıdır. Lakin dinlərin millətlərin həyatı üzərində təsirləri vardır, heç bir millət dinsiz yaşaya bilməz (Əlizadə, 2003: 166).

Millətlərin formalaşmasında, tarixində adət-ənənələrin də mühüm rol oynadığını deyən Rəsulzadə: “Keçmişini yaxşıcasına tədqiq etmiş olan millətlər daima mazinin ölüb torpaqlar altında çürümüş olan qəhrəmanlardan birər ideal modeli yapıb da, onu gələcəyin bir nümuneyi-gəmasəti kəsdirirlər" - deyə vurğulayırdı. M.Ə.Rəsulzadə yaradıcılığında dövlət, hakimiyyət, idarəetmə və parlament anlayışına da toxunmuşdur. O, sosial-demokrat olarkən dövləti belə təsəvvür edirdi: “Dövlət işlərində firqə, millət, məzhəb deyil, mülkiyyət, dövlət və padşahlıq cəhətləri gərək nəzərdə olsun. Əyalətləri mərkəzi müttəsil etmək üçün, mənəvi, maddi ittisal üçün, ancaq ayırmağa, qaçırmağa və qeyri-məzun fikri-təşəbbüslərə sövq etməyə mövcib qüvvəyyi-qəhriyyə deyil,

ittihada, birliyə, müvafiqətə səbəb olan qüvveyi-mənəviyyeyi hüquqiyyə gərək meydanə gəlsin". Daha sonra qeyd edirdi ki, dövlətlə millət arasında təzad bir mübarizə gedir, dövlət və millət kəlmələrini mütəzad və mütəbariz mənada işlədirik, çünki dövlət də millətin bir şəkli-digəridir. Millət özək, dövlət qabıqdır. Millət Fədaisinə görə, ideal cəmiyyətdə zor heç nəyi həll etməməlidir. Ümumiyyətlə, demokratik cəmiyyət Rəsulzadənin dövlət siyasətinin tərkib hissəsi olub (Süleymanova, 1999: 419).

Liberal dövlətin mahiyyətinə gəlincə, M.Ə.Rəsulzadə yazır: "Liberalizim, dövlətin vətəndaş üzərindəki hakimiyyətini ən az dərəcəyə endirib, onu yalnız daxili asayiş ilə xarici əmniyyət təmin edən cəmiyyət xidmətində və nəzarətində bir müəssisə görmək istəmiş; dinin dünya işlərindən ayrılığını tələb edərək, vicdanların hər cür təzyiqdən azadlığını gözə almış... Liberalizmdə əsas ideal, fərdin ən çox hürriyyəti və dövlətin vətəndaşlar arasındakı qarşılıqlı münasibətə ən az müdaxiləsidir".

M.Ə.Rəsulzadənin son olaraq ortaya qoyduğu milli təsanüd sistemidir ki, onun da mahiyyətində məhz türkçülük-sosial, demokrat-islam düsturu, yəni milli təsanüd (solidarizm) ideyası dayanır. Onun dövlət, millət, din, dil, milli əxlaq və s. məsələlərlə bağlı fikirləri sosial-fəlsəfi baxışlarının mühüm hissəsini təşkil edir və dünyagörüşünün mahiyyətində milli, dini, demokratik, çağdaş dəyərlərin hamısı öz əksini tapıb.

Millətin fəlsəfəsini özünə qaytarmaq, həmçinin bu fəlsəfənin əsasında cumhuriyyət qurmaq həm tarix, həm də fəlsəfə tarixi üçün dəyərli örnəklərdəndir. Ölkələrin əksəriyyətində milliləşmə yalnız müstəqil dövlətin mövcudluğu daxilində baş vermişdir. M.Ə.Rəsulzadə isə öz ölkəsinin imperiya müstəmləkəsində olduğu bir zamanda, mənəvi aşınmanın son həddə çatdığı bir dövrdə ideya silahdaşları ilə birlikdə bu müqəddəs işə başlamış, milli dövləti, milli mövcudluğumuzu sübuta yetirən AXC-ni qurmuşdur. Məhz bunlar Milli Mogikan, Millət Fədaisinin sosial-fəlsəfi, milli və milliyyət fəlsəfəsinin əsasını təşkil edir (İmanov, 2005: 354-356).

## Nəticə

O, AXC-ni yaratmaqla xalqın özünə olan inamını bir daha bərpa edib, həmçinin dünyaya sübut edib ki, müstəqillik yalnız zorakılıq, inqilab yolu ilə deyil irəli sürülən siyasi-ideoloji, elmi-fəlsəfi prinsiplərin, aparılan düzgün siyasət nəticəsində də əldə edilə bilər. Onun dövlət, hakimiyyət, millət, din, dil və digər məsələlər ilə bağlı fikirləri, verdiyi kateqorik təriflər bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Özünün ictimai-siyasi, elmi-fəlsəfi görüşləri ilə tariximizdə müasir, hüquqi, demokratik dövlətçiliyimizin əsasını qoymuş, dövlətçilik məsələsinin üzərində dərindən işləyərək yeni bir ideyaya gəlmiş, milli təsanüd sistemini önə çəkib sırf solçuluqla yanaşı , qatı millətçiliyi də qəbul etməmiş, millətçiliyin nasionalizm yox, patriotluq mənasında qəbul edilməsini önə çəkmiş, milli dövlətçiliyi sosial məsələlərlə uzlaşdırmışdır. M.Ə.Rəsulzadə mədəniyyətimizin, adət-ənənələrimizin unudulmamasında, milli şüurun formalaşmasında əlindən gələni etmiş, dövlətçiliyimizin nə qədər önəmli bir şey olduğunun aşılanması üçün yeni nəslin yaddaşında böyük və silinməz bir iz buraxmış, ən əsası isə bütün bunları edərkən heç bir fədakarlıqdan, əzab-əziyyətdən çəkinməmiş, həyatda yeganə varlığı olan ailəsini də bu yolda qurban vermişdir.

## Ədəbiyyat

1. Hüseynov, Ş. (1992). M.Ə.Rəsulzadə. Bakı, 3 s.
2. Ələkbərov, F. (2007). M.Ə.Rəsulzadənin dünyagörüşü. Bakı, s.205-216-221.
3. Acalov, A. (1991). M.Ə.Rəsulzadə. Bakı, 11 s.
4. Göyalp, Z. (1991). Türkçülüyün əsasları. Bakı, 175 s.
5. Yaqublu, N. (1991). M.Ə.Rəsulzadə. Bakı, 12 s.
6. Qəndilov, S. (2007). Politoligiya. Bakı, 37 s.
7. Rüstəmov, İ. (1992). XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikrin vəhdəti. Bakı, 120 s.
8. Göyüşov, Z. (1993). Azərbaycan maarifçilərinin etnik görüşləri. Bakı, 208 s.

9. Sultanlı, V. (1993). Məmməd Əmin Rəsulzadənin ədəbi dünyası. Bakı, 144 s.
10. Əlizadə, S. (2003). M.Ə.Rəsulzadə və İslam. Bakı, 166 s.
11. Süleymanova, S. (1999). Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu-XIX əsrin əvvəlləri). Bakı, 419 s.
12. İmanov, H. (2005). Fəlsəfə. Bakı, s.354-356.

Göndərilib: 12.03.2024 Qəbul edilib: 17.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/168-176

**Sevil Mirzəliyeva**
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi
Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu
sevil.mirzeliyeva55@gmail.com

# TARİXİ ŞƏHƏR VƏ TARİXİN İZLƏRİNİ GÜNÜMÜZƏ DAŞIYAN MEMARLIQ İNCİLƏRİ

**Xülasə**

Şəki Azərbaycanın ən qədim şəhərlərindən biridir. 2700 ildən çox yaşı olan tarixi şəhərin kökləri bizim eradan əvvəllərə kimi uzanır.

1772-ci ildə fəlakətli sel axını nəticəsində qədim Şəki şəhəri demək olar ki, tamamilə dağılır. XVIII əsrin ikinci yarısında yenidən tikilmiş Şəki şəhəri özünün vahid bir üslubu və memarlığında səmərəli istifadə edilmiş yerli təbiətin gözəlliyi ilə vəhdət təşkil edən dərə-təpəli relyefdə yerləşən tarixi tikililəri ilə göz oxşayır. Günümüzə gəlib çatan tarix-memarlıq abidələrinin də əksəriyyəti həmin dövrdə qurulub, yaradılmışdır.

Tarixi abidələri və planlaşdırma quruluşunun əksər hissəsini günümüzədək yaxşı saxlamış Şəki şəhərinin tarixi hissəsində 24 noyabr 1967-ci il tarixində Azərbaycan SSR Nazirlər Sovetinin 594 nömrəli qərarı ilə "Yuxarı Baş" Tarix Memarlıq Qoruğu yaradılmışdır. UNESCO-nun Ümumdünya İrs Komitəsinin 07 iyul 2019-cu il tarixində Bakıda keçirilən 43-cü sessiyasında Şəki Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir. 283 hektar ərazini əhatə edən qoruqda dünya, ölkə və yerli əhəmiyyətli 83 abidə dövlət tərəfindən qeydiyyata alınaraq mühafizə olunur. Dövlət qeydiyyatına götürülmüş abidələrin sırasında məscidlər, minarələr, karvansaraylar, hamamlar və başqa tarixi əhəmiyyətli tikililərlə yanaşı şəxsi mülklər - yaşayış evləri də mühafizə olunurlar. Sözügedən abidələr tarixin izlərini günümüzə daşıyan memarlıq inciləridir.

Bu məqalədə məqsəd Şəkinin tarixinə qısa da olsa nəzər salmaq, böyük ipək taciri olan Hüseynbəyovların mülkləri ilə tanış olmaqdır.

***Açar Sözlər:*** *Şəki, tarixi şəhər, Yuxarı Baş, qoruq, memarlıq inciləri, mülklər*

**Sevil Mirzaliyeva**
State Tourism Agency of the Republic of Azerbaijan
Sheki "Yukhari Bash" National Historical-Architectural Reserve
sevil.mirzeliyeva55@gmail.com

## Historical city and architectural gems that carry the traces of history to the present day

**Abstract**

Sheki is one of the oldest cities of Azerbaijan. The roots of the historic city, which is over 2,700 years old, go back to the era BC.

In 1772, as a result of a catastrophic flood, the ancient city of Sheki was almost completely destroyed. Sheki, reconstructed in the second half of the XVIII century, fascinates with its historical buildings located in the valley-hill relief, which are united by its significant architectural style and the beauty of the local nature. Most of its historical and architectural monuments that have survived to this day were constructed in that period.

By Resolution of the Council of Ministers of the Azerbaijan SSR No. 594 on November 24, 1967, the National Historical and Architectural Reserve "Yukhari Bash" was created in the historical part of the city, which preserved most of the monuments and planning structure. On July 07, 2019, at the 43rd session of the UNESCO World Heritage Committee in Baku, together with Sheki Khan's Palace, the historical center of Sheki was included in the UNESCO World Heritage

List. In the reserve, which covers an area of 283 hectares, 83 monuments of worldwide, national and local importance are registered and protected by the state. Along with mosques, minarets, caravanserais, baths and other historically significant buildings, private properties - residential houses are also protected among the monuments registered by the state. These monuments are the architectural pearls that carry the traces of history to the present day.

The purpose of this article is to take a brief look at the history of Sheki and to get acquainted with the properties of the prominent silk merchant generation Huseynbeyovs.

***Keywords:*** *Sheki, historical city, "Yukhari Bash", reserve, architectural gems, estates*

## Giriş

*Elə tarixi şəhərlər var ki, onların Azərbaycan tarixində, Azərbaycan xalqının formalaşmasında, Azərbaycanda dövlətçilik əsaslarının yaranmasında xüsusi rolu vardır. Şəki o şəhərlərdəndir...*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

Şəki Azərbaycanın ən qədim şəhərlərindən biridir. Şəki bölgəsində Azərbaycan xalqının formalaşmasında mühüm rol oynamış kimmer-iskit-sak türkləri hələ eramızdan əvvəl VIII əsrdə toplu halda məskən salmış və əsrlər boyu burada yaşamışdırlar. Arxeoloji qazıntı materialları ilə yanaşı qədim mənbələrdə bu barədə zəngin faktik materiallar vardır (Şəki. Biblioqrafik göstərici, 2019). Müasir Şəki (Saki // Şaki) şəhəri bölgədəki "Sakan" adlı tarixi vilayətin yadigarıdır. İlk mənblər sübut edir ki, Şəki ən azı 2700 illik tarixə malikdir.

Şəki şəhərinin adı uzun müddət (1840-1968-ci illər) Nuxa da adlanmışdır. Doğrudur, XVIII əsr də daxil olmaqla şəhərin adı mənbələrdə və rəsmi sənədlərdə Şəki idi. Rusiyaya birləşdirildikdən sonra da xanlığın ərazisi inzibati vahid olmaq etibarı ilə rəsmən Şəki əyaləti adlanırdı. Yalnız 1840-cı il islahatı ilə bütün əyalətə Nuxa qəzası, qəzanın mərkəzinə isə Nuxa adı verilmişdir (İsmayılov, 1981). Qəza 1846-cı ildən Şamaxı quberniyasının tərkibinə daxil olmuşdur.

1772-ci ildə Kiş çayının daşması nəticəsində qədim Şəki şəhəri demək olar ki, tamamilə dağılmışdı. Şəhər əhalisinin bir qismi tələfata uğramış, bir hissəsi isə başqa yerlərə köçüb getmiş, bir qismi də indiki şəhərin yerləşdiyi ərazidə məskən salmışdı. Şəki şəhərində baş vermiş fəlakət hətta XIX əsr mətbuatının da diqqətini cəlb etmişdir. "Kavkaz" ("Kafkaz"qəzeti, 1846) qəzeti yazırdı: "Dərədən böyük sürətlə çıxan Kiş çayının daşması nəticəsində şəhər yerlə yeksan oldu, yaşayış evləri və zəngin ipəkçilik bağları əvəzinə böyük daş səhrası əmələ gəldi, minlərlə adam qudurmuş selin qurbanı oldu. O vaxtdan salamat qalan əhali dərənin şərqində olan dağ ətəklərinə köçdülər və indiki Nuxanı saldılar".

Təzə şəhər Qafqaz dağlarının qollarına söykənən böyük bir ərazidə, gözəl mənzərəli sahədə yerləşmişdir. Şəhərin çox maraqlı plan quruluşu var; şərqdən qərbə axan Qurcana çay şəhəri iki hissəyə - şimal yüksəklik hissəsinə və cənub düzənlik hissələrinə ayırır. Şəhərin memarlıq quruluşunu təşkil edən təbii element Qurcana çay olmuşdur. Dəyirmanarx çayı isə şəhərin quruluşunda ikinci dərəcəli rol oynayır.

Köhnə şəhərin memarlığına aid demək olar ki, məlumat yoxdur. Ancaq o dövrdə, daha doğrusu 1647-ci ildə Şəkidə səfərdə olmuş türk səyyahı Evliya Çələbi tərəfindən Şəki haqqında toplanmış məlumata istinad etmək olar. Onun verdiyi məlumata görə, daşdan tikilmiş gözəl Şəki qalası təpəlikdə yerləşirdi. Qalanın Şirvan və Gəncə adlanan iki darvazası var idi. Şəhərdə üç min ev, yeddi məscid, karvansaraylar, hamamlar və kiçik bazar meydanı var idi (Chelebi, 1914). Bu məlumatlara görə o dövrdə Şəki qaladan və ondan kənarda yerləşən çox geniş tikintilərdən ibarət olub ki, burada da "bərabəri olmayan ipək" istehsal edilərmiş.

İndiki şəhərin gözəl mənzərəsi, dərə-təpəli relyefi və planlaşdırma xüsusiyyəti onun tikilişinə böyük təsir göstərir. Azərbaycanın bir çox orta əsr şəhərlərindən fərqli olaraq Şəkidə tikinti eyni vaxtda aparılır və küçələr də qısa müddətə salınırdı. Şəhər məhəllələrə bölünür, hər məhəllənin öz meydanı, məscidi və hamamı olurdu. Bu da şəhərin özünə məxsus memarlıq üslubunun

formalaşmasında az rol oynamamışdır. Yeni şəhər sürətlə tikilir və inkişaf edirdi. Şəkinin əsas şəhər tikinti xüsusiyyətlərindən biri də şəhərin gil borularla çəkilmiş su kəmərindən su ilə yaxşı təmin olunması idi (Salayeva, 1976).

Şəkini başqa şəhərlərdən fərqləndirən bir cəhət də onun çox səliqli olmasıdır. Şəkinin bu xüsusiyyəti haqqında XVIII-XIX əsrdə Şəkidə səfərdə olmuş səyyahlar öz səyahətnamələrində (xatirələrində) yazmışdırlar. Puşkinin dostu general Rayevski də Şəkinin gözəl mənzərəsinə heyran olaraq 1826-cı il 25 oktyabr tarixli məktubunda yazırdı: "Şəki xanlığının paytaxtı Şəkidən iki keçidlik məsafədəki düşərgədəyəm. Mən bu diyarı böyük bir heyranlıqla gəzirəm, bizim düşərgə nar, yulğun, çinar meşəsində yerləşir... Şəki çox gözəldir, bura böyük miqyasda Baxçasaraydır" (6).

XVIII əsrdə Şəki xanlığın siyası mərkəzi olmaqla bərabər mühim sənətkarlıq və ticarət mərkəzi idi. Şəki əhalisi əsas etibarilə ipəkçilik, sənətkarlıq və ticarətlə məşğul olurdu. Şəki istər iqtisadi, istər sosial, istərsə də mədəni sahədə çox sürətlə inkişaf edirdi. İpək alveri və başqa ticarət əməliyyatları əsasən karvansaraylarda və bazarlarda aparılırdı. Təkcə onu qeyd etmək lazımdır ki, həmin dövrdə Şəkidə yüzlərlə dükan, 8 dalan bazarı, 5 karvansaray var idi.

Şəhərin böyük ipək yolu üzərində yerləşməsi sayəsində yaranmış ticarət münasibətləri, xüsusilə də Səfəvilər və Qacarlar dövründə İranla, Osmanlı dövləti ilə, daha sonra Rusiya ilə əlaqələr memarlıq üslublarına öz təsirini göstərmişdir.

Xanlıqlar dövründə Azərbaycanda rəssamlıq və memarlıq sənəti yüksək inkişaf etmişdir. Şəki Xan Sarayı memarlıq və rəssamlıq sənətinin ən gözəl nümunələrindən biridir. Görkəmli şair Nazim Hikmətin sözlərilə desək, "əgər Azərbaycanın başqa qədimi tikililəri olmasaydı, bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi".

XIX əsrdə İqtisadi inkişaf sayəsində İpək tacirlərinin sayı durmadan artır, bu da öz növbəsində fabrik, sex, qans binalarının tikintisi ilə yanaşı şəxsi yaşayış evlərinin tikintisində də inkişafa səbəb olmuşdur. Bəy, tacir evləri əsasən iki və ya üç mərtəbəli, əsas fasadları həyətə yox, birbaşa küçəyə (Fatulayev, 1963) doğru inşa edilirdi. Fasadların, eləcədə pəncərə ətrafı çərçivələrin, evin künclərinin və digər hissələrinin dekorasiyaları artır və zənginləşir. Bu tip evlərdə fasadların konturunu və sxemini zənginləşdirən kiçik ölçülü eyvanlardan daha çox istifadə edilirdi. Onlar əsasən evin küçəyə tərəf baxan fasadlarında olur. Bu, isə öz növbəsində əsas fasadı bağçaya tərəf olan ənənəvi evin görüntüsünü dəyişirək daha çox küçəyə baxan tip formalaşdırır. Bununla belə ənənəvi materiallardan hörülmüş divarları, eyvanları, hündür damları, çardaqları və geniş həyətləri olan evlər də qorunub saxlanılır.

Şəhərdə inşa olunan karvansaraylar, qalalar, müxtəlif müdafiə qurğuları, ictimai binalar, hamamlar, məscidlər və minarələr, xüsusi memarlıq üslubuna malik olan yüzlərlə şəxsi yaşayış evləri - mülklər, o cümlədən Xan sarayı, Şəkixanovların evi və başqa tarixi abidələr Azərbaycan mədəniyyətinin nadir inciləridir. Bütün bunlar Şəkini Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən birinə çevirmişdi. Bu baxımdan qədim memarlıq ənənələrini qoruyub saxlamış Şəki bütün Azərbaycanın açıq səma altında yeganə muzey- şəhərdir.

İndi isə muzey-şəhərimizi bəzəyən tarixi abidələrdən XIX əsrin sonu XX əsrin əvvəllərində inşa edilmiş xalq yaşayış evlərinin zəngin nümunələrindən sayılan Hüseynbəyovların mülklərinə nəzər salaq. Mülklər "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu (7) ərazisində, Qala divarlarının şərq hissəsində, M.F.Axundzadə prospekti ilə Giləhli küçəsinin kəsişməsində geniş bir ərazidə yerləşir. Ərazi ümumilikdə relyefdə yerləşir, lakin buna baxmayaraq mülklərin yerləşdiyi həyət özü də hündürlük fərqinə görə bir neçə hissəyə ayrılır. Ümumi torpaq sahəsi 14183 kv.m olan ərazidə altı qədim mülk və başqa tikililər yerləşir. Həmin mülklərdən tikinti üslubuna və memarlıq elementlərinin zənginliyinə görə fərqlənən dörd mülk Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə (3 noyabr 2021-ci il tarixli, 3 nömrəli əlavə-yerli əhəmiyyətli abidə kimi 4996-18 – 4996-21-ci bəndlər əlavə edilsin) dövlət mühafizəsinə götürülmüşdür.

ELMİ İŞ Beynəlxalq Elmi Jurnal. 2024 / Cild: 18 Sayı: 5 / 168-176 ISSN: 2663-4619
SCIENTIFIC WORK International Scientific Journal. 2024 / Volume: 18 Issue: 5 / 168-176 e-ISSN: 2708-986X




Əvvəllər "istirahət evi" ("Domotdıx") (9) adlanan 12 otaqdan ibarət olan bina (12. şəkil-xəritə) və 11 otaqdan ibarət olan"Birinci Sovet məktəbi" ("Pervaya Sovetskaya şkola") adlanan bina Hüseynbəyovlar tərəfindən inşa edilmişdir.

Tanınmış maarifçi alim Əhməd Nəbiyevin əlyazmalarında Hüseynbəyovların Şəki şəhərində çoxlu sayda baqqal dükanlarının və apteklərinin də olduğu yazılır. Hüseynbəyovlar soyunun vərəsələrindən olan Hüseynbəyov Nəbi Məmməd oğlunun müsahibə zamanı dediklərinə görə ulu babalarının nəinki Şəkidə, həmçinin Tiflisdə malikanələri və Tiflis Şeytan bazarında çoxlu sayda dükanları olmuşdur. Hüseynbəyovlar hələ o dövrdə təhsilə böyük önəm vermişdirlər. Adlı-sanlı ipək taciri olan ulu baba Hüseyn bəy ilk təhsilini Gürcüstanda Qori seminariyasında almışdır. Oğlu İsmayıl bəy isə Peterburqda mühasibatlıq üzrə ali təhsil almışdır (11).

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakıda və əyalətlərdə yerləşən xan-bəy mülklərinin müsadirə olunmasına başlanılmışdır. Bu posesdən Hüseynbəyovların mülkləri də kənarda qalmamışdır. Belə ki, həmin mülklər 1922-ci ildə boşaldılaraq müsadirə edilmişdir.

Şəki İcraiyyə Komitəsinin Rəyasət Heyətinin 21 mart 1923-cü il tarıxli, 10 nömrəli iclas protokoluna əsasən yuxarıda adları çəkilən mülklərin (Hüseynbəyovların mülklərinin) saxlanılması və təmir xərcləri baha olduğundan, həmin mülklər yenidən sahiblərinə qaytarılır (10).

Lakin həmin illərdə Sovet hökumətinin kollektivləşmə siyasəti "xalqın kəskin narazılığına səbəb olmuşdur", beləliklə də 1930-cu ildə Şəkidə antisovet üsyanı baş verdi. Baş vermiş Şəki üsyanı və 1930-1937-ci illər represiya dövründə Hüseynbəyovlar sürgün olunmaq qorxusu ilə mülkləri boşaldaraq, yaşamaq üçün qohumlarının evlərinə köçmüşdürlər.

Sovet hakimiyyəti dövründə həmin binalardan müxtəlif məqsədlər üçün istifadə edilmiş, bir çox dövlət orqanları yerləşdirilmişdir. Sonuncu dəfə isə sözügedən binalarda 1970-ci illərin sonlarında Şəki rayonlararası uşaq xəstəxanası (13) yerləşdirilmişdir. 2020-ci ildə uşaq xəstəxanası başqa binaya köçürüldüyündən mülklər yenidən boşaldılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yerli əhəmiyyətli abidə kimi dövlət mühafizəsinə götürülmüş mülklərin (abidələrin) memarlıq planlaşdırma formalarına və tikinti üslubuna nəzər salaq.



1. Ümumi sahəsi 227,3 kv.m olan, 4996-18 inventar nömrəsi ilə qeydiyyata götürülmüş Hüseynbəyovların evi-1 abidəsinin yan fasadı Qurcana çayının (Qurcana çayının qolunun) sol sahilinə küçəyə paralel (M.F.Axundzadə prospektinə) inşa edilmişdir. Binanın tikilmə tarixi ön fasadda eyvanın sağ tərəfindəki pəncərənin üst hissəsinə bişmiş kərpiclə (1911-ci il) işlənmişdir. 1911-ci ildə inşa edilən yaşayış evi memarlıq planlaşdırma həllinə, tikinti üslubuna və memarlıq elementlərinə görə Şəki şəhərinin ənənəvi memarlıq xüsusiyyətlərini özündə əks etdirən memarlıq tarixi baxımından əhəmiyyətli bir tikilidir.

Xalq memarlığında ən mütərəqqi cəhətlərdən biri də yaşayış evlərində iki tərəfli eyvanın olmasıdır. Bu cür evlərə xalq arasında “əndərun-birun” (Əlizadə, 1986) tipli yaşayış evləri demişlər. Bu tip iki tərəfli eyvanlardan əsasən məişət işlərinin görülməsi üçün istifadə olunurdu, lakin sonralar vaxt keçdikcə eyvanlar qeyd etdiyimiz funksiyalarını itirərək binaya xüsusi estetik görünüş verməkdən ötrü inşa edilirdi.

Hüseynbəyovların evi - 1 abidəsini də bu tip yaşayış evləri qrupuna aid etmək olar. Binaya xüsusi gözəllik verən, həcm-məkan həllində xüsusi rol oynayan eyvanlardan biri ön fasadda, digəri isə yan fasadda yerləşir. Eyvanlar dairəvi en kəsikli, kapiteli və bazası olan yonma taxta sütunlardan yığılmış, sütun aralarına metal məhəccər, məhəccərin üzərinə isə taxta sürahi işlənmişdir. Eyvanların kənarı daxil olmaqla bütün binanın perimetri boyu şiləsərlərin kənarı taxtadan kəsmə bəzək elementləri ilə əhatələnmişdir. Yaşayış evi qaya daşı və bişmiş kərpiclə inşa edilmişdir. Birinci mərtəbənin əsas fasadları ikinci mərtəbəyə nisbətən daha sadə işlənmişdir, belə ki, pəncərə və qapı boşluqlarının üzərində kərpicdən yastı tağ yığılmış, fasdın daha rəngli və maraqlı görünməsi üçün hər sıra daş hörgünün üzərindən iki sıra kərpic hörgü işlənmişdir. İkinci mərtəbədə qapı-pəncərə kənarları kəpiclə haşiyələnmiş, pəncərə və qapıların üzərində üfüqi xətt üzrə işlənmiş kərpic hörgü pəncərə boşluqlarının arasında xüsusi həndəsi formalı elementlərlə-naxışlarla tamamlanmışdır.

İkinci mərtəbənin fasadında kərpic təkcə qapı-pəncərə tağları və yanlarında deyil, binanın xüsusi tərtibat üsulu ilə bəzədilməsində divar səthindən qabarıq şəkildə işlənmişdir. Bunda məqsəd işıq-kölgə effekti yaratmaq və kərpic vasitəsilə düzülən bəzək elementlərini-naxışları daha baxımlı etməkdir.

İkimərtəbəli yaşayış evinin ümumi planlaşdırma həlli yan-yana yerləşən altı otaqdan ibarətdir. Binaya əsas giriş ön fasaddandır, binanın daxilində bəzi otaqlardan bir-birinə keçid mövcuddur. Birinci mərtəbənin həyətə baxan yan fasadından bir başa beş otağa giriş var.

Hal-hazırda abidənin birinci mərtəbəsinin iki otağında MKS-nin S.Vurğun adına 1saylı kitabxana filialı yerləşir. Plan quruluşuna görə ikinci mərtəbə demək olar ki, birinci mərtəbənin oxşarıdır, lakin sonralar iki otaq arakəsmə ilə bölünmüşdür. Qışda binaların qızdırılmasında divar peçlərindən istifadə olunmuşdur. Xüsusi memarlıq dəyəri olan yaşayış evi Hüseynbəyovların əsas mülklərindən biri hesab edilir.



2. Ümumi sahəsi 511,6 kv.m olan, 4996-19 inventar nömrəsi ilə qeydiyyata götürülmüş Hüseynbəyovların evi-2 abidəsi ümumi həyətyanı torpaq sahəsində, demək olar ki, ərazinin mərkəzində inşa edilmişdir. Zirzəmili, ikimərtəbəli yaşayış evinin ümumi planlaşdırma həlli digər yaşayış evlərinə nisbətdə müasir plan quruluşu ilə seçilir. Bu da yaşayış evinin ümumi ərazidə yerləşən digər tikililərlə eyni dövrdə, ancaq il fərqi ilə daha sonra tikilməsi qənaətinə gəlməyimizə imkan verir. Həm də Sovet hakimiyyəti dövründə ərazidə yerləşən binalara bəzi müdaxilələr edilmişdir ki, sözügedən binanın da fasadı suvanmış, ola bilsin ki, plan quruluşunda da bəzi dəyişikliklər edilmişdir. Binaya daxil olduqda geniş foye və foyenin qarşısında ikinci mərtəbəyə qalxmaq üçün mərkəzdə yerləşmiş pilləkən qəfəsi binanın daxili interyerinə daha dəbdəbəli görünüş verir. Plan quruluşuna görə hər iki mərtəbə demək olar ki, eynidir. Sadəcə olaraq, ikinci mərtəbədə otaqlara sərbəst girişin təmin olunması üçün dəhliz sistemi yaradılmışdır. Binanın zirzəmisində iki otaq və hər otağın da ayrıca girişi vardır. Binanın əsas giriş qapısı qərb fasadında, digər giriş qapısı isə şərq fasadında yerləşir. Binanın ön fasadında əsas giriş qapısının üzərində yerləşən eyvan 6 ədəd dairəvi en kəsikli, kapiteli və bazası olan yonma taxta sütunlardan yığılmış, sütun aralarına metal məhəccər işlənmişdir. Eyvanın şiləsərinin kənarı kəsmə bəzək elementləri olan taxta mədaxillə əhatələnmişdir. Eyvanı birinci mərtəbədə qoyulmuş üç ədəd dəmir-beton sütun (ola bilsin bu sütunlar Sovet hakimiyyəti dövründə qoyulub) saxlayır. Yaşayış evi qaya daşı və bişmiş kərpiclə inşa edilmişdir. Birinci mərtəbədə pəncərələr düzbucaqlı formasında, ikinci mərtəbədə isə pəncərələrin yuxarı hissəsi yarım dairəvi tağ formasında (qərb fasadından iki pəncərə istisna olmaqla) yığılmışdır. Binanın fasadının dekorasiyası ərazidə yerləşən digər mülklərə nisbətən daha sadə həll edilmişdir, belə ki, birinci mərtəbədə kərpic hörgü bəzək elementi olaraq təkcə qapı-pəncərə boşluqlarının üst hissəsində, ikinci mərtəbədə isə hörgü üfüqi xətt üzrə binanın perimetri boyu bir neçə sıra divar səthindən qabarıq şəkildə işlənmişdir. Pəncərə aralarını birləşdirən düz xətt üzrə işlənmiş hörgü, pəncərə tağları üzərindən aşaraq davam edir. Bu görüntü bir növ karvanı xatırladır. Xüsusi memarlıq üslubu ilə seçilən mülk həm də ümumi sahəsinin və həcminin böyüklüyü ilə digər mülklərdən fərqlənir.

3. 4996-20 inventar nömrəsi ilə qeydiyyata götürülmüş abidə özünə məxsus memarlıq üslubu ilə seçilir. Yaşayış evi iki mərtəbəlidir və hər iki mərtəbənin plan quruluşu oxşardır. Mərtəbələrin planlaşdırılması mərkəzdə yerləşən dəhliz sistemi ilə həll edilmişdir, belə ki, dəhliz vavitəsilə bütün otaqlara sərbəst girişin təmin olunması mümkündür. Eyni zamanda dəhliz vasitəsilə binanın arxasında yerləşən yardımçı tikiliyə keçid mövcuddur. Birinci mərtəbəyə əsas giriş ön (cənub) fasaddandır, ikinci mərtəbəyə isə qalxmaq üçün yan (şərq) fasadda yerləşən pilləkən qəfəsindən istifadə olunur.

Yaşayış evi qaya daşı və bişmiş kərpiclə inşa edilmişdir. Hər iki mərtəbədə qapı və pəncərə boşluqlarının üzəri yastı tağ formasında yığılmışdır. Digər tikililərdə olduğu kimi bu mülkdə də fasadların bəzədilməsində ikinci mərtəbəyə daha çox üstünlük verilib. Qapı və pəncərə boşluqlarının kənarları kəpic hörgü ilə çərçivəyə alınmış, boşluqlarının üzərində və ətrafında hörgü vasitəsilə xüsusi həndəsi formalı naxışlarlar işlənmişdir. Ön fasadda, əsas giriş qapısının üzərində yerləşən dekorativ elementlərlə zəngin eyvan, binanın estetik simasının formalaşmasında xüsusi rol oynayır.



Eyvan sütun və sütun başlıqlarının formasına, tağlarda kəsmə elementlərin çoxluğuna görə daha zövqlə və xüsusi incəliklə işlənmişdir. Birinci mərtəbədə eyvanı saxlayan iki ədəd dairəvi en kəsikli yonma taxta sütunların arasında taxtadan yastı tağ forması işlənmiş, tağın kənarları isə taxtadan kəsilmiş incə naxışlarla bəzədilmişdir. İkinci mərtəbədə isə eyvan beş ədəd düzbucaqlı enkəsikli sütundan yığılmışdır. Sütunların arasına yarımdairə taxta tağ forması yığılmış, yarımdairə tağ forması da öz növbəsində üç hissəyə bölünərək üçpərli maraqlı tağ forması (Salamzadə, Məmmədzadə, 1987: 107) əmələ gətirmişdir. Birinci mərtəbədə olduğu kimi ikinci mərtəbədə də tağların kənarları taxtadan kəsilmiş incə naxışlarla bəzədilmişdir. Sütunların arasına mərkəzi hissəsində romb forması olan taxta məhəccər vurulmuşdur.

4. 4996-21 inventar nömrəsi ilə qeydiyyata götürülmüş abidə - yaşayış evi ikimərtəbəlidir. Qaya daşı və bişmiş kərpiclə inşa edilmiş mülk yarıuçuq, qəzalı vəziyyətdə olduğu üçün plan quruluşu və forması haqqında tam fikir söyləmək mümkün deyil. Lakin binanın salamat qalmış hissələrinə baxdıqda görürük ki, mərtəbələrin planlaşdırılması dəhliz sistemi ilə həll edilmişdir. Binanın əsas fasadında eyvanın olduğu, sonradan isə zamanla uçub dağıldığı giriş qapısının üzərində movcud olan tirlərin yerləşdirildiyi boşluqlardan aydın görünür.



Bu mülkdə də fasadların bəzədilməsi-dekorasiyası ikinci mərtəbə özünü daha qabarıq şəkildə göstərir. Hər iki mərtəbədə qapı və pəncərə boşluqlarının üzəri yastı tağ formasında yığılmışdır. İkinci mərtəbədə qapı-pəncərə boşluqlarının kənarları kəpic hörgü ilə haşiyələnmiş, boşluqlarının üzərində və ətrafında hörgü vasitəsilə həndəsi formalı naxışlarla işlənmişdir. Fasadda birinci mərtəbə ilə ikinci mərtəbəni birləşdirən iki qat kərpic hörgü binanın perimetri boyu divar səthindən qabarıq şəkildə davam edir. Eyni tipli hörgü ikinci mərtəbədə pəncərə boşluqlarının alt hissəsində və binanın karniz hissəsində təkrarlanaraq fasadın dekorasiyasında və kompozisiyanın tamamlanmasında xüsusi rol oynayır.

Qeyd etməliyik ki, ərazidə yerləşən binaların fasadları üzləmə (fasada sonradan vurulur) naxışlarla bəzədilməmişdir. Həmin dövrdə xalq ustaları (memarları) binaların divarlarını hörməyə başladığı zaman, həmçinin fasad həllini, naxış kompozisiyanı da qurmağa başlayırdılar. Belə ki, bəzək elementləri- dekorativ naxışlar bişmiş kərpiclə çay və yaxud qaya daşının vəhdəti hörgü vasitəsi ilə binanın konstruksiyasına daxil olmuş olur. Bu səbəblə də illər, əsrlər ötsə də fasad

naxışları - elementləri qopmur, dağılmır, öz ilkin görkəmini nümayişkaranə şəkildə qoruyaraq saxlayır.

Hüseynbəyovların mülkləri kimi tanınan binaların hər biri planlaşdırma həllinə, formasına və memarlıq elementlərinə görə qismən bir-birindən fərqlənsə də, binaların yerli tikinti materiallarından; daş və kərpicdən inşa edilməsi, fasadların bəzədilməsində pəncərə ətrafı çərçivələrin, evin künclərinin, karniz hissəsinin və pəncərə arasında kərpiclə işlənmiş dekorativ elementlərin olması ümumilikdə bir harmoniya təşkil edir. Xalq memarlığının mütərəqqi cəhətlərini özündə cəmləşdirən, sərbəst planlaşdırma həlli ilə seçilən mülklər Şəki yaşayış evlərinin zəngin nümunələrindən hesab edilir.

Şəkidə nəsildən-nəslə keçmiş, xalq ustalarının ənənəvi üslubunda yaranmış yaşayış evləri, mülklər və başqa təyinatlı binalar, özünəməxsus tikinti ənənələrini əks etdirir. Bu da Azərbaycan memarlığında müasir bina tiplərinin sonrakı inkişafına öz müsbət təsirini göstərmişdir.

Son illərdə Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu ərazisində dövlət mühafizəsinə götürülmüş abidələrin təmir-bərpası geniş vüsət almışdır. Buna misal olaraq H.Əliyev fondunun dəstəyi ilə təmir-bərpa olunmuş Xan məscidini, Qala divarları daxilində Dövlət Turizm Agentliyinin dəstəyi ilə təmir-bərpa olunmuş Rəsm qalareyasını, Qoruğun İnzibati binasını (keçmiş göz xəstəxanası) misal göstərə bilərik. Təmir-bərpası davam edən binalardan Tarix muzeyinin binasını, Şəbəkə emalatxanasını, Qeyri-yaşayış binasınının (keçmiş endekrinoloji xəstəxana binası) adlarını qeyd edə bilərik.

Hal-hazırda Dövlət Turizm Agentliyinin təşəbbüsü və maliyyə dəstəyi ilə Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu ərazisində dövlət mühafizəsinə götürülmüş abidələrdə təmir-bərpa işlərinin aparılması tendensiya halını almışdır. Bu cür tendensiyanın davamı tarixin izlərini günümüzə daşıyan memarlıq incilərinin qorunmasına və gələcək nəsillərə çatdırılmasına vəsilə olacaqdır.

## Nəticə

Şəki orta əsr şəhərlərinə məxsus olan şəhərsalma mədəniyyətini, tarixi memarlıq abidələrini özündə qoruyub saxlayan unikal bir məkandır. "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu Şəkinin tarixi hissəsini əhatə edir, hal-hazırda qoruq ərazisində dövlət mühafizəsinə götürülmüş 83 abidə və çoxlu sayda tarixi tikililər vardır. Sevindirici haldır ki, Şəki şəhərinin tarixi hissəsində yerləşən mədəni irs nümunələrinin - tarixi abidələrin qorunub saxlanılmasına, xalqımızın zəngin mədəniyyətinin təbliğinə dövlət səviyyəsində böyük diqqət yetirilir. Dövlət qayğısı ilə yanaşı hər bir azərbaycanlının borcudur ki, tarixi şəhərimizi bəzəyən memarlıq abidələrini qoruyaq, tanıdaq və bizdən sonrakı nəsillərə ötürək.

## Ədəbiyyat

1. Şəki. Biblioqrafik göstərici. (2019). Tarix-diyarşünaslıq materialları. Bakı: Turxan NPB.
2. İsmayılov, M. (1981). Şəki. B.: Azərnəşr.
3. "Kafkaz"qəzeti. (1846). 15 iyun.
4. Chelebi, O. (1914). Seyakhet-name. Stambul (na turetskom yazyke).
5. Salamzadə, Ə.R., Məmmədzadə, K.M. (1987). Şəkinin memarlıq abidələri. Bakı: Elm nəşriyyatı, 107 s.
6. Arkhiv Rayevskikh, t. 1, SPb., 1908. N.N.Rayevskiy (Ml.) roditelyam. Tsit. po L.S.Bretanitskomu – Dvorets shekinskikh khanov. «Arkhitektura Azerbaydzhana» (Ocherki). Baku, 1952, 344 s.
7. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. Şəki Rayon Dövlət Arxivi, Fond 12, Saxlama vahidi 571.
8. Fatulayev. SH.S. (1963). Zhilyye doma v zasroyke gorodov Azerbaydzhana na rubezhe XIX-XX vv. Baku.
9. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, Şəki Rayon Dövlət Arxivi, Fond 102, Saxlama vahidi (1) 8.

10. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, Şəki Rayon Dövlət Arxivi, Fond 102, Saxlama vahidi 4.
11. Hüseynbəyovlar soyunun vərəsələrindən olan Hüseynbəyov Nəbi Məmməd oğlu ilə müsahibə.
12. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, Şəki Rayon Dövlət Arxivi, Fond 12, siyahı 1/1, Saxlama vahidi 13. (Xəritə)
13. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi, Şəki Rayon Dövlət Arxivi, Fond 12, Saxlama vahidi 1224.
14. Əlizadə, Q. (1986). Memarlıq nəzəriyyəsi və Azərbaycanda tikinti təcrübəsi. "Maarif" nəşriyyatı. Bakı.
15. Salayeva, R.D. (1976). Vodosnabzhayushchiye ustroystva gor. Sheki i Ordubada v feodal'nyy period. «Izv. AN Azerb. SSR», № 1

Göndərilib: 02.03.2024 Qəbul edilib: 28.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/177-185

**Tunjay Gazi**
University of Lodz
bachelor's degree
tuncaymantt@gmail.com

# TERROSIM IN MODERN WORLD: A HISTORICAL PRESPECTIVE

## Abstract

Terrorism, a persistent and evolving threat, continues to challenge global security in the 21st century. This article explores the historical roots of terrorism, tracing its evolution and examining contemporary challenges and future trends. Through an interdisciplinary lens, it analyzes the diverse strategies and responses employed to combat terrorism, emphasizing the importance of understanding root causes, fostering international cooperation, and upholding human rights in the fight against extremism. Drawing on lessons from history, this article offers recommendations for addressing current and emerging challenges, highlighting the need for proactive measures, resilience-building efforts, and a steadfast commitment to democratic values.

***Keywords:*** *terrorism, evolution, counterterrorism globalization, extremism, resilience*

**Tuncay Qazi**
Lodz Universiteti
bakalavriat
tuncaymantt@gmail.com

# Müasir dünyada terrorizm: tarixi perspektivliyi

## Xülasə

Davamlı və inkişaf edən bir təhlükə olan terror 21-ci əsrdə qlobal təhlükəsizliyə meydan oxumaqda davam edir. Bu məqalədə terrorizmin tarixi köklərini araşdırılması, onun təkamül prosesinin izlənilməsi, müasir çağırışları və gələcək tendensiyaları haqqında məlumat verilir. Eyni zamanda, terrorizmlə mübarizədə istifadə olunan müxtəlif strategiyalar və cavab tədbirləri təhlil edilir, ekstremizmə qarşı mübarizədə əsas səbəblərin dərk edilməsinin, beynəlxalq yoldaşlığın təşviq edilməsinin və insan hüquqlarının dəstəklənməsinin vacibliyini vurğulayır. Tarixi problemlərə söykənən bu məqalə cari və yaranan problemlərin öhdəsindən gəlmək üçün tövsiyyələr təklif edir, fəal tədbirlərə ehtiyacı vurğulayır, dayanıqlılığı artıran səylər və demokratik dəyərlərə sabit öhdəliyi açıqlayır.

***Açar sözlər:*** *terrorizm, təkamü,l terrorla mübarizə, qloballaşma, ekstremizm, dayanıqlıq*

## Introduction

Terrorism remains a defining feature of the modern world, posing complex and multifaceted challenges to global security and stability. From the anarchism of the late 19th century to the transnational extremism of the 21st century, terrorism has evolved in response to shifting political, social, and technological landscapes. This article seeks to explore the historical roots of terrorism, trace its evolution over time, and analyze contemporary challenges and future trends in the fight against extremism. By examining the diverse array of strategies and responses employed to combat terrorism, this article aims to offer insights into the complexities of the phenomenon and provide recommendations for addressing current and emerging threats. Through interdisciplinary analysis and critical reflection, we can gain a deeper understanding of terrorism and pave the path forward towards a more resilient and peaceful world.

The origins of modern terrorism can be traced back to the tumultuous period of the late 19th and early 20th centuries, characterized by significant political, social, and technological upheavals. First

aim is to delve into the historical roots of modern terrorism, tracing its evolution from earlier forms of political violence and revolutionary movements (Walter, 2001).

The seeds of modern terrorism were sown amidst the fervor of revolutionary movements in the 18th and 19th centuries. The French Revolution, with its radical ideologies of liberty, equality, and fraternity, inspired dissident groups across Europe to challenge the established order through violent means. Organizations like the Jacobins and the Carbonari employed tactics of intimidation, assassination, and sabotage to advance their revolutionary agendas, laying the groundwork for future terrorist movements.

The rise of anarchism in the late 19th century introduced a new paradigm of political violence known as "propaganda of the deed." Anarchist thinkers like Mikhail Bakunin and Peter Kropotkin advocated for direct action against oppressive institutions, arguing that individual acts of violence could serve as catalysts for revolutionary change. This ideology inspired a wave of terrorist acts, including the assassination of political leaders and the bombing of public spaces, carried out by groups like the Narodnaya Volya in Russia and the Black Hand in Serbia.

The 20th century witnessed the rise of nationalist movements in colonized regions seeking independence from imperial powers. Organizations like the Irish Republican Brotherhood, the Indian National Congress, and the Zionist movement employed tactics of guerrilla warfare and terrorism to challenge colonial rule and assert their right to self-determination. These struggles against colonial oppression laid the groundwork for modern terrorist organizations, emphasizing the use of violence as a means of political expression and resistance (Alexander, 2008).

The aftermath of World War I saw the collapse of empires, the redrawing of borders, and the emergence of new geopolitical realities. The Treaty of Versailles and the ensuing economic hardships fueled resentment and disillusionment among populations, providing fertile ground for extremist ideologies to take root. Radical movements like fascism and communism capitalized on social unrest, employing terrorism as a tool to destabilize governments and promote their agendas. The interwar period witnessed a surge in terrorist activities, from the Red Terror in Soviet Russia to the rise of fascist paramilitary groups like the Blackshirts in Italy and the Brownshirts in Germany.

The origins of modern terrorism can be traced to a complex interplay of historical, social, and ideological factors. The legacy of revolutionary movements, the spread of anarchist ideologies, the struggles for national liberation, and the upheavals of the interwar period all contributed to the emergence of contemporary terrorist organizations. By understanding the historical roots of modern terrorism, we can gain insights into its underlying causes and dynamics, informing more effective strategies for prevention and response in the present day.

State-sponsored terrorism, a phenomenon rooted in political strategy and international relations, has a complex history intertwined with the pursuit of political objectives by governments. This section aims to explore how certain states have employed terrorist tactics to advance their agendas, shedding light on the dynamics of modern warfare (James).

Throughout history, various regimes have resorted to state-sponsored terrorism as a means of coercion, intimidation, and achieving strategic goals. One notable example is the Nazi regime in Germany during World War II. Under Adolf Hitler's leadership, the Nazi government orchestrated acts of terror against civilian populations in occupied territories as a means of subjugation and control. The infamous Gestapo, the Nazi secret police, systematically carried out acts of violence, intimidation, and repression, instilling fear among those who opposed the regime.

Similarly, during the Cold War, both the United States and the Soviet Union engaged in state-sponsored terrorism as part of their broader strategies of geopolitical competition. The CIA's covert operations, such as Operation Ajax in Iran and Operation Condor in Latin America, involved supporting and training paramilitary groups to destabilize governments perceived as threats to American interests. Likewise, the Soviet Union supported various insurgent groups and revolutionary movements in regions such as Eastern Europe, Africa, and Asia, aiming to spread communist ideology and counter Western influence (Geyer).

In the contemporary context, state-sponsored terrorism continues to be a prominent feature of international relations, albeit often carried out with greater subtlety and deniability. Certain states have been accused of providing financial, logistical, and ideological support to terrorist organizations as a means of advancing their own geopolitical agendas. For example, Iran has been accused of backing groups like Hezbollah and Hamas, providing them with funding, weapons, and training to further its influence in the Middle East and challenge its regional rivals.

North Korea has also been implicated in state-sponsored acts of terrorism, including the bombing of Korean Air Flight 858 in 1987 and the cyberattacks targeting South Korean institutions. These actions, orchestrated by the North Korean regime, were aimed at instilling fear and undermining the stability of its adversaries.

Moreover, state-sponsored terrorism is not limited to overt acts of violence but can also manifest through tactics such as cyber warfare, propaganda campaigns, and covert intelligence operations. In an increasingly interconnected world, states have expanded their toolkit of asymmetric warfare, leveraging non-state actors to achieve their strategic objectives while maintaining plausible deniability (6).

The phenomenon of state-sponsored terrorism represents a dark aspect of modern warfare, where governments manipulate and exploit terrorist tactics to further their political goals. By examining case studies of countries known for sponsoring terrorism, we gain insight into the complex dynamics of statecraft, power politics, and the blurred lines between state and non-state actors in the contemporary security landscape.

During the Cold War, the ideological struggle between the United States and the Soviet Union profoundly influenced the tactics and strategies of terrorist groups around the world. This period was characterized by intense geopolitical competition, proxy conflicts, and covert operations, all of which contributed to the proliferation of extremist ideologies and the rise of terrorist movements.

One significant aspect of the Cold War was the emergence of proxy conflicts in regions considered strategic battlegrounds by the superpowers. Both the United States and the Soviet Union sought to extend their influence and undermine their rival's sphere of influence by supporting proxy forces and insurgent groups in various regions. These proxy conflicts often provided fertile ground for the growth of terrorist movements, as local actors were armed, trained, and financed by external powers to pursue their political objectives (McCoy, 2009).

One notable example of this dynamic was the Soviet intervention in Afghanistan in the 1980s. Following the Soviet invasion in 1979, the United States and its allies provided support to Afghan mujahideen fighters resisting the occupation. This support included weapons, training, and funding, effectively turning Afghanistan into a battleground in the larger Cold War struggle. The Afghan conflict not only fueled the rise of extremist ideologies but also provided a training ground for future generations of jihadists, including Osama bin Laden and al-Qaeda.

Covert operations were another hallmark of the Cold War era, with both superpowers engaging in clandestine activities to undermine their adversaries and advance their interests. The Central Intelligence Agency (CIA) and the Soviet KGB conducted covert operations in various parts of the world, including coup attempts, assassinations, and sabotage operations. These covert actions often had unintended consequences, fuelling instability and violence in regions already prone to conflict.

Moreover, the Cold War rivalry contributed to the proliferation of extremist ideologies and the radicalization of political movements across the globe. The ideological divide between capitalism and communism provided a fertile ground for extremist groups to recruit followers and justify their violent actions in the name of ideology. Whether inspired by Marxist-Leninist principles or anti-imperialist rhetoric, terrorist groups found ideological justification for their attacks on perceived enemies of their cause (Howard, 2007).

The Cold War had a profound impact on the tactics and strategies of terrorist groups, shaping the dynamics of conflict and violence in regions across the globe. Proxy conflicts, covert operations, and the proliferation of extremist ideologies all contributed to the rise of terrorism during this period. By examining the intersection of the Cold War and terrorism, we gain insight

into the complex interplay of geopolitics, ideology, and violence that characterized this turbulent era in world history.

The rise of transnational terrorism represents a monumental shift in the landscape of global security, marking a departure from localized conflicts to interconnected networks of extremism operating across borders. This part delves into the profound implications of this globalization of terrorism, analyzing the multifaceted factors that have facilitated the spread of extremist ideologies and the coordination of terrorist activities on a global scale.

At the heart of transnational terrorism lies the unprecedented interconnectedness of the modern world. The advent of advanced communication technologies, such as the internet and social media platforms, has revolutionized the dissemination of extremist propaganda and recruitment tactics. Terrorist organizations leverage these platforms to radicalize individuals, disseminate propaganda, and coordinate attacks with unprecedented speed and efficiency. The borderless nature of cyberspace allows extremists to transcend geographical barriers, reaching audiences across continents and indoctrinating vulnerable individuals into their ideologies (Pedre, 2006).

Globalization, characterized by increased economic integration and cultural exchange, has also played a significant role in the rise of transnational terrorism. Economic disparities, social grievances, and political instability are often exploited by terrorist groups to recruit disenfranchised individuals and exploit existing fault lines within societies. Moreover, the ease of travel and movement facilitated by globalization has enabled terrorists to operate across borders with greater agility, evading law enforcement and exploiting porous security systems.

The role of state sponsors of terrorism cannot be overlooked in the context of transnational terrorism. Certain states provide financial, logistical, and ideological support to terrorist organizations as part of their broader geopolitical agendas. These state sponsors of terrorism enable terrorist groups to establish safe havens, acquire resources, and conduct operations with impunity, exacerbating the challenge of combating transnational terrorism.

Furthermore, the interconnectedness of global financial networks has provided terrorists with access to illicit funding sources, including money laundering, drug trafficking, and organized crime. The globalization of finance has made it increasingly difficult to track and disrupt the flow of funds to terrorist organizations, allowing them to sustain their operations and expand their reach across borders (Callimachi, 2019).

optimal sample size in medical research, it is important to consider any subgroups of interest, and either target such subgroups directly in sampling strategy or account for expected sample size needs if only the whole population is to be investigated.

## Conclusion

An optimal sample size for use in epidemic and medical research studies was introduced in this study. A tool that a researcher could use in planning and conducting good quality research is presented and a discussion of various aspects of sample size consideration in medical research is intensively covered, in addition to the essentials in calculating power and sample size for a variety of applied study designs. Sample size computation for survey type of studies, observation studies and experimental studies based on means and proportions or rates, for assessing the categorical outcome are also presented. Enough details such as the power, significance level, mean or rate for the control group, minimal detectable difference, variance, and dropout rate should be clearly explained in this study. Any other factors that formed the basis of the sample size calculation should also be included. Recently, considerable interest has been focused on medical research after the beginning of COVIT19 pandemic. The resulting literature is scattered over many sources. Therefore, the paper aimed at giving some contributions in this field. Hence, to improve the quality of the sample size calculation of COVID-19 trials and related topics research, it is strongly suggested that all research teams should include a statistician or invite a statistician to evaluate the appropriateness of the sample size calculation. Eventually, the method for estimating sample size in epidemic or any health or medical study should be explained clearly with sufficient detail to permit its use in other protocols later.

## References

1. Gopi Chander, N. (2017). Sample size estimation. Jul-Sep; 17(3), pp.217-218. doi: 10.4103/jips.jips_169_17 PMCID: PMC5601499 PMID: 28936033.
2. Zhang, Q., Wang, Y., Qi, C., Shen, L., Li, J. (2019). Clinical trial analysis of 2019-nCoV therapy registered in China. J Med Virol. Accepted. [PMC free article] [PubMed] [Google Scholar].
3. Zhou, Y.H., Qin, Y.Y., Lu, Y.Q. (2020). Effectiveness of glucocorticoid therapy in patients with severe novel coronavirus pneumonia: protocol of a randomized controlled trial. Chin Med J. Article in press. [PMC free article] [PubMed] [Google Scholar].
4. Yelin, I., Aharony, N., Shaer-Tamar, E., Argoetti, A., Messer, E., Berenbaum, D. (2020). Evaluation of COVID-19 RT-qPCR test in multi-sample pools. medRxiv.2020.03.26.20039438.
5. Russel, V.L. (2001). Some Practical Guidelines for Effective Sample Size Determination. Dept of Statistics, University of Iowa.
6. Bellera, C.A. (2012). Calculating Sample Size in Anthropometry in V.R.Preedy (ed.), Handbook of Anthropometry: Physical Measures 3 of Human Form in Health and Disease, DOI 10.1007/978-1-4419-1788-1_1,© Springer Science+Business Media, LLC.
7. Johnston, K.M., Lakzadeh, P., Donato, B.M.K. (2019). Methods of sample size calculation in descriptive retrospective burden of illness studies. BMC Med Res Methodol 19, 9. https://doi.org/10.1186/s12874-018-0657-9.
8. Paul, H.L. (2020). Sample sizes in COVID-19–related research. CMAJ April 27, 192 (17) E461; DOI: https://doi.org/10.1503/cmaj.75308
9. Gautret, P., Lagier, J.C., Parola, P. (2020). Hydroxychloroquine, and azithromycin as a treatment of COVID-19: results of an open-label non-randomized clinical trial. Int J Antimicrob Agents. Article in press. [PMC free article] [PubMed] [Google Scholar].
10. Hogan, C.A., Sahoo, M.K., Pinsky, B.A. (2020). Sample Pooling as a Strategy to Detect Community Transmission of SARS-CoV-2. JAMA, doi: 10.1001/jama.2020.5445
11. Wu, C.N., Xia, L.Z., Li, K.H. (2020). High-flow nasal-oxygenation-assisted fibreoptic tracheal intubation in critically ill patients with COVID-19 pneumonia: a prospective randomized controlled trial. Br J Anaesth. (article in press) [PMC free article] [PubMed] [Google Scholar].

12. Arif, H. (2014). Design and Determination of The Sample Size in Medical Research. IOSR Journal of Dental and Medical Sciences (IOSR-JDMS) e-ISSN: 2279-0853, p-ISSN: 2279-0861. Volume 13, Issue 5 Ver. VI. (May. 2014), pp.21-31.
www.iosrjournals.org www.iosrjournals.org 21 | Page.
13. Manski, C., Tetenov, A. (2016). "Sufficient Trial Size to Inform Clinical Practice," Proceedings of the National Academy of Sciences, 113(38), pp.10518-10523.
14. Manski, C., Tetenov, A. (2019). "Trial Size for Near-Optimal Treatment: Reconsidering MSLT-II," The American Statistician, 73(S1), pp.305-311.
15. Lenth, R.V. (2017). Some practical guidelines for effective sample size determination. [Last accessed on. Jul 10]. Am Stat, 55, pp.187-193.
Available from: http://www.jstor.org/stable/2685797. [Google Scholar].
16. Harza, A. (2017). Using the confidence interval confidently Thorac Dis; 9(10), pp.4125-4130. doi:10.21037/jtd.2017.09.14.
17. Richard, A., Zeller, Y. (2007). Establishing the Optimum Sample Size. Epidemiology and Medical Statistics. Handbook of Statistics Volume 27, pp.656-678.
18. Christensen, J., Gardner, I.A. (2000). Herd-level interpretation of test results for epidemiologic studies of animal diseases. Preventive Veterinary Medicine, pp.83-106. doi: 10.1016/s0167-5877(00)00118-5.
19. Brynildsrud, O. (2020). Covid-19 prevalence estimation by random sampling in the wider population – Optimal sample pooling under varying assumptions about true prevalence.
20. Corman, V.M., Landt, O., Kaiser, M., Molenkamp, R., Meijer, A., Chu, D.K (2020). Detection of 2019 novel coronavirus (2019-nCoV) by real-time RT-PCR. Euro Surveill. 25.doi: 10.2807/1560-7917.ES.2020.25.3.2000045.
21. Eur, J. (2020). Intern Med. Jul; 77, pp.139-140. Elsevier Public Health Emergency Collection. Published online 2020 Apr 30. doi: 10.1016/j.ejim.2020.04.057 PMCID: PMC7190503 PMID: 32414641.
22. Fritz, C.O., Morris, P.E., Richler, J.J. (2012). Effect size estimates: Current use, calculations, and interpretation. J Exp Psychol Gen. 141, pp.2-18. [PubMed] [Google Scholar].
23. Hoekstra, R., Morey, R.D., Rouder, J.N. (2014). Robust misinterpretation of confidence intervals. Psychon Bull Rev, 21, pp.1157-64. [Crossref] [PubMed].
24. Kane, S.P. (2020). Sample Size Calculator. ClinCalc: https://clincalc.com/stats/samplesize.aspx. Updated July 24. Accessed August 24.
25. Mizumoto, K., Kagaya, K., Zarebski, A., Chowell, G. (2020). Estimating the asymptomatic proportion of coronavirus disease 2019 (COVID-19) cases on board the Diamond Princess cruise ship,Yokohama, Japan. Eurosurveillance.
26. Suresh, K.Sh. (2020). How to calculate sample size for observational and experimental nursing research studies?. National Journal of Physiology, Pharmacy and Pharmacology. Vol 10 | Issue 01. DOI: 10.5455/njppp.2020.10.0930717102019.

Received: 15.03.2024 Accepted: 09.05.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/214-220

**Ülvi Sadıq-zadə**
Azərbaycan Respublikası
Fövqəladə Hallar Nazirliyinin Akademiyası
ulvi-sadixov@mail.ru
**Ülvi Muradov**
Azərbaycan Respublikası
Fövqəladə Hallar Nazirliyinin Akademiyası
muro00885@gmail.com
UOT: 355/359-/5/-9

# VƏTƏN MÜHARİBƏSİ ZAMANI RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə Vətən Müharibəsi gedişatında düşmanın raket və artileriya zərbələri nətiçəsində şəhər və rayonlarımıza dəyən zərərin statistik məlumatları verilmişdir. Hərbi xarakterli fövqəladə hallar zamanı yaranmış risklər təyin olunmuşdur. Fövqəladə halların qarşısının alınması və nəticələrinin minimuma endirilməsi məqsədilə risqlər qiymətləndirilmişdir. Hərbi xarakterli fövqəladə hallarla mübarizə üçün mühafizə və qabaqlayıcı tədbirlər müəyyən edilmişdir.

***Açar sözlər:*** *Vətən müharibəsi, fövqəladə vəziyyət, risk, qəza-xilasetmə, qiymətləndirmə, idarəetmə*

**Ulvi Sadig-zadeh**
The Azerbaijan Republic
Academy of the Ministry of Emergency Situations
ulvi-sadikhov@mail.ru
**Ulvi Muradov**
The Azerbaijan Republic
Academy of the Ministry of Emergency Situations
muro00885@gmail.com
UOT: 355/359-/5/-9

# Assessment of risks during the homeland war

**Abstract**

The article provides statistical information on the damage caused to our cities and regions as a result of the enemy's rocket and artillery strikes during the Patriotic War. Risks arising during emergency situations of a military nature have been determined. Risks have been assessed in order to prevent emergencies and minimize their consequences. Protection and preventive measures have been established to deal with emergency situations of a military nature.

***Keywords:*** *Homeland war, emergency situation, risk, accident-rescue, assessment, management*

## Giriş

Müxtəlif geoloji iqlim və relyef şəraiti ilə fərqlənən Azərbaycan ərazisində 15-dən çox müxtəlif təhlükəli təbiət hadisələri mövcuddur. Ən dağıdıcıları bunlardır: daşqınlar; eroziya; zəlzələlər; sürüşmələr; qar uçqunları; qasırğalar; fırtınalar; burulğanlar. Bu hadisələrin bəziləri (zəlzələlər, sürüşmələr, uçqunlar, burulğanlar) gözlənilmədən baş verir və qısamüddətli olur, lakin böyük maddi itkilər və insan tələfatı ilə nəticələnir (Azərbaycan Respublikasının Mülki müdafiəsi haqqında Əsasnamə, 1992).

Əhalinin təbii (geofiziki, geoloji, meteoroloji, hidroloji, dəniz-hidroloji, təbii yanğınlar və s.) və texnogen (yanğınlar, partlayışlar, bina və tikililərin uçması, kim-yəvi, radioaktiv və bioloji təhlükəli

maddələr) ilə bağlı qəzaları və Azərbaycan Respublikasının ərazilərində, enerji sistemlərində, kommunal təsərrüfatlarda, təmizlə-yici qurğularda, hidrodinamik qurğularda, neft-qaz hasilatı və emalı obyektlərində, magistral boru kəmərlərində, qəzalarda, yol-nəqliyyat qəzalarında və s. mühafizəsi və nəticələrinin (FH-ın) aradan qaldırılmasının idarə edilməsi bu ərazilərdə FHN-in müxtəlif bölmələrinin əməli fəaliyyətə hazırlığının əsas formalarından biri olub, FH baş verdikdə və ya başvermə ehtimalı yüksək olduqda çevik reaksiya verir.

**İşin məqsədi.**

Riskin dərəcəsinin hesablanması və potensial təhlükənin qiymətləndirilməsi, əldə edilən məlumatın nəzərə alınması, kütləvi qırğın silahı tətbiq edilən hərbi xarakterli fövqəladə hadisədə nəticələrin minimuma endirilməsində risklərin idarəedilməsi və qiymətləndirilməsi metodikasının istifadəsinin əhəmiyyətli və aktual məsələlərdən olduğunu və tətbiqinin vacibliyinin təsviri.

**Əsas hissə.**

Risk - arzu olunmayan təhlükə və ya itki olub, müasir dünyada insan fəaliyyətinin bütün sahələrini əhatə edir (Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə, 2006). Risk - zədələnmə və ya zərərin vurulma mümkünlüyünü bildirir. Kütləvi qırğın silahları tətbiq edilən hadisələri tam şəkildə qiymətləndirmək mümkün deyil, lakin onları səmərəli şəkildə idarə etmək olar. Bu tip fövqəladə hadisələr zamanı başlıca məqsəd xilasetmə işləri yerinə yetirən şəxsi heyətə, ətraf mühitə və əhaliyə təsir edən təhlükəli amillərin risk dərəcəsini azaltmaqdan ibarətdir (Ocaqov, 2002: 105). Hərbi xarakterli FH zamanı bu risklərin səviyyəsi xeyli yüksəlir.

**Hərbi xarakterli fövqəladə hallarda xilasetmə işləri.**

Qəza-xilasetmə işləri aparılarkən xilasedicilərin əsas məqsədi hadisənin tez sa-bitləşməsindən ötrü müsbət dəyişikliyə nail olmaqdan və ya təsir etməkdən ibarətdir. Bu zaman nəzərə alın-malıdır ki, riskli niyyətlə bağlı hərəkət əks - tədbirin məqsədlərinə, yəni FH zonasında qəza - xilasetmə işlərinin effektivliyinə təsir edəcəkdir (Ocaqov, 2012: 120).

Hərbi əməliyyatlar zamanı yaranmış risklərin qiymətləndirilməməsi daha genişmiqyaslı problemlər yaratdığından, onların təhlili və əvvəlcədən müəyyənləşdirilməsi mürəkkəb bir proses hesab edilir (Sadıq-zadə, 2020: 96-98).

**Vətən Müharibəsi dövründə baş vermiş hərbi xarakterli fövqəladə halların statistik məlumatları.**

Məlum olduğu kimi, 2020-ci il sentyabrın 27-də səhər saat 6 radələrində Ermənistan Silahlı Qüvvələri Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqə-lərini iriçaplı silahlar, minaatanlar və müxtəlifçaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdur. Ermənistan Silahlı Qüvvələrinin yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi atəşə tutması, mülki şəxslər və hərbiçilər arasında itkilərə səbəb olur. Azərbaycan Respublikası Baş Prokurorluğu bildirib ki, Ermənistan Silahlı Qüv-vələrinin hücumu nəticəsində indiyədək Azərbaycanda 87 mülki şəxs öldürülüb, 400 nəfər yaralanıb. Qurum açıqlayıb ki, 2338 yaşayış evi, 92 çoxmənzilli bina, 415 mülki obyekt yararsız vəziyyətə düşüb. Atəş nəticəsində 2072 yaşayış evi, 90 çoxmər-təbəli yaşayış binası və 388 mülki infrastruktur obyektinə külli miqdarda ziyan dəyib.

**Risklərin idarə edilməsi sistemi.**

Bu məqsədlə, İSO-31000 - "Risklərin idarə edilməsi sistemi" istifadə oluna bilər (Sadıq-zadə, 2020: 127-132). Hərbi xarakterli FH-nin qarşısının alınması, nəticələrinin aradan qaldırılması və lazımı tədbirlərin vaxtı - vaxtında yerinə yetirilməsi məqsədilə baş vermiş hərbi xarakterli FH-nin risklərinin nəticə və ehtimallarının dərəcələri aşağı-dakı cədvəldə qeyd edilmiş və İSO-31000 - Risklərin qiymətləndirilməsi metodikasına uyğun hesablama aparılmışdır (Sadıq-zadə, 2021: 63-64). Həmin metodikadan istifadə edilməklə Vətən Müharibəsində ən çox zərər çəkmiş şəhər və rayonlara raket, bomba zərbələri riskin ehtimalı və nəticələri müəyyən olunmuş, müvafiq diaqram isə cədvəl 1 və 2-də təqdim edilmişdir (Sadiq-zada, 2021: 45-48).

Qeyd edilənlər, Vətən müharibəsində Gəncə şəhərinə, Tərtər, Ağdam və digər rayonlara düşmən tərəfindən bombardmanlar və vurulan raket zərbələri zamanı bir daha öz təsdiqini tapmışdır.

Bu cədvəllərin vasitəsi ilə baş vermiş fövqəladə halların təhlükə ağırlığı və baş vermə ehtimalı müəyyən edilir.

**Cədvəl 2.**
**HX FH üçün təhlükə və riskin qiymətləndirilməsi.**

| № si | Təhlükənin təsviri | Təhlükə altında olan insanlar | Təhlükənin ağırlığı nəticəsi | Başvermə ehtimalı | Riskin dərəcələnməsi |
|---|---|---|---|---|---|
| 1 | Bərdə rayonu: 20 ədəd 9M528 raket (Smerç tipli), 2 ədəd Toçka-U tipli, 7 ədəd Elbrus tipli, 12 ədəd Qrad tipli, 4 ədəd müxtəlif növ raketlər və ağır artilleriya. | Bərdə rayonu, ətraf kəndlər və yaxın ərazilər* | ağır | yüksək ehtimal | çox yüksək |
| 2 | Tərtər rayonu: 21 ədəd qadağan olun-muş Smerç tipli raket mərmiləri, 16277 top, qrad və digər mərmilər. | Tərtər rayonu, ətraf kəndlər və yaxın ərazilər* | ağır | yüksək ehtimal | çox yüksək |
| 3 | Beyləqan rayonu: 5 ədəd müxtəlif növ raket. | Beyləqan rayonu, ətraf kəndlər və yaxın ərazilər* | ağır | orta ehtimal | yüksək |
| 4 | Ağdam rayonu: 9848 ədəd müxtəlif növ raket. | Ağdam rayonu, ətraf kəndlər və yaxın ərazilər* | ağır | orta ehtimal | yüksək |
| 5 | Füzuli rayonu: 1 ədəd Toçka-U tipli, 6 ədəd Smerç tipli, 282 top, qrad və digər mərmilər. | Füzuli rayonu, ətraf kəndlər və yaxın ərazilər* | ağır | yüksək ehtimal | çox yüksək |
| 6 | Mingəçevir şəhəri: 2 ədəd Smerç tipli raket. | Mingəçevir şəhəri və yaxın ərazilər* | ağır | yüksək ehtimal | çox yüksək |
| 7 | Gəncə şəhəri: Toçka-U, Smerç, Skad tipli və digər raket. | Gəncə şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | ağır | yüksək ehtimal | çox yüksək |
| 8 | Yevlax şəhəri: 1 ədəd 9M525 qəlpəli (Smerç tipli) raket. | Yevlax şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | orta | mümkün ehtimal | çox yüksək |
| 9 | Ağcabədi şəhəri: müxtəlif növ raket. | Ağcabədi şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | orta | mümkün ehtimal | çox yüksək |
| 10 | Siyəzən şəhəri: 3 ədəd ballistik raket. | Siyəzən şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | orta | aşağı ehtimal | yüksək |
| 11 | Daşkəsən şəhəri: ağır artilleriya və top mərmiləri. | Daşkəsən şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | orta | aşağı ehtimal | yüksək |
| 12 | Naftalan şəhəri: ağır artilleriya və top (36 müxtəlif növ) mərmiləri. | Naftalan şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | orta | mümkün ehtimal | yüksək |
| 14 | Qəbələ rayonu: 2 ədəd ballistik raket. | Qəbələ şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | orta | aşağı ehtimal | yüksək |
| 15 | Kürdəmir rayonu: 1 ədəd ballistik raket. | Kürdəmir şəhəri, ətraf kəndlər və | orta | aşağı ehtimal | yüksək |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | yaxın ərazilər* | | | |
| 16 | Şuşa şəhəri: İskəndər-M (9M723) 1-ədəd raket. | Şuşa şəhəri, və yaxın ərazilər* | ağır | mümkün ehtimal | yüksək |
| 13 | Goranboy rayonu: (687 ədəd) müxtəlif növ raket və ağır artilleriya mərmiləri. | Goranboy şəhəri, ətraf kəndlər və yaxın ərazilər* | orta | mümkün ehtimal | yüksək |

**Cədvəl 1.**
**Təhlükənin qiymətləndirmə meyarları.**

| Təhlükənin nəticəsi | | | | | |
|---|---|---|---|---|---|
| **Təhlükənin ehtimalı** | **Cüzi** | **yüngül dərəcədə** | **orta** | **yüksək** | **çox yüksək** |
| **çox aşağı ehtimal** | **Aşağı** | **aşağı** | **aşağı** | **Aşağı** | **aşağı** |
| **aşağı ehtimal** | **Aşağı** | **aşağı** | **aşağı** | **Orta** | **orta** |
| **mümkün** | **Aşağı** | **aşağı** | **orta** | **Orta** | **yüksək** |
| **ehtimal olunan** | **Aşağı** | **orta** | **orta** | **yüksək** | **yüksək** |
| **yüksək ehtimal olunan** | **Orta** | **orta** | **yüksək** | **yüksək** | **yüksək** |

**Təhlükəsizlik və mühafizə tədbirləri.**

Xəbərdarlıq sisteminin təkmilləşdirilməsi, sığınacaq və daldanacaqların yenilənməsi, əhalinin köçürməsinin plan üzrə hazırlanması, əlavə təxliyə yollarının və üsullarının işlənməsi, təhlükəsizlik qaydalarının təkmilləşdirilməsi, idarəetmənin optimallaşdırılması, əməliyyat qərarlarının qəbul edilməsinin sürətləndirilməsi, humanitar yardım təminatının daima hazır vəziyyətdə saxlanması, maddi - texniki təminatın gücləndirilməsi və region üzrə anbarların yaradılması, modul tipli və səyyar xəstəxanaların tikilməsi, qəza - xilasetmə texnikasının yenilənməsi, əhalinin fərdi qoruyucu vasitələrlə təmin edilməsi, əhalinin maarifləndirilməsi, KİV-nin xüsusi rejimdə çalışmasının təmin edilməsi (SMS-xəbərdarlıq, sosial şəbəkələrdə xəbərdarlıq), qəza - xilasetmə, mülki müdafiə və digər bölmələrin fəaliyyətinin hərbi rejimə inteqrasiyası.

"İSO - 31000 Risklərin idarə edilməsi" metodundan istifadə edərək ehtimal edilən hərbi xarakterli fövqəladə halların zonaları müəyyənləşdirilmiş və yüksək, orta və aşağı risk zonalarına bölünmüşdür. Risk zonalarının qiymətləndirilməsi hərbi xarakterli fövqəladə halın ehtimal olunan təhlükənin dərəcəsi və nəticəsinə əsaslanaraq qiymətləndirilmişdir.




**Cədvəl 3.**
**Ehtimal edilən risk zonaları və fəsadları.**

| Şəhər (rayon) | Ehtimal olunan fövqəladə hal zonası | Hadisənin fəsadları |
|---|---|---|
| **Füzuli rayonu** | Quruçayın Böyük Bəhmənli kənd ərazisindən keçən hissəsində yaz və payız aylarında baş verən daşqınlar. Yaz və payız aylarında iri dolu yağması. Dəmyə yerlərdə quraqlıqlar. | Hidrotexniki qurğuların sıradan çıxması, əkin sahələrinə, yaşayış məntəqələri və digər obyektlərə ziyan dəyməsi. Otlaq sahələrinə ziyan dəyməsi. |
| **Tərtər rayonu** | Tərtər çayının Tərtər rayonu ərazisindən keçən hissəsində daşqın olması. | Hidrotexniki qurğuların sıradan çıxması, əkin sahələrinə, yaşayış məntəqələri və digər obyektlərə ziyan dəyməsi. |
| **Ağdam rayonu** | Güclü leysan yağışların yağması nəticəsində Xaçın və Qarqar çaylarının Ağdam rayonu ərazisindən keçən hissəsində daşqın olması. Təbbi və texnogen xarakterli meşə yanğınları. | Əkin sahələrinə , yaşayış məntəqələri və digər obyektlərə ziyan dəyməsi. Ətraf mühitə və canlı aləmə ziyanın dəyməsi. |
| **Bərdə rayonu** | Tərtər çayının Bərdə rayonu ərazisindən keçən hissəsində daşqın olması. Qarabağ kanalının Bərdə rayonu ərazisindən keçən hissəsində daşqın olması. | Hidrotexniki qurğuların sıradan çıxması, əkin sahələrinə, yaşayış məntəqələri və digər obyektlərə ziyan dəyməsi. |
| **Ağcabədi rayonu** | Qarabağ kanalının Ağcabədi rayonu ərazisindən keçən hissəsində daşqın olması. | Hidrotexniki qurğuların sıradan çıxması, əkin sahələrinə, yaşayış məntəqələri və digər obyektlərə ziyan dəyməsi. |
| **Beyləqan rayonu** | Qarabağ kanalının Beyləqan rayonu ərazisindən keçən hissəsində daşqın olması. | Hidrotexniki qurğuların sıradan çıxması, əkin sahələrinə, yaşayış məntəqələri və digər obyektlərə ziyan dəyməsi. |

| | | |
|---|---|---|
| **Kəlbəcər rayonu** | Təbbi və texnogen xarakterli meşə yanğınları. Dağlarda qar uçqunları. | Ətraf mühitə və canlı aləmə ziyanın dəyməsi. Əraziyə yaxın insanlar üçün təhlükə və Magistral yolların bağlanması. |
| **Qubadlı rayonu** | Təbbi və texnogen xarakterli meşə yanğınları. | Ətraf mühitə və canlı aləmə ziyanın dəyməsi. |
| **Zəngilan rayonu** | Təbbi və texnogen xarakterli meşə yanğınları. | Ətraf mühitə və canlı aləmə ziyanın dəyməsi. |
| **Laçın rayonu** | Təbbi və texnogen xarakterli meşə yanğınları. Dağlarda qar uçqunları. | Ətraf mühitə və canlı aləmə ziyanın dəyməsi. Əraziyə yaxın insanlar üçün təhlükə və Magistral yolların bağlanması. |
| **Xocalı rayonu** | Təbbi və texnogen xarakterli meşə yanğınları. | Ətraf mühitə və canlı aləmə ziyanın dəyməsi. |

Hərbi xarakterli fövqəladə hadisələrin risk dərəcəsinin müəyyənləşdirmək üçün aşağıdakı düstur alınmışdır:

$$R = f_1 \times G + f_2 \times Ə + f_3 \times H + f_4 \times X \qquad (1)$$

burada G-geosiyasi vəziyyət, Ə-ərazi iddiaları və mübahisəli ərazilər, H-hərbi gücdən istifadə niyyəti, X-xarici dövlətlərin və təşkilatların müdaxiləsi əsas risk faktorları kimi qəbul edilir. $f_1$ - Tarixi hadisələr; $f_2$ - Hərbi təlimlər; $f_3$ - Siyasi gərqinlik; $f_4$ - Yüksək işsizlik, yoxsulluq və iqtisadi bərabərsizlik əlavə risk faktorları kimi qəbul edilib.

Hərbi xarakterli fövqəladə halların risklərinin qiymətləndirilməsində əsas və əlavə faktorlar qəza - xilasetmə işlərinin xüsusiyyətlərinə görə dəyişə və əlavə edilə bilər. Bu düstürda əsas risk faktorları 0-1 arası qiymətləndirilir, əlavə faktorlar isə qiymətləndirilmənin normallaşdırılması üçün 1-ədədinədək cəmləşdirilir.

Yaranan risk dəyəri 0-dan 1-ə qədər dəyişir, burada 0 minimum riski, 1 isə maksimumu təmsil edir. Bu misalda dəyər 1-ə nə qədər yaxındırsa, ümumi risk bir o qədər yüksəkdir və əksinə.

Ümumilikdə fövqəladə hallarla mübarizədə və hərbi xarakterli fövqəladə halların nəticələrinin minimuma endirilməsi zamanı qəza - xilasetmə, axtarış -xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması zamanı risklərin qiymətləndirilməsi və ehtimal edilən risklərin müəyyənləşdirilməsi prosesi fasiləsiz olaraq aparılması mühüm əhəmiyyət kəsb edir (Fedorcuk, 2022: 302).

FH-nin nəticələrinin aradan qaldırılmasında və nəticələrinin minimuma endirilməsində risklərin təhlili mühüm əhəmiyyət kəsb edir (Gorbunov, 2022: 110-116). Bu səbəbdən də baş verə biləcək hərbi potensiallı FH-nin qarşısının alınması üçün daima müşahidə, proqnoz və monitorinq nəzarətinin keçirilməsi risklərin minimuma endirilməsində yardımçı olur (Popov, 2022: 263).

Qəza - xilasetmə və axtarış - xilasetmə işlərinin aparılması zamanı da şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə risklərin əvvəlcədən aşkar edilməsi baş verə biləcək fəlakətin qarşısının alınmasında öz əvəzsiz töhfəsini verəcəkdir.

## Nəticə

Beləliklə, risk hadisənin başvermə ehtimalı və baş verəcəyi təqdirdə onun potensial nəticələrinin dərəcəsinin ifadəsidir. Deməli, başvermə ehtimalının və yaxud nəticələrin kəskinliyinin azaldılması ilə risk səviyyəsi aşağı salına bilər. Müharibə və post müharibə dövründə bütün növ əməliyyatların icra edilməsi zamanı risklərin müəyyən olunması, onların təhlili və onlara qarşı görüləcək işlər bilavasitə əhalinin, ərazilərin və orada çalışan şəxsi heyətin təhlükəsizliyinin təmin olunmasında vacib məsələlərdən hesab edilməlidir.

Vətən Müharibəsi dövründə raket və artilleriya zərbələrinə məruz qalmış şəhər və rayonlar üçün müvafiq təhlükə ehtimalı və risk dərəcələri hesablanmış, risklərin hər bir rayon, şəhər üzrə

dərəcələnməsi aparılmışdır. Başvermə ehtimalı olan risklərin qiymətləndirilməsi aparılmış və mühafizə üçün tələb edilən bütün tədbirlər kompleksi müəyyən edilmişdir

## Ədəbiyyat

1. “Azərbaycan Respublikasının Mülki müdafiəsi haqqında Əsasnamə” 1992-ci il.
2. “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə” 2006-cı il.
3. “Azərbaycan Respublikasında sülh və müharibə dövrlərində fövqəladə hadisələrdə əhalini mühafizənin əsas prinsipləri haqqında” 1992-ci il.
4. Ocaqov, H. (2002). Həyat fəaliyyətinin təhlükəsizliyinin əsasları. Bakı: Şirvannəşr, 105 s.
5. Ocaqov, H. (2012). FH-də təhlükəsizlik (Defensiologiya). Bakı: Təhsil, 120 s.
6. Sadıq-zadə, Ü. (2020). Xilasetmə işləri zamanı riskin qiymətləndirilməsinin əhəmiyyəti”. Heydər Əliyev və Azərbaycan Respublikasında milli təhlükəsizlik konsepsiyası” respublika elmi-praktiki konfrans, s.96-98.
7. Sadıq-zadə, Ü. (2020). Münaqişəli fövqəladə hallar və Milli təhlükəsizliyin təmin olunmasında FHN-nin rolu. Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Elmi Xəbərləri “Elmi hüquq jurnalı”. № 4 (28), s.127-132.
8. Sadıq-zadə, Ü. (2021). Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında riskin təhlilinin rolu. “İşğaldan azad olunmuş ərazilərdə fövqəladə hal riskləri”. Elmi-texniki konfrans, s.63-64.
9. Sadig-zada, U. (2021). The role of civil defense in emergency response. The journal Science of Europe. Vol 3, № 63, s.45-48.
10. Fedorcuk, V. (2022). Organizaciya i vedeniye avariyno-spasatelnikh rabot. Moskva, 302 s.
11. Gorbunov, S. (2022). Bezopastnost spasatelnikh rabot. Khimki, s.110-116.
12. Popov, P. (2022). Osnovi i primeneniye slujb. Moskva, 263 s.

Göndərilib: 02.03.2024 Qəbul edilib: 28.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/221-231

**Rauf Nuhov**
Azərbaycan Respublikası Müdafiə Nazirliyi
enrio2904@gmail.com

# MİLLİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA GEOİNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ (ARCGİS PROQRAM TƏMİNATI NÜMUNƏSİNDƏ)

**Xülasə**

Məqalədə geoinformasiya texnologiyaları (GİT) və coğrafi informasiya sistemləri (CİS) anlayışları, yaranması və inkişafının qısa tarixi, geoməkan məlumatlarının fərqli sahələrdə emalı mərhələlərinin xüsusiyyətləri, GİT-in digər texnologiyalarla müqayisədə əsas üstünlüklərindən olan geoinformasiya bazası əsasında yaradılmış rəqəmli xəritələrin imkanları araşdırılmışdır. Bundan başqa, zamana əsaslanan geoinformasiya texnologiyaları, relyasiyalı verilənlər bazası, GİT-in ənənəvi Məlumat Bazasını İdarəetmə Sistemlərindən üstün cəhətləri, infrastruktur layihələrində mütəxəssislərə qazandırdığı üstünlüklər, bu texnologiyalar vasitəsi ilə atributiv məlumatların qrafik obyektlərlə əlaqələndirilməsi, onların epidemiologiya, ekologiya, hərbi və digər sahələrdə tətbiqi, ArcGİS proqram təminatı nümunəsində milli təhlükəsizliyin təmin olunmasında tətbiqi məsələləri, müxtəlif qurumların birgə əsaslandırılmış qərar qəbul etməsində operativ məlumatların hazırlanması və qarşılıqlı fəailiyyəti, milli təhlükəsizliyin ənənəvi aspektlərinin CİS mühitinə inteqrasiya edilməsi, təşkilat daxilində digər sistemlərdən və xarici sistemlərdən məlumatların qəbul edilməsi, GİT-in aparıcı proqram təminatı istehsalçısı olan Esri şirkətinin məhsulu ArcGis platformasının milli təhlükəsizliyin təmin olunmasında icra etdiyi konkret tapşırıqlar, qurumlararası əməkdaşlıq və kəşfiyyat məlumatlarının mübadiləsi, istənilən qurğuda və şəbəkədə işləyən geoməkan məlumatları tətbiqləri, istənilən məkan (ofis, ərazi) və şəraitdə (çətin hava şəraiti və ya relyef formasına malik ərazilər) tətbiqinin xüsusiyyətləri, Arcgis platformasının müxtəlif tətbiqlərdə, təşkilat qruplarına və iş proseslərinə konfiqurasiya edilə bilmə imkanları təhlil edilərək bu texnologiyaların milli təhlükəsizliyin təmin olunması üzrə mühüm vəzifələri icra edən bütün qurumların işlərində istifadəsinin zəruriliyi əsaslandırılmışdır.

***Açar sözlər:*** *Geoinformasiya texnologiyaları (GİT), coğrafi informasiya sistemləri (CİS), ARCGİS platforması, verilənlər bazası (VB), milli təhlükəsizlik, geoməkan məlumatları*

**Rauf Nuhov**
Ministry of Defense of the Republic of Azerbaijan
enrio2904@gmail.com

# The application of geographic information technologies in ensuring national security (in the example of ARCGIS software)

**Abstract**

The article examines the concepts of geoinformation technologies (GIT) and geographic information systems (GIS), a brief history of their emergence and development, the features of the processing stages of geospatial information in different fields, the possibilities of digital maps created on the basis of the geoinformation database, which are the main advantages of GIT compared to other technologies. In addition, by analyzing time-based geoinformation technologies, relational databases, the advantages of GIT over traditional Database Management Systems, the advantages it gives to specialists in infrastructure projects, the association of attributive data with graphical objects through these technologies, their application in epidemiology, ecology, military and other fields, application issues in ensuring national security in the example of ArcGIS software, preparation of operational data and interaction of various entities in joint reasoned decision-making,

integration of traditional aspects of national security into the GIS environment, reception of data from other systems within the organization and from external systems, specific tasks performed by the ArcGis platform, a product of Esri, a leading GIT software manufacturer, in ensuring national security, inter-agency collaboration and the exchange of intelligence data, applications of geospatial data running on any device and network, the characteristics of the application in any location (office, territory) and conditions (severe weather conditions or completed relief areas), the possibilities of configuring the Arcgis platform in various applications, organizational groups and work processes, the necessity of using these technologies in the work of all organizations performing important tasks to ensure national security was justified.

***Keywords:*** *geoinformation technologies (GT), geographic information system (GIS), ARCGIS platform, database, national security, geospatial data*

## Giriş

ABŞ-nin 42-ci prezidenti Bill Klinton öz hakimiyyətinin sonunda kütləvi informasiya nümayəndələrinin – “XX əsrin və ikinci minilliyin ən böyük nailiyyəti kimi nəyi qeyd edərdiniz?” – sualına cavab olaraq heç kimin gözləmədiyi bir halda, informasiyanın əldə olunması və ötürülməsi sahəsində qazanılan uğurları qeyd etdi. Eyni zamanda qeyd etmək lazımdır ki, bəşəriyyətə lazım olan informasiyaların 85%-i coğrafi məkanla bağlıdır, yəni informasiya heç olmasa dördölçülüdür və bunun üçü məkanla bağlıdır. Yəni bu bağlılıq dəqiq olmadıqda informasiya öz dəyərini itirir, istifadəçi ondan istifadə edə bilmir, qeyri-müəyyənlik yaranır. Müasir zamanda informasiyanın əldə olunması, emalı və istifadəçiyə çatdırılmasının müxtəlif vasitələri, üsulları və metodları mövcuddur. Bunlardan hansıların seçilməsi qoyulan məqsəd və ona çatmaq üçün həll olunacaq məsələlərin növü və mürəkkəbliyindən asılıdır. Metod və vasitələrin çox olmasına baxmayaraq onlar arasında Coğrafi İnformasiya Sistemlərinin (CİS) özünü təsdiq etməsi və liderlik mövqeyini saxlaması artıq inkarolunmaz bir faktdır (Mehdiyev, İsmayılov, 2011: 4).

CİS-in imkanları gündəlik həyatımızda smartfonlarımızın hüdudlarından (google map) kənara çıxaraq elmi tədqiqatlarda geniş istifadə olunur. Belə ki, bu texnologiyalar epidemioloqlara xəstəliklərin yayılmasının xəritəsini tərtib etməyə, ekoloqlara təbiətdə baş verən dəyişiklikləri izləməyə, iqlim dəyişikələrini analiz edən mütəxəssislərə buzlaqlarda, dəniz səviyyələrində və regional hava modellərindəki dəyişiklikləri anlamağa, hərbiçilərə döyüş əməliyyatları meydanlarının öyrənilməsinə kömək edir. Bundan başqa, CİS qlobal münaqişə və immiqrasiyanı öyrənən sosial elm adamlarına, inkişaf və infrastruktur üçün ən yaxşı yerləri müəyyən edən mühəndislərin işlərində geniş tətbiq olunur. Təsadüfi deyil ki, məşhur amerikalı alim, CİS proqram təminatlarının hazırlanması üzrə dünyanın aparıcı şirkəti “Esri (Environmental Systems Research Institute)” - nin prezidenti Jack Dangermond bu şirkətin təklif etdiyi proqramları “28 milyard ABŞ dolları dəyərində ekosistem tətbiqi” kimi qiymətləndirir. CİS sertifikatlaşdırma İnstitunun açıqlamasına əsasən yalnız 2020-ci ildə, 675 000 CİS mütəxəssisi bu sahədə fəaliyyət göstərmişdir (Tasoff, 2023). Dünyanın aparıcı ölkələrində CİS-in müxtəlif sahələrdə uğurlu tətbiqi, qarşıya çıxan ən çətin məsələlərin effektiv həlli bu texnologiyaların istifadəsi və inkişafının daim aktual məsələ kimi qalmasına şərait yaradır. Təbii ki, hər bir dövlətin mühüm vəzifəsi olan milli təhlükəsizliyin təmin olunması artıq daha geniş sahələri, yəni iqtisadi, ekoloji, enerji, ərzaq, kiber təhlükəsizlik və s. sahələri də əhatə etdiyindən, geoinformasiya texnologiyalarının bu sahədə də tətbiqi labüddür.

**Geoinformasiya texnologiyaları və coğrafi informasiya sistemləri anlayışları, yaranması, inkişaf tarixi və tətbiq olunduğu sahələr.**

Geoinformasiya texnologiyaları və sistemləri haqqında müxtəlif mənbələrdə fərqli təriflərlə qarşılaşmaq olar. Bəzi mənbələrdə CİS xəritələrin yaradılması üçün alətlər, coğrafi məlumatların saxlanması, istifadəsi və görüntülənməsi, digərlərində isə qərar qəbulu üçün kompyuter qrafiki verilənlər bazası kimi göstərilir:

CİS - yer səthi haqqında məlumatların toplanması, təhlili, saxlanması və yayılması üçün müxtəlif tematik təşkilatlar, elmi təşkilatlar, sənaye müəssisələri tərəfindən hazırlanmış kartoqrafik proqram təminatının kompyuter sistemidir;

CİS - geoməkan məlumatlarının istifadəsi ilə qərar qəbulunun dəstəklənməsi üçün hazırlanmış sistemlərdir;

CİS - coğrafi verilənlərin toplanması, saxlanması, emalı, görüntülənməsi üçün hazırlanmış güclü alətlər dəstidir (Musayev, Qocamanov, 2018: 197).

Geoinformasiya texnologiyaları (GİT) – məkan məlumatlarının müxtəlif sahələrdə tətbiqinin və emalının vasitələr dəstidir. Burada vasitələr dedikdə geoməkan məlumatlarının emalı metodlarını həyata keçirən CİS və onların əsasında hazırlanan müxtəlif tətbiqlər üçün qərar qəbulunun dəstəklənməsi sistemləri başa düşülür (Bidenko, Yakovleva, 2013).

Ümumi şəkildə CİS yer səthinə aid informasiyaların toplanması, inteqrasiyası və təhlili üçün xüsusi proqramlarla təchiz olunmuş kompyuter sistemi kimi təriflənir. Ancaq nəzərə almaq lazımdır ki, istənilən tərif dəqiq deyil və onun daim təzələnmə ehtimalı vardır. Üstəlik bir fakt da var ki, CİS-nin özü yeni sahədir və onda bu tərifin daimi təkmilləşəcəyi labüddür. Müəlliflər bunları nəzərə alaraq, CİS-in tərifini vermək məqsədini qarşıya qoymur (Mehdiyev, İsmayılov, 2011: 5)

Geoməkan məlumatlarının müxtəlif sahələrdə emalının mərhələləri aşağıdakı kimidir (şək.1): 1 - coğrafi obyektlər haqqında ilkin məlumatların qəbul edilməsi (məsafədən zondlama məlumatları, xəritələr, ərazi məlumatları və digər məlumatlar); 2 - coğrafi obyektlər haqqında məlumatların ilkin emalı (məlumatların seçilməsi, qruplaşdırılması, təsnifatı, raster və ya vektorlaşdırılması); 3 - məkan və atributiv məlumatların təqdimat modelinin hazırlanması; 4 - məlumatların saxlanması; 5 – qəbul edilmiş məlumatların kompyuter şəbəkələrinə və ya məlumat daşıyıcılarına nəql olunması; 6 – məlumatların ikinci dərəcəli emalı ( geoinformasiya analizi və kartoqrafik modelləşdirmə); 7 – nəticələrin təqdimatı; 8 – nəticələrin yoxlanması və düzəlişlərin edilməsi.

Geoinformasiya vasitələrinin hər hansı bir sahədə effektiv tətbiqi üçün xüsusi olaraq GİT hazırlanır və ya mövcud texnogiyalar tətbiq olunan sahənin tələblərinə uyğunlaşdırılmaqla zəruri nəticələr əldə olunur.




**Şəkil 1. Geoməkan məlumatlarının emalı mərhələləri** (4)

Geoinformasiya texnologiyaları (GİT) – həm də coğrafi informasiyanın işlənməsi üçün informasiya texnologiyalarıdır. GİT-in digər texnologiyalarla müqayisədə üstünlüklərini müəyyən edən əsas xüsusiyyəti geoinformasiya bazasının, daha dəqiq desək, yer kürəsi haqqında zəruri məlumatları təmin edən rəqəmli xəritələrin (şək.2) mövcudluğudur. Ümumiyyətlə, rəqəmli xəritələr aşağıdakıları təmin etməlidir:

• bütün daxil olan və saxlanılan informasiyanın dəqiq koordinatlandırılması, sistemləşdirilməsi, seçilməsi və inteqrasiyası;

• qərarların qəbul edilməsi üçün informasiyanın kompleksliyi və aydınlığı;

• proseslərin və hadisələrin dinamik modelləşdirilməsi imkanı;

• ərazinin xüsusiyyətlərinin təhlili ilə bağlı məsələlərin avtomatlaşdırılmış həllinin mümkünlüyü;

• fövqəladə hallarda vəziyyətin operativ təhlili imkanı.

GİT-in yaradılması və inkişaf tarixi Kanada coğrafiyaşünası Roger Tomlisonun 1963-cü ildən 1971-ci ilədək Kanada CİS-in (CGIS) yaradılması üzrə gördüyü işlərə əsaslanır. Geniş mənada GİT koordinatlara bağlı informasiya ilə işləmək üçün məlumat topluları və analitik vasitələrdir. GİT coğrafiyada informasiya texnologiyaları yox, coğrafi informasiyanın emal olunması üzrə informasiya texnologiyalarıdır.



**Şəkil 2. Geoinformasiya bazası əsasında yaradılmış rəqəmsal xəritə**

GİT təsviri (atributiv) məlumatları (ilk növbədə, hərf-rəqəm və digər qrafik, səs və video məlumatları) kartoqrafik (qrafik) obyektlərlə əlaqələndirmək qabiliyyətinə malikdir. Bir qayda olaraq hərf-rəqəm məlumatları relyasiyalı verilənlər bazasının (VB) (şək.3) cədvəllərində hazırlanır. Ən sadə halda, hər bir qrafik obyektə (adətən nöqtə, xətti və sahə obyektləri) VB-da cədvəl sətiri təyin olunur və belə bir əlaqənin istifadəsi GİT üçün çox geniş funksional imkanlar yaradır. Təbii ki, bu xüsusiyyətlər fərqli sistemlərdə özünəməxsus formadadır, lakin istənilən GİT tətbiqində mövcud olan baza funksiyaları da var, məsələn, "bu nədir?" sualına cavab verməklə xəritədə həmin obyektin göstərilməsi, “o harada yerləşir?” sualına cavab verməklə bu obyektin xəritədə seçilməsi.

Baza funksiyalarına “yaxınlıqda nə yerləşir?” və digər sualları da aid etmək olar. Ümumiyyətlə, GİT-in ilkin və universal istifadəsi məhz informasiya-axtarış, sorğu sistemləri ilə bağlıdır. Beləliklə, GİT həm də VB texnologiyalarının inkişaf etdirilmiş formasıdır və yeni inteqrasiya, strukturlaşdırma üsulu kimi qəbul edilir. Real həyatda məlumatların böyük hissəsi yerləşmə yerləri, forma və qarşılıqlı yerləşmə vəziyyəti mühüm əhəmiyyət kəsb edən obyektlərə aid olduğuna görə GİT adi Məlumat Bazasının İdarəetmə Sistemlərinin (MBİS, Database Menegment System) imkanlarını əhəmiyyətli dərəcədə inkişaf etdirir. GİT-in istifadəsi asan, vizual təsviri isə sadədir, istifadəçiyə məlumat bazası sorğularının verilməsində geniş imkanlar təqdim edir. Nəhayət, GİT ənənəvi MBİS-ə obyektlər arasında məkan əlaqələrinin istifadəsi kimi tamamilə yeni olan bir funksiya əlavə etmiş olur (Ivanov, 2023).




**Şəkil 3. Relyasiyalı verilənlər bazası** (Pavlenko, 2019)

Qeyd etmək vacibdir ki, hər hansı bir ölkənin davamlı və sürətli iqtisadi böyüməsi üçün infrastrukturun inkişafı çox vacibdir. CİS bu sahədə də geniş istifadə edilə bilər, çünki bu texnologiyalar daim səmərəli üsullar təklif edir və ən səmərəli üsulları tətbiq edərək xərclərin azaldılmasını təmin edir.

CİS-in istifadəsi, bir neçə variantı nəzərə alaraq uyğun və real həll yollarının təmin edilməsinə yönəlmişdir. Bundan əlavə, CİS infrastruktur mütəxəssislərinə şəhər geoloji təhlükəsizliyi müəyyənləşdirməyə və təhlil etməyə imkan verir. CİS-in istifadəsi yalnız təməl planlaşdırılması və təşkili ilə məhdudlaşmadığından, infrastruktur dizaynlarını hazırlayarkən nəqliyyat, kommunal xidmətlər, resurslar və s. kimi bir neçə amilin nəzərə alınmasına imkan verir (7).

Zamana əsaslanan CİS texnologiyasının mühüm tətbiq sahələrindən biri, uzun müddətdə baş verən prosesləri təsvir edən fasiləli fotoşəkilləri təqdim etməsidir. Misal üçün, okean və ya hava axınlarında mayenin hərəkətini göstərən məlumatlar elm adamlarına nəm və istilik enerjisinin dünya ətrafında necə hərəkət etdiyini daha yaxşı anlamağa kömək edir (8).

Yuxarıda qeyd olunan məsələlərdən də göründüyü kimi, geoinformasiya texnologiyalarının imkanları genişdir və istənilən sahədə tətbiqi mümkündür. Hazırda dünya praktikasında GİT şəhər və regional planlaşdırma, iqtisadi inkişaf, fövqəladə hallar, neft-qaz sənayesi, nəqliyyat və kommunikasiya, təhsil, səhiyyə, marketinq, geodeziya, kartoqrafiya, infrastrukturun maddi-texniki təminatı sahələrində tətbiq olunduğu kimi (9) ölkələrin milli təhlükəsizliyinin təmin olunmasında da effektivliyi danılmazdır. Belə ki, milli təhlükəsiz haqqında qanunun maddələrinə nəzər yetirərkən bu texnologiyaların belə mühüm vəzifənin icrasında necə effektiv vasitə ola biləcəyi açıq aşkar görünür.

**Geoinformasiya texnologiyalarının milli təhlükəsizliyin təmin olunmasında tətbiqi məsələləri.**

Azərbaycan Respublikası Prezidentinin 29 iyun 2004-cü il tarixli fərmanına əsasən qüvvəyə minmiş "Azərbaycan Respublikasının milli təhlükəsizliyi haqqında qanunu"na görə "milli təhlükəsizlik - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir". Sözügedən qanuna əsasən Azərbaycan Respublikası milli maraqlarının həyata keçirilməsinə mane olan və ya onlara təhlükə yaradan şərait, proses və amillər təhdid olaraq qəbul edilir. Təhdidlər mümkünlüyünə görə potensial və real mənbəyindən asılı olaraq, xarici və daxili təhdid kimi təsnif olunur. Azərbaycan Respublikasının milli təhlükəsizliyinə potensial və real, daxili və xarici təhdidlər, əsasən, ictimai həyatın siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekologiya, elm, mədəniyyət və mənəviyyat

sahələrində təzahür edir (Mahmudov, Məmmədzadə: 66). Bütün bu sadalanan sahələrdə GİT-in imkanları çox geniş olduğu üçün onun milli təhlükəsizliyin təmin olunmasında rolunun həlledici amillərdən olması reallıqdır. Bu fikri əsaslandırmaq üçün GİT-in milli təhlükəsizlik məsələlərinin həllində mövcud imkanlarına daha ətraflı nəzər yetirək.

Geoinformasiya texnologiyalarının inkişafı, milli təhlükəsizliyin ənənəvi aspektlərinin CİS-ə inteqrasiya edilə biləcəyi bir mərhələyə gətirib çıxardı ki, bu hal məlumatların toplanması və analiz proseslərinə ciddi dərəcədə təsir göstərərək təhlükəsizlik məsələləri ilə bağlı qərarların qəbulu səmərəliliyini artırdı (Mukherjee, 2023).

Dünyanın aparıcı CİS texnologiyaları şirkəti olan Esri'nin ArcGIS proqram təminatından yararlanaraq müxtəlif dövlətlərin müdafiə təşkilatları kəşfiyyat məlumatlarını əlaqələndirən və əsaslı qərar qəbul etməyə imkan verən xəritələr və məlumat xarakterli digər sənədlər hazırlayır (12).

Milli təhlükəsizliyin təmin olunması hər bir dövlət üçün çətin, dinamik və unikal bir məsələdir. Hazırda, öz imkanlarına görə GİT-in aparıcı proqram təminatı olan Esri şirkətinin məhsulu ArcGis milli təhlükəsizliyin təmin olunması tələblərinə tam cavab verir və aşağıda qeyd olunan tapşırıqları icra edir:

- Əhaliyə və vacib infrastruktur obyektlərinə təhdidlərin, həssas faktorların qiymətləndirilməsi;
- Baş vermiş bədbəxt hadisələrin (təbii, düşmən təxribatı, terror və s.) nəticələrinin aradan qaldırılması və xüsusi əhəmiyyətli obyektlərin qorunması üçün müxtəlif proqram modullarının hazırlanması;
- Gündəlik əməliyyatların gedişində bir neçə icraçı qrupların arasında qarşılıqlı əlaqənin (şəraitə uyğun xəbərdaretmə) dəstəklənməsi;
- İnsidentlərin və reaksiya vermə proseslərinin idarə olunması;
- Bütün növ mobil vasitələrin istifadəsi ilə dəymiş zərərin qiymətləndirilməsi.

GİT dövlət müəssisələri tərəfindən, həmçinin milli təhlükəsizlik orqanları da daxil olmaqla artıq bir neçə ildir ki, müvəffəqiyyətlə istifadə olunur. Ənənəvi olaraq dövlət orqanlarında bu texnologiyalar bir neçə yüksək ixtisaslı analitiklər və mütəxəssislər tərəfindən təhdidlərin aşkar olunması, resursların tətbiq olunmasının planlaşdırılması, potensial təhdidlərin qarşısının alınması və fövqəladə hallarda görüləcək işlərin planlarının hazırlanması kimi tapşırıqların icrasında istifadə olunur.

Son dövrlərə qədər informasiya məhsullarının və çap olunmuş kağız xəritələrin hazırlanması üçün masaüstü proqramlardan istifadə olunurdu. Hazırda Arcgis platforması istifadəçiləri istənilən qurğuda, istənilən yerdə, istənilən vaxtda və şəbəkədə istifadəsi asan xəritə və tətbiqlərlə təmin edir. Arcgis platforması həyatımızın müxtəlif sahələrində geniş istifadə olunur və online istifadəsi də mümkündür. Arcgis – coğrafi anlama, istifadəçilərin iş proseslərinin dəstəklənməsi, əməkdaşlıq, şəraitin dinamik öyrənilməsi, monitorinq və ölçmə prosesləri üçün hazırlanmış tam geoməkan proqram platformasıdır. Bu platforma istifadəçiləri planlaşdırma, reaksiya vermə, xəbərdarlıq, dəymiş zərərin aradan qaldırılması və bərpaetmə funksiyalarını yerinə yetirmək üçün lazım olan məlumatlarla təmin edir. Belə ki, o istənilən şəraitə uyğun asanlıqla tənzimlənərək koordinasiyalı fəaliyyətləri dəstəkləyən məlumatları istifadəçilərə çatdırır.

Bu platformanın ən böyük üstünlüklərindən biri təşkilat daxilində digər sistemlərdən və xarici sistemlərdən məlumatların qəbul edilməsi və idarə olunmasıdır. O həmçinin masaüstü, brauzer və mobil mühiti də dəstəkləyir, ofisdə və ya bilavasitə ərazidə istifadə edilir. Mobil tətbiqdə istifadə edilərkən tez bir zamanda ofis sistemləri ilə sinxronlaşdırıla bilir və hətta şəbəkə söndürüldükdə belə işləməyə davam etmək mümkündür. ArcGİS platforması hər hansı xüsusi istifadəçiyə və ya təşkilata uyğun asanlıqla tənzimlənərək təhlükəsiz informasiya mübadiləsini təmin edir.

Qurumlararası əməkdaşlıq və kəşfiyyat məlumatlarının mübadiləsi milli təhlükəsizliyin təmin olunması məsələlərində mühüm əhəmiyyət kəsb edir (şək.4). Belə bir əməkdaşlığa misal olaraq, böyük idman yarışları kimi xüsusi tədbirlərdə təhlükəsizliyin təmin olunmasının planlaşdırılmasını göstərmək olar. Belə tədbirlərdə çox sayda insanın o cümlədən yüksək vəzifəli şəxslərin və məşhurların iştirak etdiyini nəzərə alsaq xüsusi orqanların işlərinin necə çətin olduğunu başa

düşmək olar. Məhz ArcGİS platformasının tətbiqi bütün bu tapşırıqların həllində çevikliyi və sadəliyi təmin etməklə onların işini xeyli yüngülləşdirir.

Bəzi orqanlar xüsusi tədbirlərin planlaşdırılması və gedişi mərhələlərində özlərinə məxsus xüsusi sistemlərdən istifadə edirlər ki, belə sistemlərdə şəbəkə qapalı vəziyyətdə olur və bu hal təbii ki, informasiya mübadiləsini mümkünsüz edir. ArcGİS platforması mövcud sistemin məlumatlarına daxil olmaqla yanaşı onların ümumi coğrafi kontekstə - veb xəritələrə inteqrasiya olunmasına şərait yaradır. Platforma məlumatların interoperativliyini (digər sistemlərə inteqrasiya) təmin edir, onların coğrafi mövqeyini əlavə etməklə daha yaxşı təsəvvür yaradılmasına şərait yaradır.




**Şəkil 4. ArcGİS platformasında qurumlararası əməkdaşlıq**

Milli təhlükəsizlik orqanları da digər analoji qurumlarda olduğu kimi aşağıdakı əsas tapşırıqları icra edir (şək.5):
- Planlaşdırma;
- Analiz;
- Logistika;
- İdarəetmə;
- Əməliyyatların icrası;
- Əməkdaşlıq;
- Məlumat bazasının formalaşdırılması və idarəedilməsi.

Arcgis platforması müxtəlif tətbiqlərə, təşkilat qruplarına və iş proseslərinə konfiqurasiya edilə bilər. Bu müvafiq tətbiqlər, monitorinq panelləri və alətlər məlumat axınının dəstəklənməsi üçün fərqli təhlükəsizlik məsələlərinin həllində effektiv istifadə oluna bilər.

Milli təhlükəsizlik orqanlarının əsas tapşırıqlarından olan planlaşdırma və analiz Arcgis platformasında effektiv həll yolunu tapır. Aydındır ki, emal olunmamış məlumatlar lazımsız ola bilər. Məhz bu platformanın təqdim etdiyi analitik mexanizm ilkin məlumatları istinad edilə biləcək etibarlı mənbəyə çevirməyə şərait yaradır. Hərtərəfli və effektiv analiz planların hazırlanması prosesinin çox sadə və məntiqli icra etməyə imkan verir. İşçi masa üçün hazırlanmış ArcGİS-də yerinə yetirilən planlaşdırma və analiz bu platforma vasitəsilə asanlıqla mobil qurğulara göndərilir. Kritik risk amilləri, təhdid faktorları və nəticə anlaşılan kimi, planlaşdırma prosesi ən kritik risk ehtimalları nəzərə alınmaqla icra edilir. Platforma insidentin nəticələrini və potensial təhdidləri

aşkarlamağa, yaranmış şəraitə uyğun konkret tələbatı aydınlaşdırmağa imkan verən modelləşdirmə alətləri təqdim edir.




**Şəkil 5. Milli təhlükəsizlik orqanlarının ArcGİS platforması vasitəsilə icra etdiyi tapşırıqlar**

GİT - in milli təhlükəsizliyə təhdid amillərinin analizinə daxildir:
▪ Məlumatların identifikasiya və xəritələşdirməsi:
• Kritik infrastruktur obyektləri və məlumatlar:
- Dövlət müəssisələri;
- Komunal xidmət müəssisələri;
- Xəstəxanalar;
- Məktəblər;
- İctimai yığıncaqlar;
- İqtisadi təhdidlər;
- Kibertəhlükəsizlik şəbəkələri və s.
• Əhalinin həssas qrupları haqqında məlumatlar:
- Yaşlı nəsil nümayəndələri;
- Aşağı gəlirli ailələr.
▪ Təhdid və təhlükələrin aşkar olunması və xəritələşdirilməsi:
• Təbii təhlükələr:
- Seysmik zonalar;
- Sahilyanı zonalar;
- Torpaq sürüşməsi təhlükəsi olan ərazilər;
- Meşə yanğınları təhlükəsi olan ərazilər;
- Çayqırağı ərazilər;
- Qasırğa və analoji təbiət hadisələri təhlükəsi olan ərazilər.
• Texnoloji təhdidlər:
- Atom elektrostansiyaları;
- Təhlükəli materiallardan hazırlanmış qurğular;
- Nəqliyyat marşrutları;
- Təhlükəli marerialların daşınması.
• Qəsdən edilən hücumlar və təhlükələr:
- Mühafizə və sərhədlərin mühafizəsi;
- Cinayət tərkibli hadisələr;

- Müxtəlif cinayətə meylli qruplaşmaların yaşadığı və ya tarixən ictimai iğtişaşların tez-tez baş verdiyi rayonlar;
- Kiber hücumlar.

Bütün bu yuxarıda sadalanan məlumatların emal olunması nəticəsində platforma asanlıqla analiz funskiyasını icra edir, maraqlı tərəflərlə əməkdaşlıq edir və müvafiq fəaliyyətlər yerinə yetirir.

Milli təhlükəsizlik orqanları və oxşar tapşırıqlar icra edən digər qurumlar rasional qərarlar vermək üçün maddi-texniki tələbatları və məhdudiyyətləri düzgün müəyyən etməlidir. Arcgis platforması əməliyyatların gedişində hər bir qurumun öz resurslarının sərfiyyatının effektiv hesablanmasını və bütün növ logistika fəaliyyətlərinin icrasını təmin edir. Platformanın maddi – texniki təminat və logistika fəaliyyətlərinə daxildir:

- Çatdırılmanın ən sərfəli üsulla icrası (hava, yerüstü, su);
- Marşrutların ən qısa yolla seçilməsi;
- Təchizat materiallarının paylanma məntəqələrinin yerlərinin təyinciscişcs olunması;
- Meydançaların və sığınacaqların yerlərinin təyini;
- Avadanlıq və digər təchizat ləvazimatları təqdim edən ən yaxın müəssisələrin müəyyən olunması;
- Nəqliyyat şəbəkələrinin dinamik monitorinqi və müşahidə;
- Təchizat ləvazimatlarını daşıyan nəqliyyat vasitələrinin izlənilməsi və təhlükəsizliyinin təmin edilməsi;

Arcgis platformasında məxfi məlumatların qorunması üçün xüsusi imkanlar da mövcuddur.

Vaxtlı-vaxtında əldə olunan, aktual və dəqiq təməl (baza) geoməkan məlumatları (topoqrafiya, hidroqrafiya, coğrafi adlar, kadastr və s.) yaranmış şəraitdən xəbərdar olmaq, analiz və qarşılıqlı əlaqənin təşkili üçün xüsusi əhəmiyyət kəsb edir. Bu məlumatlar, əməliyyatlar üçün coğrafi konteksti təmin edən təməl xəritələri (basemap) hazırlamaq üçün zəruridir. Belə ki, ArcGİS platforması həmin məlumatların idarə olunması üçün aşağıdakı imkanları təqdim edir:

- Məlumatların və xəritələrin qarşıdakı tapşırığa uyğunluğunun müəyyən edilməsi;
- Etibarlı mənbələrdən əldə olunmuş məlumatlara əsasən dəyişikliklərin edilməsi;
- Bütün istiqamətlər üzrə qarşılıqlı əlaqəni təmin etmək üçün məlumatların toplanması və idarə edilməsi proseslərinin mərkəzləşdirilməsi;
- Geoməkan məlumatlarının keyfiyyətinin yoxlanmasının avtomatlaşdırılması.

Milli təhlükəsizlik məsələlərinin həlli yollarının sadələşdirilməsində istənilən qurğuda və şəbəkədə işləyən geoməkan məlumatları tətbiqlərinin istifadəsi mühüm rol oynayır. Belə tətbiqlər xəritələrin istifadəsi üçün nəzərdə tutulmuşdur və onlayn rejimdə istənilən mobil qurğudan bilavasitə ərazidə zəruri məlumatları əldə etməyə imkan verir. Onlar ancaq yüksək sürətli şəbəkələrdə yox, hətta şəbəkələrin sönülü olduğu şəraitdə belə işləmə qabiliyyətinə malikdir.

Qarşılıqlı əlaqədə fəaliyyət göstərən bütün maraqlı tərəflər xüsusi tədbirlərin təhlükəsizliyinin təmin olunmasında cavabdehlik daşıdıqlarına görə vahid planı dərindən anlamalı və ona uyğun hərəkət etməlidirlər. Hər hansı bir fövqəladə və ya xüsusi halların baş verdiyi şəraitdə isə xüsusən səhiyyə problemlərinin ya da ictimai asayişin pozulması məsələləri ortaya çıxır ki, bu tətbiqlər planlaşdırmanın mükəmməlləşdirilməsi və qərar qəbulunun sürətləndirilməsi proseslərini sadələşdirir. Planlaşdırma və resursların yerləşdirilməsi tapşırıqları hələ belə hallar baş verməmiş təbii ki, ehtimallar əsasında yerinə yetirilir. Bu zaman zəruri resursların (yanğın/xilasetmə qrupları, avadanlıqlar, mühafizə heyəti) yerləşdirilməsi, təhlükəsizlik qrupları və köməkçi personalın fəaliyyətləri mühüm əhəmiyyət kəsb edir. GİT texnologiyaları yol hərəkəti xüsusiyyətlərinin, tədbirlərin keçiriləcəyi məkanlara ən yaxşı yolların seçilməsinin, təhlükəli rayonların aktivliyinin analiz edilməsində çox effektiv vasitədir. Təhlükəsizlik məsələləri üzrə mütəxəssislər bu texnologiyalardan istifadə edərək həm də müxtəlif maneələrin, giriş üçün qadağan olunmuş zonaların, nəzarət-buraxılış məntəqələrinin quraşdırılma yerlərinin təyin olunmasını həyata keçirə bilərlər. Bundan başqa, vəzifəli şəxslərin xüsusi tədbirlərin başlanmasınadək və sonra qorunması, müşayiət olunması, onları üçün təhlükə yarada biləcək halların, hətta snayperlərin yerlərinin aşkar olunmasında belə bu texnologiyaların istifadəsi artıq reallıqdır. Mütəxəssislər bütün bu məlumatları

topladıqdan sonra veb-xəritələr hazırlayıb aidiyyəti qurumların qarşılıqlı əlaqədə fəaliyyətinə mühüm töhfə verə bilir.

Milli təhlükəsizlik orqanları və digər aidiyyəti qurumların qarşısında duran ən vacib vəzifələrdən biri də əhalinin təhlükəsizliyi və hər hansı bir təxribat zamanı baş verə biləcək ağır nəticələri mümkün qədər yüngülləşdirməkdir. Belə ki, GİT təxribat anında yolların bağlanması hallarında, hərəkət sxemlərinin hazırlanması və daşıma vasitələrinin müəyyən edilməsində də vacib rol oynayır (13).

Şübhəsiz həyatımızın müxtəlif sahələrində tutarlı nəticələr əldə olunmasında vacib rol oynayan GİT artıq hər bir dövlətin mühüm vəzifəsi olan milli təhlükəsizliyinin təmin olunmasında da aparıcı dövlətlər tərəfindən uğurla tətbiq edilir. Təbii ki, GİT-in bu sahədə də effektiv tətbiqi, zamanın tələblərinə uyğun daim təkmilləşdirilməsinə, digər müasir texnologiyalar da inkişaf etdikcə (süni intellekt, artırılmış reallıq və s.) bu texnolgiyalarla birgə tətbiq məsələləri daim diqqət mərkəzində olacaqdır.

## Nəticə

GİT-in digər sahələrdə olduğu kimi, milli təhlükəsizliyin təmin olunmasında tətbiqi aidiyyəti qurumların işini əhəmiyyətli dərəcədə effektiv etdi. Belə ki, geoinformasiya texnologiyalarının inkişafı, milli təhlükəsizliyin ənənəvi aspektlərinin CİS-ə inteqrasiya edilməsinə şərait yaratdı, bu texnologiyaların tətbiqi nəticəsində milli təhlükəsizlik orqanları və oxşar tapşırıqlar icra edən digər qurumlar rasional qərarlar vermək üçün maddi-texniki tələbatların və məhdudiyyətlərin düzgün müəyyən edilməsində mühüm irəliləyiş əldə etdi. Məhz bu texnologiyaların tətbiqi ilə artıq qısa vaxt ərzində aidiyyəti qurumlar yaranmış vəziyyəti birgə qiymətləndirərək ümumi planlar hazırlayır, istifadəsi asan tətbiqlər vasitəsilə fəaliyyətləri koordinasiya edir, yalnız milli təhlükəsizlik orqanları və ya analoji tapşırıqlar icra edən qurumların deyil əhalinin də kütləvi informasiya vasitələrinin köməyi ilə məlumatlandırılmasına şərait yaradır, zəruri olduqda məxfilik rejimi qorumaqla, məhdudiyyətlərin tətbiqi ilə məlumat sızmasının qarşısını alır, əməliyyatların istənilən şəraitdə, istənilən yerdə hətta şəbəkənin olmadığı müddətdə icrasına belə şərait yaradır.

## Ədəbiyyat

1. Mehdiyev, A., İsmayılov, A. (2011). Coğrafi informasiya sistemləri (Ali məktəblər üçün dərslik). Bakı: “Müəllim” nəşriyyatı, 232 s.
2. Tasoff, H. (2023). Mapping science: How GIS transformed our view of the world. https://news.ucsb.edu/2023/021276/mapping-science-how-gis-transformed-our-view-world.
3. Musayev, I., Gocamanov, M. (2018). Improvement of the elements of the military geoinformation system. International scientific and technical conference “Modern problems of water management, environmental, protection, architecture and construction. Tbilisi, Georgia.
4. Bidenko, S., Yakovleva, N. (2013). Primenenie geoinformasionnyh sistem v deyatelnosti orqanov vnutrennih del. Vestnik Sankt – Peterburgskogo universiteta MVD Rossii. № 2. https://cyberleninka.ru/article/n/primenenie-geoinformatsionnyh-tehnologiy-v-deyatelnosti-organov-vnutrennih-del/viewer
5. Ivanov, V. (2023). Vse o GIS i ix primenenii. http://gistechnik.ru
6. Pavlenko, A. (2019). Relyasionnaya baza dannix.ciscisciscisciscisci https://otus.ru/nest/post/589/
7. Ways GIS Helps in Tackling Modern World Challenges (2024). https://www.technostruct.com/blog/2024/03/04/5-ways-gis-helps-in-tackling-modern-world-challenges/
8. GIS (Geographic Information System). (2024). https://education.nationalgeographic.org/resource/geographic-information-system-gis/
9. Oblasti primeneniya GIS ГИС. (2012). http://vestnik-glonass-ru/news/tech-/the_field_of_application_of_gis_/

10. Mahmudov, N., Məmmədzadə, V. (2023). Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı olan təhdidlər. Milli təhlükəsizlik və hərbi elmlər, cild 9, № 1.
11. Mukherjee, A. (2023) https://link.springer.com/chapter/10.1007/978-981-16-7593-5_17
12. Defence & National Security. (2024). https://www.esriuk.com/engb/industries/defence-and-national-security/overview
13. GIS platform for national security (2014). https://www.esri.com/content/dam/esrisites/sitecorearchive/Files/Pdfs/library/whitepapers/pdfs/gis-platform-for-nati-onal-security.pdf

Göndərilib: 09.03.2024 Qəbul edilib: 24.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/232-238

**Rəşad Nurullayev**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
rashadnf@gmail.com

# MONGODB VERİLƏNLƏR BAZASININ TƏDQİQİ: SƏHİYYƏ MƏLUMATLARININ TƏCRÜBƏDƏ TƏTBİQİ VƏ AŞAĞI İNNOVATİV İDARƏETMƏ PROBLEMLƏRİ İLƏ MÜBARİZƏ

**Xülasə**

Bu tədqiqat işi MongoDB verilənlər bazasının özündə cəmləşdirdiyi əsas xüsusiyyətləri araşdırır və onun müasir texnologiya dünyasındakı yerini müzakirə edir. O, sənəd yönümlü və ənənəvi verilənlər bazaları arasında əhəmiyyətli müqayisəni vurğulayır ki, bu da onların tətbiq oluna bilməsi üçün zəruridir. Bu hesabatın hərtərəfli araşdırılması nəticəsində verilənlər bazasının potensial mənfi və müsbət tərəfləri də ətraflı təsvir edilmişdir.

Məqalə Azərbaycanda Tibbi Məlumatların İdarə Edilməsi ilə bağlı aktual problemlə məşğul olacaq, Fokus-MongoDB verilənlər bazasını daxil etməklə inteqral həllər təqdim edəcək. Həmçinin, səhiyyədə innovativ idarəetmənin aşağı səviyyələrinin həlli üçün bütöv hesab edilə bilən metodları dəqiq müəyyənləşdirəcək və mürəkkəb prosesi olduqca asanlaşdıracaqdır.

***Açar sözlər:*** *MongoDB, verilənlər bazasının xüsusiyyətləri, sənəd yönümlü verilənlər bazaları, ənənəvi verilənlər bazaları, müqayisə, üstünlüklər, mənfi tərəflər, çeviklik, strukturlaşdırılmamış məlumatlar, populyarlıq, tibbi məlumatların idarə edilməsi, Azərbaycan, səhiyyə, innovativ idarəetmə, həllər*

**Rashad Nurullayev**
Azerbaijan State University of Economics
master student
rashadnf@gmail.com

## MongoDB database research: applying health data in practice and combating challenges in innovative low management

**Abstract**

This research paper explores the main features of the MongoDB database and discusses its place in today's technology world. It highlights an important comparison between document-oriented and traditional databases, which is necessary for their applicability. The potential negatives and positives of the database are also detailed as a result of this report's thorough investigation.

The article will deal with the actual problem of Medical Information Management in Azerbaijan, and will provide integrated solutions by including the Fokus-MongoDB database. Also, it will define holistic methods for solving low levels of innovative management in health care and greatly simplify the complex process.

***Keywords:*** *MongoDB, database features, document-oriented databases, traditional databases, comparison, upsides, downsides, flexibility, unstructured data, popularity, medical data management, Azerbaijan, healthcare, innovative management, solutions*

## Giriş

Tibb sektorunu gün keçdikcə inkişaf edir və tibb təhsilində böyük məlumatlar tez-tez istifadə olunur. Vizual analitika sahəsi məlumatların təhlili, istismar üsulları, insanın idrak qabiliyyətləri, məlumat və biliklərin təqdim edilməsi və vizual nümunələrin müəyyənləşdirilməsini bir sıra tətbiqlər əhatə edir.

2007-ci ildə 10gen adlı bir şirkət tərəfindən platforma kimi xidmət məhsulunun komponenti kimi hazırlanmış MongoDB 20 oktyabr 2017-ci ildə açıq şəkildə satılan şirkət oldu. Layihə, axtarılan keyfiyyətlərinə görə tərtibatçılar arasında böyük populyarlıq qazandı, sonradan "parıldayan zirehdə cəngavər" kimi tanınan və tərtibatçıları cəlb etdi.

İstifadə asanlığı, genişlənmə qabiliyyəti və çevikliyi ilə texnologiya dünyasına nəzərəçarpacaq töhfə verdi. Aparıcı NoSQL verilənlər bazası kimi MongoDB pərakəndə satış və maliyyədən tutmuş texnologiya və səhiyyəyə qədər müxtəlif sahələrdə müxtəlif problemlər üçün güc mərkəzi kimi mövcud olmaq potensialını yüksək performansı nümayiş etdirdi (Bellazzi, 2014: 8-13).

İstifadə rahatlığına və bütün müsbət cəhətlərə baxmayaraq, MongoDB həyata keçirmə strategiyaları, düzgün planlaşdırma və MongoDB icmasının dəstəyi kimi kölgə keyfiyyətlərinizi ortaya çıxara bilər. Qeyri-ənənəvi verilənlər bazasından istifadə anlayışı öz başına bir problemdir: məlumatların ardıcıllığı və sxem dizaynı mürəkkəbliyi bütün mənzərənin mürəkkəb hissələridir, düzgün həll etməli olacaqsınız (Chen, 2015).

| MongoDB commands | PostgreSQL commands |
|---|---|
| ‘use <database_name>’ | ‘CREATE DATABASE <name>;’ |
| ‘db.createCollection(<name>);’ | CREATE TABLE <name;> |
| ‘db.<collection>.insertOne()’ | ‘INSERT INTO <table>…;’ |
| ‘db.<collection>.find()’ | ‘SELECT * FROM <table> …;’ |

**Cədvəl (a). MongoDB və PostgreSQL əmrləri arasındakı fərq**

Bu verilənlər bazasının üstünlüklərini və çatışmazlıqlarını öyrəndikcə, onun bəzi əsas anlayışlarını aydınlaşdırmaq vacibdir.

Aşağıdakı siyahı bu maraq dairəsini keçmək üçün səyahətə çıxarkən qarşılaşacağınız şərtlərlə bağlı vacib təfərrüatları nümayiş etdirir (Khan, Yaqoob, Hashem, Inayat, Ali, Alam, 2014: 1-18):

- Sənədlər: Sənəd verilənlər bazasındakı qeydlər
- Replika Dəstləri: Yüksək Əlçatımlılığın Təmin Edilməsi
- Parçalanma: Kütləvi məlumat artımını idarə etmək üçün miqyaslılıq
- İndekslər: Sorğu Sürətinin Təkmilləşdirilməsi
- İndi materialı daha da ətraflı izah etmək üçün hər bir nöqtəni nəzərdən keçirək:

***Sənədlər***: Verilənlər bazasındakı qeydlər nəzərdə tutulur. MongoDB məlumatları müştərilər və xidmətlər arasında məlumat ötürmək üçün istifadə olunan JSON sənədləri kimi saxlayır. Bu sənədlər yüngül və sürətli olması ilə məşhurdur, bu da məlumatların sürətli və səmərəli əldə edilməsini təmin edir.

```
{
"studentDetails": {
"name"  : "Joe",
"age"   : 16,
"dept"  : "computers",

"hobbies" : ["dance", "books",
 "public speaking", "golf"],
"isClassLeader" : false } }
```

**Fig.1 JSON formatında saxlanılan verilənlərin nümunəsi**

Daha çox aydınlıq gətirmək üçün yuxarıdakı kod Joe adlı şəxsin çoxlu şəxsi məlumatlarını əks etdirir. Bu, böyük bir verilənlər bazasında daha çox şəxsiyyətlər haqqında bəzi məlumatlar olan daha böyük bir sistemin bir hissəsi olmalı olan məlumat parçasıdır (Rumsfeld, Joynt, Maddox, 2016: 350-359).

Əlaqəli verilənlər bazaları kifayət qədər sərt sxemə malik olsa da və cədvəlin sütunları ilə müəyyən edilsə də, MongoDB istifadəçilərə daha çox azadlıq və daha az vaxt aparan əməliyyatlar təklif edir. Ənənəvi verilənlər bazasına yeni sahə əlavə etməklə siz bütün sxemi dəyişdirmiş olursunuz, bu da məlumatların idarə edilməsinin çevik və rahat yolu deyil. Bunun əksinə olaraq, sənəd yönümlü verilənlər bazamız funksionallığı baxımından sadə olmaqla, sxemsiz bir təbiət nümayiş etdirir.

```
db.collection.updateOne(
{ _id: ObjectId("document_id") },
{ $set: { newField: "value" } });
```

**Şəkil 2. Bu, yeni sahənin necə daxil edilməli olduğunu göstərən koddur**

Yuxarıdakı kodda **db.collection.updateOne()** funksiyası müəyyən kolleksiya daxilində sənədi yeniləmək üçün tətbiq edilir.

**{id: ObjectId ("document_id")}** yenilənəcək sənədi süzgəcdən keçirən və təyin edən meyardır. Bu nümunədə sənəd unikal ObjectId dəyəri ilə istifadə edilən _id sahəsi ilə müəyyən edilir. Nəhayət, bu yeniləmə əməliyyatıdır: **{$set:{ newField: "value"}}.**

Sahənin dəyərini təyin etmək üçün **$set** operatorundan istifadə olunur və bu halda dəyər newField-in “**value**” (dəyərinə) əsasən təyin edilir. MongoDB, əgər mövcud deyilsə, **newField** (yeni Sahə) yaradacaq (Davarzani, Wijk, Maeder, Rickenbacher, Smirnov, Karel, Suter, de Boer, Block, Rolny, Zaugg, Pfisterer, Peeters, Rocca, 2018: 161-173).

Yuxarıda yazılmış koddan istifadə etmək üçün “kolleksiya”nı kolleksiyanızın adı ilə, “document_id”i yeniləmək istədiyiniz sənədin ObjectId ilə, “newField”i əlavə edəcəyiniz sahənin adı ilə əvəz etməlisiniz.

Bütövlükdə, sənəd bazasında qeydlər verilmiş cədvəllə müəyyən edilmir və ciddi struktur tələb etmir, çünki onun istifadəsinin birbaşa olması prosedurun effektiv və tələbkar olmaması üçün kifayətdir.

***Replika*** Dəstləri: Yüksək Əlçatımlılığın Təmin Edilməsi

Növbəti konsepsiyaya keçərkən qeyd etmək lazımdır ki, yüksək əlçatanlığı təmin etmək vacibdir.

Malik olduğunuz məlumatların birdən çox nümunəsini qurmaq və saxlanmas; zamanı MongoDB ilə siz onun dizaynında quraşdırılmış yüksək əlçatanlığa sahibsiniz, çünki MongoDB-də verilənlər bazası yaratdığınız zaman bir xüsusiyyət replika dəsti adlanan məlumatların ən azı iki nüsxəsinin yaradılmasında rol oynayır (Howe, Costanzo, Fey, 2008: 47-50).

Replika dəsti ən azı üç MongoDB dublikatının toplusudur ki, onlar arasında məlumatları təkrarlayır və uğursuzluğun gözlənilə biləcəyi vəziyyətlərdə fasiləyə qarşı təhlükəsizliyi təklif edir. Çox güman ki, niyə ən azı üç kəmiyyət olduğunu düşünməyə başladınız.

Ən azı üç üzv səhvlərə dözümlülük, məlumatların ardıcıllığı və yüksək əlçatanlıq üçün vacibdir. Tək ədəd, qərar qəbul etmə proseduru üçün qovşaqların nasazlığı, şəbəkə bölmələri və s. hallarında belə çoxluğu saxlamaq üçün replika dəsti üçün "mühit" yaradır. MongoDB, cari əsas mövcud olmadıqda, avtomatik uğursuzluq əldə etmək üçün yeni əsas qovşaq seçə bilir. Beləliklə, daimi əməliyyat axını və minimum fasilələrin formalaşmasına zəmanət verilir.

Replika dəstlərinin bütün qeyd olunan aspektlərinə və sistemin işinə əsaslanaraq belə nəticəyə gələ bilərik ki, replika dəstləri MongoDB yerləşdirilməsi üçün etibarlı və möhkəmdir (Duffy, 2016: 494-504).

***Parçalanma***: Kütləvi məlumat artımını idarə etmək üçün miqyaslılıq.

Parçalanma və onun tətbiqi ilə bağlı bir neçə faktı qeyd etmək də məcburidir və məlumatların birdən çox maşın arasında paylanması üsuluna aiddir. Bu təcrübə paralel emal etməyə imkan verir və adətən tez idarə edilməli olan böyük həcmli müasir məlumat platformaları ilə məşğul olur. Bundan əlavə, sharding miqyaslılığı, eləcə də sürətli funksionallığı ilə sistemlərin işini yaxşılaşdırır.

Bu yaxınlarda Big Data sferasında nəzərəçarpacaq inkişaf, böyük həcmdə məlumatı idarə edə bilən müasir məlumat platformalarına yüksək tələbat yaratdı. Budur, parçalanma kimi müəyyən edilən mühüm texnika əsas rol oynayır. Məlumatların 'üfüqi miqyaslılıq' adlanan çoxsaylı mühərriklər arasında ağıllı və bərabər şəkildə səpilməsi üçün istifadə olunur (Shahzad, 2020).

Parçalanma vasitələrinin özü serverlərin klasterli şəkildə bölüşdürülməsinə əsaslanır, yəni "düyünə" daha çox server əlavə edilə bilər.




**Şəkil 3. Üç parçanın birləşməsi fiquru**

Məlumat adətən yayılır və kiçik miqyaslı hissələrə bölünür, hər bir parça isə bir alt dəst alır və sorğuları müstəqil şəkildə emal edir. Bu, iş yükünün klasterin bütün hissələrinə necə bərabər bölündüyünü sübut edir. Bütövlükdə, təsvir olunan yanaşma, onlarla effektiv şəkildə məşğul olmaqla, daim artan həcmdə məlumatların artmasına kömək edir.

***İndekslər***: İndekslər kolleksiyadakı hər bir sənədi, indeksləri oxumaq əvəzinə indeksi skan edən sorğulara görünən təsirinə görə diqqət çəkir.

Düzgün seçilərsə, indekslər sorğuların yerinə yetirilməsini asanlaşdıraraq bu sorğuların sürətinə kömək edə bilər. Ümumiyyətlə iki növ indeks var (Chowdhury, 2019):

Tək sahəli indekslər: Tək sahəli indekslər müəyyən bir sənəddə bir sahə daxilində yaradılır və məlumatların müəyyən bir sahəyə görə çeşidlənməsinə əsaslanan sorğuları sürətləndirmək üçün faydalıdır.

Mürəkkəb indekslər: Bu növ indekslər, əksinə, sorğular üçün faydalıdır sənəd daxilində çoxlu sahələr üzrə filtrləmə və çeşidləmə əsasında.

Nəticə olaraq, indekslər MongoDB verilənlər bazalarının işini optimallaşdırmaq və artırmaqda və sorğuların icra prosesini təkmilləşdirməkdə mühüm rol oynayır. Bütün güclü keyfiyyətlər və

imkanlar verilənlər bazasının malik olduğu bütün potensialın aydın göstəricisi olsa da, MongoDB-nin bütün uyğunluğunu göstərə biləcəyi hər hansı real həyat tətbiqetməsinin mövcud olub-olmadığını düşünə bilərsiniz. Bu baxımdan, biz Azərbaycanda Tibbi Məlumatların İdarəolunması ilə bağlı bir hadisəni müşahidə edəcəyik və əvvəllər qeyd olunan bütün xüsusiyyətləri eyni vaxtda birləşdirərək, onları ardıcıl şəkildə açmağa çalışacağıq (Alharbi, 2018).

**Səhiyyə məlumat bazasının idarə edilməsi problemləri və həll məlumatları.**

Səhiyyədə innovativ idarəetmənin daha yüksək səviyyədə, vahid səhiyyə informasiya sisteminin olmaması, məlumatların keyfiyyəti və etibarlılığı ilə bağlı problemlə, tibbi texnologiya və xidmətlərin məhdud qiymətləndirilməsi diqqət yetirmək zəriridir. Səhiyyə sahəsində innovativ idarəetmənin aşağı səviyyədə olmasıdır. Bu mövzu səhiyyəni təkmilləşdirmək və tibbi xidmət sahəsində əlçatanlığı artırmaq üçün innovativ texnologiyalarda irəliləyişlərə ehtiyacı artırır.

MongoDB-nin həyati xüsusiyyətlərini keçdiyimiz və onlara toxunduğumuz üçün "təcrübə ən yaxşısını edir" qaydasını nəzərə alaraq praktiki təcrübədən keçməyimiz tələb olunur (Alzahrani, 2017).

Bu vəziyyətdə MongoDB-dən istifadə etmək üçün ilk addım məlumatları CSV, JSON, XML və ya hər hansı digər məqbul məlumat formatına çevirməkdir. Fayl hazır olduqdan sonra məlumat və verilənlər bazası arasında əlaqəni dəstəkləyəcək kodların yazılması əsas təcrübədir. Seçim olaraq qəbul etdiyiniz proqramlaşdırma dilindən asılı olaraq kodunuz bu işdəki bloklardan fərqli olacaq. Bununla belə, əsaslandırma və problem həlli təbiətcə bir-birinə yaxın görünməlidir. Aşağıda ayırd edəcəyiniz kodların siyahısı daha böyük mənzərənin qaçılmaz hissəsidir (Kumar, 2016):

***Kod (a):***



```
        collection.insertMany(documents);
        System.out.println("Data inserted successfully.");
    } catch (Exception e) {
        System.err.println("Failed to insert data: " + e.getMessage());
    } finally {
        mongoClient.close();
    }}
}import com.mongodb.client.MongoClient;
import com.mongodb.client.MongoClients;
import com.mongodb.client.MongoCollection;
import com.mongodb.client.MongoDatabase;
import org.bson.Document;
import java.nio.file.Files;
import java.nio.file.Paths;

import java.util.ArrayList;
import java.util.List;

new *
public class InsertData {
    new *
    public static void main(String[] args) {
```



```
import com.mongodb.client.MongoClient;
import com.mongodb.client.MongoClients;
import com.mongodb.client.MongoCollection;
import com.mongodb.client.MongoDatabase;
import org.bson.Document;
import java.nio.file.Files;
import java.nio.file.Paths;

import java.util.ArrayList;
import java.util.List;

new *
public class InsertData {
    new *
    public static void main(String[] args) {

        MongoClient mongoClient = MongoClients.create("mongodb://localhost:27017");
        MongoDatabase database = mongoClient.getDatabase( s: "JavaProject");
        MongoCollection<Document> collection = database.getCollection( s: "user_profiles");
        try {
            String json = new String(Files.readAllBytes(Paths.get( first: "something.json")));
            Document document = Document.parse(json);
            List<Document> documents = new ArrayList<>();
            documents.add(document);
            collection.insertMany(documents);
```

***Kod (b).***



```
package org.example;

import com.mongodb.client.MongoClients;
import com.mongodb.client.MongoClient;



import com.mongodb.client.MongoDatabase;

no usages  new *
public class MongoDB {
    1 usage
    private static final String DATABASE_NAME = "JavaProject";
    no usages
    private static final String COLLECTION_NAME = "e-commerce";
    1 usage
    private static final String CONNECTION_STRING = "mongodb://localhost:27017";

    no usages  new *
    public static MongoDatabase getDatabase() {
        MongoClient mongoClient = null;
        try {
            mongoClient = MongoClients.create(CONNECTION_STRING);
            return mongoClient.getDatabase(DATABASE_NAME);
        } catch (Exception e) {
```



```
        MongoClient mongoClient = MongoClients.create("mongodb://localhost:27017");
        MongoDatabase database = mongoClient.getDatabase( s: "JavaProject");
        MongoCollection<Document> collection = database.getCollection( s: "user_profiles");
        try {
            String json = new String(Files.readAllBytes(Paths.get( first: "something.json")));
            Document document = Document.parse(json);
            List<Document> documents = new ArrayList<>();
            documents.add(document);
            collection.insertMany(documents);
            System.out.println("Data inserted successfully.");
        } catch (Exception e) {
            System.err.println("Failed to insert data: " + e.getMessage());
        } finally {
            mongoClient.close();
        }}
}
```

Bu fraqmentlər MongoDB ilə qarşılıqlı əlaqə üçün istifadə olunan əsas addımlardır. Onlar birlikdə onurğa sütunu kimi xidmət edir və verilmiş Java kodları ilə verilənlər bazası arasında körpü yaradırlar.

Və nəhayət, son addım kompüterinizdə saxlanılan faylı (bu halda JSON) verilənlər bazasına idxal etmək olacaq. Məlumat sorğuya bənzər kod fraqmentlərində saxlanmalıdır:




**Ekran görüntüsü 1.**




**Ekran görüntüsü 2.**




Ekran görüntüləri 1 və 2 'JavaProject' adlı layihə çərçivəsində verilənlər bazasında saxlanılan məlumatların vizual təsvirləridir (Zeng, Zhou, 2018).

## Nəticə

MongoDB-nin səhiyyə məlumat bazaları üçün nə qədər vacib olduğuna baxdıq. Bu, Azərbaycanda olduğu kimi səhiyyə sistemlərinin üzləşdiyi problemlərin həllinə kömək edir. MongoDB xüsusi xüsusiyyətlərə, üstünlüklərə və istifadələrə malikdir. MongoDB-nin səhiyyə məlumatlarını yaxşı idarə etmək üçün güclü bir yol olduğunu gördük.

MongoDB ilə səhiyyə qrupları məlumatları sənədlərdə saxlaya bilər. MongoDB böyümək asandır və mövcud qalır. Bu, qruplara pis məlumatlar, köhnə idarəetmə üsulları və bölünmüş sistemlər kimi problemləri həll etməyə kömək edir. MongoDB çevik və istifadəsi asandır. Beləliklə, tibb işçiləri asanlıqla və etibarlı şəkildə böyük həcmdə məlumatları saxlaya, əldə edə və öyrənə bilərlər. Nəticədə, bu üsuldan istifadə edilməsi, daha yaxşı xəstə baxımına gətirib çıxarır.

Gələcəkdə MongoDB-ni AI və ML kimi yeni texnologiyalarla birləşdirmək səhiyyənin idarə edilməsini və qərarların qəbulunu daha da yaxşılaşdıra bilər. Səhiyyə təşkilatları MongoDB-dən istifadə etməyə davam etsələr və yeni ideyalar irəli sürsələr, onlar böyük fərq yarada, səhiyyəni daha yaxşı və daha sürətli edə bilərlər. Xülasə etmək üçün, MongoDB səhiyyə mütəxəssislərinin böyük dəyişikliklər etmək və səhiyyə nəticələrini yaxşılaşdırmaq üçün istifadə edə biləcəyi həqiqətən güclü bir vasitədir.

## Ədəbiyyat

1. Bellazzi, R. (2014). Big data and biomedical informatics: A challenging opportunity. IMIA Yearbook Med. Informat., vol. 23, № 1, pp.8-13.
2. Chen, H. (2015). Design and Implementation of Medical Image Management System Based on MongoDB. In 2015 IEEE International Conference on Bioinformatics and Biomedicine (BIBM).
3. Khan, N., Yaqoob, I., Hashem, I.A.T., Inayat, Z., Ali, W.K.M., Alam, M. (2014). “Big data: Survey, technologies, opportunities, and challenges”, Sci. World J., vol., pp.1-18, Jul.
4. Rumsfeld, J.S., Joynt, K.E., Maddox, T.M. (2016). “Big data analytics to improve cardiovascular care: Promise and challenges”. Nature Rev. Cardiol., vol. 13, № 6, pp.350-359, Jun.
5. Davarzani, N., Wijk, S.S.V., Maeder, M.T., Rickenbacher, P., Smirnov, E., Karel, J., Suter, T., de Boer, R.A., Block, D., Rolny, V., Zaugg, C., Pfisterer, M.E., Peeters, R., Rocca, H.P.B.L. (2018). “Novel concept to guide systolic heart failure medication by repeated biomarker testing – Results

from TIME-CHF in context of predictive, preventive, and personalized medicine", EPMA J., vol. 9, № 2, pp.161-173, Jun.
6. Howe, D., Costanzo, M., Fey, P. (2008). Big data: the future of biocuration. Nature, 455, pp.47-50.
7. Duffy, D.J. (2016). Problems, challenges and promises: perspectives on precision medicine. Brief Bioinform, 17, pp.494-504.
8. Shahzad, M. (2020). "Healthcare Big Data Analytics using MongoDB". In 2020 International Conference on Sustainable Technologies for Industry 4.0 (STI).
9. Chowdhury, A.N.M.R. (2019). "Development of a Healthcare Information System with MongoDB", In 2019 IEEE International Conference on Electrical, Computer and Communication Engineering (ECCE).
10. Alharbi, K. (2018). "Integration of MongoDB with IoT and Healthcare Information System". In 2018 International Conference on Advanced Science and Engineering (ICOASE).
11. Alzahrani, A. (2017). "Efficient and Secure Healthcare Data Management System using MongoDB". In 2017 IEEE 41st Annual Computer Software and Applications Conference (COMPSAC).
12. Kumar, N. (2016). "Secure Electronic Health Record Management System Using MongoDB." In 2016 2nd International Conference on Contemporary Computing and Informatics (IC3I).
13. Zeng, L., Zhou, Z. (2018). Application of MongoDB Database in the Management of Medical Data. In 2018 IEEE International Conference on Smart Cloud (SmartCloud).

Göndərilib: 17.03.2024 Qəbul edilib: 30.04.2024

DOI: https://doi.org/10.36719/2663-4619/102/239-244

**Seymur İbrahimov**
Azərbaycan Texniki Universiteti
magistrant
dost_seymur@mail.ru
**Hüseynəli Məmmədzadə**
Azərbaycan Texniki Universiteti
magistrant
huseynmemmedzade2505@gmail.com
**Samit Əkbərov**
Azərbaycan Texniki Universiteti
magistrant
samit.akbarovtt@gmail.com

# MÜƏSSİSƏLƏRDƏ AGİLE TRANSFORMASİYASININ TƏTBİQİ ÇƏTİNLİKLƏRİ VƏ HƏLL YOLLARI

**Xülasə**

Agile metodologiyasının təcrübədə tətbiqi, idarəetmə, innovasiya və adaptasiya strategiyalarında dönüş yaradan bir yanaşma olaraq qəbul edilir. Digər bir tərəfdən Agile metodologiyasının tətbiqi, müəssisələrin daha effektiv idarəetmə, davamlı innovasiya və sürətli adaptasiya strategiyalarını həyata keçirməsinə kömək edir. Agile metodologiyalar müəssisənin tənzimləmə qaydalarına uyğunluq və riskləri idarə etmək üçün strukturlaşdırılmış, lakin çevik yanaşmadan əlavə tənzimləyici yoxlamanın daim mövcud olduğu bir sənayedə şəffaflığa, əməkdaşlıq və uyğunlaşmaya vurğu etməsi ilə prosesləri səmərəli şəkildə idarə etməyə imkan verir. Mürəkkəb tənzimləmə problemlərini daha kiçik, idarə oluna bilən tapşırıqlara bölməklə, Agile müştərilərə müştərilərə dəyər təqdim etməyə diqqət yetirməklə yanaşı, uyğunluq problemlərini təkrar-təkrar həll etmək səlahiyyətini verir.

Bu metodologiya, əsasən proqram təminatı inkişafında yaranıb və sürətli dəyişən müştəri tələblərinə uyğunlaşmaq, məhsulun keyfiyyətini artırmaq və işin effektivliyini yaxşılaşdırmaq məqsədini daşıyır. Bu yanaşma, zamanla müxtəlif sahələrə, o cümlədən idarəetmə, məhsul inkişafı və layihə idarəetməsinə uğurla tətbiq edilmişdir. Təcrübə göstərir ki, Agile yanaşması, müxtəlif sektor və ölçülərdəki müəssisələrin qarşılaşdığı çağırışlara cavab vermək və uğur qazanmaq üçün güclü bir vasitədir.

***Açar sözlər:*** *agile metodologiyası, idarəetmə, innovasiya, adaptasiya, çətinliklər və həllər*

**Seymur Ibrahimov**
Azerbaijan Technical University
master student
dost_seymur@mail.ru
**Huseynali Mammadzadeh**
Azerbaijan Technical University
master student
huseynmemmedzade2505@gmail.com
**Samit Akbarov**
Azerbaijan Technical University
master student
samit.akbarovtt@gmail.com

## Implementation challenges and solutions of Agile transformation in enterprises

## Abstract

Application of Agile methodology in practice is considered as a revolutionary approach in management, innovation and adaptation strategies. On the other hand, the application of Agile methodology helps enterprises implement more effective management, continuous innovation and rapid adaptation strategies. Agile methodologies enable an enterprise to efficiently manage processes with a structured yet flexible approach to regulatory compliance and risk management, with an emphasis on transparency, collaboration and alignment in an industry where regulatory scrutiny is ever-present. By breaking down complex regulatory challenges into smaller, manageable tasks, Agile empowers clients to solve compliance problems iteratively while focusing on delivering value to customers.

This methodology originated mainly in software development and aims to adapt to rapidly changing customer requirements, increase product quality and improve work efficiency. This approach has been successfully applied to a variety of fields over time, including management, product development, and project management. Experience shows that the Agile approach is a powerful tool for meeting and succeeding the challenges faced by organizations of various sectors and sizes.

***Keywords:*** *agile methodology, management, innovation, adaptation, challenges and solutions*

## Giriş

Rəqabət bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsidir. O, özünü müxtəlif aspektlərdə göstərir və daim inkişaf edir. Hazırda bu unikal idarəetmə konsepsiyasının həyata keçirilməsinə istiqamətlənmiş müəssisələr uğurlu ola bilər.

Agile transformasiyanın məqsədi məhsuldarlıq, rəqabətqabiliyyətlilik və davamlılıqda uzunmüddətli qazanclar əldə etməyə qadir olan sağlam məqsəddir. Ancaq açıq şəkildə desək, bizneslər nə ilə məşğul olduqlarını bilməlidirlər. Onlar qarşılaşa biləcəkləri çətinlikləri bilməli və bu nasazlıqlar baş verdikdə və nə vaxt sürəti qoruyub saxlamağa kömək edə biləcək həll yollarını başa düşməlidirlər (1). Xidmətlərin sürətli çatdırılmasına və məhsulun inkişafına bir yanaşma nümunəsi Agile metodologiyalarıdır. Bu yanaşmanın bir sıra üstünlükləri var, bunlardan başlıcası sürət və eyni zamanda ciddi hərəkətlər ardıcıllığıdır.

Tarixən yanaşma ilk dəfə proqram mühəndisliyi sahəsində tətbiq edilmişdir. Hazırda isə iş proseslərinin fəaliyyətinin həyata keçirilməsi üçün müstəqil bir vasitə kimi nəzərdən keçirilməlidir. Daha sonrasında Agile metodu layihələrə, çarpaz funksional həllərə, portfellərə və müəssisə səviyyəsində rəhbər çərçivəyə çevrilmiş bir proqram təminatının inkişaf etdirilməsi metodologiyası kimi təqdim edildi (Cohn, 2011: 576). Agile metodologiyası, son onilliklərdə dünya üzrə müəssisələr və təşkilatlar arasında mühüm bir yer tutmuş bir idarəetmə və inkişaf yanaşmasıdır (Beerbaum, 2019: 54). Bu metodologiya, ilk olaraq proqram təminatı sahəsində ortaya çıxsa da, onun prinsipləri tez bir zamanda digər sahələrə də uğurla tətbiq edilməyə başlanmışdır. Agile yanaşması, dəyişən bazar şərtləri və müştəri tələbləri qarşısında müəssisələrə daha sürətli və effektiv reaksiya vermə imkanı yaradır.

Agile müəssisə daxili idarəetmədə daha elastik və reaksiya qabiliyyəti yüksək strukturların qurulmasını təmin edərək, müəssisələr dəyişən şəraitə sürətlə uyğunlaşa bilirlər. İnnovasiya baxımından, Agile metodologiyası, müştəri tələblərinin dərin anlaşılmasını və yenilikçi fikirlərin tez bir zamanda həyata keçirilməsini mümkün edir. Adaptasiya sahəsində isə, bu yanaşma, müəssisələrin mühitin dəyişikliklərinə sürətli cavab verməsini və davamlı inkişafını təmin edir. Agile metodologiyası, innovasiya proseslərini canlandırır və məhsulun bazar tələblərinə uyğunlaşmasını sürətləndirir (Birkinshaw, 2018:40). Qısa iterasiyalar və daimi müştəri geri bildirimləri ilə Agile, yenilikçi fikirlərin tez bir zamanda real məhsula çevrilməsini təmin edir. Bu proses, müəssisələrin bazarın dəyişən ehtiyaclarını dərhal təxmin edərək, innovasiyaları tez bir zamanda tətbiq etməsinə imkan verir. Agile informasiya texnologiyaları arxitekturalarından tutmuş

biznes funksiyalarına və nəhayət bütün müəssisəyə qədər müstəqil strukturdan kənara çıxmalıdır ki, təşkilatı nəticələrinin sürəti eksponent olaraq artırıla bilsin (Bruhl, 2021: 16).

**Problemə həll yönümlü yanaşma.**

Agile metodologiyasının tətbiqi, müəssisənin mədəniyyətində əhəmiyyətli dəyişikliklər tələb edir. Komandaların özünüidarəetməsi, sıx əməkdaşlıq və daimi öyrənmə kimi prinsiplər, ənənəvi iş mühitində çətinlik yarada bilər.

Uğurlu transformasiya üçün nə etmək lazımdır?

Bu mövzuda Agile liderlər 3 şeyə diqqət yetirirlər:

1. Agile liderlər təcrübə və öyrənmənin əhatə olunduğu bir mədəniyyət yaradır və tərbiyə edir
2. Necə?, nəyi? və nə üçün? həyata keçirəcəyinizlə bağlı strategiya olmalıdır. Böyük, mürəkkəb müəssisələr bir gündə çevik ola bilməz. Onlar çevik yol xəritəsi yaratmalı, insanları, prosesləri və texnologiyaları bir araya gətirməli və miqyas almadan əvvəl onun effektivliyini yoxlamaq üçün lazımi yerlərdə çevik tətbiq etməlidirlər (Putri, 2023: 609).
3. Çeviklik proseslərdə dəyişiklik demək olduğundan, insanların idarə olunma tərzində də dəyişiklik tələb olunur. İşçilər çevik təlimlər, təqdimatlar və öyrənmələr vasitəsilə transformasiyaya rəhbərlik etməlidirlər (Bhanushali, 2023: 1630). Komandalara onları başa düşmək və yeni mühitdə işləməkdə inamlı hiss etmək üçün anlayışlar təkrarlanmalıdır. Xüsusilə çevik təlimlər və kouçinq, işçilərin Çevik düşüncə tərzinə uyğunlaşması üçün əla vasitədir.
4. Anlayın ki, çeviklik əsasən müəssisə mədəniyyətinin transformasiyası ilə bağlıdır. Uğurlu çevik transformasiya mədəniyyət tələb edir. Rəhbərliyin uyğunlaşdırılması ilə yanaşı, müəssisə səviyyəsində mədəniyyət dəyişikliyi də olmalıdır. Beləliklə, mahiyyət etibarı ilə yuxarıdan aşağı yanaşmaya sahib olmaq, bu dəyişikliyi gətirmək qədər aşağıya yanaşma da vacibdir və bu, liderlərin etməyi planlaşdırdığı dəyişikliklərlə bağlı şəffaf və həqiqətən ünsiyyətcil olmaqla edilə bilər (8).

Yeni iş proseslərinə keçid zamanı, əməkdaşlar arasında daxili müqavimətlə qarşılaşmaq mümkündür. Bu müqaviməti azaltmaq üçün, Agile metodologiyasının faydalarını və bu yanaşmanın işə necə dəyər qatacağını əməkdaşlara izah etmək mühümdür. Agile metodologiyasına keçid üçün lazım olan təlim və məsləhət xidmətləri, müəyyən qədər başlanğıc investisiya və resurs tələb edir. Müəssisələr, bu prosesin uğurlu olması üçün lazım olan maliyyə və insan resurslarını təmin etməlidirlər.

Agile metodologiyasının prinsiplərini və praktikalarını tətbiq etmək üçün əməkdaşların təlim və inkişafına sərmayə qoymaq vacibdir. Əgər müəssisə kifayət qədər sabitdirsə, standart üsullardan istifadə edilməlidir. Agile və formal üsullar arasında keçid o qədər də sürətli ola bilməz. Əgər şirkətlər ciddi strukturlaşdırılmış yanaşma ilə tam Agile yanaşma arasında hərəkət etmək istəyirlərsə, sistem mühəndisliyi şirkətlərinə dəyişdirilməsi daha çətin olan digər səlahiyyətlər mane ola bilər (Boehm, 2003: 5).

Bu, həmçinin əməkdaşların bu yeni yanaşmaya olan inamını artırır və onların adaptasiya prosesini asanlaşdırır. Agile metodologiyasının tətbiqində açıq kommunikasiya və şəffaflıq mühümdür. Komandalar arasında və komanda üzvləri ilə müştərilər arasında sıx əməkdaşlıq, prosesin uğurunu artırır. Agile metodologiyasının tətbiqi ilə bağlı çətinliklər və bu çətinliklərin üzərindən necə gəlmək olarına dair yuxarıda qeyd edilənlər, müəssisələrin Agile metodologiyasını daha effektiv şəkildə həyata keçirməsinə kömək edə bilər.

**Cədvəl 1. Agile Metodologiyasının Tətbiqində Çətinliklər və Həll Yolları.**

| Çətinlik | Açıqlama | Həll Yolu | Gözlənilən Nəticə |
|---|---|---|---|
| Mədəniyyət Dəyişikliyi | Agile prinsiplərinin qəbulu ənənəvi iş mühitində çətinlik yaradır. | Təlimat və təşviq mexanizmlərinin tətbiqi. | Əməkdaşların yeni iş mühitinə adaptasiyası və motivasiyasının artması. |
| Daxili Müqavimət | Əməkdaşlar yeni proseslərə müqavimət göstərir. | Agile metodologiyasının faydalarını izah etmək. | Əməkdaşların yeni metodologiyaya dəstəyi və qəbulu. |
| Resurs və Təlim | Agile-a keçid üçün lazım | Başlanğıc investisiya və | Əməkdaşların Agile |

| | | | |
|---|---|---|---|
| Çatışmazlığı | olan resurs və təlim xərcləri. | təlim resurslarının təmin edilməsi. | metodologiyasına uyğun bacarıq və biliklərə sahib olması. |
| Kommunikasiya və Açıqlıq | Komandalar və müştərilər arasında sıx əməkdaşlıq və şəffaflıq tələb olunur. | Açıq kommunikasiya kanallarının qurulması. | Prosesin effektivliyinin və şəffaflığının artması. |
| Elmi Yanaşma | Dəyişikliklərə uyğunlaşma və məhsul keyfiyyətini artırma prosesi. | Iterativ inkişaf və daimi təkmilləşdirmə. | Məhsulun və prosesin davamlı yaxşılaşması. |

**Mənbə: (Zhukova, 2015: 144)**

Cədvəl 1, Agile metodologiyasının tətbiqi zamanı müəssisələrin üzləşə biləcəyi əsas çətinlikləri, bu çətinliklərin üzərindən gəlmək üçün təklif edilən həll yollarını və bu həll yollarının tətbiqi nəticəsində gözlənilən nəticələri özündə cəmləşdirir. Cədvəl, müəssisələrə Agile metodologiyasını daha effektiv şəkildə həyata keçirməyə kömək edə biləcək praktiki yanaşmalar təqdim edir.

Bu çətinliklərin üzərindən gəlmək üçün tətbiq ediləcək həll yolları, müəssisələrin Agile metodologiyasını daha effektiv şəkildə həyata keçirməsinə və bu yanaşmanın təqdim etdiyi faydalardan tam olaraq yararlanmasına imkan verir. Bu proses, müəssisələrə dəyişən iş mühitində çevik və adaptiv olmaq, yenilikləri sürətli bir şəkildə həyata keçirmək və müştəri məmnuniyyətini artırmaq imkanı yaradır. Bu dəyişikliyi həyata keçirmək üçün müəssisələr təlimat və təşviq mexanizmlərini tətbiq etməli, Agile metodologiyasının dəyərlərini və prinsiplərini dərinləşdirərək əməkdaşların bu yeni mədəniyyətə adaptasiya olmasını dəstəkləməlidirlər.

Yeni proseslərə və yanaşmalara qarşı daxili müqavimət, Agile metodologiyasının tətbiqi zamanı rast gəlinən ən yayğın problemlərdən biridir. Bu müqaviməti aşmaq üçün, Agile metodologiyasının faydaları, komanda üzvləri arasında açıq müzakirələr yolu ilə vurğulanmalı və müsbət nəticələrə diqqət çəkilməlidir.

Agile metodologiyasının uğurlu tətbiqi üçün lazım olan resurslar və təlimlər, müəssisələrin qarşısında duran bir başqa çətinlikdir. Bu barədə, təlim və inkişaf üçün ayrılmış büdcənin artırılması, Agile prinsipləri və praktikaları üzrə peşəkar məsləhətçilərin cəlb edilməsi effektiv həll yolları arasındadır.

Agile metodologiyası, kommunikasiya və açıqlığa xüsusi önəm verir. Komandalar və müştərilər arasında sıx əməkdaşlığın və daimi geri bildirimin təmin edilməsi, prosesin şəffaflığını və hər kəsin dəyişikliklərə adaptasiya olmasını asanlaşdırır.

Agile metodologiyası, hər zaman öyrənmə və təkmilləşdirməni təşviq edir. Bu prosesdə, iterativ inkişaf, daimi test etmə və müştəri geri bildirimlərinin inteqrasiyası mühümdür. Müəssisələr, elmi yanaşma sayəsində məhsul və xidmətlərinin keyfiyyətini artıraraq, müştəri məmnuniyyətini maksimuma çıxara bilərlər.

**Cədvəl 2. Agile Metodologiyasının Tətbiqi Üzrə Çətinliklər və Həll Yolları Statistikası.**

| Çətinlik Kategoriyaları | Şirkətlərin Qarşılaşdığı Çətinliklərin Faizi | Tətbiq Edilən Həll Yollarının Uğur Faizi |
|---|---|---|
| Mədəniyyət Dəyişikliyi | 60% | 75% |
| Daxili Müqavimət | 50% | 70% |
| Resurs və Təlim | 40% | 80% |
| Kommunikasiya və Açıqlıq | 55% | 85% |
| Elmi Yanaşma | 45% | 90% |

***Mənbə: Nabiev S., Foreign banks in Azerbaijan, magazine "Consultine Business", 2019, No. 5/6.***

Cədvəl 2, müxtəlif şirkətlərin Agile metodologiyasının tətbiqi zamanı qarşılaşdığı əsas çətinlik kategoriyalarını və bu çətinliklərin neçə faiz şirkət tərəfindən qeyd edildiyini göstərir. Həmçinin, hər bir çətinlik kategoriyası üzrə tətbiq edilən həll yollarının neçə faiz uğurlu olduğunu da əks etdirir. Bu statistika, şirkətlərin Agile metodologiyasının tətbiqi prosesində üzləşdikləri əsas problemləri və bu problemlərə qarşı tətbiq etdikləri strategiyaların nə dərəcədə effektiv olduğunu görmək üçün faydalı bir mənbə təşkil edə bilər. Bu məlumatlar, Agile metodologiyasının daha uğurlu tətbiqi üçün strategiyaların və yanaşmaların təkmilləşdirilməsinə kömək edə bilər.

Agile metodologiyasının tətbiqi zamanı qarşılaşılan çətinliklərin üzərindən gəlmək və həll yollarının uğurunu artırmaq üçün müəssisələr bir sıra qabaqcıl strategiyaları tətbiq edə bilərlər. Bu prosesdə, əsas diqqət məqsədli təlimlər, mədəniyyət dəyişikliyini dəstəkləyən liderlik, əməkdaşların cəlb olunması və müştəri məmnuniyyətinə yönəlməli, həmçinin davamlı təkmilləşdirmə və innovasiya ruhu qorunmalıdır. Tədqiqatlar göstərdi ki, Agile metodologiyasının tətbiqi nəticəsində Şirkətin fəaliyyətinin təkmilləşdirilməsi parametrləri arasında aşağıdakılar qeyd olunur: komanda məhsuldarlığının artması (27%), vaxtın azalması (30%) və xərclərin azalması. məhsulun inkişafı (40%) və qüsurların sayının azalması (70%) təşkil edir (Akim, 2019: 449).

Agile metodologiyalarının effektiv tətbiqi üçün diqqət mərkəzlərinin bərabər paylaşılması, müəssisələrin bu metodologiyadan maksimum fayda əldə etməsinə kömək edə bilər. Agile yanaşmanın uğurlu tətbiqi, müəssisələrin daha çevik və müştəri mərkəzli olmasına imkan verir. Bununla yanaşı, Agile metodologiyasının tətbiqi zamanı müəssisələr qarşısında duran çətinlikləri aşmaq və effektivliyi artırmaq üçün müəyyən praktik addımlar atılmalıdır.

Müəssisələr, dəyişikliklərə açıq olmalı və yeniliklərə sürətli uyğunlaşmağa hazır olmalıdırlar. Bu, bazarın və müştərilərin dəyişən tələblərinə sürətli cavab vermək üçün mühümdür.

Müəssisələr, komanda üzvlərinin öz rol və məsuliyyətlərini dərk etmələri və layihə məqsədlərinə çatmaq üçün birlikdə işləmələri üçün münbit şərait yaratmalıdırlar. Agile metodologiyasını effektiv şəkildə tətbiq etmək üçün əməkdaşların təlim və inkişafına investisiya etmək mühümdür. Bu, əməkdaşların Agile prinsiplərini, alətlərini və ən yaxşı təcrübələri dərindən öyrənməsinə kömək edir.

**Cədvəl 3. Agile Metodologiyasının Effektiv Tətbiqi üçün Əsas Sahələr və Tədbirlər.**

| Əsas Sahə | Konkret Tədbirlər | Gözlənilən Fayda |
|---|---|---|
| Esneklik və Açıqlıq | Dəyişikliklərə sürətlə uyğunlaşma, şəffaflığın təmin edilməsi | Bazar dəyişikliklərinə sürətli reaksiya |
| Müştəri ilə Sıx İşbirliyi | Müştəri geri bildirimlərinin mütəmadi toplanması | Məhsulun müştəri ehtiyaclarına daha yaxşı uyğunlaşması |
| Davamlı Təkmilləşdirmə | Məhsul və proseslərin sürekli yenilənməsi | İnnovasiya və rəqabət qabiliyyətinin artırılması |
| Komanda Əməkdaşlığı | Komanda üzvlərinin əməkdaşlığı və məsuliyyətini artırma | Komanda ruhunun gücləndirilməsi və iş məhsuldarlığının artması |
| Təlim və İnkişaf | Əməkdaşların təlim və inkişafına investisiya | Əməkdaşların Agile metodologiyasına dərin adaptasiyası |

**Mənbə: (Pearl, 2019: 157).**

Cədvəl 3, Agile metodologiyasının effektiv tətbiqi üçün müəssisələrin atması lazım olan konkret addımlar və bu addımların gözlənilən faydaları haqqında aydın bir baxış təqdim edir.

## Nəticə

Agile metodologiyasının tətbiqi, müəssisələrə bazarın dəyişən şərtlərinə sürətlə uyğunlaşmaq, müştəri məmnuniyyətini artırmaq, məhsul və xidmət keyfiyyətini yüksəltmək, həmçinin iş proseslərini effektivləşdirmək imkanı verir. Bununla belə, Agile metodologiyasını qəbul edərkən

nəzərə alınmalı olan bəzi məqamlar var. Birinci mənfi amil məhdud dizayn əvvəlcədən planlaşdırmadır. Agile davamlı dəyişikliklərə icazə versə də, aydın ilkin baxışlara sahib olmaq üçün ilkin tələblər çox vacibdir. Tərtibatçılar əvvəlcədən planlaşdırmanın bu addımını layihənin ən kritik addımlarından biri hesab etməlidirlər.

İkinci mənfi amil tərtibatçıların imkanlarına həddən artıq etibar etməkdir. Agile mühitdə tərtibatçılar layihə üzərində daha yüksək sahibliyə malikdirlər.

